**Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.**

**Heydər ƏLİYEV**

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 270 (10015) 24 dekabr 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# MÖCÜZƏLƏR YARADAN BÖYÜK LİDER, MÜZƏFFƏR SƏRKƏRDƏ



İlham Əliyev iyirmi iki ildir ki, Azərbaycana rəhbərlik edir!

Xalq onu sevdiyi, gördüyü işləri dəyərləndirdiyi, daxili və xarici siyasətini bəyəndiyi, habelə ən böyük arzusunu həyata keçirdiyi üçün bütün prezident seçkilərində doxsan faizdən yuxarı səs toplayır, növbəti dövrdə ölkəyə rəhbərlik mandatını qazanır.

İyirmi iki il tarix üçün qısa müddət sayılır.

Görülən işlərin miqyası baxımından isə əsrlərə bərabər olub.

Təkcə bir faktı xüsusi qeyd edirik:

İkiəsrlik Qarabağ münaqişəsinə bu iyirmi iki ilin 44 günündə birdəfəlik və əbədilik son qoyulub.

Bütün proseslər də hər birimizin, dünyanın gözü qarşısında, açıq şəkildə baş verib!

O qədər "sadə", o qədər "adi" formada baş verib ki, çoxları bütün bunların möcüzə olduğunun fərqinə varmayıblar.

Bəli, dünyanın ən güclü dövlətlərinin, beynəlxalq qurum və təşkilatların, dünya erməniliyinin, yaxın və uzaq qonşularının bütün formalarda müdafiə etdiyi, maliyyələşdirdiyi, pulsuz silah-sursat bağışladığı, ordusuna təlim keçdiyi, ərazisində baza yaradaraq yardımçısına çevrildiyi, Vətən müharibəsi başlayandan qurtaranadək hava məkanını üzünə açdığı, gecə-gündüz silah-sursat, yanacaq daşıdığı bir dövləti Azərbaycan 44 gün ərzində dizi üstə qoydu!

Həm də təkcə hərbi cəhətdən yox!

Diplomatik savaşda da, informasiya cəbhəsində də tam məğlubiyyətə uğratdı.

Bütün bunları Azərbaycan Prezidenti İlham Əliyev etdi!

Hamımız baş verənlərin bir qismini gözümüzlə gördük, bir qismini eşitdik, oxuduq, öyrəndik!

Yalnız ermənipərəst dövlət rəhbərlərinin, Ermənistanın müdafiəçilərinin və havadarlarının dövlət başçısına telefon zənglərini eşidib görmürdük.

Müharibədə baş verənlərdən, cəbhədəki hərbi əməliyyatların gedişindən hər gün xəbər tuturduq!

Hər yeni yaşayış məntəqəsi düşməndən geri alınanda Müzəffər Ali Baş Komandan İlham Əliyev televiziya ilə çıxış edərək şad xəbər verirdi.

Hərbi əməliyyatları təhlil edir, döyüşlər barədə hər bir Azərbaycan vətəndaşını məlumatlandırırdı.

PUA-ların düşmənin mövqelərini, atəş nöqtələrini, hərbi texnikalarını, canlı qüvvələrini necə dəqiqliklə vuraraq məhv etdiklərini isə öz gözlərimizlə görürdük!

Silah-sursatlarını ataraq canlarını qurtarmaqdan ötrü aradan çıxan, pərən-pərən düşərək qaçan "məğlubedilməz xalq"ın, "məğlubedilməz əsgər və zabitləri"nin girməyə deşik axtarmaları, qorxaq fərarilərə çevrilmələri bizə xüsusən ləzzət edirdi!

ÇÜNKİ:

Bu qələbə ordumuzun qələbəsi idi!

Bu qələbə xalqımızın qələbəsi idi!

Bu qələbə həm də Müzəffər Ali Baş Komandanımızın qələbəsi idi!

12

◆ Prezident İlham Əliyevin Xankəndi, Xocalı və Ağdama səfəri

# “Böyük Qayıdış” dünya miqyasında ən uğurla icra edilən qayıdış proqramıdır

## Xankəndinin Kərkicahan qəsəbəsində görülmüş işlərlə tanışlıq













**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində olub.**

AZƏRTAC xəbər verir ki, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına qəsəbədə görülmüş işlər barədə məlumat verdi.

Təmir işlərinə bu ilin may ayında başlanılmış qəsəbədə hazırda 33 yaşayış binası və 1037 fərdi ev mövcuddur. Onlardan 247-si yararsız, 790-ı isə qismən yararlıdır. Bu ilin sonunadək 40, 2026-cı ildə isə 280 evin təmiri nəzərdə tutulur. Artıq 30 evdə təmir işləri başa çatdırılıb. İlkin mərhələdə 30 ailə olmaqla, ümumilikdə 115 sakin müvəqqəti məskunlaşdıqları şəhər və rayonlardan qəsəbəyə - öz dədə-baba yurdlarına qayıdıb.

Qəsəbədə bir sıra sosial infrastruktur layihələri də icra olunub. Fərdi evlərin yerləşdiyi ərazidə su, elektrik və qaz xətləri yoxlanılıb, 2 kilometr yeraltı optik kabel, 510 metr elektrik xətti çəkilib, işıq dirəkləri quraşdırılıb, küçə işıqlandırılması təmin olunub, daxili yollar asfaltlanıb. Eyni zamanda 60 çarpayılıq 1 nömrəli körpələr evi-uşaq bağçası və 624 şagird yerlik tam orta məktəbdə əsaslı təmir işləri aparılıb.

Qeyd edək ki, Prezident İlham Əliyev 2023-cü il oktyabrın 15-də bu qəsəbədə olub.

Dəniz səviyyəsindən 1130 metr hündürlükdə yerləşən və ümumi sahəsi 234 hektar olan Kərkicahan Xankəndi şəhər ərazi vahidində qəsəbədir. 1960-cı illərdə keçmiş vilayətin millətçi erməni rəhbər orqanları qəsəbənin adını yaşayış məntəqələrinin rəsmi siyahısından çıxarıb Xankəndi şəhərinə birləşdirmişdilər. 1991-ci ilin sonunda işğal olunan Kərkicahan 1992-ci ildə ermənilər tərəfindən yandırılmışdı. İşğaldan əvvəl qəsəbədə 355 ailə olmaqla 1796 nəfər azərbaycanlı yaşayırdı. Hazırda qeydiyyatda 674 ailə olmaqla, ümumilikdə 2531 sakin var. Qəsəbə 2023-cü ildə Azərbaycan Ordusunun həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib.

Sonra dövlətimizin başçısı Xankəndi şəhəri Kərkicahan qəsəbə sakini Yadigar Əsədovanın evində oldu və söhbət etdi.

**Gənc qadın:** Xoş gəlmisiniz, cənab Prezident. Həmişə Siz gələsiniz bizim Vətənə, elimizə, obamıza - Kərkicahan qəsəbəsinə.

**Prezident İlham Əliyev:** Siz də xoş gəlmisiniz.

**Yaşlı qadın:** Xoş gəlmisən, xoş gəlmisən.

**Prezident İlham Əliyev:** Sağ ol, necəsiniz?

**Yaşlı qadın:** Sağlığın, başına dönüm.

**Prezident İlham Əliyev:** Siz də xoş gəlmisiniz doğma Vətənə.

**Yaşlı qadın:** Səni Allah saxlasın.

**Prezident İlham Əliyev:** Sağ ol.

**Yaşlı qadın:** Sən ki Azərbaycan millətini öz Vətəninə gətirdin, çox sağ ol.

**Prezident İlham Əliyev:** Sağ ol. İndi necə yaşayırsınız burada, rahat yaşayırsınız?

**Yaşlı qadın:** Rahat, qəşəng. Allah Sizə dəyməsin. Dünya durduqca durasınız.

**Prezident İlham Əliyev:** Sağ ol. Ev də gözəldir.

**Yaşlı qadın:** Gözəldir, qəşəngdir.

**Prezident İlham Əliyev:** İşğal dövründə harada yaşamısınız?

**Yaşlı qadın:** Gəncədə. Köçüb Gəncəyə getmişdik. Balaca yataqxanalar var idi.

**Prezident İlham Əliyev:** Yataqxanada?

**Yaşlı qadın:** Bəli. Biri orada, biri burada, bir-birinə qarışıq. Çox sağ olun, indi gözəl evlər vermisiniz.

**Prezident İlham Əliyev:** 34 ildən sonra.

**Yaşlı qadın:** Hə, 34 ildən sonra Kərkicahan qəsəbəsinə gəlmişik. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun. Təbrik edirəm sizi. Xoşbəxt yaşayın. Allah cansağlığı versin, uzun ömür versin. Hər şey təmirli və yüksək səviyyədədir.

**Yaşlı qadın:** Sağ ol, başına dönüm.

**Gənc qadın:** Çox gözəl nəticədir, cənab Prezident. Elimizə, obamıza yığışdıq, şükür. Allah Sizi Prezidentlikdən əskik eləməsin. Həmişə var olun. Kərkicahan qəsəbəsinə də xoş gəlmisiniz. Evimizin ilk qonağı Siz oldunuz, xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Sağ olun, bir daha təbrik edirəm sizi. Rahat yaşayın doğma torpaqda.

**Yaşlı qadın:** Allah Sizin canınızı sağ eləsin, Sizə dəyməsin.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Gənc qadın:** Fürsətdən istifadə edərək Sizin qarşıdan gələn Yeni ilinizi təbrik edirəm.

**Prezident İlham Əliyev:** Sizi də təbrik edirəm. Bala neçə aylıqdır?

**Gənc qadın:** 13 günlükdür.

**Prezident İlham Əliyev:** 13 günlük? Maşallah.

**Gənc qadın:** Kərkicahana ilk köçənin balası.

**Prezident İlham Əliyev:** Gəncədə doğulub?

**Gənc qadın:** Bəli.

**Prezident İlham Əliyev:** Təbrik edirəm bir daha.

**Gənc qadın:** Çox sağ olun.

## Kərkicahan qəsəbə 1 nömrəli tam orta məktəbin binası əsaslı təmirdən sonra istifadəyə verilib








**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərinin Kərkicahan qəsəbə 1 nömrəli tam orta məktəbin binasının əsaslı təmirdən sonra açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verdi.

Bildirildi ki, 624 şagird yerlik məktəbin binasında əsaslı təmir işləri yüksək səviyyədə və qısa müddətdə həyata keçirilib. Burada ümumilikdə 17 sinif otağı, laboratoriyalar, STEAM, informatika, hərbi hazırlıq, biologiya, kimya, fizika, texnologiya, dərnək, məktəbəqədər hazırlıq otaqları, kitabxana, oxu, idman və akt zalları, yeməkxana müəllim və şagirdlərin ixtiyarına veriləcək. Binadakı otaqların hamısı zəruri tədris vəsaiti ilə təchiz edilib. Bundan başqa, məktəbin həyətyanı sahəsində açıq idman meydançası da yaradılıb. Bir sözlə,



burada təlim-tədrisin yüksək səviyyədə həyata keçirilməsi üçün hərtərəfli imkanlar mövcuddur.

Qeyd edək ki, müasir təhsil infrastrukturunun yaradılması işğaldan azad edilmiş ərazilərimizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı yenidənqurma işlərinin vacib istiqamətlərindən biridir. Azad edilmiş torpaqlarımızda təhsil ocaqlarının müasir layihələr əsasında inşası, onların zəruri tədris avadanlığı ilə təchizi, fənn kabinetlərinin, laboratoriyaların, idman infrastrukturunun yaradılması bu müəssisələrdə çalışan müəllimlərin və təhsil alan şagirdlərin hərtərəfli şəraitlə təmin olunmalarına hədəflənib. Bütün bunlar eyni zamanda müəllimlərin və şagirdlərin doğma yurdlarına qayıdışını sürətləndirir, həmçinin işğaldan azad olunmuş torpaqlarımızda sosial həyatın canlanmasına töhfə verir.

◆ Prezident İlham Əliyevin Xankəndi, Xocalı və Ağdama səfəri

# “Böyük Qayıdış” dünya miqyasında ən uğurla icra edilən qayıdış proqramıdır

## Prezident İlham Əliyev Kərkicahan qəsəbəsində buraya köçən sakinlərlə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində buraya köçən sakinlərlə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev sakinləri salamladı.

**Sakinlər:** Salam, xoş gəlmisiniz, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağ olun, siz də xoş gəlmisiniz.

**Sakinlər:** Çox şükür. Allah Sizi qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Allah Sizi qorusun, mənim komandanım, Allah Sizi var eləsin.

**Prezident İlham Əliyev:** Doğma torpağa 34 ildən sonra qayıdışınız münasibətilə sizi təbrik edirəm. Şükür Allaha, torpaqlarımız işğalçılardan azad olundu və bütün keçmiş köçkünlər yavaş-yavaş öz dədə-baba torpaqlarına qayıdırlar, o cümlədən bu gün Kərkicahan qəsəbəsinə də keçmiş köçkünlər qayıdıb və bu qayıdış prosesi davam edir. Yəni "Böyük Qayıdış" Proqramı bu gün dünya miqyasında ən uğurla icra edilən qayıdış proqramıdır. Siz isə uzun illər çətin şəraitdə, həm fiziki, həm mənəvi əzablar içində yaşamısınız. Artıq buna son qoyuldu və 34 ildən sonra doğma Kərkicahana qayıdırsınız. Böyük xoşbəxtlikdir, həm sizin üçün, həm də xalqımız üçün.









**Sakinlər:** Allah Sizə ömür versin.

**Prezident İlham Əliyev:** 1991-ci il dekabrın sonunda Ermənistan dövləti sizi öz dədə-baba torpağınızdan didərgin salmışdı. Dekabrın sonu idi və indi 2025-ci il dekabrın sonunda ədalət burada da, bu torpaqda da tam bərqərar olur. Əlbəttə, təsəvvür etmək çətin deyil ki, bu illər ərzində necə əzab-əziyyət içində yaşamısınız. Həm ev şəraiti, həm mənəvi əzab, ədalətsizlik hissi. Amma əminəm, siz də bütün xalqımız kimi inanırdınız ki, gün gələcək və biz buraya qayıdacağıq. İki il bundan əvvəl antiterror əməliyyatı nəticəsində Kərkicahan qəsəbəsi Xankəndi şəhəri ilə birlikdə işğalçılardan azad edilmişdir və artıq burada həyat yenidən qurulur.

Mən oktyabr ayında bu qəsəbəyə gəlmişdim. O vaxt göstəriş verdim ki, evlər, məktəb təmir olunsun, digər lazımi infrastruktur layihələri icra edilsin. Bu gün qəsəbə ilə tanış olarkən görürəm ki, hər şey yüksək səviyyədə təşkil olunub, qəsəbə göz oxşayır. Əlbəttə ki, bu, qəsəbənin, bərpasının birinci mərhələsidir. Çünki işğal dövründə düşmən buranı da yararsız vəziyyətə salmışdı. Evlərin bir çoxunda heç yaşamaq mümkün deyil. Ona görə təqribən iki ilə yaxın təmir-bərpa işləri aparılıbdır. İndi isə artıq qəsəbənin bəzi küçələri tam abadlaşdırılıb, evlər tam hazır vəziyyətə gətirilib və burada yaşamaq üçün bütün şərait var.

Sizi bu hadisə münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Əminəm ki, burada rahat və firavan yaşayacaqsınız. Əsas odur ki, öz doğma torpağınızdasınız.

**Sakin:** Allah canınızı sağ eləsin. Sabah ad gününüzdür. Ürəkdən təbrik edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Kişi sakin:** Cənab Ali Baş Komandan, çox minnətdarıq ki, Siz bizi bu gün doğma Kərkicahanımıza qaytardınız, Qarabağımıza qaytardınız. Bu günlərə şükürlər olsun. Ağlaya-ağlaya dekabrda tərk etmişdik, indi gülə-gülə qayıdırıq. Allah Sizi qorusun, ailənizi qorusun.




**Prezident İlham Əliyev:** Sağ olun. Əfsuslar olsun ki, o vaxt Azərbaycan rəhbərliyi sizi qoruya bilmədi, iradə göstərə bilmədi, qorxaqlıq göstərdi və faktiki olaraq işğalla barışmalı oldu. Ondan sonra gələn hakimiyyət vəziyyəti daha da bərbad vəziyyətə salmışdı. Faktiki olaraq Şuşanın, Laçının işğalı Kərkicahanın işğalından təqribən beş ay sonra baş verdi. Ona qədər Xocalı soyqırımı törədildi. O vaxt həm sovet dövründən qalan rəhbərlik, həm də ki, guya xalq hərəkatına aid olan rəhbərlik faktiki olaraq burada yaşayan insanları taleyin ümidinə buraxmışdı.

Sizi müdafiə edə bilərdilər, etmədilər. Bəziləri qorxaqlıqdan, bəziləri isə hakimiyyətə gəlmək üçün Azərbaycanda xaos, anarxiya yaratmaq məqsədilə bir çox hallarda xəyanət edərək torpaqlarımızı düşmənə təhvil vermişdi. Ondan sonra hakimiyyətə gələn AXC-Müsavat cütlüyü yarıtmaz və xəyanətkar fəaliyyəti ilə ölkəmizi dərin böhrana salmışdı. Vətəndaş müharibəsi, Kəlbəcərin işğalı və faktiki olaraq Laçın-Xankəndi yolunun itirilməsi - bütün bunlar Ermənistan üçün böyük üstünlük təmin etdi və nəticədə işğala, böyük işğala yol açdı. Biz isə gecə-gündüz öz əzəli torpaqlarımızı düşmənin tapdağından qurtarmaq üçün çalışmışıq, vuruşmuşuq, müharibədə Qələbə qazanmışıq. Düzdür, İkinci Qarabağ müharibəsi zamanı işğala tam son qoymasaq da, heç vaxt şübhə etmirdik ki, tezliklə Xankəndi, Xocavənd, Ağdərə, Əsgəran, Kərkicahan və o vaxt hələ işğal altında olan bütün digər qəsəbə və şəhərlər azad olunacaq. İki il bundan əvvəl cəmi bir neçə saat davam edən antiterror əməliyyatı nəticəsində işğala tam son qoyduq, suverenliyimizi bərpa etdik, işğalçıları torpaqlarımızdan əbədi qovduq və bu gün sülh içində yaşayırıq. Bu elə bir şərəfli tarixdir ki, əminəm, bugünkü nəsil, bundan sonrakı nəsillər bu şərəfli tarixlə əbədi olaraq fəxr edəcəklər.

**Sakinlər:** İnşallah.

**Prezident İlham Əliyev:** Sizin buraya qayıtmağınız bir daha göstərir ki, ədalət var, sadəcə olaraq, onu təmin etmək lazımdır. Bir daha sizi təbrik edirəm.

❖ ❖ ❖

**Prezident İlham Əliyev:** İşğal dövründə harada yaşamısınız?

**Sakin:** Gəncədə yataqxana şəraitində, ağır vəziyyətdə.

**Prezident İlham Əliyev:** Yataqxanada.

**Sakin:** Allah Sizə uzun ömür, cansağlığı versin ki, bizi o şəraitdən qurtardınız. Ulu Tanrı Sizi qorusun. "Dəmir yumruğ"unuz həmişə düşmənin başının üstündə olsun. Allah qolunuza qüvvət versin.

**Sakinlər:** Amin.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Qadın sakin:** Allah bütün şəhidlərimizə rəhmət eləsin. Əvvəlki müharibədə və axırıncı müharibədə zəhməti olanlara, qazilərimizə cansağlığı versin. Amin.

**Prezident İlham Əliyev:** Siz harada yaşayırdınız, Gəncədə?

**Qadın sakin:** Yox, Goranboyun Meşəli qəsəbəsində. Bir dəfə orada məskunlaşdırmısan bizi, indi də burada evlə təmin etmisən. Allah sənə dəyməsin.

**Kişi sakin:** Çox sağ olun, cənab Prezident. Siz ki bu tarixi günü bizə yaşatdınız, Allah Sizdən razı olsun, ailənizi qorusun.

**Sakinlər:** Amin.

**Prezident İlham Əliyev:** Sağ olun. Sizə cansağlığı, xoşbəxt həyat arzulayıram. Bir daha təbrik edirəm.

**Sakinlər:** Çox sağ olun, cənab Prezident.

## Prezident İlham Əliyev Xankəndidə Qarabağ Universitetinin Mühəndislik fakültəsinin binasının təməlini qoyub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərində Qarabağ Universitetinin Mühəndislik fakültəsinin binasının təməlini qoyub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına binada yaradılacaq şərait barədə məlumat verildi.

Qeyd edək ki, Qarabağ Universitetinin Mühəndislik fakültəsi müasir texnoloji çağırışlara cavab verən, innovasiya və tətbiqyönümlü mühəndis kadrların hazırlanmasını hədəfləyən əsas akademik struktur bölmələrdən biridir. Fakültədə hazırda 19 professor-müəllim, inzibati və texniki heyət üzvü fəaliyyət göstərir. Burada ümumilikdə 314 tələbə təhsil alır.

Fakültədə bakalavriat səviyyəsində elektrik və elektronika, inşaat, mexatronika və robototexnika, logistika və nəqliyyat texnologiyaları, kompüter mühəndisliyi, data analitika və riyaziyyat daxil olmaqla 7 ixtisas üzrə kadr hazırlığı həyata keçirilir. Gələcəkdə mühəndislik istiqaməti üzrə yeni ixtisasların açılması nəzərdə tutulur.

Yeni binanın müasir standartlara uyğun inşa edilərək qısa müddətdə istifadəyə verilməsi planlaşdırılır. Tədris binası keyfiyyətli kadr hazırlığını təmin edən, tələbələrin nəzəri bilik və praktiki bacarıqlarının inkişafına, həmçinin innovativ fəaliyyətlərinin genişləndirilməsinə xidmət edən auditoriyalar, laboratoriyalar, kitabxana, elmi-tədqiqat və innovasiya məkanları ilə təchiz olunacaq.

Layihənin icrası mühəndislik təhsilinin inkişafına mühüm töhfə verməklə yanaşı, müasir akademik məzmunun və innovativ tədris metodlarının tətbiqini təşviq edən, tələbələrin hərtərəfli inkişafını dəstəkləyən qabaqcıl ali təhsil mühitinin formalaşdırılmasına xidmət göstərəcək.








## Dövlətimizin başçısı Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsinin binasının açılışında iştirak edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərində Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsinin yeni inşa olunmuş binasının açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına binada yaradılmış şərait barədə məlumat verildi.

Bildirildi ki, Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsi müasir akademik mühitin formalaşdırılması istiqamətində ardıcıl şəkildə inkişaf edən əsas struktur bölmələrdən biridir. Fakültədə hazırda 20 professor-müəllim, inzibati və texniki heyət üzvü fəaliyyət göstərir.

*Ardı 4-cü səh.*

◆ Prezident İlham Əliyevin Xankəndi, Xocalı və Ağdama səfəri

# "Böyük Qayıdış" dünya miqyasında ən uğurla icra edilən qayıdış proqramıdır

## Dövlətimizin başçısı Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsinin binasının açılışında iştirak edib

*Əvvəli 3-cü səh.*

Burada ümumilikdə 505 tələbə bakalavriat səviyyəsində 7 ixtisas - iqtisadiyyat, maliyyə, mühasibat uçotu, menecment, dövlət və bələdiyyə idarəetməsi, beynəlxalq ticarət və logistika, turizm işinin təşkili üzrə təhsil alır.

Yeni akademik məzmunun formalaşdırılması, müasir tədris metodlarının tətbiqi, praktiki bacarıqların inkişafı, innovativ idarəetmə və nəticəyönümlü elmi tədqiqatlar fakültənin fəaliyyətinin əsas istiqamətlərini təşkil edir.



Tədris binasında 40 auditoriya, kompüter laboratoriyaları, kitabxana, oxu və akt zalları, iclas, inzibati və professor-müəllim otaqları mövcuddur. Müasir universitet konsepsiyasına uyğun dizayn edilərək inşa olunmuş binanın layihələndirilməsi və tikilməsində dayanıqlı inkişaf, inklüzivlik və resurslardan səmərəli istifadə prinsipləri nəzərə alınıb. Bir sözlə, bina tədris, tədqiqat və inzibati fəaliyyətin daha səmərəli şəkildə həyata keçirilməsinə imkan verən geniş və müasir infrastruktura malikdir.



Yaradılmış şərait fakültənin elmi-pedaqoji potensialının gücləndirilməsinə, tələbələrin bilik və bacarıqlarının inkişafına, əmək bazarının sürətlə dəyişən tələblərinə uyğun iqtisadiyyat və biznes istiqamətli yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasına, elmi-tədqiqat və innovativ fəaliyyətlərin genişləndirilməsinə imkan yaradacaq.

Biznes və iqtisadiyyat fakültəsinin yeni tədris binasının istifadəyə verilməsi universitetdə müasir kampusun formalaşdırılması istiqamətində atılan mühüm addımlardan biri olmaqla yanaşı, Qarabağda və Şərqi Zəngəzurda yüksəksəviyyəli ali təhsil ekosisteminin qurulmasına əhəmiyyətli töhfədir.

Qeyd edək ki, Prezident İlham Əliyev 2024-2025-ci illər ərzində Qarabağ Universitetində görülən işlərlə tanış olub, universitetin, tələbə yataqxanasının, Klinika binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılış mərasimlərində də iştirak edib.

Hazırda Qarabağ Universitetində 34 ixtisas üzrə 7 fakültədə 2154 tələbə təhsil alır.

## Xocalının Ballıca kəndində ofis mebelləri və mebel aksesuarlarının istehsalı müəssisəsi açılıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xocalı rayonunun Ballıca kəndində "Accurate Az" MMC-nin ofis mebelləri və mebel aksesuarlarının istehsalı müəssisəsinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov və "Accurate Az" MMC-nin təsisçisi İlkin Abuşov dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdilər.





Bildirildi ki, müəssisə Türkiyə, İsveçrə, Almaniya, İtaliya, Çin və Yaponiyanın qabaqcıl texnologiya və avadanlıqları ilə təchiz olunub. Burada ildə 20 çeşiddə 240 min ədəd ofis mebeli və 4 milyon ədəd mebel aksesuarı istehsal ediləcək. Məhsulların 60 faizi ixraca, 40 faizi daxili bazara yönəldiləcək. Xammaldan hazır məhsula qədər ofis mebeli istehsalının bütün mərhələləri müəssisədə həyata keçiriləcək. Layihənin ümumi dəyəri 20 milyon manat təşkil edir ki, bunun reallaşdırılması üçün İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 7 milyon manat güzəştli kredit verilib. Müəssisə həmçinin işğaldan azad edilmiş ərazilərdə sahibkarlar üçün tətbiq olunan güzəşt və stimullardan yararlanıb.




Müəssisənin fəaliyyətə başlaması Qarabağda mebel istehsalı sahəsinin formalaşmasına, yerli istehsalın genişlənməsi və ixrac potensialının artırılmasına, həmçinin işğaldan azad olunmuş ərazilərdə əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə töhfə verəcək. Hazırda burada 80 nəfər üçün daimi iş yeri yaradılıb, növbəti mərhələlərdə isə 450 daimi iş yerinin yaradılması planlaşdırılır.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə dayanıqlı məskunlaşmanın, özəl təşəbbüslərin stimullaşdırılması, investisiyaların cəlbi və əlverişli biznes mühitinin formalaşdırılması dövlətin əsas strateji hədəflərindən biri kimi müəyyənləşdirilib. Bu məqsədlə həmin ərazilərdə fəaliyyət göstərən hüquqi və fiziki şəxslər 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətinə mənfəət, gəlir, əmlak, torpaq və sadələşdirilmiş vergilərdən azaddırlar. Həmçinin bu ərazilərdə rezidentlər tərəfindən iqtisadi fəaliyyət sahələri üzrə idxal olunan texnika, texnoloji avadanlıq və qurğular, xammal və materialların idxalı 2023-cü il yanvarın 1-dən 10 il müddətinə ƏDV və gömrük rüsumundan azaddır. Bütün bu tədbirlər sahibkarlığın, sənaye və iqtisadiyyatın inkişafını, həmçinin əhalinin məşğulluğunun artırılmasını təmin edir.

## "Xankəndi-1" elektrik yarımstansiyası istismara verilib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərində "AzərEnerji" ASC-nin 110/35/10 kV-luq "Xankəndi-1" elektrik yarımstansiyasının açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, "AzərEnerji" ASC-nin İdarə Heyətinin sədri Baba Rzayev dövlətimizin başçısına həyata keçirilmiş işlər barədə məlumat verdi.







Qeyd edək ki, Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərin dayanıqlı elektrik enerjisi təchizatı infrastrukturunun yaradılması ilə bağlı tapşırıqlarına əsasən, Xankəndi şəhərində müasir şəhər şəbəkəsi modelinə uyğun 110/35/10 kilovoltluq qapalı tipli yarımstansiya tikilib. Xankəndi və ətraf ərazilərin ölkə enerjisisteminə qoşulması üçün Şuşa şəhərindən Xankəndiyə çətin dağlıq və meşəlik relyefdən keçməklə 1,8 kilometri yeraltı kabel olan, ümumilikdə 11 kilometrlik yüksəkgərginlikli ötürmə xətti çəkilib. Bu yarımstansiya işğaldan azad edilmiş ərazilərdə 110 kV-luq gərginlik sinfi üzrə tikilmiş ilk qapalı tipli yarımstansiyadır. Burada bütün avadanlıq və qurğular, o cümlədən transformatorlar binanın daxilində yerləşdirilib.

Bildirilib ki, yarımstansiyada ən müasir mikroprosessor tipli Rəqəmsal İdarəetmə Mərkəzi qurulub. Bu MicroSCADA sistemi "AzərEnerji" ASC-nin mütəxəssisləri tərəfindən yaradılaraq ilk dəfə məhz Xankəndidə tətbiq olunub. Sistem yüksəkgərginlikli elektrik xətlərinin və avadanlıqların real vaxtda monitorinqi, idarə olunması və hadisələrin izlənməsini təmin edir. Yarımstansiyadan Xankəndi şəhəri, Ağdərə, Xocalı və Xocavənd rayonları etibarlı və dayanıqlı elektrik enerjisi alacaq.

Dövlətimizin başçısına Qarabağ və Şərqi Zəngəzurda 1000 kilometrədək məsafədə yaradılmış dairəvi elektrik təchizatı sisteminin və istismarının təşkilində innovativ texnologiyaların tətbiqi barədə də məlumat verildi.

Diqqətə çatdırıldı ki, "AzərEnerji" ASC tərəfindən Qarabağda və Şərqi Zəngəzurda rekord müddətdə - cəmi 5 il ərzində 1000 kilometr uzunluğunda yüksəkgərginlikli ötürmə xətləri çəkilərək 12 yeni yarımstansiya ilə zəncirvari şəkildə əlaqələndirilib, 330 və 110 kV-luq ikipilləli dairəvi elektrik təchizatı yaradılıb. Bunun üçün yeni Cəbrayıl Enerji Qovşağı inşa edilib, "İmişli", "Ağcabədi" və "Gəncə" yarımstansiyaları tam yenidən qurulub. Bu, Qarabağın və Şərqi Zəngəzurun enerji tarixində ən böyük yenilikdir, belə ki, istənilən istiqamətdə qəza baş verərsə, fasilə yaranmadan digər istiqamətdən avtomatik və dayanıqlı enerji təmin olunacaq.

Qeyd edək ki, "AzərEnerji" ASC tərəfindən istismarın təşkili üçün tətbiq edilən növbəti innovativ yenilik Qarabağda və Şərqi Zəngəzurdan başlanılmaqla bütün ölkəni əhatə edəcək Rəqəmsal Texnologiyalarla Yarımstansiya və Hava Xətlərinin Monitorinqi və Analizi sistemləridir. Bunun üçün ən müasir rəqəmsal cihaz və qurğular alınıb, yerli gənc mühəndis heyətinin xarici ölkələrdə ixtisasartırma kurslarında iştirakı təmin olunub. Yeni sistem avtomobil və xüsusi təyinatlı dronlar üzərində quraşdırılmış yüksək dəqiqliyə malik kameralar və teplovizorlarla elektrik stansiyası, yarımstansiya və xətlərdə görüntülərin əldə edilməsini, emalını və serverə göndərilməsini, həmçinin lazer texnologiyaları vasitəsilə ölçülərin, məsafələrin və qızma nöqtələrinin müəyyənləşdirilməsini təmin edir, beləliklə, adi gözlə görünməsi mümkün olmayan qəza riskləri aşkarlanır.

Prezident İlham Əliyevə "AzərEnerji" ASC tərəfindən "Yaşıl enerjiyə keçid" meqalayihələri barədə də məlumat verildi. Qeyd edildi ki, ölkənin ən böyük yarımstansiyası - 500 kV-luq "Nəvahi" yarımstansiyasında işlər tamamlanıb, "Şəfəq" Günəş-Elektrik Stansiyasının enerjisistemə qoşulması və Səngəçal terminalının elektrikləşdirilməsi üçün Cəbrayılda 330, Səngəçalda isə 220 kV-luq yarımstansiyaların tikintisi yekunlaşıb. Azərbaycanda bərpaolunan enerji mənbələrinin dinamik inkişafı üçün Batareya Enerji Saxlanc sistemlərinin yaradılması sürətlə davam edir. MDB məkanında gücünə və tutumuna görə ən böyük Batareya Saxlanc sistemləri olan bu enerji obyektləri "Abşeron" və "Ağdaş" yarımstansiyalarının ərazilərində qurulur. Ölkədə yeni yaradılan 2 QVt bərpaolunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyasını asanlaşdırmaq və enerji sisteminin dayanıqlılığını gücləndirmək məqsədilə Geniş Ərazi Monitorinq və Geniş Ərazi İdarəetmə sistemləri tətbiq edilir.

◆ Prezident İlham Əliyevin Xankəndi, Xocalı və Ağdama səfəri

# “Böyük Qayıdış” dünya miqyasında ən uğurla icra edilən qayıdış proqramıdır

## Prezident İlham Əliyev Ağdamda metal elektrik dirəklərinin istehsalı müəssisəsinin açılışında iştirak edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Ağdam Sənaye Parkında "Construction" MMC-nin metal elektrik dirəklərinin istehsalı müəssisəsinin açılışında iştirak edib.**



AZƏRTAC xəbər verir ki, "Construction" MMC-nin təsisçisi Nurlan Abbasov dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdi.

Bildirildi ki, Sənaye Parkının 1 hektarlıq ərazisində yerləşən müəssisədə istehsal Çin texnologiyası əsasında qurulub. Zavodun metal elektrik dirəkləri üzrə illik istehsal gücü 7 min 200 ton təşkil edir. Məhsullar həm daxili bazarın tələbatını ödəyəcək, həm də ixrac ediləcək. İnvestisiya həcmi 2,96 milyon manat olan müəssisədə 32 daimi iş yeri yaradılıb. Qurulmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 1,2 milyon manat zəmanətli kredit ayrılıb. Bununla yanaşı, müəssisə sənaye parkının rezidentlərinə verilən bütün vergi və gömrük güzəştlərindən yararlanıb. Həmçinin texnika, texnoloji avadanlıq və qurğuların idxalı zamanı təxminən 443 min manat dəyərində ƏDV və gömrük rüsumlarına güzəşt əldə olunub.

Qeyd edək ki, dövlətimizin başçısının 2021-ci ildə imzaladığı fərmana əsasən, 190 hektar ərazidə yaradılan Ağdam Sənaye Parkının məqsədi işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının inkişafı, sahibkarlığın dəstəklənməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır. Sənaye Parkının prioritet istiqamətləri tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət, süd, yem, gübrə istehsalının və emalının, xidmət sahələrinin, soyuducu kameraların təşkilidir.

Sahibkarlıq fəaliyyətinin inkişafı üçün burada dövlət tərəfindən əlverişli investisiya mühiti yaradılıb. Parkda ümumi investisiyalarının həcmi 312 milyon manatdan çox olan 32 sahibkarlıq subyektinə rezidentlik, 5 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Artıq investorlar tərəfindən Sənaye Parkına 142 milyon manat sərmayə yatırılıb, 970-ə yaxın daimi iş yeri yaradılıb. İşlə təmin edilənlərin çoxu Ağdam və ətraf rayonların sakinləridir. Sənaye Parkının rezidentləri tərəfindən istehsal olunmuş 945 milyon manat dəyərində məhsul satışı həyata keçirilib ki, bunun da 39,5 milyon manatlıq hissəsi ixrac edilib.

## Prezident İlham Əliyev Ağdam Sənaye Parkında "Saloğlu Qarabağ" MMC-nin istehsal müəssisəsinin təməlini qoyub





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Ağdam Sənaye Parkında "Saloğlu Qarabağ" MMC-nin istehsal müəssisəsinin təməlini qoyub.**

AZƏRTAC xəbər verir ki, "Saloğlu Qarabağ" MMC-nin təsisçisi Tacəddin Mustafayev dövlətimizin başçısına yeni yaradılacaq müəssisə haqqında məlumat verdi.

Bildirildi ki, müəssisə Ağdam Sənaye Parkında 1 hektar ərazidə yaradılacaq. Burada mebel, o cümlədən müxtəlif çeşiddə qonaq və yataq otağı dəstləri, yumşaq və metal mebel aksesuarlarının istehsalı üzrə zavodun qurulması nəzərdə tutulur. İstehsal prosesində Türkiyə, Almaniya və Çin texnologiyalarından istifadə olunacaq. Zavodun istehsal gücü illik 4 min dəst mebel və 6 min ədəd metal mebel aksesuarı olacaq. Məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, ixrac da ediləcək. İnvestisiya dəyəri 8 milyon manat olan müəssisənin qurulmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən güzəştli kredit ayrılması nəzərdə tutulub. Müəssisə sənaye parkının rezidentlərinə verilən bütün vergi və gömrük güzəştlərindən yararlanacaq. Burada 50 nəfərlik daimi iş yerinin yaradılması planlaşdırılır.

## Ağdam şəhərində "Hilton Garden Inn Agdam" hoteli istifadəyə verilib








**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Ağdam şəhərində "Hilton Garden Inn Agdam" hotelinin açılışında iştirak edib.**







AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına burada yaradılmış şərait barədə məlumat verildi.

Bildirildi ki, ümumi ərazisi 2 hektardan çox olan mehmanxana 2, 6 və 7 mərtəbəli olmaqla, 3 blokdan ibarətdir. 287 yerlik hotel binasında müxtəlif siniflərə aid ümumilikdə 127 otaq var. Burada həmçinin restoran, ictimai-iaşə zonası, iclas, tədbir və ziyafət zalları, qapalı hovuz, idman zalı yaradılıb. Hotelin ərazisində də geniş abadlıq işləri görülüb. Burada 120 nəfər daimi işlə təmin olunub. Yeni hotel Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi, Ağdam Muğam Mərkəzi, Ağdam Sənaye Parkı və digər sosial infrastruktur obyektlərinin yaxınlığında yerləşir.

Qeyd edək ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2022-ci ildə Ağdam şəhərində mehmanxana kompleksinin təməlqoyma mərasimində iştirak ediblər. Bu ilin fevralında isə kompleksdə görülən tikinti işləri ilə tanış olublar.

İşğaldan azad edilmiş ərazilərdə görülən bərpa və yenidənqurma işləri çərçivəsində bu bölgədə turizm infrastrukturunun formalaşdırılması əsas istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Bu məqsədlə müasir tələblərə cavab verən hotel və mehmanxana komplekslərinin tikintisi həyata keçirilir, turizm potensialının reallaşdırılması üçün zəruri şərait yaradılır. Bütün bu işlər "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun icra olunur. Bu hotellər memarlığına görə ərazinin təbii landşaftına uyğun layihələndirilir, ekoloji standartlara və ən müasir xidmət prinsiplərinə əsaslanır. Turizm obyektləri turistlərin rahat yerləşməsi, istirahəti üçün geniş imkanlar yaradır. Hotellərin tikintisi həmçinin bu bölgələrdə iqtisadi fəallığın artmasına, yeni iş yerlərinin yaradılmasına və sahibkarlığın inkişafına təkan verir. Bütün bu işlər Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ölkənin turizm potensialında mühüm yer tutmasına da zəmin yaradacaq.

## İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi təbrik edib



Dekabrın 23-də İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

İran Prezidenti dövlətimizin başçısını qarşıdan gələn ad günü münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində yeni uğurlar və cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Məsud Pezeşkian ölkəmizə səfərlərini və dövlətimizin başçısı ilə apardığı müzakirələri məmnunluqla xatırlayıb.

Telefon söhbəti zamanı 2026-cı ildə təmaslar və Azərbaycan-İran dostluq əlaqələrinin gələcək inkişafına dair fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

## Birinci vitse-prezident Mehriban Əliyeva Prezident İlham Əliyevin doğum günü ilə bağlı paylaşım edib

"Ləyaqət, saf niyyət və xeyirxah ürək -
Uca Tanrının sözsüz eşitdiyi ali dualardır.
Uca Allah Sizi və xalqımızı qorusun!"




# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Qazaxıstanda Sizi görkəmli, müasir dövlət xadimi, qlobalmiqyaslı təcrübəli və səriştəli siyasətçi kimi tanıyırlar və hörmət edirlər.

Sizin çoxillik səmərəli ali dövləti fəaliyyətiniz haqlı olaraq Azərbaycanın tarixi nailiyyətləri, suverenliyinin möhkəmlənməsi, beynəlxalq nüfuzunun artması və dinamik sosial-iqtisadi inkişafı dövrü ilə əlaqələndirilir.

Sizin güclü və müdrik liderliyinizlə qardaş Azərbaycan strateji kursunuzu qətiyyətlə davam etdirərək, bundan sonra da inkişaf və tərəqqi yolunda inamla irəliləyəcəkdir.

Qazaxıstan-Azərbaycan strateji tərəfdaşlığının və müttəfiqliyinin gücləndirilməsinə verdiyiniz nəhəng şəxsi töhfənizi yüksək dəyərləndirir, əsrlər boyu davam edən dostluq və qarşılıqlı dəstək ruhunda onların hərtərəfli möhkəmləndirilməsinə xüsusi əhəmiyyət verirəm.

Əminəm ki, biz birgə səylərimizlə çoxşaxəli dövlətlərarası əlaqələrin bundan sonra da inkişafına yeni təkan verəcək, Qazaxıstan ilə Azərbaycan arasında münasibətləri keyfiyyətcə yeni səviyyəyə qaldıracağıq.

Hörmətli İlham Heydər oğlu, Sizə tükənməz enerji, ailə səadəti və ali dövləti fəaliyyətinizdə yeni uğurlar, qardaş Azərbaycan xalqına isə rifah və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Kasım-Jomart TOKAYEV,***
***Qazaxıstan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!

Əziz dost!

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Fürsətdən istifadə edərək, Slovakiya Respublikası ilə Azərbaycan Respublikası arasında ikitərəfli münasibətlərin möhkəmləndirilməsində şəxsi xidmətlərinizə görə Sizə səmimi minnətdarlığımı bildirirəm.

Məmnuniyyətlə qeyd edirəm ki, münasibətlərimiz ən yüksək səviyyədədir və bunu Slovakiyaya bu yaxınlarda etdiyiniz ilk rəsmi səfər də əyani şəkildə nümayiş etdirdi. Bu səfər qarşılıqlı anlaşmamızın dərinləşməsinə əhəmiyyətli dərəcədə töhfə vermiş və ortaq maraq doğuran müxtəlif sahələrdə gələcək əməkdaşlıq üçün yeni imkanlar açmışdır.

Eyni zamanda Azərbaycan Respublikasına rəsmi səfər etməyim üçün xoş dəvətinizə görə Sizə ürəkdən təşəkkür etmək istəyirəm, bu dəvəti məmnuniyyətlə qəbul etdim. Gələn il gözəl ölkənizə yenidən səfər etmək şərəfinə nail olacağımı, bu dəfə rəsmi olaraq səfər edəcəyimi və əməkdaşlığımızın daha da dərinləşdirilməsi ilə bağlı dialoqumuzu davam etdirəcəyimizi səbirsizliklə gözləyirəm.

Zati-aliləri cənab Prezident, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, bol enerji arzulayıram. Qoy ailənizlə, xüsusən də doqquz nəvənizlə birlikdə sevinc dolu anlar yaşayasınız, onlar Sizə, şübhəsiz ki, əvəzsiz sevincli anlar bəxş edirlər. Ölkənizə xidmət etməkdə və Azərbaycan xalqına sülh və firavanlıq gətirməkdə Sizə davamlı uğurlar arzulayıram.

Növbəti görüşümüzü səbirsizliklə gözləyirəm. Sizə dərin hörmət və ehtiramımı ifadə edirəm. 2026-cı ildə Sizə ən xoş arzularımı çatdırıram.

***Peter PELLEQRİNİ,***
***Slovakiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Zati-alinizin doğum günü münasibətilə ən səmimi təbriklərimi və ən xoş arzularımı Sizə çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik arzularımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***II ABDULLAH,***
***İordaniyanın Kralı***

❖ ❖ ❖

Zati-aliləri!

Böyük məmnuniyyətlə xalqımızın adından və öz adımdan Sizə doğum gününüz münasibətilə ən səmimi təbriklərimizi çatdırıram. Uca Allah Sizə möhkəm cansağlığı və çoxlu belə xoş günlər nəsib etsin.

Başa çatmaqda olan ilə nəzər saldıqda, ikitərəfli münasibətlərimizin müsbət inkişafından böyük məmnunluq duyuram. Bu münasibətlər bu ilin fevral və may aylarında ikitərəfli görüşlər keçirmək, həmçinin iyul ayında Xankəndidə İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə toplantısında, noyabr ayında Bakıda şanlı Zəfər Gününə həsr olunmuş paradda iştirak etmək məqsədilə gözəl ölkənizə etdiyim səfərlərlə daha da möhkəmlənmişdir.



Azərbaycana etdiyim hər səfərim zamanı ölkənizin gözəlliyinə və zəngin təbiətinə daha çox heyran oldum, dost və qonaqpərvər qardaş xalqınıza olan məhəbbətim daha da artdı.

İqtisadi sahədə əməkdaşlığımız da uğurla inkişaf edir və hazırda Azərbaycanın Pakistana 2 milyard dollar məbləğində investisiya yatırması ilə bağlı şərtləri yekunlaşdırırıq. Bu layihə xalqlarımızın həyatını dəyişdirəcək və eyni zamanda qarşılıqlı faydalı iqtisadi əməkdaşlığı təmin edəcəkdir.

Zati-aliləri, mən Bakıda olarkən "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olmağımı xatırlatmaq istəyirəm. Həmin vaxtdan bəri ölkələrimiz dövlət xidmətlərinin göstərilməsində innovativ və vətəndaşlara yönəlik həllərin təqdim edilməsi, şəffaflığın, səmərəliliyin və institusional bütövlüyün təmin edilməsi məqsədilə İslamabadda "Pakistan Asan Xidmət" mərkəzinin yaradılması üzərində birgə çalışırlar. Aylarla davam edən işlərdən sonra "Pakistan Asan Xidmət" mərkəzi 2026-cı il yanvarın 10-dək hazır olacaq və açılış mərasimi keçiriləcəkdir. Yeni yaradılmış "Pakistan Asan Xidmət" mərkəzi, şübhəsiz ki, xalqlarımızın həyatın bütün sahələri üzrə, o cümlədən səmərəli və müasir dövlət xidmətlərinin göstərilməsindən faydalandıqlarını dünyaya nümayiş etdirəcək.

Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı rifah və tərəqqi diləyirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Məhəmməd Şahbaz ŞƏRİF,***
***Pakistan İslam Respublikasının Baş naziri***

❖ ❖ ❖

Zati-aliləri, hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi böyük sevinc hissi ilə çatdırıram. Sizin fədakarlığınıza birbaşa şahid olan dost və həmkar kimi deyə bilərəm ki, liderliyə gətirdiyiniz səmimiyyət və güc məni həqiqətən ruhlandırır.

Sizin uzaqgörən rəhbərliyiniz Azərbaycanı rifahın və qlobal nüfuzun yeni zirvələrinə yüksəltmişdir, eyni zamanda sülhə, mədəni irsə və iqtisadi inkişafa sadiqliyiniz saysız-hesabsız insanın həyatına müsbət təsir göstərmişdir.

Beynəlxalq forumlar çərçivəsində və ikitərəfli görüşlərimiz, eləcə də Bosniya və Herseqovina ilə Azərbaycan xalqları arasında getdikcə möhkəmlənən əlaqələr məndə gələcəkdə dostluq və əməkdaşlığın daha da dərinləşəcəyi ilə bağlı nikbinlik hissi yaradır.

Bu əziz gündə Sizə və yaxınlarınıza möhkəm cansağlığı, xoşbəxtlik və Azərbaycanı daha parlaq gələcəyə aparan fəaliyyətinizdə uğurlar arzulayıram.

*Dərin hörmət və ehtiramla,*

***Jelka TSVİYANOVİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü***

❖ ❖ ❖

Zati-aliləri!

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri adından Sizə doğum gününüz münasibətilə ən səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırmaqdan şərəf duyuruq.

Uzaqgörən liderliyiniz, Azərbaycanın inkişafına sarsılmaz sadiqliyiniz və beynəlxalq arenada prinsipial mövqeyiniz dünyada Sizə dərin hörmət və rəğbət qazandırıb. Sizin rəhbərliyinizlə Azərbaycan suverenliyini möhkəmləndirib, inklüziv iqtisadi artımı təmin edib, dialoq, çoxtərəfli əməkdaşlıq və regional əlaqələrin təşviqində etibarlı tərəfdaş kimi tanınıb.

Sülhə, sabitliyə və davamlı inkişafa sadiqliyinizi, eləcə də Azərbaycanın qlobal gündəmlərə, xüsusən də enerji keçidi, iqlim tədbirlərinə və mədəniyyətlərarası dialoqa verdiyi konstruktiv töhfələri yüksək qiymətləndiririk. Bu işlər Nizami Gəncəvinin humanizmi və müdrikliyindən ilhamlanan mərkəzimizin missiyası ilə tam şəkildə uyğundur.

Bu əlamətdar gündə Sizə cansağlığı, davamlı uğurlar və firavanlıq arzulayırıq. Azərbaycan xalqına xidmət etməyə, qlobal sülhə və əməkdaşlığa töhfə verməyə davam edəcəyiniz qarşıdakı illərdə Sizə güc-qüvvət, tükənməz enerji diləyirik.

2026-cı ilin mart ayında XIII Qlobal Bakı Forumunda Sizinlə görüşməyi səbirsizliklə gözləyirik.

Zati-aliləri, ən yüksək ehtiramımızı qəbul etməyinizi xahiş edirik.

***Vayra Vike-FREYBERQA,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti***

***İsmail SERAGELDİN,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti***

***Mariya Fernanda ESPİNOZA,***
***BMT Baş Assambleyasının 73-cü sessiyasının sədri, 2017-2018-ci illərdə Ekvadorun xarici işlər naziri***

***Tarya HALONEN,***
***2000-2012-ci illərdə Finlandiyanın Prezidenti***

***Boris TADİÇ,***
***2004-2012-ci illərdə Serbiyanın Prezidenti***

***Rosen PLEVNELİYEV,***
***2012-2017-ci illərdə Bolqarıstanın Prezidenti***

***İv LETERME,***
***2008, 2009-2011-ci illərdə Belçika Krallığının Baş naziri***

***Əmr MUSA,***
***2001-2011-ci illərdə Ərəb Dövlətləri Liqasının Baş katibi***

***İvo YOSİPOVİÇ,***
***2010-2015-ci illərdə Xorvatiyanın Prezidenti***

***Zlatko LAQUMCİYA,***
***2001-2002-ci illərdə Bosniya və Herseqovinanın Baş naziri***

***Petar STOYANOV,***
***1997-2002-ci illərdə Bolqarıstanın Prezidenti***

***Tzipi LİVNİ,***
***2006-2009-cu illərdə İsrailin xarici işlər naziri***

***Jan BADERŞNEYDER,***
***"Fortescue Ltd" şirkətinin Direktorlar Şurasının üzvü, "ExxonMobil" şirkətinin sabiq vitse-prezidenti***

***Filip VUYANOVİÇ,***
***2003-2018-ci illərdə Monteneqronun Prezidenti***

***Eka TKEŞELAŞVİLİ,***
***2010-2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini***

***David PAN,***
***Çinin Tsinxua Universiteti Şvarzman kollecinin baş dekanı***

***Suzan ELLİOT,***
***Amerika Xarici Siyasət üzrə Milli Komitəsinin prezidenti və baş icraçı direktoru***

❖ ❖ ❖

Zati-aliləri!

Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın - GUAM-ın Beynəlxalq Katibliyi adından və şəxsən öz adımdan Sizə doğum gününüz münasibətilə ən səmimi təbriklərimizi çatdırıram.

Eyni zamanda Azərbaycanın inkişafında, regional və beynəlxalq mövqeyinin, rolunun artırılmasında əldə etdiyiniz mühüm nailiyyətlər münasibətilə də Sizi təbrik edirəm. Azərbaycan Respublikası davamlı şəkildə inkişaf edərək güclü, müasir bir ölkəyə, regional və qlobal məsələlərdə getdikcə daha təsirli aktora çevrilib.

Vətən müharibəsində qazanılan şanlı Qələbədən və beynəlxalq səviyyədə tanınmış sərhədlər daxilində ərazi bütövlüyünün və suverenliyinin tam bərpasından sonra ədalətli və davamlı sülhün bərqərar olması, regionda inklüziv əməkdaşlığın inkişafı üçün göstərdiyiniz səylərdə Sizə uğurlar arzulayırıq.

Azad edilmiş torpaqların bərpası, yenidən qurulması və ölkənin iqtisadiyyatına inteqrasiyası, eləcə də iqtisadiyyatın şaxələndirilməsi və modernləşdirilməsində əldə edilən irəliləyişlərə heyranıq.

Çox mürəkkəb və çətin xarici mühitdə liderliyinizi və beynəlxalq məsələlərdə prinsipial, ardıcıl mövqeyinizi yüksək qiymətləndiririk.

Cənab Prezident, regional təşkilat olaraq, müxtəlif layihələr həyata keçirməklə sülhün, sabitliyin və həmrəyliyin təşviqi üçün təşəbbüslərinizi dəstəkləməyə hazırıq. Həmçinin GUAM-ın üzv dövlətləri arasında bölüşmək üçün Azərbaycanın təcrübəsini öyrənməkdə maraqlıyıq. Biz Azərbaycanın regional əməkdaşlığa verdiyi töhfəni yüksək qiymətləndiririk və bunun GUAM çərçivəsində daha da artırılmasını səbirsizliklə gözləyirik.

Zati-aliləri, Sizi doğum gününüz münasibətilə bir daha səmimi-qəlbdən təbrik edirəm. Güclü, müasir, demokratik Azərbaycanın daha da inkişafı ilə bağlı bütün ideya və təşəbbüslərinizi həyata keçirmək üçün Sizə möhkəm cansağlığı və tükənməz enerji arzulayıram.

*Hörmətlə,*

***Altay ƏFƏNDİYEV,***
***GUAM-ın Baş katibi***

❖ ❖ ❖

Zati-aliləri, hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizi Beynəlxalq Cüdo Federasiyası adından və şəxsən öz adımdan təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik, uğurlar arzulayıram. Qarşıdan gələn ildə Sizə yeni nailiyyətlər və yaxınlarınızla birlikdə xoş günlər diləyirəm.

Sizin gözəl nailiyyətləriniz, ümumilikdə idmanın və xüsusən də cüdonun inkişafına verdiyiniz dəyərli töhfələr liderliyinizi müəyyən edən sədaqət, dürüstlük, uzaqgörənlik kimi yüksək keyfiyyətlərdən xəbər verir. Dəstəklədiyiniz dəyərlər və uzunmüddətli perspektivə hesablanmış uğurlu fəaliyyətiniz idmanın, o cümlədən cüdonun Azərbaycan Respublikasında və beynəlxalq səviyyədə cəmiyyətə müsbət təsirini gücləndirir. Bütün bunlar milli və qlobal səviyyədə idman mənzərəsini zənginləşdirməyə davam edir və mükəmməlliyə, inkişafa doğru irəliləyənlər üçün ilham mənbəyi olaraq qalır.

Beynəlxalq Cüdo Federasiyası ilə səmərəli əməkdaşlığınızı yüksək qiymətləndiririk və bunu davam etdirməyi səbirsizliklə gözləyirik.

Doğum gününüz mübarək!

*Dərin hörmətlə və ehtiramla,*

***Marius VİZER,***
***Beynəlxalq Cüdo Federasiyasının prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi təbrik edirəm.

Sizin səyləriniz sayəsində Azərbaycan Respublikası dövlətçiliyinin möhkəmləndirilməsində və əhalisinin sosial-iqtisadi rifahının yaxşılaşdırılmasında nəzərəçarpan nəticələr əldə edib.

Ölkələrimizin xalqlarının mənafeyi naminə ikitərəfli əlaqələrin, həmçinin "Yedinaya Rossiya" Ümumrusiya Siyasi Partiyası və Yeni Azərbaycan Partiyası arasında əməkdaşlığın daha da dərinləşməsinə ümid edirəm.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, xoşbəxtlik diləyir və ən xoş arzularımı çatdırıram.

***Dmitri MEDVEDEV,***
***Rusiya Federasiyası Təhlükəsizlik Şurası sədrinin müavini***

❖ ❖ ❖

Çox hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm. Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, rifah və bütün planlarınızın həyata keçməsində uğurlar arzulayıram.

İqtisadi cəhətdən inkişaf edən Azərbaycan dövlətinin firavanlığına və xalqınızın rifahının yaxşılaşdırılmasına yönəlmiş fəaliyyətiniz Sizə təkcə doğma ölkənizdə deyil, həm də onun hüdudlarından kənarda da layiqli hörmət qazandırıb.

Azərbaycan Respublikası həmişə Rusiya Federasiyası ilə əməkdaşlığın bütün sahələrində, o cümlədən regionlararası səviyyədə strateji tərəfdaş olub və olmaqda davam edir. Azərbaycan Respublikası ilə Həştərxan vilayəti arasında qurulmuş dostluq əlaqələrini yüksək qiymətləndirir, bölgəmizlə çoxşaxəli, qarşılıqlı faydalı əlaqələrin gücləndirilməsinə göstərdiyiniz dəstəyə görə Sizə səmimi-qəlbdən təşəkkür edirəm.

*Dərin hörmətlə,*

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru***

❖ ❖ ❖

Çox hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizin rəhbərliyinizlə Azərbaycan uzun illərdir ki, qlobal aləmdə mövqelərini inamla möhkəmləndirir və mürəkkəb beynəlxalq gündəmə baxmayaraq, nəzərəçarpan uğurlar əldə edir.

Rusiya ilə Azərbaycan əsas regional məsələlər üzrə maraqlar balansını və qarşılıqlı anlaşmanı tapmağa çalışaraq əməkdaşlığı davamlı olaraq inkişaf etdirirlər.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, tükənməz enerji, firavanlıq diləyir, qardaş Azərbaycan xalqının və ölkələrimizin rifahı naminə yeni böyük nailiyyətlər arzulayıram.

*Hörmətlə,*

***İlyas UMAXANOV,***
***Rusiya Federasiyasının senatoru***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

Sizin adınız Azərbaycan Respublikasının müasir tarixi, dövlətçiliyinin inkişafı, siyasi və iqtisadi güc qazanması və ölkənin artan beynəlxalq nüfuzu ilə ayrılmaz şəkildə bağlıdır.

Sizin rəhbərliyinizlə Azərbaycan genişmiqyaslı infrastruktur layihələri həyata keçirir, milli maraqlarını inamla müdafiə edir, regional sabitliyin və təhlükəsizliyin təmin edilməsinə əhəmiyyətli töhfələr verir. Respublikanın milyonlarla sakini və bir çox xarici tərəfdaş Sizin şəxsi keyfiyyətlərinizi, strateji düşüncənizi, müdrikliyinizi yüksək qiymətləndirir.

Hörmətli İlham Heydər oğlu, Sizə Azərbaycan Respublikasının və onun vətəndaşlarının rifahı naminə ali dövləti fəaliyyətinizdə bundan sonra da uğurlar, eləcə də möhkəm cansağlığı, tükənməz enerji və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Mixail QUTSERİYEV,***
***Rusiyanın "SAFMAR" Qrupu" Səhmdar Cəmiyyətinin prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Sizi doğum gününüz münasibətilə "VTB Bank"ın İdarə Heyəti və kollektivi adından səmimi-qəlbdən təbrik edirəm.

Sizin rəhbərliyinizlə Azərbaycan əsas milli inkişaf məsələlərinin həllində davamlı dinamika nümayiş etdirib və beynəlxalq aləmdə əhəmiyyətli uğurlar qazanıb, nüfuzlu regional lider kimi mövqelərini möhkəmləndirib.

Rusiya və Azərbaycan xalqları arasında əsrlər boyu davam edən tarixi işgüzar, mədəni əlaqələr mehriban qonşuluq münasibətlərimizin sabitliyinin və ikitərəfli strateji tərəfdaşlığımıza sadiqliyin əsasıdır.

VTB Qrupu 15 ildən çoxdur ki, Azərbaycanda uğurla fəaliyyət göstərir. Dövlətlərimiz üçün qarşılıqlı maraq doğuran məsələlərdə dialoqun inkişaf etdirilməsinə və əməkdaşlığın möhkəmləndirilməsinə görə Sizə minnətdarıq. Azərbaycanlı tərəfdaşlarımızla münasibətlərin mövcud səviyyəsini və ruhunu yüksək qiymətləndiririk.

Hörmətli İlham Heydər oğlu, icazə verin, bu əlamətdar gündə Sizə, ailənizə və bütün Azərbaycan xalqına möhkəm cansağlığı, rifah, sülh və firavanlıq arzulayım.

*Dərin hörmətlə,*

***Andrey KOSTİN,***
***Rusiyanın "VTB Bank" Publik Səhmdar Cəmiyyətinin prezidenti, İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizə uzun ömür, cansağlığı, xoşbəxtlik və ölkənizin rifahı naminə fəaliyyətinizdə davamlı uğurlar arzulayıram.

BP olaraq, Azərbaycanda dünyamiqyaslı enerji layihələrinin operatoru olmaqdan, Azərbaycan Hökuməti və SOCAR ilə qurduğumuz müstəsna münasibətlərdən qürur duyur və bu səmərəli tərəfdaşlığımızın gələcək illərdə də davam edəcəyinə ümid edirik. Bu strateji enerji layihələrinin həyata keçirilməsi Sizin liderliyiniz və daimi dəstəyiniz sayəsində mümkün olmuşdur.

Bu il 30 ildən artıq davam edən tərəfdaşlığımızda daha bir mühüm mərhələni qeyd edirik. İyun ayında biz neft və qazın kəşfiyyatı və hasilatını gücləndirəcək, eyni zamanda Günəş enerjisi və elektrikləşdirmə layihələrinin irəliləməsinə töhfə verəcək dörd əhəmiyyətli saziş imzaladıq. Qarşıdan gələn illər ərzində bu layihələrin də uğurla reallaşmasına ümid edirik.

Bu xoş fürsətdən istifadə edərək, Sizi, ailənizi və bütün Azərbaycan xalqını Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirəm. Yeni ildə Sizə, yaxınlarınıza və bütün Azərbaycan xalqına firavanlıq, sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Cio KRİSTOFOLİ,***
***BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi, Zati-alinizə cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə uğurlar arzularımı qəbul etməyinizi xahiş edirəm.

Mən həmçinin Azərbaycan xalqına davamlı firavanlıq və rifah arzulayıram.

Zati-aliləri, Sizə ən yüksək ehtiramımı ifadə edirəm.

*Səmimiyyətlə,*

***Cuzeppe KANİLİA,***
***İtaliyada fəaliyyət göstərən Napoli-Bakı Assosiasiyasının sədri***

❖❖❖

Hörmətli cənab Prezident!

Sizə doğum gününüz münasibətilə səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram. Zati-alinizə və yaxınlarınıza möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik arzulayıram.

Əminliyimi bildirirəm ki, Sizin müdrik rəhbərliyinizlə ölkəniz daha da inkişaf edəcək, xalqınız ətrafınızda daha sıx birləşəcək və dünyada sülhün, dostluğun dəstəklənməsi, xüsusilə də Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi, mədəni və idman sahələrində əlaqələrin genişlənməsi üçün bundan sonra da səylərinizi əsirgəməyəcəksiniz.

Sizə Azərbaycanın tərəqqisi və xalqın rifahı naminə məsuliyyətli fəaliyyətinizdə davamlı uğurlar, tükənməz enerji arzulayıram.

*Hörmətlə,*

***Tetsuo SATO,***
***Yaponiyada fəaliyyət göstərən Yerli İcmaların Dirçəliş Fondunun sədri***

❖❖❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirik. Sizə möhkəm cansağlığı, Azərbaycanın daha da inkişafı naminə fəaliyyətinizdə davamlı uğurlar arzulayırıq.

Son beş il ərzində regionda yaranan yeni reallıqlar, xüsusilə də Azərbaycanın suverenliyinin, ərazi bütövlüyünün təmin olunması Sizin qətiyyətli siyasətinizin və uzaqgörən liderliyinizin nəticəsidir.

Müzəffər Ali Baş Komandan kimi Sizin rəhbərliyinizlə qazanılmış şanlı Zəfər Azərbaycan tarixinin ən parlaq səhifələrindən biri kimi xalqın milli qürurunu, birliyini, gücünü bütün dünyaya nümayiş etdirmişdir.

Fürsətdən istifadə edərək Sizi birliyin və həmrəyliyin rəmzi olan 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə də təbrik edirik. Sizin uğurlu siyasətiniz sayəsində həm ölkə daxilində, həm də bütün dünyada azərbaycanlılar arasında birliyin möhkəmlənməsi xüsusi önəm kəsb edir.

Sizin rəhbərliyinizlə Azərbaycanın gələcəyinin daha da parlaq olacağına inanırıq. Sizə bir daha təbriklərimizi çatdırır, dövlətə və xalqa xidmət işində yeni-yeni nailiyyətlər arzulayırıq.

*Dərin hörmətlə,*

***Ədalət TURAN,***
***Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının sədri***

❖❖❖

Möhtərəm cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimizi, xoş arzularımızı çatdırmaqdan məmnunluq duyuram. Sizin rəhbərliyinizlə Azərbaycan Respublikasındakı inkişaf proseslərini, ölkənin nailiyyətlərini diqqətlə izləyirik. Azərbaycanın yüksəlişi, bütün sahələrdə əldə etdiyi uğurlar bizim üçün qürur mənbəyidir.

Sizin qətiyyətli liderliyinizlə 44 günlük Vətən müharibəsində qazanılan və bu il beşinci ildönümü qeyd edilən Zəfər təkcə Azərbaycanın deyil, bütün türk dünyasının bayramıdır. Sizin regionda sülhün və təhlükəsizliyin təmin edilməsi istiqamətində göstərdiyiniz səylər təqdirəlayiqdir.

Fürsətdən istifadə edərək Sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə də təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqının firavanlığı naminə fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

*Hörmətlə,*

***Səttar KAYA,***
***Ankara-Bakı Tanıtma və Həmrəylik Dərnəyinin sədri***

❖❖❖

Möhtərəm cənab Prezident!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirik. Sizə cansağlığı, uzun ömür, xoşbəxtlik, tükənməz enerji arzulayırıq.

Azərbaycanın daha da inkişafı, güclənməsi və beynəlxalq arenada nüfuzunun artması ilə bağlı fəaliyyətinizdə Sizə yeni-yeni müvəffəqiyyətlər diləyirik.

Siz Ulu Öndərimiz Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək, ölkəmizin hər sahədə inkişaf etməsi üçün əzmlə çalışaraq xalqımıza verdiyiniz bütün vədləri yerinə yetirmisiniz. Vətənimizin dilbər guşəsi olan Qarabağı işğaldan azad edərək xalqımıza böyük sevinc bəxş etmiş, ata vəsiyyətini həyata keçirmisiniz. Siz müdrik və qətiyyətli siyasət aparаraq, bütün çətinliklərə cəsarətlə sinə gərərək haqq səsimizi dünyaya çatdırmısınız, Azərbaycanı qalib, qüdrətli dövlət kimi tanıtmısınız. Sizin rəhbərliyinizlə Azərbaycanın gələcəkdə daha böyük uğurlar qazanacağına, xalqımızın daha xoşbəxt həyat yaşayacağına əminik.

Möhtərəm Prezidentimiz, Sizi həmçinin Ümummilli Liderimiz Heydər Əliyevin xalqımıza ərməğan etdiyi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edirik. Hər zaman Sizin və dövlətimizin ətrafında sıx birləşərək Vətənimizə xidmət etməyə hazır olduğumuzu bildiririk.

*Dərin hörmət və ehtiramla,*
*Var olun, cənab Prezident!*

***Xuraman AĞAYEVA,***
***İstanbul Azərbaycan Dostluq Dərnəyinin sədri***

❖❖❖

Hörmətli cənab Prezident!

İcazə verin, Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edim və Sizə möhkəm cansağlığı, xoşbəxtlik, doğma Azərbaycanımızın gələcəyi naminə davamlı uğurlar arzulayım.

Sizin rəhbərliyinizlə Azərbaycan siyasi, iqtisadi və digər sahələrdə inkişaf edərək misli görünməmiş bir yol qət etmişdir. Siz Azərbaycanı tarixində heç vaxt olmadığı qədər güclü dövlətə çevirmisiniz, regional lider kimi ölkənin nüfuzunu beynəlxalq aləmdə yüksəltmisiniz.

Sizin təşəbbüslərinizlə Azərbaycanda və regionda gedən nəhəng quruculuq işləri bizə ölkənin gələcəyinə inamla baxmağa imkan yaradır və ən mühüm nailiyyətlərinizin hələ qabaqda olduğunu deməyə əsas verir.

Cənab Prezident, Sizi həmçinin qarşıdan gələn Yeni il münasibətilə təbrik edirəm, Sizə və yaxınlarınıza xoşbəxtlik və firavanlıq arzulayıram.

*Dərin hörmətlə,*

***Natiq AĞAMİROV,***
***Avropa Azərbaycanlıları Konqresinin fəxri prezidenti, professor***

❖❖❖

Möhtərəm cənab Prezident, Müzəffər Ali Baş Komandan!

Zati-alinizə doğum gününüz münasibətilə səmimi təbriklərimi çatdırmaqdan böyük şərəf duyuram.

Xaricdə yaşamağımıza baxmayaraq, Sizin milli dövlətçilik düşüncəmizin daha da dərinləşməsi və suverenliyimizin daha da möhkəmlənməsinə bəxş etdiyiniz inam, qürur və güclü Azərbaycan ideyası bizim Vətənlə sarsılmaz bağlarımızı daim gücləndirib və ona xidmət etməyə yeni stimul verib. Sizin qətiyyətli siyasi iradəniz və liderlik nümunəniz bizə milli birliyimizin, yüksək vətənpərvərlik ruhumuzun və dövlətimizin inkişaf perspektivlərinə inamla baxmaq gücü verib. Bu şərəfli və tarixi missiyanı həyata keçirərkən bizim - Vətənə bağlı insanların sevgisi, etimadı və dəstəyi hər zaman Sizinlədir.

Bu il Siz bizə ata vəsiyyəti, dəmir iradə və qətiyyət ilə gerçəkləşən tarixi Zəfərimizin 5 illiyini böyük qürur, sonsuz iftixar və kövrək sevinc hissi ilə yaşatdınız. Arzu edirəm ki, şərəfli liderlik yolunuzun bütün mərhələlərində xalqın sevgisi Sizin üçün hər zaman mənəvi dayaq olsun.

Müzəffər Sərkərdəmiz, Sizi həm öz adımdan, həm də daim qayğınızı əsirgəmədiyiniz ailəmiz adından bir daha təbrik edir, Sizə uzun ömür, möhkəm cansağlığı, fədakar dövlətçilik fəaliyyətinizdə uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Nuran ABDULLAYEV,***
***Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin sədri, Almaniyanın Troisdorf şəhərinin Radiologiya, Nuklear Tibb və Neyroradiologiya Klinikasının rəhbəri, tibb elmləri doktoru, professor***

❖❖❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə İrlandiyada fəaliyyət göstərən "Əşrəf və Anna" musiqi məktəbinin kollektivi adından səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Sizin müdrik rəhbərliyiniz, qətiyyətli siyasi iradəniz və Vətənə sonsuz sevginiz sayəsində Azərbaycan dövləti beynəlxalq aləmdə öz layiqli yerini daha da möhkəmləndirmiş, tarixi zəfərlərə imza atmışdır. Bu nailiyyətlər hər bir azərbaycanlı üçün sonsuz qürur mənbəyidir.

Xaricdə yaşayan azərbaycanlıların milli-mədəni dəyərlərinin qorunmasına və dünya azərbaycanlılarının birliyinə göstərdiyiniz xüsusi diqqət və qayğı bizim üçün böyük stimul və mənəvi dayaqdır. Biz də öz növbəmizdə Azərbaycan mədəniyyətini, incəsənətini və milli kimliyimizi İrlandiyada layiqincə təmsil etməyə çalışırıq.

Zati-alinizə dərin hörmət və ehtiramımı bildirirəm.

Uca Tanrı Sizi və ailənizi qorusun!

*Dərin hörmətlə,*

***Əşrəf TAĞIYEV,***
***İrlandiyada fəaliyyət göstərən "Əşrəf və Anna" musiqi məktəbinin direktoru, Azərbaycanın İrlandiyadakı mədəniyyət elçisi***

❖❖❖

Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan!

Kanadanın Saskaçevan əyalətində yaşayan azərbaycanlılar adından Sizə doğum gününüz münasibətilə səmimi təbriklərimizi çatdırır, dərin hörmət və ehtiramımızı bildiririk.

Sizin qətiyyətli və uzaqgörən rəhbərliyinizlə Azərbaycan böyük nailiyyətlərə, tarixi Zəfərə imza atmış, ölkəmizin suverenliyi tam bərpa edilmiş və beynəlxalq aləmdə güclü, nüfuzlu bir dövlət kimi mövqeyi möhkəmlənmişdir.

2025-ci ilin Azərbaycanda "Konstitusiya və Suverenlik İli" kimi qeyd olunması dövlətçiliyimizin möhkəmliyinin və milli iradəmizin təntənəsidir. Biz, Vətəndən uzaqda yaşayan azərbaycanlılar bundan böyük qürur və sevinc hissi duyuruq.

Sizin həyata keçirdiyiniz siyasət dünya azərbaycanlıları arasında birlik və həmrəylik hissini daha da gücləndirmişdir.

Gənclərin milli kimliyinin, ana dilinin və Vətən sevgisinin qorunması Saskaçevan əyalətində fəaliyyət göstərən icmamızın əsas prioritetlərindəndir.

Bu istiqamətdə gördüyümüz işlərdə Sizin müəyyən etdiyiniz dövlətçilik yolu bizim üçün əsas dayaqdır.

Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də səmimi-qəlbdən təbrik edir, Zati-alinizə möhkəm cansağlığı, tükənməz enerji və ölkəmizi daha da böyük uğurlara aparan fəaliyyətinizdə davamlı nailiyyətlər arzulayırıq.

*Dərin hörmətlə,*

***Ruhid MİRZƏYEV,***
***Kanadanın Saskaçevan əyalətində fəaliyyət göstərən Azərbaycan Birliyinin rəhbəri***

❖❖❖

Hörmətli cənab Prezident!

Kanadada fəaliyyət göstərən Recayna Azərbaycan Mədəniyyət Assosiasiyası adından Sizə doğum gününüz münasibətilə səmimi təbriklərimizi, ən xoş arzularımızı çatdırırıq.

Bu gün biz Azərbaycan Respublikasının Sizin rəhbərliyinizlə beynəlxalq arenada söz sahibi olan, milli maraqlarını qətiyyətlə qoruyan, xalqını ətrafında sıx birləşdirən nüfuzlu və qüdrətli bir dövlət olmasından qürur duyuruq.

Əminik ki, əldə edilən uğurlar hər bir vətənpərvər azərbaycanlını sevindirir.

Sizin həyata keçirdiyiniz uğurlu siyasət sayəsində Azərbaycanın inkişaf yolunda daha sürətlə irəliləyəcəyinə əminik.

Biz - Vətəndən kənarda yaşayan azərbaycanlılar milli kimliyimizi qorumağı, Azərbaycan mədəniyyətini təbliğ etməyi, tariximiz və həqiqətlərimizi dünya ictimaiyyətinə çatdırmağı ən şərəfli borcumuz hesab edirik.

Sizi həmçinin 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də ürəkdən təbrik edirik. 2026-cı ildə Sizə və ölkəmizə daha böyük nailiyyətlər, dövlətimizə tərəqqi, xalqımıza isə əmin-amanlıq və rifah arzulayırıq. Sizə dərin ehtiramımızı bildiririk.

*Hörmətlə,*

***Kanadada fəaliyyət göstərən Recayna Azərbaycan Mədəniyyət Assosiasiyası***

❖❖❖

Hörmətli İlham Heydər oğlu!

Şimali Osetiya regional milli-mədəni ictimai təşkilatı olan Azərbaycanlılar Konqresi adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, ailə səadəti, uğurlar, tükənməz enerji, Vətənimiz Azərbaycanın rifahı naminə həyata keçirdiyiniz bütün fəaliyyətinizdə yeni nailiyyətlər diləyirik.

Siz keçmişin ən yaxşı təcrübəsini özündə birləşdirən, eyni zamanda tarixi perspektivə malik gələcək ideyalara sahib dövlət xadimisiniz.

Sizin yaradıcı və çoxşaxəli fəaliyyətiniz Azərbaycanı güclü dövlətə çevirib, onun müstəqilliyini möhkəmləndirib, apardığınız konstruktiv siyasət beynəlxalq aləmdə Sizə böyük nüfuz qazandırıb.

Hörmətli İlham Heydər oğlu, bu gün bütün dünya azərbaycanlıları, o cümlədən Şimali Osetiya-Alaniya Respublikasında yaşayan soydaşlarımız Sizinlə qürur duyurlar.

Allahdan Sizə möhkəm cansağlığı, uzun ömür diləyirik.

*Hörmətlə,*

***Şahin MƏMMƏDOV,***
***Rusiyanın Şimali Osetiya-Alaniya Respublikasında Azərbaycanlılar Konqresinin fəxri prezidenti,***

***Murtuz GÜLMƏMMƏDOV,***
***konqresin sədri***

❖❖❖

Çox hörmətli cənab Prezident!

Maksim Tank adına Belarus Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin kollektivi Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edir.

Sizin qətiyyətli addımlarınız, müdrik siyasətiniz sayəsində Qarabağ problemi birdəfəlik həll olundu, ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin edildi.

Biz Sizinlə - dünya siyasi arenasında ən hörmətli və nüfuzlu liderlərdən biri olan Prezidentimizlə fəxr edirik. Bu, eyni zamanda hər birimizin üzərinə daha böyük məsuliyyət qoyur - fəaliyyətimizlə Azərbaycanın adını xaricdə hər zaman uca tutmaq və onun nüfuzunun daha da artmasına töhfə vermək.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də təbriklərimizi çatdırırıq.

Sizə möhkəm cansağlığı, fəaliyyətinizdə uğurlar, yeni-yeni qələbələr arzulayırıq. İnanırıq ki, Siz öz uzaqgörənliyiniz, zəngin təcrübənizlə Azərbaycanı daim zirvələrə ucaldacaqsınız.

*Dərin hörmətlə,*

***Fuad İBRAHİMOV,***
***Maksim Tank adına Belarus Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin rəhbəri***

# Bakıda 2-ci Azərbaycan-Türkiyə İnvestisiya Forumu keçirilib







**Dekabrın 23-də Bakıda 2-ci Azərbaycan-Türkiyə İnvestisiya Forumu keçirilib.**

Tədbirin açılış mərasimində Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov və Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmaz iştirak ediblər.

Tədbirdə çıxış edən Ə.Əsədov forumu hökumət və biznes dairələri arasında açıq və səmərəli dialoqun qurulması, yeni layihələrin müzakirəsi və işgüzar əlaqələrin genişləndirilməsi üçün mühüm platforma kimi səciyyələndirib.

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında mövcud olan yüksəksəviyyəli siyasi dialoqun və qarşılıqlı etimadın ikitərəfli iqtisadi əməkdaşlığın davamlı inkişafı üçün möhkəm zəmin yaratdığı diqqətə çatdırılıb.

Ticarət-iqtisadi əlaqələrin genişləndirilməsinin hər iki ölkə üçün prioritet istiqamətlərdən biri olduğu bildirilib.

İnvestisiya əməkdaşlığının yaxşı dinamika nümayiş etdirdiyi vurğulanıb. Bu günədək Azərbaycan Türkiyə iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox, Türkiyə isə Azərbaycan iqtisadiyyatına təqribən 18 milyard ABŞ dolları sərmayə qoyub. Hazırda Azərbaycanda 4600-dən çox Türkiyə şirkəti fəaliyyət göstərir. Eyni zamanda Türkiyədə 3000 Azərbaycan şirkəti müxtəlif sahələrdə iş quraraq qardaş ölkənin iqtisadi inkişafına töhfə verir.

Baş nazir bildirib ki, işğaldan azad olunmuş ərazilərdə Böyük Qayıdışa dair I Dövlət Proqramından irəli gələn tədbirlərin dəstəklənməsi məqsədilə özəl investisiyaların cəlb edilməsi fəal şəkildə təşviq olunur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının "yaşıl enerji" potensialından səmərəli istifadə üçün mövcud infrastrukturun yenilənməsi və yenisinin tikilməsi istiqamətində xarici kapitalın cəlb edilməsi davam edir. Qeyd olunub ki, Türkiyə şirkətləri işğaldan azad olunmuş ərazilərdəki layihələrin icrasına fəal şəkildə cəlb ediliblər.

Eyni zamanda ölkənin xüsusi iqtisadi zonalarında biznesin həyata keçirilməsi üçün hər cür əlverişli şəraitin yaradıldığı vurğulanıb. İnvestorlar üçün cəlbedici şərtlər təklif edən Ələt Azad İqtisadi Zonası xüsusi qeyd edilib.

Bir sıra Türkiyə şirkətlərinin artıq sözügedən xüsusi iqtisadi zonalarda fəaliyyət göstərdiyi bildirilib. "Burada investisiya qoyuluşu üzrə əməkdaşlıq üçün yaxşı perspektivlər görürük. Odur ki, Türkiyə şirkətlərini daha fəal olmağa dəvət edirik" , - deyə Ə.Əsədov əlavə edib.

Azərbaycan və Türkiyənin birgə iştirak etdikləri qlobal layihələrin ticarət əlaqələrinin inkişafında mühüm rol oynadığı vurğulanıb.

Bu kontekstdə Orta dəhlizin təkcə region üçün deyil, qlobal ticarət və nəqliyyat əlaqələrinin genişləndirilməsi baxımından strateji əhəmiyyəti qeyd edilib. Son üç ildə Azərbaycan vasitəsilə Orta dəhliz üzrə yükdaşımaların həcminin 90 faiz artdığı diqqətə çatdırılıb.

Eyni zamanda Zəngəzur dəhlizinin açılmasının region dövlətləri üçün yeni iqtisadi və tranzit imkanları yaradacağı və Orta dəhlizin ötürücülük qabiliyyətini artıracağı vurğulanıb.

Enerji sahəsində strateji tərəfdaşlığın irimiqyaslı layihələr vasitəsilə daha da möhkəmləndiyi bildirilib. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TANAP layihələrinin Azərbaycanın enerji resurslarının Avropa bazarlarına etibarlı çıxışını təmin etdiyi vurğulanıb.

Ə.Əsədov xatırladıb ki, dekabrın 31-də "Cənub qaz dəhlizi"nin sonuncu halqasını təşkil edən TAP boru kəməri vasitəsilə Avropaya qaz nəqlinin başlamasının 5 ili tamam olur və ötən dövr ərzində Azərbaycanın qaz ixrac etdiyi ölkələrin sayı 14-ə çatıb.

SOCAR-ın Türkiyəyə 19 milyarda yaxın ABŞ dolları sərmayə ilə qardaş ölkənin ən böyük xarici investoru olduğu qeyd edilib. Bu sərmayələr çərçivəsində neft emalı, neft-kimya və təbii qaz sahələrində bir sıra strateji layihələrin həyata keçirildiyi bildirilib. Şirkətin Türkiyədəki fəaliyyətinin genişləndirilməsi ilə bağlı planları barədə bəhs olunub, forum çərçivəsində Türkiyədə yerləşən 870 MVt-lıq elektrik stansiyasının alqı-satqısına dair sənədin imzalanacağı bildirilib.

Sənaye və texnologiya sahələrində əməkdaşlığın keyfiyyətcə yeni mərhələyə yüksəldiyi, müasir texnologiyaların tətbiqi, rəqəmsal iqtisadiyyat, süni intellekt və innovasiya sahələrində əməkdaşlığın genişləndirildiyi qeyd edilib.

Müdafiə sənayesi xüsusilə vurğulanıb. Azərbaycanda müdafiə sənayesinin son zamanlar yüksək templə inkişaf etdiyi, Türkiyə ilə bu sahədə səmərəli əməkdaşlığın qurulduğu diqqətə çatdırılıb.

Türk Dövlətləri Təşkilatı çərçivəsində sənaye, elm, texnologiya və innovasiya sahələrində əməkdaşlıq xüsusi vurğulanıb.

Bununla yanaşı, Türk İnvestisiya Fondunun yaradılmasının region daxilində birgə investisiya təşəbbüslərinin dəstəklənməsi və maliyyə alətlərinin genişləndirilməsi baxımından strateji əhəmiyyəti qeyd edilib.

Forumun Azərbaycan və Türkiyə arasında iqtisadi tərəfdaşlığın yeni mərhələyə yüksəlməsinə, qarşılıqlı investisiyaların artmasına və birgə uğurlu layihələrin reallaşmasına mühüm töhfə verəcəyinə əminlik ifadə olunub.

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 may tarixli 123 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ədliyyə orqanları işçilərinin qulluq illərinin hesablanması və bununla əlaqədar onlara əlavə haqqın verilməsi Qaydası"nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 409**

**Bakı şəhəri, 22 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq,"Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 65-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 23 may tarixli 204-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 may tarixli 123 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 5, maddə 446 (Cild I); 2025, № 5, maddə 507; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 3 noyabr tarixli 329 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Ədliyyə orqanları işçilərinin qulluq illərinin hesablanması və bununla əlaqədar onlara əlavə haqqın verilməsi Qaydası"nın 2.2.5-ci yarımbəndinə (birinci halda) "hakim" sözündən əvvəl "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 65-VIIQD nömrəli Qanunu qüvvəyə minənədək ədliyyə oqranlarına işə qəbul olunmuş şəxslərə münasibətdə -" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Milli Məclisin iclasında

# Uğurlarımızın təməlində Prezident İlham Əliyevin uzaqgörən və qətiyyətli siyasəti dayanır

Dekabrın 23-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə iclasın əvvəlində Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, dekabrın 24-ü Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin doğum günüdür.



Prezident İlham Əliyevin fəaliyyətinin miqyasına və əhəmiyyətinə görə milli tariximizdə müstəsna yeri olan siyasi və dövlət xadimi olduğunu deyən Milli Məclisin Sədri bildirib ki, eyni zamanda o, dünya siyasətinin ən tanınmış və nüfuzlu şəxsiyyətlərindən biridir: "Müasir Azərbaycanın dinamik iqtisadiyyata malik olan, regional və qlobal proseslərdə önəmli rol oynayan bir dövlət kimi inkişaf etməsi Prezident İlham Əliyevin uzaqgörən daxili və xarici siyasəti ilə bağlıdır.

Məhz onun fenomenal liderlik məharəti, strateji baxışı, əzmi və cəsarəti sayəsində Azərbaycan sabitlik və quruculuq məkanına çevrilmiş, dövlətimiz keyfiyyətcə yeni səviyyəyə yüksəlmişdir. Son 22 ildə möhtərəm Prezidentin rəhbərliyi ilə həyata keçirilən strateji xətt Ulu Öndər Heydər Əliyevin siyasi kursunu yeni dövrün şəraitinə və qlobal transformasiyaların tələblərinə uyğunlaşdırmağa imkan vermişdir. Möhtərəm İlham Əliyevin dövlət maraqlarımızın qorunmasında prinsipial, qətiyyətli və ardıcıl fəaliyyəti Azərbaycanı beynəlxalq birliyin önəmli bir üzvünə çevirmişdir".

Milli Məclisin Sədri qeyd edib ki, Prezident İlham Əliyevin tarixi xidmətlərindən biri də dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunmasıdır. Onun rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında əldə edilən tarixi qələbələr sayəsində Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyulması ölkəmizin inkişafında yeni mərhələ açıb.

Spiker bildirib ki, Prezident İlham Əliyevin sülh diplomatiyasının təntənəsi olan Vaşinqton razılaşmaları milli maraqlarımızın təmin edilməsi yolunda növbəti böyük uğurdur. Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın vasitəçiliyi ilə əldə edilən bu razılaşmalar ölkəmiz və bütün Cənubi Qafqaz regionu qarşısında sülh, sabitlik və əməkdaşlığı təcəssüm etdirən yeni üfüqlər açıb.

Diqqətə çatdırılıb ki, ölkəmizin davamlı iqtisadi inkişafı xalqımızın və dövlətimizin rifahına yönələn möhtəşəm layihələri reallaşdırmağa imkan verir. Prezidentin rəhbərliyi ilə Qarabağın və Şərqi Zəngəzurun simasını dəyişən nəhəng quruculuq işləri sürətlə həyata keçirilir. Məcburi köçkün soydaşlarımız mərhələ-mərhələ ata-baba yurdlarına dönürlər.

Ölkəmizin xoşbəxt gələcəyi cənab İlham Əliyevin əzmlə davam etdirdiyi quruculuq və inkişaf strategiyası ilə bağlıdır. Əminliklə söyləmək olar ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan qarşıdakı illərdə yeni nailiyyətlərə imza atacaq, dünyanın sayılıb-seçilən dövlətləri sırasında öz yerini daha da möhkəmləndirəcək.

Milli Məclisin Sədri Sahibə Qafarova doğum günü münasibətilə Prezident İlham Əliyevə Milli Məclis adından təbrik məktubunun ünvanlanmasını təklif edib və Azərbaycanın daha da möhkəmlənməsi və inkişafı naminə həyata keçirdiyi dəyərli fəaliyyətində dövlət başçısına uğurlar arzulayıb.

Sonra iclasda cari məsələlərlə bağlı müzakirələrdə komitə sədrləri Zahid Oruc, Fazil Mustafa, deputatlar Mübariz Qurbanlı, Asif Əsgərov, Azər Kərimli, Azər Badamov, Sahib Alıyev, Məlahət İbrahimqızı, Nigar Məmmədova, Günay Ağamalı, Vüqar Bayramov, Tural Gəncəliyev, Əminə Ağazadə, Vüqar Rəhimzadə, Bəhruz Məhərrəmov, Ceyhun Məmmədov, Aydın Hüseynov, Aydın Mirzəzadə və Razi Nurullayev çıxış ediblər.

Millət vəkilləri Prezident İlham Əliyevi doğum günü münasibətilə təbrik edərək, ona ölkəmizin inkişafı naminə yorulmaz fəaliyyətində uğurlar arzulayıblar. Çıxışlarda vurğulanıb ki, Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycanın dövlət müstəqilliyinin dönməzliyi təmin edildi, azərbaycançılıq ideologiyası dövlət ideologiyası səviyyəsində təsbit olundu, ölkənin inkişaf istiqamətləri müəyyən edildi. Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa olunub, cari il avqustun 8-də Vaşinqtonda sülh sazişi paraflanıb. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında uzunmüddətli işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda bərpa, quruculuq, məskunlaşma ilə bağlı işlər sürətli şəkildə və uğurla davam edir. Qeyd olunub ki, dövlət başçımızın yürütdüyü siyasət nəticəsində çoxəsrlik düşmənçiliyə, revanşizmə, məkrli oyunlara son qoyulub. Prezidentin rəhbərliyi ilə Azərbaycan postsovet məkanında münaqişələrə məruz qalan ölkələr arasında ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən ilk dövlətdir. Humanizm, ədalət, millətlərarası dostluq, mədəni müxtəliflik, tarixilik və müasirliyin vəhdəti dövlətimizin başçısının siyasətində özünün əksini tapır.

Bildirilib ki, müasir Azərbaycanın inkişaf yoluna nəzər saldıqda aydın görünür ki, əldə olunan nailiyyətlərin, qorunan sabitliyin, qazanılan uğurların mərkəzində Prezident İlham Əliyevin düşünülmüş, uzaqgörən və qətiyyətli siyasəti dayanır. Sabitlik üzərində qurulan inkişaf modeli, milli maraqlara əsaslanan müstəqil siyasət, güclü iqtisadiyyat və sosial ədalət prinsipi ölkəmizin rəhbərinin idarəçilik xəttinin əsas sütunlarını təşkil edir. İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan güclü, müasir və hüquqi dövlət kimi mövqeyini daha da möhkəmləndirib. Diqqətə çatdırılıb ki, onun uzaqgörən və prinsipial siyasəti nəticəsində dövlət idarəçiliyində sabitlik təmin edilib, davamlı olaraq islahatlar həyata keçirilir, milli maraqlara əsaslanan strateji inkişaf kursu formalaşıb. Eyni zamanda qanunvericilik sistemi daha da təkmilləşib, vətəndaşların hüquq və azadlıqlarının təminatı gücləndirilib, dövlət-vətəndaş münasibətlərində şəffaflıq və məsuliyyət prinsipləri ön plana çıxarılıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət sayəsində bu gün təhlükəsiz, sabit, dinamik şəkildə inkişaf edən Azərbaycan regionun mühüm siyasi və iqtisadi mərkəzlərindən birinə çevrilib, beynəlxalq müstəvidə öz strateji əhəmiyyətini artırıb, etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirib.

Deputatlar Prezident İlham Əliyevin Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında imzaladığı sərəncamı dövlətimizin milli irsə, tarixi yaddaşa müasir inkişaf çağırışları fonunda verdiyi strateji əhəmiyyətin parlaq ifadəsi kimi dəyərləndiriblər. Bu qərarı həm də ölkənin sosial-iqtisadi inkişafında yeni mərhələnin başlanğıcı kimi yüksək qiymətləndiriblər.

Müzakirələr zamanı Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqına tarixi müraciətində əminliklə ifadə etdiyi "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" fikirləri bir daha səsləndirilib və ötən müddət ərzində Azərbaycan tarixinə yazılan zəfərlərin, uğurların, inkişafın bu inamın və ümidin reallaşmasının təsdiqi olduğu vurğulanıb. Bildirilib ki, Azərbaycan xalqı öz Prezidenti ilə fəxr edir və həmişə onun yanındadır.

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başlayıb.

Parlamentin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında 2017-ci il 31 oktyabr tarixli Sazişə Əlavə Protokol"un təsdiq edilməsi barədə qanun layihəsini təqdim edib. Qeyd edib ki, Azərbaycanla Türkiyə arasında təhsil sahəsində əməkdaşlıq haqqında Sazişə Əlavə Protokolun məqsədi Azərbaycanda və Türkiyədə fəaliyyət göstərəcək məktəblərin fəaliyyətinə və məktəb binalarının istifadəyə verilməsinə dair prosedur və əsasları müəyyənləşdirmək, bu binaların sazişə uyğun olaraq Bakı Türk Təhsil Müəssisələri və Azərbaycan tərəfinin açacağı təhsil müəssisəsi üçün təlim-tədris fəaliyyətlərində istifadə olunması məqsədilə çərçivəni tənzimləməkdir.

Bildirilib ki, layihədə Azərbaycanın təhsil müəssisələrinin fəaliyyəti, onların istifadəyə verilmə qaydaları, hər iki tərəfin maliyyə öhdəlikləri, binalarda təmir və bərpa işlərinin aparılması şərtləri, bir sıra digər məsələlər ehtiva olunur.

Müzakirələr zamanı komitə sədri Siyavuş Novruzov məsələ barədə öz fikirlərini açıqlayıb.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Fariz İsmayılzadə məsələ barədə bu komitənin rəyini söyləyərək qeyd edib ki, sənəd Azərbaycanla Türkiyə arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsinə, həm milli, həm də regional səviyyədə təhsil sahəsində səmərəli nəticələr əldə edilməsinə imkan verəcək.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Komitə sədri Anar İsgəndərov "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair 2021-ci il 19 fevral tarixli Protokola Əlavə Protokol"un təsdiq edilməsi haqqında qanun layihəsini də təqdim edib. Qeyd edilib ki, qanun layihəsi komitədə müzakirə olunub və plenar iclasa tövsiyə edilib.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Fariz İsmayılzadə məsələyə bu komitədə baxılaraq müsbət rəy verildiyini söyləyib, sənədin peşəkar kadrların hazırlanmasına və təlim-tədris keyfiyyətinin artırılmasına xidmət edəcəyini deyib.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov "Azərbaycan Respublikası Hökuməti ilə Oman Sultanlığı Hökuməti arasında diplomatik, xüsusi və xidməti pasport sahiblərinin vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsini diqqətə çatdırıb. O, sənədin Azərbaycanın islam dünyası ilə əlaqələrinin genişlənməsinə, ölkəmizin siyasi nüfuzunun gücləndirilməsinə, diplomatik imkanlarının genişlənməsinə, işgüzar əlaqələrinin daha da inkişafına xidmət edəcəyini vurğulayıb.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İclasda "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda qəbul edilib.

"Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə, "Dövlət rüsumu haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında" və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələri, o cümlədən Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Həmkarlar ittifaqları haqqında", "Sosial sığorta haqqında", "Bələdiyyələrin statusu haqqında", "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Gənclər siyasəti haqqında", "Yaşayış minimumu haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "İşsizlikdən sığorta haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Məşğulluq haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclisin Sədri Türkiyənin Vitse-prezidenti ilə görüşüb



Dekabrın 23-də Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Türkiyənin Vitse-prezidenti Cevdet Yılmazın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, yihələrin böyük regional və qlobal əhəmiyyət daşıdığı qeyd olunub. Bu baxımdan Orta dəhlizin əsas xəttinə çevriləcək Zəngəzur dəhlizinin strateji əhəmiyyət kəsb etdiyi bildirilib.

Söhbət zamanı Azərbaycan və Türkiyə arasında əlaqələrin inkişafının TDT-ni daha da gücləndirdiyi qeyd olunub. Bildirilib ki, bununla yanaşı, TürkPA da türkdilli ölkələrin parlament platforması kimi mühüm əhəmiyyət daşıyır.

Görüşdə Türkiyənin Vitse-prezidenti Azərbaycan Res-



qonaqla növbəti dəfə görüşməkdən məmnunluğunu bildirən Milli Məclisin Sədri Bakıda keçirilmiş Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclasının əhəmiyyətindən danışıb. İki ölkə arasındakı münasibətlərin Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını özündə ehtiva etdiyini deyən Milli Məclisin Sədri iqtisadi, ticarət, təhsil, turizm, parlamentlərarası və digər sahələrdə əlaqələrimizin günbəgün daha da gücləndiyini qeyd edib. Söhbət zamanı dövlət başçıları arasındakı şəxsi münasibətlərin və sıx təmasların müttəfiqlik münasibətlərinin ardıcıl inkişafını təmin edən əsas amil olduğu vurğulanıb. Spiker Sahibə Qafarova Türkiyənin COP31-in ev sahibi seçilməsi münasibətilə təbriklərini çatdırıb və Azərbaycanın həmişə qardaş ölkənin yanında olduğunu deyib.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə mövcud olan ənənəvi sıx əməkdaşlıqdan və qarşılıqlı dəstəkdən məmnunluq ifadə olunub, Türk Dövlətləri Təşkilatının (TDT) türk dünyasının birliyi baxımından əhəmiyyəti diqqətə çatdırılıb.

Söhbətdə parlamentlərarası əlaqələrin dövlətlərarası münasibətlərin mühüm bir hissəsi kimi əhəmiyyəti qeyd edilib, bu sahədə parlamentlərimizdə fəaliyyət göstərən qarşılıqlı dostluq qruplarının fəaliyyəti vurğulanıb. Milli Məclisin Sədri Azərbaycan və Türkiyə parlamentləri arasında ikitərəfli, üçtərəfli və çoxtərəfli əməkdaşlığın uğurlu inkişafından məmnunluğunu ifadə edib.

Yenidən Azərbaycanda olmaqdan məmnunluğunu bildirən Türkiyənin Vitse-prezidenti Cevdet Yılmaz Türkiyənin COP31-in ev sahibi seçilməsi üçün Azərbaycanın səylərinə görə təşəkkürünü bildirib və bu mühüm beynəlxalq tədbirin keçirilməsi üçün Türkiyənin Azərbaycanın təcrübəsindən istifadə edəcəyini diqqətə çatdırıb.

Görüşdə ölkələrimiz arasında iqtisadi-ticari, investisiya, enerji və digər sahələrdə birgə reallaşdırdıqları meqalapublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclasında təsdiqlənmiş Fəaliyyət Planının qarşılıqlı əlaqələrimizi daha da inkişaf etdirəcəyini diqqətə çatdırıb.

Söhbət zamanı Cevdet Yılmaz Azərbaycanla Ermənistan arasında sülh prosesində əldə olunan nailiyyətlərə də toxunaraq, iki ölkə arasında sülh müqaviləsinin imzalanmasının bölgədə sülh və sabitliyi təmin edəcəyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# "Rəqəmsal mühitdə uşaqların müdafiəsi: müasir alətlər və beynəlxalq əməkdaşlıq" konfransının iştirakçıları "Mənim dənizlərim, mənim okeanlarım" sərgisini ziyarət ediblər














Dekabrın 23-də Bakıda keçirilən "Rəqəmsal mühitdə uşaqların müdafiəsi: müasir alətlər və beynəlxalq əməkdaşlıq" konfransının iştirakçıları Heydər Əliyev Mərkəzində olublar.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva qonaqlarla birgə su ehtiyatlarının qorunmasına çağırış edən "Mənim dənizlərim, mənim okeanlarım" sərgisini ziyarət edib.

Qeyd edək ki, Heydər Əliyev Fondu və IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təşəbbüsü ilə təşkil edilən ekspozisiyada müasir rəssamların çirklənmə və həddindən artıq balıq ovundan tutmuş, bioloji müxtəlifliyin itirilməsinə qədər bir sıra qlobal problemləri əks etdirən əsərləri təqdim edilir. Əsərlərdə su həyatın, yenilənmənin və təsəvvürün mənbəyi kimi təsvir olunur.

Rəssam və heykəltaraşlar, multimedia və çoxsahəli sənətçilər su, iqlim dəyişikliyi, davamlılıq və dəniz biomüxtəlifliyi mövzularına müraciət edərək, bədii işləri vasitəsilə dənizlərimizin, okeanlarımızın və ortaq gələcəyimizin qorunmasına çağırış edirlər. Sonra Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın İran nümayəndə heyətinin rəhbəri, İran İslam Respublikası Prezidentinin qızı Zəhra Pezeşkianla ikitərəfli görüşü olub.

Tədbir çərçivəsində qonaqlar tərəfindən Leyla Əliyevaya hədiyyə təqdim olunub. Həmçinin Leyla Əliyeva da qonaqlara hədiyyələr təqdim edib.

# Gənclər və İdman Nazirliyi ilin ən yaxşılarını mükafatlandırıb

Gənclər və İdman Nazirliyi ilin idman yekunları ilə bağlı qala mərasimi keçirib.

AZƏRTAC xəbər verir ki, tədbirə idman təşkilatlarının, federasiyaların, media qurumlarının rəhbərləri, idmançılar, məşqçilər və idman ictimaiyyətinin nümayəndələri qatılıblar.

Qala mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva da iştirak ediblər.

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra Ümummilli Lider Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda canından keçən şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Gənclər və idman naziri Fərid Qayıbov 2025-ci ilin Azərbaycan idmanı üçün kifayət qədər uğurlu keçdiyini qeyd edib. Nazir il ərzində 2113 medalın qazanıldığını, bunun 30 faizinin qızıl əyarlı olduğunu bildirib. Bu isə Azərbaycan idmanı tarixində rekord göstəricidir. Nazir bu nailiyyətlərin Prezident İlham Əliyevin idmana göstərdiyi diqqət və qayğı nəticəsində əldə olunduğunu vurğulayıb.

Daha sonra 4 nominasiya üzrə xüsusi mükafatlar təqdim olunub. Deflimpiya Oyunlarının gümüş mükafatçısı Coşqun Əliyev (cüdo, 60 kiloqram), boks üzrə dünya çempionu Sübhan Mamedov (50 kiloqram), Azərbaycan Atçılıq Federasiyası və cüdo üzrə qarışıq komanda xüsusi mükafata layiq görülüb.

2025-ci ilin idman yekunları barədə hesabat videoçarxı təqdim edildikdən sonra federasiyalar, idman jurnalistləri arasında və sosial mediada aparılmış sorğu əsasında müəyyənləşmiş müxtəlif nominasiyalar üzrə ilin qaliblərinin mükafatlandırılması mərasimi olub.

Mərasimdə ilin ən yaxşı idman fotoqrafları, media qurumları və idman jurnalistləri də açıqlanıb. Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) hər üç nominasiyada qaliblər arasında olub. İlqar Cəfərov ilin ən yaxşı idman fotoqrafı seçilib. AZƏRTAC ilin ən yaxşı yazılı media qurumları arasında, agentliyin İdman redaksiyasının redaktoru Elnur Salahov isə ilin ən yaxşı idman jurnalistləri arasında ikinci yerə layiq görülüb.





**"İlin ən yaxşı idman veteranı"**
Tərlan Həsənov (cüdo)
Tamilla Bünyatova (atletika)
Məhəmməd Müslümzadə (sambo)

**"İlin ədalətli oyun nominasiyası"**
Azərbaycan Badminton Federasiyası
Azər İlyasov (Kanoe və avarçəkmə)
Rauf Məmmədov (şahmat)

**"İlin ən yaxşı uşaq-gənclər idman məktəbi"**
"Ulduz" futbol akademiyası
Respublika Kompleks idman məktəbi
Şuşa uşaq-gənclər idman məktəbi

**"İlin ən yaxşı idman filmi və videoçarxı"**
"Arzuların ardınca" filmi
"Baku Open" şahmat festivalı üçün videoçarx
"Uğur hekayəni yalnız öz gücünlə yaza bilərsən" (taekvondo)

**"İlin ən yaxşı idman fotoqrafı"**
İlqar Cəfərov (AZƏRTAC)
İslam Atakişiyev (idman.biz)
Samirə Həsənova ("Report")

**"İlin ən yaxşı idman media qurumları" (Yazılı media)**
"İdman.biz"
AZƏRTAC
"Report"

**"İlin ən yaxşı media qurumları" (Telekanallar)**
İctimai TV
"CBC Sport"
İdman TV

**"İlin ən yaxşı idman jurnalistləri" (Yazılı media)**
Elmir Əliyev (Haqqın.az)
Elnur Salahov (AZƏRTAC)
Səbuhi Musayev ("Prosport.Az")

**"İlin ən yaxşı televiziya jurnalisti"**
Arifə Lətifova ("CBC Sport")
Fəridə Abdullayeva (İctimai TV)
Vüqar Nəzərov (İdman TV)

**"İlin ən yaxşı idman klubları"**
"Ocaq Sport" İdman Klubu
"Neftçi" İdman Klubu
DİN-in İdman Cəmiyyəti

**"İlin ən yaxşı idman qurğusu"**
Milli Gimnastika Arenası
Gəncə İdman Sarayı
Tofiq Bəhramov adına Respublika Stadionu

**"İlin ən yaxşı Olimpiya-İdman Kompleksləri" (OİK)**
Quba OİK
Şəki OİK
Şirvan OİK

**"İlin ən yaxşı idman həkimi"**
Zaur Abdullayev (Azərbaycan Boks Federasiyası)
Müşfiq İbrahimov (Azərbaycan Güləş Federasiyası)
Ramil Vəliyev (Azərbaycan Cüdo Federasiyası)

**"İlin ən yaxşı hakimi"**
Nazim Umbayev (Azərbaycan Cüdo Federasiyası)
Eldar Zülfüqarov (Azərbaycan Voleybol Federasiyası)
Cahangir Babayev (Azərbaycan Karate Federasiyası)

**"İlin ən yaxşı idman tədbirləri"**
MDB Oyunları
Minifutbol üzrə dünya çempionatı
UFC döyüş gecəsi

**"İlin ən yaxşı idman federasiyaları"**
Azərbaycan Cüdo Federasiyası
Azərbaycan Boks Federasiyası
Azərbaycan Gimnastika Federasiyası

**"İlin qadınlardan ibarət ən yaxşı klub komandaları"**
"Azərreyl" voleybol klubu
"Neftçi" futbol klubu
"Azəryol" həndbol klubu

**"İlin kişilərdən ibarət ən yaxşı klub komandaları"**
"Qarabağ" futbol klubu
"Sabah" basketbol klubu
"Kür" həndbol klubu

**"İlin ən yaxşı idman dəstəkçiləri"**
"iTicket.az"
"Azercell"
"Azəryolservis"

**"Uğurlu beynəlxalq əməkdaşlıq"**
Azərbaycan Avtomobil Federasiyası
Azərbaycan Üzgüçülük Federasiyası
Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası

**"2025-ci ildə dövlət qurumları arasında idman yarışları"**
Fövqəladə Hallar Nazirliyi
SOCAR
Daxili İşlər Nazirliyi

**"İlin kişilərdən ibarət ən yaxşı milli komandaları"**
Minifutbol üzrə milli komanda
Boks üzrə milli komanda
Yunan-Roma güləşi üzrə milli komanda

**"İlin qadınlardan ibarət ən yaxşı milli komandaları"**
3x3 basketbol üzrə milli komanda
Şahmat üzrə milli komanda
Futbol üzrə milli komanda

**"Qeyri-olimpiya idman növləri üzrə ilin ən yaxşı baş məşqçiləri"**
Elşad Quliyev (minifutbol)
Nicat Abbasov (şahmat)
Hikmət Hacıyev (kikboksinq)

**"İlin ən yaxşı qadın məşqçiləri"**
Amina Abdullatif (cüdo)
Fəridə Əzizova (taekvondo)
Samirə Hüseynova (qılıncoynatma)

**"İlin ən yaxşı kişi məşqçisi"**
Qurban Qurbanov ("Qarabağ" futbol klubu)
Riçard Trautman (cüdo)
Elbrus Rzayev (boks)

**"İlin ən yaxşı paralimpiyaçıları"**
İlham Zəkiyev (paracüdo)
Raman Saley (paraüzgüçülük)
Kamran Zeynalov (paragülləatıcılıq)

**"Qeyri-olimpiya idman növləri üzrə ilin ən yaxşı idmançıları"**
İrina Zaretska (karate)
Ülviyyə Fətəliyeva (şahmat)
Elvin Məmmədov (kikboksinq)

**"İlin ən yaxşı qadın idmançıları"**
Jalə Əliyeva (güləş)
Südabə Ağayeva (cüdo)
Nigar Nəsirova (atıcılıq)

**"İlin ən yaxşı kişi idmançıları"**
Həsrət Cəfərov (yunan-Roma güləşi)
Zelim Kotsoyev (cüdo)
İsa Rüstəmov (ağırlıqqaldırma)

Mükafatçılar bəlli olduqdan sonra tədbir bədii hissə ilə davam edib.



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş siyasət, düzgün taktika

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2003-cü ildən ötən 22 il ərzində ölkəyə rəhbərliyi dövründə Azərbaycanın hərtərəfli inkişafında, müstəqillik və suverenliyimizin möhkəmləndirilməsində, eləcə də beynəlxalq aləmdə nüfuzunun yüksəldilməsində mühüm və tarixi nailiyyətlərə imza atmışdır. Onun rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü daxili və xarici siyasət, ardıcıl iqtisadi islahatlar və genişmiqyaslı sosial layihələr Azərbaycanı regionda və dünyada etibarlı və önəmli siyasi aktora çevirmişdir.**



# Milli maraqları qətiyyətlə təmin edən siyasət

Azərbaycanı vətəndaş müharibəsi təhlükəsindən, parçalanmadan, xaosdan və siyasi qeyri-sabitlikdən xilas edən müstəqil Azərbaycan dövlətinin banisi, xalqımızın Ulu Öndəri Heydər Əliyev 2003-cü il oktyabrın 1-də xalqa müraciətində qarşıdan gələn prezident seçkiləri ilə bağlı tarixi çağırış edərək bildirmişdir: *"Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram..."* Bu müraciətdə Ulu Öndər İlham Əliyevin yüksək intellektə malik, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını dərindən bilən, enerjili və təşəbbüskar bir lider olduğunu xüsusi vurğulamış, onun Azərbaycan dövlətinin inkişafı və xalqın rifahı naminə mühüm işlər görəcəyinə dərin inamını ifadə etmişdir.

Zaman bir daha sübut etdi ki, uzaqgörən və müdrik lider Heydər Əliyevin bu fikirləri tamamilə əsaslı idi. Prezident İlham Əliyevin 22 illik fəaliyyəti dövründə əldə olunan çoxsaylı uğurlar bu etimadın nə qədər düzgün olduğunu açıq nümayiş etdirdi.

Şübhəsiz ki, İlham Əliyevin 2003-cü il oktyabrın 15-də keçirilmiş prezident seçkilərində qələbə qazanmasında onun Ulu Öndər Heydər Əliyevin siyasi varisi kimi bu siyasi kursu dərindən mənimsəməsi mühüm rol oynamışdır. Bununla yanaşı, xalqın ona etimad göstərməsində İlham Əliyevin şəxsi keyfiyyətləri, müasir düşüncəsi, zəngin siyasi təcrübəsi və idarəçilik bacarığı da həlledici amillər sırasında olmuşdur.

İlham Əliyev Azərbaycan Respublikası Milli Məclisinin birinci və ikinci çağırışlarında deputat kimi fəaliyyət göstərmiş, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinə rəhbərlik etmiş və həmin qurumun vitse-prezidenti vəzifəsini icra edərək ölkəmizin maraqlarını beynəlxalq müstəvidə uğurla müdafiə etmişdir. Yeni Azərbaycan Partiyasının I qurultayında sədr müavini, II qurultayında isə birinci sədr müavini seçilən İlham Əliyev, 2000-ci il parlament seçkilərində partiyanın seçki kampaniyasına rəhbərlik edərək, mühüm siyasi uğurlar qazanmışdır.

Eyni zamanda Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti kimi fəaliyyəti, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti olaraq, idman sahəsində əldə olunan nailiyyətlərə verdiyi töhfələr, eləcə də Azərbaycan Respublikasının Baş naziri vəzifəsində qazandığı zəngin idarəçilik təcrübəsi İlham Əliyevin peşəkar və müasir siyasətçi kimi formalaşmasında mühüm rol oynamışdır. Məhz bu çoxşaxəli fəaliyyət, liderlik keyfiyyətləri və dərin biliklər onun 2003-cü il prezident seçkilərində qələbəsini şərtləndirən əsas amillərdən olmuşdur.

Sonrakı prezident seçkilərində İlham Əliyevin qazandığı qələbələrin əsas səbəbləri artıq onun dövlət başçısı kimi həyata keçirdiyi ardıcıl və məqsədyönlü fəaliyyət, eləcə də rəhbərliyi dövründə Azərbaycanın keçdiyi davamlı inkişaf yolu ilə bilavasitə bağlı olmuşdur. Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun uğurla davam etdirilməsi, ölkədə ictimai-siyasi sabitliyin qorunması, davamlı tərəqqiyə və xalqın rifahının yüksəldilməsinə xidmət edən siyasət Prezident İlham Əliyevin dövlət idarəçiliyi fəlsəfəsinin əsasını təşkil etmişdir.

Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən və praqmatik siyasət müasir, güclü Azərbaycanın formalaşmasına, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasına mühüm töhfələr vermişdir. Bununla yanaşı, onun təşəbbüsü ilə tolerantlıq və multikulturalizm ənənələrinin daha da möhkəmləndirilməsi Azərbaycanı mədəniyyətlərarası və sivilizasiyalararası dialoq üçün nüfuzlu beynəlxalq məkana çevirmişdir.

İlham Əliyevin siyasi kursunun mahiyyətini xalqa güvənən, xalqın dəstəyi ilə reallaşdırılan, birlik və həmrəylik mühitinin möhkəmlənməsinə xidmət edən, dayanıqlı demokratik ənənələrin formalaşmasını təmin edən mütərəqqi yanaşma təşkil edir. Bu siyasətin əsas ideyası xalqın gücünə arxalanmaq və milli birliyi dövlətin ən möhkəm dayağına çevirməkdir. Məhz bu səbəbdən Prezident İlham Əliyevin siyasi fəlsəfəsinin rəmzinə çevrilən "Biz birlikdə güclüyük" şüarı sonradan düşməni məhv edən "dəmir yumruq" ideyasının da ideoloji əsasını təşkil etmişdir.

Azərbaycanda yaşayan bütün xalqlar Prezident İlham Əliyevin siyasətindən bərabər şəkildə faydalanmış, ölkədə etnik mənsubiyyətə, dini inanclara və siyasi baxışlara görə heç vaxt ayrı-seçkiliyə yol verilməmişdir. Bu yanaşma sağlam əməkdaşlıq və siyasi dialoq mühitinin formalaşmasına, nəticə etibarilə ümumxalq birliyinin möhkəmlənməsinə şərait yaratmışdır. Son illər ərzində siyasi partiyalar tərəfindən imzalanmış birgə bəyanatlar və müraciətlər, eləcə də partiya rəhbərləri ilə keçirilən mütəmadi görüşlər ölkədə formalaşmış konstruktiv siyasi dialoqun və xalq-dövlət birliyinin bariz nümunəsidir. Bütün siyasi partiyalar üçün bərabər fəaliyyət imkanlarının yaradılması demokratik ənənələrin inkişafına mühüm töhfə vermişdir.

Prezident İlham Əliyevin siyasi kursunda xüsusi yer tutan və daim təkmilləşdirilən gənclər siyasəti gənc nəslin ictimai-siyasi proseslərdə fəal iştirakını təmin etmiş, onların intellektual və fiziki potensialından səmərəli istifadə olunmasına şərait yaratmışdır. Bu siyasət milli-mənəvi dəyərlərə sadiq, vətənpərvər və məsuliyyətli gənclərin formalaşmasını təmin etmişdir. Dövlətin gənclərə göstərdiyi davamlı diqqət və dəstək nəticəsində Vətən müharibəsi zamanı Azərbaycan gəncliyi həm döyüş meydanında, həm də arxa cəbhədə və informasiya müharibəsində ölkənin əsas aparıcı qüvvəsinə çevrilmişdir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu Qarabağın işğaldan azad edilməsi kimi tarixi bir uğura imza atmış, bütün dünyanı heyrətləndirən möhtəşəm Zəfər qazanmışdır. Bu tarixi qələbə Prezident İlham Əliyevin uzun illər ərzində həyata keçirdiyi strateji siyasətin, güclü dövlət və ordu quruculuğu xəttinin məntiqi nəticəsi olmuşdur.

44 günlük Vətən müharibəsi Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın tarixi ədaləti bərpa etdiyi, Ermənistanın işğalçı siyasətinə son qoyduğu, Qarabağın və Şərqi Zəngəzurun azad edildiyi şanlı bir Zəfər kimi tarixə düşmüşdür. Bu qələbənin əsasını dövlət başçısının illərlə apardığı məqsədyönlü siyasət, hərbi potensialın ardıcıl şəkildə gücləndirilməsi təşkil etmişdir. Prezident İlham Əliyev beynəlxalq müstəvidə Azərbaycanın haqq səsini qətiyyətlə müdafiə etmiş, Ermənistanın işğalçı siyasətini dünya ictimaiyyətinə ardıcıl şəkildə çatdırmışdır. Müharibə dövründə xarici mediaya verdiyi çoxsaylı müsahibələr Azərbaycanın haqlı mövqeyinin beynəlxalq aləmdə qəbul olunmasında mühüm rol oynamışdır. Ali Baş Komandanın əsas prioritetlərindən biri olan ordu quruculuğu siyasəti nəticəsində həyata keçirilən hərbi islahatlar, müasir texnologiyaların tətbiqi və peşəkar kadr hazırlığı Azərbaycan Ordusunu regionun ən güclü silahlı qüvvələrindən birinə çevirmişdir.

Müharibə zamanı Prezident İlham Əliyev "Biz birlikdə güclüyük" prinsipini praktiki şəkildə bir daha təsdiqləmişdir. Xalqın sarsılmaz dəstəyi, milli birliyin təmin olunması və müharibə strategiyasının düzgün qurulması nəticəsində Azərbaycan Ordusu parlaq qələbə əldə etmişdir. Bu zəfər nəticəsində Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşa daxil olmaqla 300-dən artıq yaşayış məntəqəsi işğaldan azad edilmiş, Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur olmuşdur.

44 günlük müharibədən sonra Ermənistanın götürdüyü öhdəlikləri yerinə yetirməməsi və separatçı rejimin Qarabağda qanunsuz fəaliyyətini davam etdirməsi Prezident İlham Əliyevi bölgədə konstitusiya quruluşunun tam bərpası üçün qətiyyətli addımlar atmağa vadar etmişdir. 2023-cü ilin sentyabrında həyata keçirilmiş antiterror əməliyyatı Azərbaycanın suverenliyinin tam təmin edilməsi, bölgədə fəaliyyət göstərən qanunsuz silahlı birləşmələrin zərərsizləşdirilməsi məqsədi daşıyırdı. Əməliyyat qısa müddətdə uğurla başa çatmış və separatçı rejim təslim olmağa məcbur edilmişdir.

Prezident İlham Əliyev həm 44 günlük Vətən müharibəsində, həm də 2023-cü il antiterror əməliyyatında nümayiş etdirdiyi qətiyyətli liderlik, strateji düşüncə və siyasi iradə ilə Azərbaycanın milli maraqlarının qorunmasında müstəsna rol oynamışdır.

Son illər Prezident İlham Əliyevin təşəbbüsü ilə enerji və nəqliyyat sahələrində reallaşdırılan irimiqyaslı layihələr Azərbaycanın regionda lider mövqeyini daha da möhkəmləndirmişdir. Dövlət başçısının təşəbbüsü ilə həyata keçirilən "Cənub qaz dəhlizi" layihəsi Azərbaycan qazının Avropa bazarına çıxarılmasını təmin etməklə qitənin enerji təhlükəsizliyinə mühüm töhfə vermiş, eyni zamanda ölkəmizin geostrateji əhəmiyyətini əhəmiyyətli dərəcədə artırmışdır. 2022-ci ilin iyul ayında Avropa İttifaqı ilə enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması və bu sənədin qısa müddətdə icrası nəticəsində Avropaya enerji ixracı əhəmiyyətli dərəcədə genişlənmişdir.

Prezident İlham Əliyevin enerji siyasəti yalnız neft-qaz sektoru ilə məhdudlaşmır, eyni zamanda bərpaolunan enerji mənbələrinin inkişafını da əhatə edir. Xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında günəş və külək enerjisi layihələrinin icrası Azərbaycanın "yaşıl enerji" strategiyasının mühüm tərkib hissəsinə çevrilmişdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan qlobal əhəmiyyətli təşəbbüslərin fəal iştirakçısı və müəllifi kimi çıxış edir. 2011-ci ildə ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi Azərbaycanın beynəlxalq nüfuzunun artmasının bariz göstəricisi olmuşdur. Azərbaycan həmçinin Qoşulmama Hərəkatına uğurla sədrlik edərək bu beynəlxalq platformada fəal və prinsipial mövqeyini nümayiş etdirmişdir.

Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, NATO və digər beynəlxalq qurumlarla əməkdaşlığın genişləndirilməsi, eləcə də qardaş Türkiyə başda olmaqla dost və tərəfdaş ölkələrlə münasibətlərin möhkəmləndirilməsi Prezident İlham Əliyevin xarici siyasətində prioritet istiqamətlərdəndir. Son 22 il ərzində Azərbaycanın çoxsaylı nüfuzlu beynəlxalq tədbirlərə evsahibliyi etməsi ölkəmizin qlobal miqyasda rolunu və etibarlılığını daha da artırmışdır.

Pandemiya dövründə Prezident İlham Əliyev qlobal həmrəylik prinsiplərinə əsaslanan mövqeyi ilə liderlik keyfiyyətlərini bir daha nümayiş etdirmişdir. Qoşulmama Hərəkatının sədri qismində onun təşəbbüsü ilə 2020-ci ildə BMT Baş Assambleyasında pandemiyaya həsr edilən xüsusi sessiyanın keçirilməsi Azərbaycan rəhbərliyinin beynəlxalq aləmdə artan nüfuzunun təsdiqi olmuşdur.

Prezident İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycan mədəniyyət, elm, təhsil və idman sahələrində də mühüm nailiyyətlər əldə etmişdir. Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, "Avroviziya" Mahnı Müsabiqəsi və digər beynəlxalq tədbirlərin ölkəmizdə yüksək səviyyədə təşkili Azərbaycanın mədəni və humanitar sahədə artan imkanlarını nümayiş etdirmişdir.

2013-cü ildə Azərbaycanın ilk süni peykinin orbitə buraxılması isə ölkəmizin kosmik sənayedə də söz sahibi olduğunu göstərən tarixi hadisələrdəndir. Bu istiqamətdə fəaliyyətin davamı olaraq, 2023-cü il oktyabrın 2-6-da Bakıda 74-cü Beynəlxalq Astronavtika Konqresi keçirilmişdir. Konqres çərçivəsində onlarla konfrans, 190-dan çox texniki sessiya və sərgi təşkil edilmiş, 36 ölkədən 150-dən artıq kosmik qurum və şirkət öz stendləri ilə iştirak etmişdir.

2024-cü ildə Bakıda keçirilmiş COP29 İqlim Konfransı Azərbaycanın qlobal miqyasda artan rolunun daha bir parlaq nümunəsi olmuşdur. Prezident İlham Əliyevin strateji baxışı və güclü liderliyi sayəsində Azərbaycan təkcə enerji sahəsində deyil, eyni zamanda ekoloji davamlılıq və "yaşıl enerji" təşəbbüsləri üzrə qlobal əməkdaşlığın fəal iştirakçısına çevrilmişdir. COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin beynəlxalq tədbirlər üçün etibarlı mərkəz kimi tanınmasının və qlobal ekoloji gündəlikdə fəal rolunun açıq göstəricisidir.

Konfrans çərçivəsində İtki və Zərər Fondu yaradılmış, Yaşıl Maliyyə Fondu təsis edilmiş, bərpaolunan enerji layihələrinə investisiyaların cəlb edilməsi istiqamətində mühüm qərarlar qəbul olunmuş, Paris Sazişinin 13-cü maddəsinə uyğun olaraq, İkiillik Şəffaflıq Hesabatlarının hazırlanması təmin edilmişdir. Bu mühüm tədbir Azərbaycanın qlobal problemlərin həllində fəal iştirak edən nüfuzlu dövlətlər sırasında mövqeyini daha da möhkəmləndirmişdir.

Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının Sədri kimi partiyanın ölkənin əsas siyasi qüvvəsi statusunu qoruyub saxlamasını təmin etmişdir. Onun rəhbərliyi altında YAP ardıcıl modernləşmə və institusional güclənmə yolu keçmiş, üzvlərinin sayının artması və ictimai-siyasi fəallığının yüksəlməsi İlham Əliyevin siyasi strategiyasının səmərəliliyini aydın şəkildə nümayiş etdirmişdir.

Azərbaycan xalqının tarixi Qələbəsi nəticəsində Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqların əsas komponentlərindən biri Qərbi Azərbaycana qayıdış məsələsinin dövlət siyasəti səviyyəsinə yüksəldilməsidir. İlham Əliyev bu mövzunu dəfələrlə çıxışlarında vurğulayaraq Qərbi Azərbaycan məsələsini təkcə tarixi ədalətin bərpası kontekstində deyil, həm də regionda davamlı sülhün və sabitliyin təmin olunmasının ayrılmaz tərkib hissəsi kimi təqdim etmişdir. Xüsusilə 2025-ci il ərzində bu məsələnin beynəlxalq və yerli platformalarda dəfələrlə səsləndirilməsi Qərbi Azərbaycan mövzusunun artıq formalaşmış yeni regional reallığın ideoloji və siyasi sütunlarından birinə çevrildiyini göstərir.

Qərbi Azərbaycana qayıdışın sülh yolu ilə həyata keçirilməsi məqsədilə Prezident İlham Əliyevin tapşırığı əsasında hazırlanmış "İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə Qayıdış Konsepsiyası" bu prosesin konseptual və normativ əsaslarını müəyyən etmişdir. Konsepsiya beynəlxalq hüququn fundamental prinsiplərinə - insan hüquqları, təhlükəsiz qayıdış və mülki əhalinin müdafiəsi prinsiplərinə əsaslanmaqla, məsələnin legitimliyini gücləndirmişdir.

Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması istiqamətində 2025-ci il avqustun 7-8-də Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına səfəri mühüm siyasi və diplomatik nəticələrlə yadda qalmışdır. Səfər çərçivəsində Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə keçirilmiş sammit və onun yekununda imzalanmış Birgə Bəyannamə Azərbaycanın irəli sürdüyü sülh gündəliyinin beynəlxalq səviyyədə dəstək qazandığını nümayiş etdirmişdir.

Birgə Bəyannamədə "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsinin paraflanması xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda sənəddə sazişin imzalanması və ratifikasiyası üçün əlavə siyasi-hüquqi şərtlərin, xüsusilə Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılmasının vacibliyi qeyd olunmuşdur. Bu yanaşma Azərbaycanın sülh prosesində prinsipial və hüquqa əsaslanan mövqeyini bir daha təsdiqləyir.

Birgə Bəyannamənin mühüm müddəalarından biri də regional nəqliyyat kommunikasiyalarının açılması ilə bağlıdır. Sənəddə Ermənistan ərazisi vasitəsilə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz əlaqənin təmin edilməsini nəzərdə tutan "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" layihəsinin həyata keçirilməsi regional inteqrasiyanın yeni mərhələsinə keçidi ifadə edir.

Səfər çərçivəsində həmçinin ATƏT-in Minsk Prosesi və əlaqədar strukturlarının fəaliyyətinin dayandırılması ilə bağlı birgə müraciətin imzalanması münaqişənin köhnə formatlar əsasında deyil, yeni siyasi reallıqlar çərçivəsində həll olunduğunu rəsmiləşdirmişdir. 2025-ci il noyabrın 30-da Minsk Prosesi və ona bağlı strukturların rəsmi olaraq bağlanması Cənubi Qafqazda post-münaqişə dövrünün institusional baxımdan tamamlandığını göstərən mühüm mərhələ olmuşdur.

Prezident İlham Əliyevin 2025-ci il dekabrın 10-da imzaladığı "Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün Strategiya" ölkənin uzunmüddətli inkişaf prioritetlərinə uyğun olaraq, iqtisadiyyatın modernləşdirilməsi istiqamətində mühüm addımdır. Strategiya sahibkarlıq mühitində rəqəmsal infrastrukturun genişləndirilməsini, innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsini, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasını və insan kapitalının rəqəmsal bacarıqlar baxımından gücləndirilməsini hədəfləyir. Sənəd süni intellekt, böyük verilənlər, blokçeyn, bulud texnologiyaları və "ağıllı şəhər" həlləri kimi 4-cü Sənaye İnqilabının əsas texnologiyalarının bütün iqtisadi sahələrdə tətbiqini nəzərdə tutur və Azərbaycanın regional rəqəmsal mərkəzə çevrilməsini strateji məqsəd kimi müəyyən edir.

Dövlətimizin başçısının rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış tarixi Qələbənin əbədiləşdirilməsi dövlət siyasətinin mühüm istiqamətinə çevrilmişdir. Bu çərçivədə 3 dekabr 2020-ci il tarixli sərəncamla Bakıda Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər muzeyinin yaradılmasına start verilmiş, 2021-ci ildə Hərbi Qənimətlər Parkı, 2024-cü ildə Zəfər Parkı, 2025-ci ildə isə Zəfər muzeyi istifadəyə verilmişdir. Bu addımlar həm şəhidlərin əziz xatirəsinin ucaldılmasına, həm də Qələbə ideologiyasının gələcək nəsillərə ötürülməsinə xidmət edir.

2020-ci il dekabrın 10-da Bakıda keçirilən Zəfər paradı Prezident İlham Əliyevin siyasi iradəsinin və diplomatik baxışının bariz təzahürü olmuşdur. Azərbaycan və Türkiyə hərbçilərinin birgə iştirakı ilə keçirilən parad qardaşlıq və strateji müttəfiqliyin rəmzinə çevrilmişdir. 2025-ci il noyabrın 8-də Qələbənin beşinci ildönümünə həsr olunmuş hərbi parad isə Azərbaycanın artan regional nüfuzunu nümayiş etdirmiş, Türkiyə və Pakistan rəhbərlərinin iştirakı Azərbaycan-Türkiyə-Pakistan strateji üçbucağının möhkəm və davamlı xarakter daşıdığını təsdiqləmişdir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən Böyük qayıdış proqramı postmüharibə dövründə bərpa, reinteqrasiya və dayanıqlı məskunlaşma modelinin əsasını təşkil edir. Azad edilmiş ərazilərdə genişmiqyaslı infrastruktur layihələrinin icrası nəticəsində artıq 60 mindən çox soydaşımız Qarabağ və Şərqi Zəngəzurda yaşayır, çalışır və təhsil alır. Prezidentin 8 noyabr 2025-ci il tarixli çıxışında vurğuladığı kimi, Azərbaycan xalqı bu torpaqlara qalib xalq kimi qayıtmış və burada əbədi yaşayacağını bəyan etmişdir.

2022-ci ildə təsdiqlənmiş "Böyük Qayıdışa dair I Dövlət Proqramı" işğaldan azad edilmiş ərazilərin bərpasını Azərbaycanın 5 milli prioritetindən biri kimi müəyyən etmişdir. Proqramın icra səviyyəsi hazırda təqribən 79 faizə çatmışdır. 2020-2026-cı illər ərzində bu məqsədlə dövlət büdcəsindən 25 milyard manatdan artıq vəsait ayrılmışdır. 2025-ci il mayın 30-da imzalanmış sərəncamla II Dövlət Proqramının hazırlanması tapşırılmış və Böyük qayıdışın davamlılığı institusional əsaslarla təmin edilmişdir.

Prezident İlham Əliyevin şəxsi nəzarəti altında həyata keçirilən bərpa və yenidənqurma işləri postmüharibə dövrü üçün beynəlxalq miqyasda ən sürətli və sistemli modellərdən biri kimi qiymətləndirilir. 5 il ərzində dövlət başçısı azad edilmiş ərazilərdə yüzlərlə tədbirdə iştirak etmiş, onlarla strateji layihənin təməlini qoymuş və istifadəyə verilməsini təmin etmişdir. Nəticədə hava limanları, yollar, dəmir yolları, enerji və sosial infrastruktur obyektləri regionun sürətli inkişafını təmin edən əsas dayaqlara çevrilmişdir.

Azad edilmiş ərazilərə 2025-ci ilin oktyabrınadək 5 mindən çox ailənin qayıdışı təmin olunmuşdur. Hazırda ümumilikdə 62 mindən artıq insan bu ərazilərdə yaşayır və fəaliyyət göstərir. Xankəndidə Qarabağ Universitetinin fəaliyyətə başlaması regionun intellektual və elmi potensialının bərpasında mühüm rol oynayır.

Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətinin tərkib hissəsi kimi azad edilmiş ərazilərdə məşğulluğun təmin olunması məqsədilə minlərlə yeni iş yeri yaradılmış, özünüməşğulluq və peşə hazırlığı proqramları icra edilmişdir. Ağdam və Cəbrayıl rayonlarında yaradılmış sənaye parkları regionun iqtisadi dirçəlişinin mühüm lokomotivinə çevrilmişdir.

Prezident İlham Əliyevin qətiyyətli liderliyi nəticəsində əldə olunan Qələbə regionda uzunmüddətli sülh və əməkdaşlıq üçün yeni imkanlar yaratmışdır. İşğaldan azad edilmiş ərazilərin milli iqtisadiyyata reinteqrasiyası, nəqliyyat-logistika dəhlizlərinin açılması və regional kommersiya cəlbediciliyinin artması Azərbaycanın gələcək inkişafını şərtləndirən əsas amillərdəndir.

Dövlətimizin başçısının sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması, Dövlət Suverenliyi Gününün təsis edilməsi, habelə müstəqillik tarixinin ən böyük amnistiya aktı təşəbbüsünün irəli sürülməsi və Milli Məclisdə qəbul edilməsi müstəqil dövlətçilik prinsiplərinin möhkəmləndirilməsi, humanizm və sosial ədalət prinsiplərinin dövlət siyasətində mühüm yer tutduğunun nümayiş etdirilməsi baxımından mühüm siyasi və hüquqi əhəmiyyət daşıyır. Bununla belə, "Konstitusiya və Suverenlik İli" Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin təmin olunmasının dövlət siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiqləyir.

*Prezident İlham Əliyevin çoxşaxəli və məqsədyönlü fəaliyyəti Azərbaycanın hərtərəfli güclənməsinə, dövlətçilik əsaslarının möhkəmlənməsinə və xalqın rifahının davamlı şəkildə yüksəlməsinə xidmət edir. Onun qətiyyətli və uzaqgörən rəhbərliyi altında Azərbaycan təkcə regionda lider mövqeyini möhkəmləndirməmiş, eyni zamanda qlobal miqyasda etibarlı və nüfuzlu aktor kimi tanınmışdır. Tam əminliklə söyləmək olar ki, dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycan dövləti və xalqı gələcəkdə də daha güclü, daha dayanıqlı və daha parlaq inkişaf yolunda inamla irəliləməyə davam edəcəkdir.*

***Ziyafət ƏSGƏROV,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavini***



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş siyasət, düzgün taktika

**Xalqları tarix boyu düşdükləri ağır şəraitlərdən üstün zəkaya, strateji düşüncəyə, yenilməz iradəyə və qətiyyətə malik olan liderləri çıxararaq talelərini dəyişiblər. Dünya dövlətçilik tarixinin təcrübəsi göstərir ki, bəzi şəxslər yüksək vətənpərvər, yaxşı siyasi təşkilat rəhbəri olsalar da, işi bacara bilmədiklərindən söylədikləri yalnız söz olaraq qalıb, milləti hədəflərinə çatdıra bilməyərək geri addım atıblar. Azərbaycanda bunun 1988-1993-cü illərə aid acı təcrübəsi vardır. Yalnız vətənpərvərliklə, verilən emosional vədlərlə millətin qarşısında dayanan vəzifələri həll etmək mümkün deyildir. İşləri bacarmaq lazımdır. Azərbaycan tarixinin ən böyük strateqi, yenilməz sərkərdəsi və mahir diplomatı Prezident İlham Əliyevin liderliyində 44 günlük Vətən müharibəsində ərazilər işğaldan azad edildikdən, lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılığın kökü tamamilə kəsildikdən və dövlət suverenliyi tam bərqərar edildikdən sonra qarşıda dayanan başlıca vəzifələrdən yalnız bir neçəsinin Konstitusiyamızın 30, dövlət suverenliyinin tam bərqərar edilməsinin 5-ci ildönümündə necə yerinə yetirilməsini qısa təhlil etmək yuxarıda deyilənləri sübut edir.**



# Üstün zəkanın qüdrəti

### Döyüş meydanında qazandığı sülhü masada qəbul etdirən böyük lider

Müharibələrin tarixi göstərir ki, masa arxasında, diplomatik danışıqlarda əldə edilən sülh həmişə güzəştlərə, kompromislərə əsaslanıb. Dahi sərkərdələr isə sülhü döyüş meydanında qazanıb və masada qəbul etdiriblər. Prezident İlham Əliyev də heç bir yarımçıq qərarın qəbuluna razı olmayan, sülhü işğalçı Ermənistanı və onun tərəfdarlarını döyüş meydanında tam və qəti qələbə ilə əzərək qazanmış yenilməz sərkərdə, heç bir güzəşt olmadan masada qəbul etdirmiş böyük diplomatdır.

Müharibə başa çatdıqdan sonra qarşıda dayanan vəzifələrdən biri döyüş meydanında qazanılan qələbənin siyasi, diplomatik sahədə qəbul etdirilməsi idi. Bəzən deyiblər ki, türklər döyüş meydanında qazandıqları qələbəni masada qəbul etdirə bilmirlər. Bu fikirlərin yanlış olduğunu XX əsrdə Mustafa Kamal Paşa, XXI əsrdə isə Prezident İlham Əliyev sübut etdi. Ötən əsrin 20-ci illərinin başlanğıcında işğalçı dövlətlər türk ərazilərini boşaltmaq istəmədikdə "bu məsələ qılıncla həll ediləcəkdir" deyən türk milləti Mustafa Kamal Paşanın rəhbərliyi altında istiqlal savaşında hərb meydanında qazandığı qələbəni Lozan konfransında qəbul etdirdi. Az sonra Türkiyə Cümhuriyyəti quruldu.

XXI əsrdə şəraitin ozamankından daha ağır olmasına baxmayaraq, "işğalçı ölkə ərazilərimizdən çıxmasa, silah gücünə torpaqlarımızı azad edəcəyik" deyən Prezident İlham Əliyevin liderliyində Azərbaycan dövləti və milləti xarakterinə görə ədalətli, azadlıq müharibəsində, döyüş meydanında məqsədinə çatdı. Azərbaycan tarixinin bu ən böyük zəfəri ABŞ Prezidenti Donald Trampın dərin zəkalı, çevik dövlət adamı olaraq qiymətləndirdiyi Prezident İlham Əliyevin irəli sürdüyü şərtlərin əsasında dünyanın fövqəldövlətinin şahidliyi ilə avqustun 8-də Vaşinqtonda Ağ Evdə siyasi, diplomatik sahədə, masada qəbul etdirildi. Bununla Prezident İlham Əliyev yüz illiklər boyu millətimizə sırıdılmış planları darmadağın etdi, taleyini, tarixinin gedişini dəyişdirdi, yolunu açdı, başını dik tutaraq yaşamağın düsturunu verdi, bəlli problemlərdən əziyyət çəkən millətlərə nümunə oldu.

Səfər etdiyi hər bir ölkənin baş evində olduğu kimi, Ağ Evdə də Prezident İlham Əliyevin qarşılanma mərasimindən tutmuş yola salınmasınadək hər şey qürurverici idi. Sülhə və əməkdaşlığa çalışan dövlət başçımızın bilavasitə gərgin səylərinin nəticəsi olaraq Azərbaycan, Ermənistan və ABŞ liderlərinin üçtərəfli Bəyannaməni imzalaması ilə öz maraqları naminə Cənubi Qafqazda iki yüz il ərzində "parçala, hökm sür" siyasətini yeridərək xalqları bir-birinə vurub qan çanağına çevirməyin sonu gəldi, Azərbaycan və Ermənistan arasında normallaşmanın, əməkdaşlığın əsası qoyuldu. Döyüş meydanında qazandığı qələbənin və sülhün memarı olan Prezident İlham Əliyev Vaşinqton Zirvə görüşünün nəticələri ilə dünyaya bir daha göstərdi ki, Azərbaycanla düşmənçilik etmək olmaz.

Səfərlə ABŞ ilə ikitərəfli münasibətlərdə yeni səhifə açıldı. "Azadlığa dəstək aktı"na 1992-ci ildə edilmiş ədalətsiz 907-ci düzəlişin fəaliyyətinin dayandırılması ilə strateji tərəfdaşlıq, müdafiə, təhlükəsizlik və başqa istiqamətlərdə əməkdaşlığın əsası qoyuldu. Bu, münasibətlərdə yeni keyfiyyət mərhələsinin başlanmasıdır.

D.Trampın Ağ Evin qızıl açarını Prezident İlham Əliyev bağışlaması, birlikdə çəkdirdikləri fotoşəklin üstünə "İlham, Siz böyük lidersiniz!" yazmaqla hədiyyə etməsi sıradan bir məsələ deyildir. Ağ Evin qızıl açarı hər bir dövlət rəhbərinə təqdim edilmir, ona böyük lider deyilmir. Ağ Evin açarının verildiyi belə şəxsləri barmaqla saymaq olar. ABŞ Prezidenti nədən Ağ Evin qızıl açarını hədiyyə etdi və fotoşəklin üstünə bu sözləri yazdı? İlk növbədə, bu evin açarı ancaq güvənilən, etibar edilən şəxsə verilir. Məşhur ispan səyyahı Xristofer Kolumb 1492-ci ildə kəşf etdiyi Amerika qitəsini "yeni dünya" adlandırmışdı. Ən yeni dünyanın qurucularından biri olan Prezident İlham Əliyev Azərbaycan Respublikasını yeni dünya liderinin hədiyyə etdiyi qızıl açarı ağ atın üstündə əlində oynadan ölkəyə çevirdi. Bu o deməkdir ki, hər iki dövlət bərabər hərəkət edəcək, beynəlxalq işlərdə Azərbaycanın rolu artacaq və yeri möhkəmlənəcəkdir. Həlli qeyri-mümkün hesab edilən böyük işləri isə böyük liderlərlə görərlər.

Vaşinqton Zirvəsinin uğurla nəticələrindən biri həm Orta dəhliz, həm də "Şimal-Cənub" dəhlizi çərçivəsində yeni nəqliyyat arteriyası və ikinci marşrut kimi əhəmiyyət kəsb edən Zəngəzur dəhlizidir. Bununla uzun illər ərzində regionda münaqişələr yaradıb qan tökənlərin arzuları ürəklərində qaldı. İndi Azərbaycan dünyanın vacib nəqliyyat-kommunikasiya, logistika mərkəzlərindən birinə çevrilir.

### Böyük lider və "Asiyanın yatmış aslanı" - Çinin əziz dostu birləşdirici güc rolunda

ABŞ-yə səfərindən sonra Prezident İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin dəvəti ilə "Şanxay Əməkdaşlıq Təşkilatı +" toplantısının sentyabr ayında Tiencin şəhərində keçirilən iclasında iştirakı və nitqi müasir Azərbaycan siyasi tarixinin parlaq səhifələrindən biridir. Çini "Asiyanın yatmış aslanı" adlandıran Fransa imperatoru I Napoleon deyirdi ki, bu aslan oyandıqda dünyada hər şey dəyişəcəkdir. Artıq "yatmış aslan" oyanıb və dünya da dəyişir.

Çin rəhbəri Prezident İlham Əliyevi "mənim əziz dostum" deyərək qarşıladı. Bəs aralarında dərin ziddiyyətlərin olduğu, ticarət müharibəsinin getdiyi Birləşmiş Ştatlar rəhbərinin böyük lider adlandırdığı Prezident İlham Əliyevin Çində "mənim əziz dostum" deyərək qarşılanmasının mənası nədir? Bu sadəcə protokol qaydası olmayıb, dərin məzmun kəsb edirdi. Ancaq etibar edilən, güvənilən, dürüst, səmimi olan şəxsə əziz dostum deyərək arxalanar, kürəyi söykəyərlər.

Regionda Çinin etibarlı tərəfdaşı olan, sülhün, təhlükəsizliyin qorunmasına töhfə verən, genişmiqyaslı iqtisadi, nəqliyyat və enerji layihələrini həyata keçirən Azərbaycan dövləti Çinin bir sıra, o cümlədən "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyir, layihələri reallaşdırır. Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən biri olan, beynəlxalq nəqliyyat dəhlizlərini fəal şəkildə inkişaf etdirən, müasir infrastruktur yaradan Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizləri ilə yeni iqtisadi və nəqliyyat perspektivləri yaradıb. Orta dəhliz Azərbaycan vasitəsilə Çin və Mərkəzi Asiyanı Avropa ilə birləşdirən etibarlı və təhlükəsiz marşrutdur. Çinin "bir kəmər-bir yol layihəsi"ni və Zəngəzur dəhlizi çərçivəsində Ermənistan ərazisindən keçərək Naxçıvan Muxtar Respublikasına gedən Beynəlxalq sülh və rifah naminə Tramp marşrutunu (TRIPP - Trump Route for International Peace and Prosperity (TRIPP)) iki nəhəng ölkə arasında birləşdirici güc olan Prezident İlham Əliyev böyük ustalıqla Azərbaycanın maraqları ilə inanılmaz ustalıqla uzlaşdıraraq həyata keçirir. Zəngəzur dəhlizi həm Orta dəhlizi, həm də "Şimal-Cənub" dəhlizi zəncirində növbəti vacib halqaya çevriləcək, sülhü, çoxtərəfli tərəfdaşlığı möhkəmləndirəcək və Azərbaycan sərhədinin şərqində, qərbində, şimalında və cənubunda yerləşən yaxın və uzaq qonşulara da fayda gətirəcəkdir. Dövlətlər heç bir zaman faydalarından imtina etməzlər. Bu, Prezident İlham Əliyevin dünyada qarşılıqlı faydalı əməkdaşlığa verdiyi böyük töhfədir, iki güc arasında birləşdirici və yumşaldıcı rolunun göstəricidir.

Dövlət başçımız bütün fəaliyyəti ilə göstərdi ki, bir dövlətin dünya siyasətində tutduğu yer, təsir gücü ərazisinin böyüklüyü, kiçikliyi, əhalisinin sayının çoxluğu, azlığı, təbii sərvətləri ilə deyil, qarşılıqlı faydalı əməkdaşlıq etməsi, birləşdirici güc rolunu oynaması, beynəlxalq hüquq normalarına ciddi riayət etməsi, haqq-ədaləti qoruması, etibarlılığı, dürüstlüyü, sözü və işinin bir olması və sairə ilə ölçülür. Bunlara isə ölkə rəhbərimiz dünya işlərini mükəmməl bilməsi, zəkası, iş üslubu, bacarığı, tükənməz enerjisi, qətiyyəti və yüksək mədəniyyəti ilə nail olunub.

Prezident İlham Əliyevin və Mehriban xanım Əliyevanın İkinci Dünya müharibəsinin başa çatmasının 80 illiyinə həsr edilmiş Pekində keçirilən paradda iştirakı da millətimizə qürur verdi. Müharibədə Avropada faşist Almaniyası və Uzaq Şərqdə militarist Yaponiyası üzərində qələbənin qazanılmasında antihitlerçi koalisiyanın tərkibində Azərbaycan xalqı da müstəsna rol oynayıb. Dünya müharibəsində azərbaycanlıların iştirakı və qəhrəmanlığı aşağıdakı bir neçə sahədə olub: sovet ordusu sıralarında ön cəbhədə vuruşublar; arxa cəbhədə əmək şücaəti göstəriblər; müharibə motorlar müharibəsi olduğundan Azərbaycan cəbhəni yanacaqla təchiz edib; azərbaycanlılar cəbhəni isti paltar və ərzaqla təmin ediblər; işğal altındakı ölkələrdə partizan hərəkatında iştirak ediblər; antifaşist müqavimət hərəkatında igidliklər göstəriblər; SSRİ-nin xarici aləmə çıxışı Bakıdan keçərək olub, Azərbaycan nəfəslik rolunu oynayıb, Moskva - Bakı - Tehran hava yolu və Moskva - Bakı - Tehran dəmir yolu xətti işləyib; SSRİ-nin Birləşmiş Ştatlarının tətbiq etdiyi lend-liz sistemi ilə aldığı hərbi ləvazimat Azərbaycan ərazisindən keçərək cəbhəyə aparılıb; legioner dəstələrində Hitler Almaniyasına qarşı təxribatçılıq fəaliyyətləri aparılıb, aerodromların tikintisi, texnikanın təmiri yubadılıb və sairə.

Paradda iştirak tariximizin bu səhifəsinə hörmət və ehtiramın nümunəsidir. Həm də tarixdən düzgün nəticə çıxarmaqda bəzi təkəbbürlü, imperiya təfəkkürlü şəxslərə dərs verir.

### "Bir millət, iki dövlət"in yeni örnəyi: Kahramanmaraşda "Azərbaycan" məhəlləsi

Hansı sistemdə və ideologiyada yaşamasından asılı olmayaraq, Azərbaycan xalqının qəlbi Türkiyə, türk xalqının da ürəyi Azərbaycanla döyünüb. Buna dair uzaq və yaxın tarixdən çoxlu nümunələri gətirmək olar. Əgər Ulu Öndər Heydər Əliyev Azərbaycan və Türkiyə arasındakı münasibətləri "bir millət, iki dövlət" kimi qiymətləndirərək tarixə həkk etmişdisə, Prezident İlham Əliyev onu daha da genişləndirib "türk dünyası bizim ailəmizdir" deyərək bu ideyasını həyata keçirməkdən ötrü geniş fəaliyyət göstərmişdir.

Qardaşlığımızın sırasına bu il iyunun 19-da Kahramanmaraşda prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın birlikdə "Azərbaycan" məhəlləsini açmaları daxil oldu. Bu, sıradan bir məsələ deyildi. Çünki təkbaşına, heç bir xarici yardım olmadan ərazilərini işğaldan azad, böyük məsrəflər tələb edən tikinti-quruculuq işlərini həyata keçirməklə, keçmiş məcburi köçkünləri ata-baba torpaqlarına qaytarmaqla paralel olaraq Azərbaycan 2023-cü ilin fevralında qardaş Türkiyədə Kahramanmaraşda zəlzələnin nəticələrini aradan qaldırmağa gedən ilk ölkə olmuşdu. Bu hadisəni Azərbaycan milləti öz faciəsi kimi qəbul edərək bütün şəhər və rayonlarda insani yardım göstərmək üçün məntəqələrə gəlib qardaşlıq borcunu yerinə yetirmişdi. Zəlzələdən iki il keçməsinə baxmayaraq, Azərbaycanın inşa etdiyi 90-dan çox binadakı 1200 mənzildə yaşayacaq türk bacı-qardaşlarımız sevinc içərisində idi. Uşaqların və məktəblərin də qayğıları həll edilmişdi. Məhəllənin tikilməsi təkcə dövlətimizin maliyyə-iqtisadi qüdrətini deyil, eyni zamanda çətin şəraitdə qardaşın yanında olduğunu və ürək genişliyini göstərdi.

İnsanlara daim sevinc bəxş edən, qayğılarını unutduran, qəlblərində ümid çırağı yandıran, ayağı dəyən yerləri gülüstana çevirən Prezident İlham Əliyevin Kahramanmaraşdakı bacı-qardaşlarımıza mənzillərin açarlarını təqdim etməsi Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarındakı mənzərəni xatırlatdı. Açılış mərasimindəki nitqində dövlət başçımız Azərbaycan-Türkiyə münasibətlərinin bu günü və gələcəyi baxımından bir sıra vacib məsələləri söylədi. "Azərbaycan" məhəlləsinin açılışı iki qardaş ölkənin və millətin birliyinin, dostluğunun daha bir təzahürü oldu. Yaxşı və ağır günlərdə də daim bir-birinin yanında olmaları Azərbaycan və Türkiyənin gücünü artırır.

### Türk ailəsinin yeni hədəfi: ortaq hərbi güc

Tarix boyu dədə-babalarımızın arzusu türk birliyinin - Turanın qurulması olub. Birlik isə özü-özündən yaranmır, onu dövlət rəhbərləri qərarları ilə addım-addım gerçəkləşdirirlər. Həmin yolda atılan vacib addımlardan biri Qəbələdə oktyabrın 7-də keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçıları Şurasının 12-ci Zirvə görüşü oldu. Toplantıda etdiyi nitqində Prezident İlham Əliyev türk dünyasının bu günü və gələcəyinə dair zəruri məsələləri diqqətə çatdırdı. Təşkilat təkcə əməkdaşlıq platforması deyil, eyni zamanda ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşır, beynəlxalq nüfuzu artır, üzv ölkələrdəki daxili siyasi və iqtisadi sabitlik, əhəmiyyətli geostrateji mövqe, demoqrafik inkişaf, gənc əhali, nəqliyyat-logistika sahəsində böyük imkanlar, təbii ehtiyatlar, hərbi və hərbi-texniki sahədə artan potensialı olan təşkilatın beynəlxalq aləmdə rolunu gücləndirir. Ortaq tarixi, etnomədəni kökləri və milli-mənəvi dəyərləri olan türk dünyası bir ailədir. İnkişaf üçün əsas amillərdən biri sülh və təhlükəsizlik olduğundan təşkilatın üzvü olan ölkələr də xalqlarının xarakterindən irəli gələn sülhə çalışırlar. Lakin sülhü və təhlükəsizliyi bəyanatlarla qorumaq mümkün deyildir. Beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulduğu indiki şəraitdə təhlükəsizlik təmin edilmədən davamlı inkişaf, inkişaf da olmadan etibarlı təhlükəsizlik olmadığından qardaş ölkələrin arasında çoxtərəfli formada hərbi və hərbi-texniki əməkdaşlıq zəruridir. Bu baxımdan, dövlət başçımızın hərbi, müdafiə və təhlükəsizlik sahələrində geniş əməkdaşlığı nəzərə alaraq 2026-cı ildə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Azərbaycanda birgə hərbi təlimlərinin keçirilməsinə dair təklifinin gerçəkləşdirilməsi münasibətləri tamamilə yeni keyfiyyət səviyyəsinə çıxaracaqdır. Hərbi güc olmadan dövlət müstəqilliyini və ərazi bütövlüyünü qorumaq mümkün deyildir.

Nəqliyyat-kommunikasiya əlaqələri də təşkilat çərçivəsində strateji əhəmiyyət daşıyır. Azərbaycan Türkiyə ilə Türküstan arasında coğrafi, iqtisadi, nəqliyyat və digər sahələrdə körpü rolunu oynayır. Artıq Çindən Avropaya daşınan yüklər Azərbaycan ərazisindən keçərək təkcə Gürcüstandan gedən Bakı - Tbilisi - Kars deyil, Bakı - İran ərazisi - Naxçıvan - İğdır dəmir yolu ilə, Ermənistan ərazisindən keçərək bir neçə yolla qardaş Türkiyəyə göndəriləcəkdir. Qardaş Türkiyə də yükləri yalnız Bakı-Tbilisi-Kars dəmir yolu ilə deyil, Bakı-İran ərazisi - Naxçıvan-İğdır dəmir yolu, Ermənistan ərazisindən keçib Naxçıvana qədər gələn, oradan İğdıra gedən yolla və bərpa olunan Gümrü-Kars dəmir yolu ilə qəbul edəcəkdir. Bu, əhəmiyyətinin miqyasına görə geosiyasi və geoiqtisadi inqilab, böyük türk dünyasının zəfəridir! Azərbaycan, Türkiyə və bütövlükdə Türk Dövlətləri Təşkilatı ilə əməkdaşlıq etmədən bu işləri gerçəkləşdirmək mümkün deyildir. Dünyanın ürəyi olan Avrasiyaya və geriyə, Şərqdən Qərbə, Qərbdən Şərqə tək rahat, təhlükəsiz və sərfəli yol Azərbaycandan keçir.

Prezident İlham Əliyevin 1926-cı ildə Bakıda təşkil edilmiş I Türkoloji Qurultayın 100 illik yubileyinin TDT çərçivəsində 2026-cı ildə keçirilməsinə dair təklif verməsi təkcə tarixi köklərə ehtiramın ifadəsi deyil, eyni zamanda türk millətlərini birləşdirən sarsılmaz həmin tarixi zəmindən güc alaraq daha da irəli getməkdir.

Dövlət başçımızın özbək, qazax və qırğız qardaşlarımızın hədiyyəsi olaraq Füzulidə Mirzə Uluqbəy adına məktəbin, Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin, Ağdamda Manas adına məktəbin fəaliyyət göstərmələrini, macar qardaşlarımızın hədiyyəsi olaraq Cəbrayılda məktəbin tikintisinin davam etdirilməsini, türkmən qardaşlarımızın ərməğanı kimi Füzuli məscidinin təməlinin qoyulmasını deməsi təkcə təşəkkür etmək deyil, belə fəaliyyətlərlə daha da möhkəmləndirilən türk birliyinin vacibliyinin gələcək nəsillərə yol göstərilməsidir. Məktəb və məscidlərin tikintisi öz gücünü elm və təhsilindən, mənəvi-ruhani köklərindən alan türk millətlərinin onları qoruyaraq irəli gedəcəklərindən, bir yerdə olduqca həmişə zəfər qazanacaqlarından xəbər verir.

### Zəfərin 5-ci ildönümündə möhtəşəm hərbi parad: bir ürəkdə üç qardaş

Tariximizin ən böyük hərbi, siyasi, diplomatik, iqtisadi, ideoloji, milli-mənəvi, informasiya qələbəsinin nəticəsində separatizmin kökünün tamamilə kəsilməsi ilə dövlət suverenliyimizin tam bərqərar edilməsinin 5 illiyinin coşqu ilə bayram edilməsi millətimizə ruh verdi. Qələbəni Azərbaycan təkbaşına, öz gücü hesabına Prezident İlham Əliyevin rəhbərliyi altında qazansa da, təkcə ölkəmizin deyil, bütün türk dünyasının, haqsızlığa uğramış xalqların mübarizə əzmini artıran 8 Noyabr Zəfərinin beşinci ilində hərbi paradın keçirilməsi dostlara sevinc bəxş etdi, bədxahları isə qəm dəryasına boğdu. Qardaş Türkiyənin və Pakistanın hərbçilərinin də paraddan keçməsi, rəhbərlərinin sülh çağırışları ilə dolu nitqləri üç dövlətin bir ürəkdə birləşdiyini göstərdi. Qüdrətli Silahlı Qüvvələrimizin hissələrinin keçidi, müdafiə sənayemizin yeni silahlarının nümayişi qürur verdi. Bir vaxtlar patron istehsal edə bilmirdik. Azərbaycan haradan haraya gəldi! Bu, eyni zamanda tarixdə şəxsiyyət amilinin nə qədər böyük rol oynadığını sübut etdi.

### Daşkənd səfərinin böyük zəfəri

Diplomatiya tarixinin təcrübəsi göstərir ki, maddi təməlləri və qarşılıqlı asılılığı möhkəm olmayan ittifaqlar müəyyən şəraitlərdə dağılıb, iştirakçı dövlətləri və xalqları düşmənə çevrilərək üzücü müharibəyə cəlb ediblər. Günümüzdə də bunun nümunələri vardır. Prezident İlham Əliyevin tarixi xidmətlərindən biri dünya siyasətində və dövlətlərarası münasibətlərdə Azərbaycanın rolunu qarşılıqlı əməkdaşlıqla və maddi təməllərini möhkəmləndirməklə artırmasıdır. Özbəkistanın paytaxtı Daşkənddə keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə bunun şahidi olduq. Toplantının gedişi və yekunu iki böyük məsələ ilə diplomatiya tarixinə keçdi. Birincisi, Azərbaycan Respublikasının Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan və Türkmənistanın qurduğu Mərkəzi Asiya ölkələrinin əməkdaşlıq formatına bərabərhüquqlu iştirakçı kimi qəbul edilməsi qarşılıqlı münasibətlərin dostluq və qardaşlıq xarakteri daşıdığını, vahid tarixi, mədəni və geosiyasi məkan olduğunu bir daha təsdiqləməklə ümumi maraqlara əsaslanan birliyin maddi təməllərinin möhkəmləndirilməsidir. Artıq dünya nəhəngi və ya nəhəngləri beş deyil, əlverişli coğrafi-siyasi mövqeləri, zəngin təbii sərvətləri, çalışqan, gənc və artan demoqrafik göstəriciləri, əhalisinin ümumi sayı təxminən 100 milyon nəfərə yaxın, ərazisi isə təxminən 4,09 milyon $km^2$ olan altı dövlətlə bir masa arxasında oturub müzakirə aparmalı olacaqlar.

İkincisi, Prezident İlham Əliyevin həcmcə kiçik olsa da, məzmunca geniş, mahiyyətcə dərin olan nitqində həm ikitərəfli Azərbaycan - Özbəkistan münasibətlərinə qiymət verməsi, həm islam dini dəyərlərinin əleyhinə olan fəaliyyətlərə qəti mövqeyini bildirməsi, həm də Azərbaycan - Mərkəzi Asiya dövlətlərinin münasibətlərini təhlil edərək gələcək əməkdaşlığın perspektivlərini və görüləcək işləri vurğulaması çox əhəmiyyətli idi. Bu ölkələrdən birinin uğuru hamısının ümumi nailiyyətidir. Qardaş ölkə rəhbərinin təşəbbüsü ilə Daşkənddə İslam Sivilizasiyası Mərkəzinin qurulmasını zəngin mədəni irsə sadiqliyin daha bir nümunəsi kimi qeyd etməsi Prezident İlham Əliyevin bütün beynəlxalq görüşlərdə mənəvi-ruhani köklərimizə, dəyərlərimizə sıx bağlılığını və dərin ehtiramını göstərir. Dövlət başçımızın dünyada islam dininin əleyhinə olan meyillərə cavab olaraq dediyi *"İslam quruculuq, dözümlülük, dostluq və qardaşlıq dinidir. İsam aləminin görkəmli nümayəndələri dünya elminə, mədəniyyətinə böyük töhfə veriblər və İslam Sivilizasiyası Mərkəzi bunu əyani şəkildə nümayiş etdirir. Əminəm ki, möhtəşəm və nadir ekspozisiyaları olan Daşkənddəki İslam Sivilizasiyası Mərkəzi bütün islam dünyası üçün qürur mənbəyinə çevriləcək"* fikirləri həm həmin qüvvələrə tutarlı bir cavabdır, həm də bütün müsəlman xalqlarına elm, təhsil və mədəniyyətin inkişafı istiqamətində zamanla ayaqlaşmaqda tövsiyədir.

Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında münasibətlərin xüsusi xarakter daşıdığının, çoxəsrlik ortaq tarix, mənəvi və mədəni irs, qardaşlıq, dostluq, həmrəyliyin birləşdiyinin, bu əlaqələrin qorunub saxlandığının, onlara müttəfiqlik, strateji tərəfdaşlıq xarakterinə malik olan yeni dinamika verilməsinin deyilməsi indiyədək yürüdülən siyasətin uğurlu nəticəsinin bəyan edilməsidir. Xəzər dənizi ilə ayrılıb, birləşsələr də, fərqli coğrafiyalarda yerləşsələr də, qarşılıqlı fəaliyyət sayəsində Mərkəzi Asiya dövlətləri və Azərbaycan artıq qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artan vahid geosiyasi və geoiqtisadi regiona çevriliblər.

Dövlət başçımızın Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən sonra işğaldan azad olunmuş ərazilərinin dirçəldilməsində Mərkəzi Asiya ölkələrinin göstərdiyi qardaş dəstəyinə dair konkret faktları bir daha söyləyərək yüksək qiymətləndirməsi təkcə minnətdarlıq hissi deyil, eyni zamanda qardaşlığın və həmrəyliyin nümunəsi kimi gələcək nəsillərə də örnəkdir. Qardaşların sevinci də, kədəri də, taleyi də ortaqdır.

Azərbaycanın və Mərkəzi Asiyanın Şərqlə Qərb, Şimalla Cənub arasında birləşdirici bənd, qovşaq və körpü olduğunun vurğulanması həm tarixin ənginliklərindən keçib gələn hadisə və proseslərdə qardaş, dost ölkələrin mühüm rol oynadığını göstərir, həm də indi və bundan sonra həmin dövlətlərə və millətlərə başqa cür baxmaq xəyalında olanlara bir işarədir. Ölkə rəhbərinin Orta dəhlizin inkişafının Mərkəzi Asiya dövlətləri üçün strateji əhəmiyyət kəsb etdiyini deməsi konkret hədəfin bəyan olunması idi. Bu, həmin ölkələrin təkcə yüklərinin etibarlı beynəlxalq nəqliyyat qovşağına çevrilən Azərbaycandan təhlükəsiz keçərək ticarət-iqtisadi maraqlarının rahat təmin edilməsi, münasibətlərinin maddi təməllərinin möhkəmləndirilməsi deyil, eyni zamanda bəlli tərəfdən və ya tərəflərdən edilən təzyiqlərin azaldılması, dövlət müstəqilliklərinin möhkəmləndirilməsinə, sarsılmaz və əbədi olmasına kömək deməkdir. Zəngəzur dəhlizi Orta dəhlizin əsas arteriyasına çevrilərək Mərkəzi Asiya dövlətlərini Avropaya bağlayacaq, Naxçıvan isə dünyanın vacib nəqliyyat qovşağına çevriləcəkdir. Birləşdirici rol oynayan və bir sıra dövlətlərin ehtiyac duyduğu güc olan Azərbaycan qüdrətinin yeni mərhələsindədir.

*Prezident İlham Əliyev tarixi təkrar etmir, millətimizin gözlərinin qarşısında onu kökündən dəyişərək yenisini yaradır. Bir neçə hadisənin qısa təhlili milli dövlətçilik tariximizdə şəxsiyyət amilinin nə qədər böyük rol oynadığını sübut etməklə yanaşı, millətimizi arzularına çatdıran bu siyasətin davam etdirilməsinin zəruriliyini aşılayır...*

***Musa QASIMLI,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavini***



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş siyasət, düzgün taktika

**İlham Əliyev iyirmi iki ildir ki, Azərbaycana rəhbərlik edir!**

**Xalq onu sevdiyi, gördüyü işləri dəyərləndirdiyi, daxili və xarici siyasətini bəyəndiyi, habelə ən böyük arzusunu həyata keçirdiyi üçün bütün prezident seçkilərində doxsan faizdən yuxarı səs toplayır, növbəti dövrdə ölkəyə rəhbərlik mandatını qazanır.**

*İyirmi iki il tarix üçün qısa müddət sayılır.*

*Görülən işlərin miqyası baxımından isə əsrlərə bərabər olub.*

Təkcə bir faktı xüsusi qeyd edirik:

**İkiəsrlik Qarabağ münaqişəsinə bu iyirmi iki ilin 44 günündə birdəfəlik və əbədilik son qoyulub.**

*Bütün proseslər də hər birimizin, dünyanın gözü qarşısında, açıq şəkildə baş verib!*

*O qədər "sadə", o qədər "adi" formada baş verib ki, çoxları bütün bunların möcüzə olduğunun fərqinə varmayıblar.*

**Bəli, dünyanın ən güclü dövlətlərinin, beynəlxalq qurum və təşkilatların, dünya erməniliyinin, yaxın və uzaq qonşularının bütün formalarda müdafiə etdiyi, maliyyələşdirdiyi, pulsuz silah-sursat bağışladığı, ordusuna təlim keçdiyi, ərazisində baza yaradaraq yardımçısına çevrildiyi, Vətən müharibəsi başlayandan qurtaranadək hava məkanını üzünə açdığı, gecə-gündüz silah-sursat, yanacaq daşıdığı bir dövləti Azərbaycan 44 gün ərzində dizi üstə qoydu!**

*Həm də təkcə hərbi cəhətdən yox!*

*Diplomatik savaşda da, informasiya cəbhəsində də tam məğlubiyyətə uğratdı.*

**Bütün bunları Azərbaycan Prezidenti İlham Əliyev etdi!**

Hamımız baş verənlərin bir qismini gözümüzlə gördük, bir qismini eşitdik, oxuduq, öyrəndik!

Yalnız ermənipərəst dövlət rəhbərlərinin, Ermənistanın müdafiəçilərinin və havadarlarının dövlət başçısına telefon zənglərini eşidib görmürdük.

*Müharibədə baş verənlərdən, cəbhədəki hərbi əməliyyatların gedişindən hər gün xəbər tuturduq!*

**Hər yeni yaşayış məntəqəsi düşməndən geri alınanda Müzəffər Ali Baş Komandan İlham Əliyev televiziya ilə çıxış edərək şad xəbər verirdi.**

Hərbi əməliyyatları təhlil edir, döyüşlər barədə hər bir Azərbaycan vətəndaşını məlumatlandırırdı.

PUA-ların düşmənin mövqelərini, atəş nöqtələrini, hərbi texnikalarını, canlı qüvvələrini necə dəqiqliklə vuraraq məhv etdiklərini isə öz gözlərimizlə görürdük!

Silah-sursatlarını ataraq canlarını qurtarmaqdan ötrü aradan çıxan, pərən-pərən düşərək qaçan "məğlubedilməz xalq"ın, "məğlubedilməz əsgər və zabitləri"nin girməyə deşik axtarmaları, qorxaq fərarilərə çevrilmələri bizə xüsusən ləzzət edirdi!

ÇÜNKİ:

* Bu qələbə ordumuzun qələbəsi idi!
* Bu qələbə xalqımızın qələbəsi idi!
* Bu qələbə həm də Müzəffər Ali Baş Komandanımızın qələbəsi idi!

❖ ❖ ❖

Orduda yüzlərlə, minlərlə əsgər və zabit, komandir olur!

Onların hər birinin müdafiə etdiyi, məsuliyyət daşıdığı sahə, ərazi, mövqe müəyyənləşdirilir.

Hücum əməliyyatında hər bir əsgərin, bölmənin, taqımın və digər hərbi hissələrin qarşısına konkret döyüş tapşırığı, vəzifə qoyulur.

Hər bir hərbçi həmin vəzifəni yerinə yetirməyə borcludur!

Orduda hərbi əməliyyatlar zamanı onlarla, yüzlərlə əmr və tapşırıq verilir!

Onların hər birinin yerinə yetirilməsi üçün hər bir hərbçi canı və qanı ilə vuruşmalıdır!

*Bir nəfərin səhvi, yaxud bir nəfərin əmri yerinə yetirməməsi bəzən döyüş tapşırığının yerinə yetirilməməsinə, ərazi və canlı qüvvə itkisinə səbəb olur!*

Odur ki, orduda hər hissə saat mexanizmi kimi dəqiq işləməli, qərarlar düzgün qəbul olunmalı, əmrlər sözsüz yerinə yetirilməlidir!

**Ən böyük məsuliyyəti isə Ali Baş Komandan daşıyır!**

**Bu məsuliyyət təkcə ordu deyil, həm də dövlət və xalq qarşısındadır!**

* Ali Baş Komandan qərarlar içində ən düzgün olanını verməlidir!
* Ali Baş Komandan variantların içərisindən ən mükəmməlini seçməlidir!
* Ali Baş Komandan məqamında ən ölçülü-biçili, ən uzaqgörən və hesablanmış, az itki ilə ən yüksək nəticəyə gətirən əmrlər verməyi bacarmalıdır!
* Ali Baş Komandanın əmrləri, adətən, taleyüklü olur!

*Qələbə də, məğlubiyyət də ilk növbədə onun hesabına yazılır!*

**Azərbaycan xalqı, Azərbaycan dövləti, Azərbaycan Ordusu xoşbəxtdir ki, onun İlham Əliyev kimi nəyi nə vaxt və necə etməyi dəqiqliklə bilən rəhbəri, Prezidenti və Ali Baş Komandanı vardır!**

❖ ❖ ❖

Yəqin ki, həm Azərbaycanda, həm də dünyanın harasındasa yaşayan elə bir azərbaycanlı yoxdur ki, torpaqlarımızın işğaldan azad edilməsini, qisasımızın alınmasını və yüz minlərlə məcburi köçkünün doğma yurd-yuvasına qayıtmasını arzulamasın.

Bu təbiidir!

*Lakin arzu və istək bir şeydir, onların reallığa çevrilməsi isə bambaşqa!*

*Milyonların istədiyini və arzuladığını yalnız bir nəfər gerçəyə çevirə bilər!*

*Tanrının sevdiyi, taleyin seçdiyi bir nəfər!*

**Bu, İlham Əliyev oldu!**

*Tanrı ona yar oldu, xalq arxasında durdu, özü müdriklik və uzaqgörənliklə, iradə və qətiyyətlə gecə-gündüz bilmədən çalışdı, çarpışdı, işi mərhələlərlə gördü, qərarlarını ölçüb-biçərək qəbul etdi, addımlarını hesablayaraq atdı!*

* Nə tələsdi, nə də gecikdi!
* Tutduğu yoldan - Heydər Əliyev siyasi kursundan heç zaman kənara çıxmadı!
* Siyasi, iqtisadi, diplomatik vəzifələri bir-birilərilə uyğunlaşdırdı, vahid tama çevirdi!
* Düşmənlə, bədxahlarımızla cəsarətlə, ağıl və qətiyyətlə döyüşməyi, onları üstələməyi bacardı!
* Dövlətimizə dostlar qazandırdı, haqq işimizi müdafiə edənlərin sayını daim artırdı.
* Səbirli, təmkinli olmağı, ən cəsarətli qərarları vədəsində, bəzən hesablanmış risklərə gedərək verməyi bacardı.
* Özünə inandı, xalqına güvəndi, dostlarına arxalandı!
* Bütün məsuliyyəti təkbaşına daşımağı bacardı!

❖ ❖ ❖

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin Qarabağ Zəfərini üç şərti mərhələ üzrə nəzərdən keçirəcəyik!**



## MÖCÜZƏLƏR YARADAN BÖYÜK LİDER, MÜZƏFFƏR SƏRKƏRDƏ

Əvvəlcədən qeyd edək ki, hər mərhələnin özünəxas xüsusiyyətləri və yerinə yetirilesi vəzifələri olub!

*Azərbaycanın baş problemi torpaqlarını düşmən işğalından azad edərək ərazi bütövlüyünün təmin olunması idi.*

Baş problemin həlli isə digər məsələlərin çözülməsi, bir çox işin görülməsi və layihələrin reallaşdırılmasından keçirdi.

**Odur ki, eyni zamanda bir neçə istiqamətdə fəaliyyət göstərmək, bir neçə sahədə çalışmaq lazım gəlirdi.**

*AXC-Müsavat cütlüyünün xəyanətkar əməlləri, Şuşa kimi alınmaz qalanı ermənilərə təhvil vermələri, onların naşı, səriştəsiz işləmələri, şəxsi maraqlarını daim dövlət maraqlarından üstün tutmaları, ölkədə uzun müddət xaos və anarxiyanın, qanunsuzluğun baş alıb getməsi Azərbaycanı həm iqtisadi, həm siyasi və idarəçilik cəhətindən xeyli geriyə salmış, Qarabağ probleminin həllini daha da çətinləşdirmişdir.*

Bu mərhələnin xarakterik xüsusiyyəti ondan ibarət idi ki, bir yandan ölkədaxili problemlər həllini tapmalıydı, üstəlik, paralel şəkildə ordu qurularaq Qarabağ münaqişəsinin hərbi vasitələrlə həllinə hazırlıq işləri başa çatdırılmalıydı.

**Azərbaycan Prezidenti İlham Əliyev bütün bu çətin və mürəkkəb vəzifələrin öhdəsindən şərəflə gəldi:**

* Ölkə iqtisadiyyatı inkişaf etdirilərək gücləndirildi, işsizlik və yoxsulluq səviyyəsi xeyli aşağı salındı, xalqın rifahı yüksəldildi, məcburi köçkünlərin həyat şəraiti əhəmiyyətli şəkildə yaxşılaşdırıldı, sahibkarlığın inkişafı, yeni yollar şəbəkəsinin qurulması, energetika və əhalinin qazla təchizatında əhəmiyyətli irəliləyişlər təmin olundu.
* Bir sıra beynəlxalq layihələr ölkənin öz imkanı hesabına həyata keçirildi, "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizi işə salındı, Azərbaycan beynəlxalq logistika mərkəzinə çevrildi.
* Hücum diplomatiyasına keçərək beynəlxalq təşkilatlarda iş gücləndirildi, İlham Əliyevin BMT-nin Təhlükəsizlik Şurasının iclaslarına, habelə İslam Əməkdaşlıq Təşkilatına, Türk Dövlətləri Təşkilatına və Qoşulmama Hərəkatına rəhbərliyi dövründə gördüyü işlər sayəsində Azərbaycanın dostlarının və haqq işini müdafiə edənlərin sayı xeyli artdı.
* ATƏT-in Minsk qrupunun səmərəsiz və faydasız danışıqlarında iştirak edilsə də, cənab İlham Əliyev daim və qəti olaraq bildirirdi: "Azərbaycan bir qarış torpağını da kimsəyə güzəştə getməyəcək, öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına heç zaman yol verməyəcəkdir".
* İlham Əliyev Azərbaycanı dünyaya həm də idman dövləti kimi tanıtdı, I Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunları ölkəmizdə yüksək səviyyədə təşkil edilərək keçirildi, yeni gənclər nəsli tərbiyə olunaraq ordu quruculuğunda kara gəldi.
* İqtidarla xalq arasında milli birlik yaradıldı, Azərbaycan cəmiyyətinin milli ideyaların həyata keçirilməsi yolunda sıx birliyi təmin olundu.

Nəzərdə tutduğu bütün işləri yüksək səviyyədə həyata keçirən Prezident İlham Əliyev Qarabağ probleminin uğurlu və birdəfəlik həlli üçün əlverişli məqam gözləyirdi.

❖ ❖ ❖

**Azərbaycanın ikinci müstəqillik dövrünün ikinci müharibəsi İkinci Qarabağ müharibəsi ilə başlandı.**

*Bu, həm də möhtəşəm quruculuq və Zəfər illərinin ikinci mərhələsi hesab olunur.*

**İkinci mərhələ çox qısa bir dövrü əhatə etsə də, tarixilik baxımından qeyri-adi, möcüzəvi hadisələrin baş verdiyi illər sayılırdı.**

Bu mərhələ Ermənistanın Baş naziri N.Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" söyləyərək sülh danışıqlarının mənasızlığını anlatması, Ermənistanın Tovuz bölgəsində dalbadal törətdiyi silahlı təxribatlar və Azərbaycanın ixrac boru kəmərlərinə təhdidlər yaratması, habelə hərbi ritorikaya keçərək "yeni müharibə yeni ərazilər olacaq" hədəsindən sonra başlandı.

Otuz il ərzində yerli relyefdən istifadə edərək altıqat müdafiə xətti - Ohanyan xətti, mina sahəsi, xəndəklər, atəş nöqtələri, tikanlı məftil maneələri, beton bunkerlər yaradan ermənilər havadarlarının yenə də onları müdafiə edəcəklərinə əminliklə, arxayıncasına hücuma keçdilər.

*Hərbi əməliyyatlar dövründə Rusiyadan İranın hava məkanı ilə Ermənistana fasiləsiz silah-sursat daşındı, yanacaqla tam təmin olundular, Fransa beynəlxalq təşkilatlarda hayların fəal müdafiəçilərinə çevrildi.*

* Zəfər müharibəsi ildırım sürətilə aparıldı.
* Bu müharibədə ən yeni taktika və strategiya tətbiq olundu.
* Azərbaycan ən yeni texnologiyaya əsaslanan ən yeni silahlardan, xüsusən PUA-lardan məharətlə istifadə etdi.
* Bununla da XXI əsrin müharibələr tarixinin yeni səhifəsini açmış oldu.
* Azərbaycan nümunəvi müharibə apardı və onun bu nümunəsi artıq dünyanın bir neçə ölkəsinin hərbi məktəblərində öyrənilir.
* Azərbaycan otuzillik işğalın qisasını hərb meydanında aldı, ordumuz daim hucumda oldu, buna baxmayaraq, müdafiə olunan düşməndən üçqat az itki verdi.
* Azərbaycan ləyaqətli müharibə apardı, heç zaman mülki insanları və obyektləri atəş hədəfinə çevirmədi, hətta düşmən cəbhə bölgəsindən yüz kilometrlərlə uzaqda yerləşən yaşayış məntəqələrimizi qadağan olunmuş silahlarla vursa da belə!
* Azərbaycan Ordusu öz gücünü, qüdrətini, Ermənistan ordusundan qat-qat üstünlüyünü hər gün nümayiş etdirərək 44 gün ərzində düşməni diz çökdürdü!

*Ermənilərin ən yaxın dostu Rusiya onları tam məhvolmadan xilas etmək üçün araya girdi, vasitəçilik edərək hərbi əməliyyatların dayandırılmasını istədi.*

Azərbaycan etiraz etmədi, bu şərtlə ki, əvvəla, düşmən öz qoşunlarının ərazimizdən çıxarılması qrafikini təqdim etməlidir, ikincisi kapitulyasiya aktında Azərbaycanın bütün istək və tələbləri öz yerini almalıdır.

Belə də oldu!

**Rusiyanın vasitəçiliyi və zəmanəti ilə üçtərəfli Bəyanat imzalandı, hərbi əməliyyatlar dayandırıldı.**

Bu, həmin dövr üçün ən doğru və uzaqgörən qərar idi.

*Beləliklə, otuzillik işğala son qoyan Azərbaycan ikinci mərhələnin ən mühüm vəzifəsini yerinə yetirdi.*

Lakin Rusiyaya arxalanan ermənilər kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatın bir neçə mühüm bəndini icra etməkdən boyun qaçırdılar.

Azərbaycan səbir etdi, əlverişli məqam gözlədi...

**2023-cü ilin 23 aprelində çox cəsarətli və unikal hərbi əməliyyat keçirərək Həkəri çayı üzərindəki postu ələ keçirməklə öz nəzarəti altına aldı!**

**Azərbaycanın ərazi bütövlüyü bərpa olunmaqla ikinci mühüm vəzifə yerinə yetirildi.**

2023-cü ilin 20 sentyabrında isə hərb tarixinə düşəcək daha bir əməliyyat keçirildi.

Bir neçə saat ərzində ərazimizdəki Ermənistanın qeyri-qanuni hərbi birləşmələri və terrorçu dəstələri tərk-silah edildi.

Ağ bayraq qaldıran separatçılar təslim oldular!

Onların, habelə Azərbaycan vətəndaşlığını qəbul edərək Azərbaycan qanunları əsasında ölkəmizdə yaşamaq istəməyən hayların dinc şəkildə ərazilərimizi tərk etmələrinə şərait yaradıldı.

Bu əməliyyat zamanı da mülki əhalinin bir nəfəri belə ziyan görmədi.

Növbəti vəzifə isə Rusiya sülhməramlılarının Qarabağdan çıxarılması oldu!

*Rusiya Sülhməramlı Kontingenti (RSK) həm 44 günlük müharibədə, həm də sonrakı dövrlərdə sülhməramlılıqla yox, ermənipərəstliklə məşğul idi.*

Laçın dəhlizindən ərazilərimizə silah-sursat, habelə qanunsuz erməni hərbi birləşmələri üçün təchizat daşınmasına, ölkəmizdən faydalı qazıntı yataqları məhsullarının aparılmasına göz yumur, hətta terrorçu dəstələrinin hərbi kolonlarının mühafizəçisi funksiyasını daşıyırdılar.

**Rusiya sülhməramlılarının dinc şəraitdə Qarabağdan çıxarılması Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi zəkasının, iradə və qətiyyətinin yeni təntənəsi oldu!**

**Bununla da ikinci mərhələnin bütün vəzifələri uğurla yerinə yetirilmiş oldu!**

❖ ❖ ❖

*Torpaqlarını öz gücü ilə işğaldan azad edərək dövlət suverenliyini və Konstitusiya əsaslarını da bərpa edən Azərbaycan artıq üçüncü mərhələnin vəzifələrinin icrası ilə məşğuldur.*

Müzəffər Ali Baş Komandan İlham Əliyev Ermənistanı bütün parametrlər üzrə biabırçı məğlubiyyətə uğratsa da, onu diz çökdürərək kapitulyasiya aktını imzalatdırsa da, yenə sülh təklifini irəli sürən tərəf Azərbaycan oldu!

Beynəlxalq norma və prinsiplərə, beynəlxalq hüquqa əsaslanan sülh müqaviləsi ötən beş ildə daim masada olub.

**Bu mərhələdə də Müzəffər Ali Baş Komandan İlham Əliyev böyük iradə, müdriklik və qətiyyət göstərdi, irəli sürülən bütün şərtlərdən bir addım belə geri çəkilmədi.**

* Rusiya vasitəçilik missiyasını sonadək, səmimiyyətlə yerinə yetirmədi.
* Fransa Prezidenti Makron ermənidən betər ermənilik etdi, haylara yenidən silah-sursat verdi, vasitəçilik eşqinə düşərək tərəf tutdu.
* Avropa İttifaqı da vasitəçiliklə ermənipərəst mövqeyi birləşdirdiyindən danışıqlardan kənarlaşdırıldı.
* ABŞ-nin Bayden Administrasiyası isə nəinki sülhün yaranmasına dəstək verdi, əksinə, Ermənistanla birlikdə hərbi təlimlər keçirdi, öz hərbi mütəxəssisini Ermənistanın müdafiə nazirliyində işləməyə göndərdi, ən nəhayət, gethagetdə ABŞ ilə Ermənistan arasında strateji tərəfdaşlıq haqqında xartiya imzaladılar.

**Azərbaycan Prezidenti İlham Əliyevin avqustun 7-8-də gerçəkləşən Vaşinqton səfəri, orada ABŞ Prezidenti Donald Trampla görüşü və dünyanın birnömrəli ofisində imzalanan sənədlər bütün bunlara son qoydu.**

* Ermənistanla Azərbaycan bütün şərtlərimizi özündə əks etdirən sülh sazişinin layihəsini parafladılar.
* ATƏT-in Minsk qrupunun fəaliyyətinin dayandırılması üçün xarici işlər nazirləri birlikdə müraciət imzaladılar.
* D.Tramp 907-ci düzəlişin təsirini dayandırdı.
* Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının şərtlərinin hazırlanması üçün işçi qrupunun yaradılması barədə memorandum imzalandı.
* Zəngəzur dəhlizinin (TRIPP) açılması və onun 99 illiyə ABŞ-yə icarəyə verilməsi barədə qərar qəbul olundu.

*Beləliklə, 8 noyabr 2020-ci il Zəfəri 8 avqust səfərində Vaşinqtonda imzalanan vacib sənədlərlə yeni zirvəyə ucaldı.*

**Prezident İlham Əliyevin bu münasibətlə söylədiyi fikirlərə diqqət çəkirik:**

*"Ermənistanla sülh müqaviləsinin müəllifi də bizik, o bəndlərin tərtibatında da bizim mövqeyimiz hər zaman əsas götürülmüşdür. Bu sənədin paraflanması faktiki olaraq Ermənistan-Azərbaycan qarşıdurmasına son qoyur. Bununla bərabər, bizim tarixi diyarımız olan Naxçıvanla quru bağlantısı da təmin edildi. 2020-ci ilin noyabrından son günlərə qədər biz təkidlə bu məsələni daim gündəlikdə saxlayırdıq və müxtəlif yollarla bu məqsədə çatmaq üçün səylər göstərirdik və nəhayət, biz buna da nail olduq. Artıq Ermənistan bu öhdəliyi də üzərinə götürmüşdür və ümid edirəm ki, yaxın bir neçə il ərzində biz qatarlarla və avtomobillərlə Azərbaycanın əsas hissəsindən Naxçıvana gedə biləcəyik. Eyni zamanda bu, təkcə Azərbaycanın iki hissəsini bir-biri ilə birləşdirməyəcək. Bu, eyni zamanda beynəlxalq nəqliyyat dəhlizinə çevriləcək. İndi Azərbaycan ərazisindən bir neçə nəqliyyat dəhlizi keçir və bu, əlbəttə ki, ölkəmizin önəmini artırır".*

**Artıq Ermənistanın Azərbaycanın şərtlərini yerinə yetirməklə sülh müqaviləsi imzalamaqdan başqa yolu yoxdur!**

❖ ❖ ❖

Tarixin zaman ölçüsü nisbidir.

Bizim uzun saydığımız bir il, tarix üçün az qala bir göz qırpımıdır.

Hər işin, hər layihənin özünəməxsus görülmə müddəti, reallaşma zamanı var.

Bu, təbiidir və işin həcmindən, layihənin miqyasından asılıdır.

*Lakin son iyirmi iki ildə Azərbaycanda o qədər geniş və əhatəli işlər görülüb, o qədər nəhəng tutumlu layihələr həyata keçirilib ki, heyrətə gəlməmək mümkün deyil!*

**Son 80 ildə Azərbaycandan başqa heç bir dövlət, heç bir xalq belə möhtəşəm Zəfər qazanmayıb!**

*Azərbaycan otuzillik işğala son qoymaqla, ərazi bütövlüyünü və dövlət suverenliyini bərpa etməklə yanaşı:*

* Tam qələbə qazandı!
* Mütləq qələbə qazandı!
* Qəti qələbə qazandı!
* Tarixi və tarixdə bərabəri olmayan qələbə qazandı!
* **Bu qələbənin memarı Müzəffər Ali Baş Komandan İlham Əliyev oldu!**
* **Bu qələbənin qurucusu Müzəffər Ali Baş Komandan İlham Əliyev oldu!**
* **Bu qələbənin təminatçısı və icraçısı Müzəffər Ali Baş Komandan İlham Əliyev oldu!**
* **Bu qələbənin əsl müəllifi və qəhrəmanı da Müzəffər Ali Baş Komandan İlham Əliyev oldu!**

Ən maraqlı və möhtəşəm cəhət budur ki, Azərbaycanın qələbəsi təkcə Azərbaycan miqyasında qalmır.

Torpaqlarını işğaldan azad edən, keçmiş məcburi köçkünləri yeni tipli yaşayış məntəqələrində xoşbəxt və firavan yaşamağa qaytaran Azərbaycan Zəngəzur dəhlizini (TRIPP) açmaqla türk dünyasını bir-birinə yaxınlaşdırır, quru yolla bir-birinə bağlayır.

Orta dəhlizi işə salmaqla Çinin, Mərkəzi Asiyanın Xəzər dənizindən və Azərbaycandan keçməklə Avropaya ən yaxın və təhlükəsiz çıxışını təmin edir.

*Bütün bunların da müəllifi və ən fəal icraçılarından biri məhz Azərbaycan Prezidenti İlham Əliyevdir!*

**Yaradıcı, qurucu, birləşdirici, sülhə və əməkdaşlığa xidmət edən böyük lider - İlham Əliyevdir!**

**Bəxtiyar SADIQOV**



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş siyasət, düzgün taktika

**Müasir dövrdə dövlətlərin qlobal rəqabət qabiliyyəti artıq təbii resurslarla deyil, texnoloji tərəqqi və innovasiya ekosisteminin dərinliyi ilə ölçülür. Azərbaycanın müstəqil inkişaf yolu məhz bu reallıqlardan çıxış edərək formalaşmışdır.**
**Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş elmi və institusional əsaslar Azərbaycanın informasiya və kommunikasiya texnologiyaları sahəsində inkişafının təməlini təşkil etmiş, ölkənin rəqəmsal gələcəyi üçün strateji baxışı müəyyənləşdirmişdir. Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti, dövlət idarəçiliyində şəffaflığın təmin olunması, hüquqi və institusional bazanın formalaşdırılması və informasiya texnologiyalarına investisiyaların yönəldilməsi kimi addımları müasir Azərbaycan üçün texnoloji tərəqqinin ilkin sütunlarını qoymuşdur.**



# İlham Əliyev və Azərbaycanın rəqəmsal strategiyası

### İnstitusional və hüquqi fundament

Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının (İKT) sistemli inkişafının institusional və hüquqi təməli Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdığı dövrdə qoyulmuşdur. 1993-2003-cü illər Azərbaycanın həm hərbi, həm də iqtisadi böhranlardan çıxdığı, müstəqil dövlət quruculuğu prosesinin ən həlledici mərhələsi idi.

1993-cü ildə Heydər Əliyevin rəhbərliyə qayıdışı ölkənin elmi-texniki potensialının qorunub saxlanılmasına və beynəlxalq standartlara uyğun şəkildə yenidən qurulmasına təkan vermişdir. Bu dövrün ən mühüm strateji addımlarından biri 2003-cü ilin fevral ayında təsdiq edilmiş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)"dır. Bu sənəd, sadəcə, bir proqram deyil, Azərbaycanın rəqəmsal gələcəyinin "böyük Xartiya"sı idi. Strategiya ölkədə informasiya cəmiyyətinin qurulmasını, dövlət idarəçiliyinin şəffaflaşdırılmasını və İKT-nin iqtisadiyyatın aparıcı sektoruna çevrilməsini hədəfləyirdi.

Heydər Əliyevin böyük uzaqgörənliyi, strateji düşüncəsinin məntiqi nəticəsi idi ki, Ulu Öndər internetin hələ yeni-yeni kütləviləşdiyi bir dövrdə Azərbaycanın bu qlobal axından kənarda qalmaması üçün zəruri hüquqi bazanı formalaşdırdı. 1998-ci ildə "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunun qəbulu bu sahədəki ilk fundamental addım hesab olunur. Bu qanun məlumatların rəqəmsal məkanda təhlükəsizliyini və dövlət informasiya ehtiyatlarının idarə olunmasını qanunvericilik səviyyəsində tənzimləməyə başladı. Həmin dövrdə neft strategiyasından əldə olunan ilk gəlirlərin bir hissəsinin rabitə infrastrukturunun modernləşdirilməsinə yönəldilməsi ölkədə "müstəqil dövlətin müstəqil rabitəsi olmalıdır" prinsipinin həyata keçirilməsinə imkan verdi. 1993-1995-ci illərdə rabitə sisteminin bərpası və beynəlxalq şəbəkəyə qoşulma həyata keçirildi və müstəqil rabitə kanalının formalaşması təmin edildi. 1998-ci ildə "İnformasiya haqqında" qanunun qəbulu ilə rəqəmsal hüquqi mühit yaradıldı, 2002-ci ildə İKT üzrə Milli Strategiyanın hazırlanması barədə sərəncam imzalanaraq inkişafın uzunmüddətli planlaşdırılması təmin olundu. 2003-cü ildə Milli Strategiyanın (2003-2012) təsdiqi ilə informasiya cəmiyyətinə keçid başladı.

Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində Azərbaycan hələ 2000-ci illərin əvvəllərində BMT və digər beynəlxalq təşkilatların İKT üzrə proqramlarında aktiv iştirakçıya çevrilmişdir. Bu dövrdə atılan addımlar sonradan Prezident İlham Əliyev tərəfindən həyata keçiriləcək kosmik proqramlar, e-hökumət layihələri və genişzolaqlı internet şəbəkəsi üçün zəruri olan intellektual və texniki bazanı formalaşdırmışdır.

### Azərbaycan Kosmik klubun üzvü oldu

"Biz müasir texnologiyalara böyük önəm verərək Azərbaycanda yüksək texnologiyaların inkişafına hesablanmış çox düzgün addımlar atmışıq. Burada həm kadr potensialı məsələləri, eyni zamanda bizim investisiyalarımız, sərmayələrimiz - biz indi kosmik dövlətə çevrildik. Azərbaycanda kosmik sənayenin inkişafının çox böyük potensialı var və gələcək də məhz bu istiqamətdə inkişaf edəcək. Hər şeyi bundan sonra texnologiyalar həll edəcək. Biz həm texnologiyaları gətirib Azərbaycanda tətbiq etməliyik, həm də elə güclü kadr potensialı yaranmalıdır ki, biz özümüz bu texnologiyaların müəllifləri olaq" söyləyən Prezident İlham Əliyev müasir müstəqil Azərbaycanın uğurlarında yeni texnologiyaların rolunu xüsusi qeyd edir. Ulu Öndərin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən dövlətimizin başçısı 2003-cü ildə "Neft kapitalını insan kapitalına çevirək!" çağırışını etdi və bu istiqamətdə atdığı davamlı addımlar indi özünün uğurlu nəticələrini verir.

İlham Əliyevin prezidentliyi dövründə Azərbaycanın əldə etdiyi ən parlaq və strateji uğurlardan biri ölkənin kosmik dövlətlər sırasına daxil olmasıdır. 2008-ci ildə "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında" imzalanmış sərəncam bu sahədə yeni bir dövrün başlanğıcı idi. Bu qərar, sadəcə, texnoloji bir layihə deyil, həm də Azərbaycanın informasiya təhlükəsizliyini təmin etmək və dünya kosmik xidmətlər bazarında öz payını almaq üçün atılmış cəsarətli bir addım idi.

Azərbaycanın kosmik proqramı üç peykin uğurlu istismarı ilə xarakterizə olunur. 2013-cü il fevralın 8-də Fransanın Kuru kosmodromundan orbitə buraxılan "Azerspace-1" ölkənin ilk telekommunikasiya peyki kimi tarixə düşmüşdür. Bu hadisə Azərbaycanın Cənubi Qafqaz regionunda kosmik liderliyini təmin etmişdir. 2014-cü ildə isə Yerin məsafədən müşahidəsi peyki olan "Azersky" (Spot 7) xidmətə başlamış, ölkəyə hərbi, kənd təsərrüfatı və ekoloji monitorinq sahəsində misilsiz üstünlüklər qazandırmışdır. 2018-ci ildə "Azerspace-2" peykinin orbitə çıxarılması ilə Azərbaycan öz telekommunikasiya imkanlarını daha da genişləndirmiş və ehtiyat sistemlərini möhkəmləndirmişdir. Azərbaycanın kosmik aktivləri iqtisadi baxımdan da özünü doğrultmuşdur. "Azerspace-1" və Azərsky peyklərinin istehsalı və orbitə çıxarılması, uçuşu idarəetmə və ehtiyat mərkəzləri üçün alınan 206.2 milyon ABŞ dolları məbləğində kredit artıq 2023-cü ildə tamamilə geri ödənilmişdir. Azərbaycan telekommunikasiya və optik peyk xidmətlərindən 550 milyon manatdan çox gəlir əldə etmişdir ki, bu da qeyri-neft sektorunun inkişafı üçün mühüm rəqəmdir.

Prezident İlham Əliyevin imzaladığı "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması", "Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" sərəncamlar, "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin təsis edilməsi, Yerüstü Peyk- İdarəetmə Mərkəzinin yaradılması ölkədə kosmik sənayenin inkişafını sürətləndirdi. "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin təsis edilməsi ilə azsaylı kosmik ailənin üzvlərindən olan ölkəmizdə "fəza elmi"nə diqqət artırıldı. 2023-cü ildə Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresi Azərbaycanın qlobal kosmik icmadakı yerini möhkəmləndirmişdir. 132 ölkədən 5404 nümayəndənin iştirakı ilə reallaşan bu tədbir Azərbaycanın texnoloji diplomatiyasının ən böyük nailiyyətlərindən biri kimi qiymətləndirilmişdir. Həmçinin "Kosmik fəaliyyət haqqında" qanunun qəbulu bu sahənin hüquqi tənzimlənməsini beynəlxalq standartlara uyğunlaşdırmışdır.

Ölkəmizdə elm, texnologiya, İKT, o cümlədən kosmik sənayenin inkişafı istiqamətində son illər çox mühüm işlər görülüb. Kosmik proqramların hazırlanması və reallaşdırılması müstəqillik tariximizin ən böyük uğurlarından biri kimi tarixə düşüb. Azərbaycan informasiya-kommunikasiya texnologiyaları sahəsində aparıcı ölkələrdən biri olduğunu təsdiqləyib. 2023-cü ildə Beynəlxalq Astronavtika Konqresinin Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisi, ölkəmizin İKT sahəsində əldə etdiyi uğurların dünya ictimaiyyətinə təqdimatı oldu. Azərbaycan hər zaman yeni texnologiyaların inkişafına və tətbiqinə xüsusi önəm verir. Dövlət başçısı İlham Əliyevin sərəncamı ilə 2013-cü ilin ölkəmizdə "İnformasiya-kommunikasiya texnologiyaları İli" elan edilməsi, həmin ildə ilk kosmik peykin buraxılması Azərbaycanın yeni texnologiyaların inkişafına göstərdiyi diqqətin və bunun nəticəsində qazandığı uğurların təqdimatıdır.

### Uğurlu rəqəmsal transformasiya

Prezident İlham Əliyevin rəqəmsal transformasiya siyasətinin əsas istiqaməti ölkənin hər bir guşəsində yüksəksürətli internetə çıxışın təmin edilməsidir. İnternet artıq lüks deyil, iqtisadiyyatın, təhsilin və sosial xidmətlərin təməl infrastrukturudur. Son beş il ərzində həyata keçirilən "Onlayn Azərbaycan" layihəsi ölkənin rəqəmsal simasını köklü şəkildə dəyişmişdir. 2021-ci ildən start verilən layihənin əsas hədəfi köhnəlmiş magistral kabel infrastrukturunu (ADSL) müasir fiber-optik (GPON) şəbəkəsi ilə əvəz etməkdir. GPON texnologiyası hər bir istifadəçiyə 1 Qbit/s-ə qədər sürət və sabit bağlantı təmin edir ki, bu da kütləvi rəqəmsallaşma üçün zəruridir. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin məlumatına görə, 2024-cü ilin birinci yarısında ölkədə 2,7 milyondan çox ev təsərrüfatının genişzolaqlı internetə çıxış imkanı yaradılmışdır. Bu, layihənin başlanğıcı ilə müqayisədə 13 dəfə artım deməkdir. "Aztelekom" MMC qlobal internet sürət testi lideri olan "Ookla" tərəfindən "Ən Sürətli Sabit Şəbəkə" mükafatına layiq görülmüşdür. Bu nailiyyət Azərbaycanın rəqəmsal uçurumu aradan qaldırmaq istiqamətindəki qətiyyətini göstərir.

Azərbaycanın rəqəmsal transformasiya sahəsindəki ən uğurlu təcrübəsi "ASAN xidmət" modelidir. 2012-ci ildə yaradılmış bu struktur dövlət idarəçiliyində şəffaflıq və operativliyi təmin etmiş, vətəndaş-dövlət münasibətlərində yeni standartlar müəyyən etmişdir. "E-hökumət" portalı (e-gov.az) dövlət orqanlarının xidmətlərini vahid pəncərə prinsipi ilə təqdim edir. "mygov" portalı isə "məlumat bir dəfə verilməlidir" prinsipi əsasında vətəndaşların bütün fərdi məlumatlarını vahid platformada birləşdirir, bu da dövlət xidmətlərinə müraciəti sadələşdirir. Rəqəmsal dövlətin onurğa sütunu gücləndirilmiş elektron imza sistemləridir. Uzun müddət ölkədə mobil-ID əsaslı "Asan İmza" sistemi əsas alət olmuşdur. Lakin innovasiyalar burada dayanmamışdır. 2022-ci ildən etibarən "SİMA" rəqəmsal imza tətbiqi istifadəyə verilmişdir. SİMA tamamilə biometrik texnologiyalara və süni intellektə əsaslanır, istifadəçi smartfon vasitəsilə qeydiyyatdan keçərək pulsuz rəqəmsal imza əldə edir. Bu, rəqəmsal inklüzivliyi təmin edən inqilabi addımdır. İstifadə sahəsi bank, vergi, gömrük, e-gov və bütün e-xidmətləri əhatə edir.

### Gələcək iqtisadi artımın mühərriyi, süni intellekt

Azərbaycan süni intellektin (Sİ) gələcək iqtisadi artımın mühərriyi olduğunu qəbul edərək sistemli siyasət yürüdür. Prezident İlham Əliyev tərəfindən 2025-2028-ci illəri əhatə edən "Süni İntellekt Strategiyası" təsdiqlənmiş, ölkənin regional liderliyi hədəfləməsi təmin edilmişdir. Strategiya çərçivəsində Sİ-nin idarə edilməsi, etik normaların müəyyənləşdirilməsi və texnologiyaların iqtisadiyyatın müxtəlif sahələrinə (səhiyyə, kənd təsərrüfatı, maliyyə) inteqrasiyası nəzərdə tutulur. Dövlət büdcəsindən bu sahəyə 5 milyon manat ayrılmışdır. Üstəlik, yerli elmi potensial işə salınaraq yerli alqoritmlər hazırlanır. Azərbaycanın süni intellekt və "Əşyaların İnterneti" sahəsində ən real uğuru Zəngilan rayonunun Ağalı kəndindədir. Bu kənddə "ağıllı kənd" konsepsiyası tətbiq edilmişdir. "Ağıllı enerji" sistemləri, PUA-lar vasitəsilə xəritələmə və sensorlar əsasında məhsuldarlığın artırılması, Big Data vasitəsilə infrastruktur xidmətlərinin real vaxt analizi həyata keçirilir.

Rəqəmsallaşmanın artması kibertəhdidlərin də artması deməkdir. Azərbaycan bu təhlükələri milli təhlükəsizlik prioriteti kimi qiymətləndirir. Prezident İlham Əliyevin 28 avqust 2023-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiya" vahid fəaliyyət planını müəyyən edir. Kibertəhlükəsizlik sahəsində dövlət tənzimlənməsini Elektron Təhlükəsizlik Xidməti həyata keçirir. ETX-nin nəzdində fəaliyyət göstərən Milli CERT ölkə üzrə kiber-insidentlərə cavabdehdir. Strategiya çərçivəsində kritik informasiya infrastrukturunun qorunması, kiber-müdafiə qabiliyyətinin artırılması və əhalinin kiber-savadlığının yüksəldilməsi hədəf seçilmişdir. Azərbaycan bu sahədə beynəlxalq tərəfdaşlığa da böyük önəm verir. Elektron Təhlükəsizlik Xidmətinin "Fortinet" ilə əməkdaşlığı yerli sistemlərin müasir proqram təminatı ilə qorunmasını təmin edir. Süni intellektin kibertəhlükəsizlikdə tətbiqi sahəsində mütəxəssislərin Sinqapur və digər texnoloji mərkəzlərdə təlim keçməsi kadr potensialını gücləndirir.

Azərbaycanda texnoloji inkişafın elmi bazasının formalaşmasında İdarəetmə Sistemləri İnstitutu mühüm rol oynayır. İnstitutda SCADA sistemləri, PUA-lar və süni intellekt alqoritmlərinin inkişafı istiqamətində fundamental tədqiqatlar aparılır. SCADA sistemləri enerji və su təchizatı kimi kritik infrastrukturun rəqəmsal idarə olunmasını təmin edir. Bu yerdə xatırladaq ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində PUA-ların süni intellekt elementləri ilə tətbiqi döyüş meydanında üstünlük yaratmış, milli təhlükəsizlikdə həlledici rol oynamışdır.

### Rəqəmsal iqtisadiyyat, texnoloji tərəqqi

Azərbaycanın texnoloji inkişafının fiziki bazasını geniş fiber-optik magistrallar və regional data mərkəzləri təşkil edir. Ölkənin coğrafi mövqeyi Avropa və Asiya arasında rəqəmsal dəhliz olmasına imkan verir. Bütün rayon və kəndlərin fiber-optik kabellərlə təmin olunması gələcəkdə 5G şəbəkəsinin tətbiqi üçün zəruri bünövrədir. Bakıdakı TIER III səviyyəli Data Mərkəzi yerli qurumların və beynəlxalq şirkətlərin məlumatlarının təhlükəsiz saxlanmasını təmin edir, Azərbaycan rəqəmsal xidmətlərin həm istehlakçısı, həm də regional ixracatçısına çevrilir.

Rəqəmsal iqtisadiyyat Azərbaycanın postneft dövrü strategiyasının mərkəzi elementidir. Dövlət siyasətini həyata keçirən əsas qurum İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyidir. Agentliyin fəaliyyəti startapların dəstəklənməsindən tutmuş texnoparkların idarə edilməsinə qədər geniş spektri əhatə edir. Texnopark rezidentliyi sistemi innovativ şirkətlər üçün 10 il müddətinə mənfəət, gəlir, əmlak, torpaq, ƏDV və gömrük rüsumlarından azadolma təmin edir. Bu, Azərbaycanı regional İKT mərkəzi kimi cəlbedici edir. "Rəqəmsal Bacarıqlar" layihəsi şagirdlərə proqramlaşdırma və alqoritmik düşüncəni erkən yaşlardan öyrədir. 2021-2022-ci tədris ilində layihə 250 məktəbi və 190 mindən çox şagirdi əhatə etmişdir. Gənclərin "Teknofest" kimi beynəlxalq texnoloji festivallarda iştirakı Azərbaycanın gələcək innovativ potensialını göstərir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə texnoloji tərəqqi ölkənin modernləşməsinin əsas hərəkətverici qüvvəsidir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş rəqəmsal strategiya kosmik orbitlərdə, "ağıllı şəhər"lərdə, kəndlərdə, biometrik imzalarda və fiber-optik şəbəkələrdə öz əksini tapır. Azərbaycan, sadəcə, təbii resursları ilə deyil, həm də innovativ dövlət xidmətləri, müstəqil peyk operatorluğu və sürətlə böyüyən rəqəmsal iqtisadiyyatı ilə dünyada tanınır.

Gələcək illər üçün nəzərdə tutulan süni intellekt və kibertəhlükəsizlik strategiyaları ölkəmizin suverenliyini qorumaqla Azərbaycanı qlobal rəqəmsal dəyər zəncirinin ayrılmaz hissəsinə çevirəcəkdir. Bu strateji transformasiya Azərbaycanın XXI əsrin texnoloji çağırışlarına tam hazır olduğunun və milli tərəqqinin intellektual əsaslar üzərində davam edəcəyinin bariz təminatıdır. Azərbaycan son illər texnoloji tərəqqidə çox böyük addımlar atıb və bu, təkcə rəsmi statistikalarla deyil, vətəndaşların gündəlik həyatında da hiss olunur. Genişzolaqlı internetdən tutmuş kosmik peyklərə, "ağıllı şəhər" və "ağıllı kənd" layihələrindən süni intellekt proqramlarına qədər hər sahədə irəliləyişlər mövcuddur. Prezident İlham Əliyev dəfələrlə çıxışlarında vurğulayıb ki, innovasiya və texnologiya artıq ölkələrin gələcək inkişafının əsas göstəricisidir və Azərbaycan bu sahədə həm regional, həm də qlobal səviyyədə lider mövqe tutmalıdır: "Azərbaycan texnologiyaya investisiya qoyaraq, gələcəyin iqtisadiyyatını formalaşdırır və gənclərimizi rəqəmsal bacarıqlarla silahlandırır".

Gələcək planlara gəldikdə, süni intellekt və kibertəhlükəsizlik sahəsində strateji təşəbbüslər davam etdiriləcək, bütün bölgələrdə yüksəksürətli internet təminatı genişləndiriləcək, rəqəmsal xidmətlər və dövlətin onlayn platformaları daha da təkmilləşdiriləcək. Azərbaycanda elmi-tədqiqat institutları və universitetlər daha çox yerli innovasiyaların hazırlanması üçün dəstəklənəcək, startap ekosistemi gücləndiriləcək və gənc ixtiraçılar beynəlxalq səviyyədə öz potensialını göstərə biləcəklər. Bu istiqamətdə atılacaq hər addım ölkəmizi yalnız postneft dövründə davamlı inkişaf etmiş dövlətə çevirmək üçün deyil, həm də vətəndaşların həyat keyfiyyətini yüksəltmək, dövlət xidmətlərini şəffaf və əlçatan etmək üçün böyük əhəmiyyət daşıyır. Texnologiya və innovasiya sahəsində əldə olunan uğurlar Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu artırır, iqtisadiyyatını diversifikasiya edir və milli suverenliyi daha da möhkəmləndirir.

*Azərbaycanın texnoloji sahədə qazandığı uğurlar möhkəm təmələ əsaslanır. Heydər Əliyevin yaratdığı strateji əsaslar İlham Əliyevin rəhbərliyi ilə tamamlanır. Rəqəmsal iqtisadiyyat, süni intellekt, kibertəhlükəsizlik və innovativ layihələr Azərbaycanın dünyanın inkişaf etmiş ölkələri sırasına daxil olmasını şərtləndirir. Azərbaycan hazırda XXI əsrin çağırışlarına tam hazır, rəqabətədavamlı və perspektivli ölkə olaraq gələcəyə doğru inamla addımlayır.*

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş siyasət, düzgün taktika

# Qüdrətli Azərbaycanın qətiyyətli lideri



**Prezident İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır. Qarabağı və Şərqi Zəngəzuru bizə qaytaran, Azərbaycan xalqını qalib xalqa çevirən Müzəffər Ali Baş Komandan öz ölkəsinin hər bir vətəndaşının qəlbini fəth etməyi bacaran nadir dünya liderlərindən biridir. O, Ulu Öndərimizin arzusunu və vəsiyyətini həyata keçirərək 22 ildir Azərbaycanı qurtuluş və tərəqqi yolu ilə irəli aparır.**

Azərbaycan xalqı 22 il əvvəl Ümummilli Liderin siyasi kursuna səs verərək müdrik seçim etdi. Xalqın öz qərarında yanılmadığını sübut edən İlham Əliyev bu illər ərzində Azərbaycanın nüfuzunu təkcə regionda deyil, dünyada yüksəltdi. Hansı sahəyə baxsaq, orada inkişaf, nailiyyət görərik. Əldə olunan uğurlar sayəsində Azərbaycan güc mərkəzinə çevrilmişdir. Fəaliyyətini dövlətə, xalqa xidmətə həsr edən Prezident İlham Əliyevin Azərbaycan üçün etdiklərini saymaq mümkün deyil. Ən əsası, onun ən böyük əməli prezidenti olduğu dövlətin qüdrətli olması və Azərbaycan xalqının qalib xalqa çevrilməsidir.

Ümummilli Lider Heydər Əliyev deyirdi ki, müstəqil Azərbaycan Respublikası yaşayacaq və demokratiya prinsipləri, insan azadlığı, demokratik iqtisadiyyat sahəsində başqa dövlətlər üçün nümunə olacaqdır. Bəli, bu gün biz fəxr edirik ki, müstəqil Azərbaycan Respublikası nəinki regionun, dünyanın lider ölkələri sırasındadır. Hazırda əksər regional və ya beynəlxalq layihələr Azərbaycanın iştirakı olmadan reallaşmır. Təməli Azərbaycan dövlətinin yaradıcısı Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş demokratik prinsiplərə sadiq qalan Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikada nəhəng quruculuq işləri aparılır. Dünyanın müxtəlif yerlərində dövlətlərin bir-birinə qarşı düşmənçiliyini, terror aktlarını, dini, milli, irqi ayrı-seçkiliyi müşahidə edirik. Bütün bunların fonunda Azərbaycanda insanlar təhlükəsizlik, tolerantlıq şəraitində yaşayırlar. Və əlbəttə ki, hər bir inkişafın nüvəsini sabitlik təşkil edir. Biz bu stabilliyə Prezident İlham Əliyevin yürütdüyü düşünülmüş siyasət nəticəsində nail olmuşuq.

34 illik müstəqillik tariximizin son 22 ili, daha doğrusu, 23 ilə yaxın olan dövrü xüsusi ilə önəmlidir. Bəlkə də tarix üçün bu qısa bir dövrdür, lakin bu müddəti addım-addım keçən bir ölkə üçün heç də az zaman deyil. Prezident İlham Əliyev ötən müddət ərzində öz fəaliyyəti ilə hər bir azərbaycanlının prezidenti olduğunu dəfələrlə sübuta yetirib. O, bu müddət ərzində Ümummilli Lider Heydər Əliyevin ideyalarını daha da inkişaf etdirərək uğurlu daxili və xarici siyasət həyata keçirib. Bunun nəticəsində Azərbaycan daha da güclənib, dünya miqyasında söz sahibi olan dövlətə çevrilib. Azərbaycanın paytaxtı Bakı ən mötəbər beynəlxalq tədbirlərə evsahibliyi edib. Ölkəmizdə Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, "Formula-1" yarışları kimi bütün dünyanın diqqət mərkəzində olan mühüm tədbirlər keçirilib. COP29 isə Azərbaycanın ekoloji siyasət arenasında növbəti misilsiz uğuru olub.

"Əsrin müqaviləsi"nin daha səmərəli şərtlərlə 2050-ci ilə qədər uzadılması, Bakı-Tbilisi-Qars dəmir yolunun açılması, "Cənub qaz dəhlizi"nin fəaliyyətə başlaması, enerji, neft-qaz sahəsində digər irimiqyaslı layihələrin rellaşması ölkəmizin strateji əhəmiyyətini daha da artırıb. Bu gün də Azərbaycan nəinki öz xalqı, həm də qonşu ölkələr, bütövlükdə isə dünya üçün önəmli olan layihələr icra edir.

İlk dəfə Prezident kimi andiçmə mərasimində çıxış edən İlham Əliyev demişdir: "Müharibə hələ başa çatmayıb. Müharibənin birinci mərhələsi başa çatıb. Bizim əsas vəzifəmiz ordunu bərpa etmək, ölkəmizin ərazi bütövlüyünü təmin etməkdir". Əgər Ulu Öndər Heydər Əliyev Azərbaycanın siyasi, iqtisadi, hüquqi mövcudluğunu təmin etdisə, ölkəni bataqlıqdan çıxardısa, cənab İlham Əliyev Azərbaycanı qüdrətli dövlətə çevirdi. Respublikanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanımla birlikdə ölkəmizin nüfuzunu qaldırdı, dünyaya inkişafa, sülhə, mədəniyyətə, insanlığa açıq olan, müsbət impuls ötürən bir Azərbaycan təqdim etdi. İqtisadi imkanların artması, beynəlxalq hüquqi bazanın yaradılması, ordunun gücləndirilməsi - bunlar dövlət başçısının fəaliyyətinin əsasını təşkil etdi. Azərbaycan hər gün bu müqəddəs mübarizəyə yaxınlaşırdı.

Müasir silahlarla və peşəkar hərbi kadrlarla formalaşan ordumuz bu vəzifənin öhdəsindən layiqincə gəldi. Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasına imkan verdi. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərilsə də, Prezident İlham Əliyev qəti siyasi iradəsini nümayiş etdirdi, bütün təzyiqlərə mərdanə şəkildə sinə gərərək onları dəf etdi, öz prinsipial mövqeyindən dönmədi.

Həmin dövrdə Prezident, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətləri, mediaya verdiyi müsahibələr müasir Azərbaycan tarixində özünəməxsus yer tutur. O illər cənab İlham Əliyev həmişə olduğu kimi, bütün xalqımız üçün, dövlətimiz üçün məsuliyyət daşıyırdı. Bu, şərəfli və çətin məsuliyyət idi. Ancaq dövlət başçısı bunu bacardı, xalqımızı bu mübarizədə qalib etdi. Bu şərəfə hər dövlət başçısı nail ola bilmir.

Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, bizim siyasətin mərkəzində vətəndaş məmnunluğu dayanır. Hər zaman vətəndaşın yanında olan dövlət başçısı özü vətəndaşlarla canlı ünsiyyət qurur, onları dinləyir. Vətəndaşın xoş günündə, çətin günündə də bir an onları tək qoymur. Bu böyük bir xalq, vətən sevgisidir. Bu gün artıq məcburi köçkünümüz yoxdur, artıq Böyük qayıdış başlanıb. İnsanlar öz doğma, dədə-baba yurdlarına qayıdır. Qarabağda, Şərqi Zəngəzurda həyat yenidən canlanır. Bizə heç kim bu işdə yardım etmir. Biz öz gücümüzlə tikirik, qururuq, yaradırıq.

Azərbaycanda hər bir ailənin, hər bir vətəndaşın sosial rifahını yüksəltmək, onların sosial vəziyyətini yaxşılaşdırmaq üçün Prezident İlham Əliyev hər zaman zəruri tədbirlər həyata keçirir. Ölkə rəhbərinin imzaladığı fərman və sərəncamlar əsasında reallaşdırılan böyük sosial tədbirlər paketi bütün kateqoriyalardan olan vətəndaşlarımızı əhatə edir. Prezidentin dediyi kimi, heç bir vətəndaş diqqətdən, qayğıdan kənarda qalmır, hər kəsin hüquqları qorunur. Bu sahədə aparılan dövlət siyasətini insanlar da müsbət qarşılayırlar.

Əlbəttə ki, bunun üçün əsas məsələ ölkə iqtisadiyyatının hərtərəfli inkişafına nail olmaqdır. Ümummilli Lider Heydər Əliyev demişdir: "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir". İqtisadi inkişaf həm insanların sosial rifahını yaxşılaşdırır, həm də dövlətin dayaqlarını möhkəmləndirir. Odur ki, iqtisadi və maliyyə imkanlarımız artdıqca, ilk növbədə, əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi sahəsində yeni islahatlar aparılır. Əməkhaqları, pensiyalar, aylıq və birdəfəlik müavinətlər artırılır, şəhid ailələri, qazilər, müharibə veteranlarının mənzil-məişət şəraiti yaxşılaşdırılır. Aztəminatlı və digər həssas qrupdan olan ailələrin problemləri davamlı olaraq aradan qaldırılır.

*İlham Əliyev bütün dünyaya sübut etdi ki, Azərbaycan qüdrətli, köklü dövlətdir, istənilən məqsədə çatmağa qadirdir. Regionda yeni reallıq yaradan Prezident İlham Əliyevin qətiyyəti sayəsində Azərbaycan həm iqtisadi, həm strateji, həm də geosiyasi baxımdan ciddi qəbul olunan bir dövlətdir. Ölkəmiz müstəqil siyasət aparır, öz dövlət və milli maraqlarını müdafiə edir.*

***Hicran HÜSEYNOVA,***
***Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor***

# Milyonların sevgisini qazanan Prezident

**Bəşəriyyətin tarixi təcrübəsi belə bir həqiqəti təkrar-təkrar isbatlayıb və bu gün də sübuta yetirməkdədir ki, milli dövlətçiliyin sabitliyi və möhkəmliyi lider faktorundan birbaşa asılıdır. Bu baxımdan XXI əsrdə Azərbaycanın milli dövlətçilik sistemi - azərbaycançılıq ideyasını strateji xəttə çevirən, insan hüquq və azadlıqlarını təmin edən, davamlı iqtisadi yüksəlişi reallaşdıran və ictimai tərəqqini gerçəkləşdirən iki liderin - xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Ulu Öndərin strateji inkişaf kursunu uğurla davam etdirərək dövlətimizi tarixinin ən qüdrətli mərhələsinə yetirmiş Prezident İlham Əliyevin həyat və fəaliyyəti ilə bağlıdır.**

### Möhkəm təməl üzərində qurulan kurs

Azərbaycanın 1993-cü ildən başlayaraq, qısa müddət ərzində keçdiyi inkişaf yolu, əldə etdiyi mühüm nəticələr və həmin tarixdən sonrakı 10 il ərzində özünü doğrultmuş strateji inkişaf xəttinin gələcəkdə də davam etdirilməsi zərurəti Ümummilli Liderin xalqımıza 1 oktyabr 2003-cü il tarixli müraciətində dəqiq əsaslandırılmışdır. Dövlətçilik təcrübəsinin düzgün əxz olunması, hər hansı bir ölkənin gələcəyinə strateji baxış bacarığının formalaşması, dövlətin, cəmiyyətin inkişafının ayrı-ayrı epizodlardan deyil, bu məqamları ehtiva edən uzunmüddətli və davamlı proseslərdən, ardıcıl nailiyyətlərin yaratdığı möhtəşəm nəticələrdən təşkil olunması həqiqətinin aydın təsəvvürü üçün indiki və gələcək nəsillərin bu müraciəti hər zaman öyrənib təhlil etmələrinə ehtiyac var.

Ümummilli Lider belə bir inamla da üzünü daim onun müdrikliyinə, dövlətçilik təfəkkürünə, Azərbaycan sevgisinə etibar etmiş xalqımıza tutaraq 15 oktyabr prezident seçkisində öz siyasi varisi, o zaman Yeni Azərbaycan Partiyası Sədrinin I müavini olan İlham Əliyevi dəstəkləməyə çağırırdı: *"O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".*

Müstəqil dövlətimizin memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin böyük inam və ümidləri işığında 2003-cü ilin 15 oktyabrında xalqın yekdil dəstəyini qazanaraq Azərbaycan Prezidenti seçilmiş İlham Əliyev ölkəmizi tarixdəki bu ən yüksək mövqeyinə yüksəltməyə dövlətə rəhbərliyinin ilk ilindən, ayından, həftəsindən, gün və saatlarından da deyil, hətta ilk dəqiqələrindən başlamışdı. O, hələ andiçmə mərasimində böyük hədəflərə doğru yolu aydın nişan verərək tarixin ən qüdrətli Azərbaycanını xəyallarında yaşadan hər kəsdə bu strateji yolda birgə, çiyin-çiyinə irəliləməyə, amallarından dönməməyə, nəticələrin mütləq arzuladığımız kimi olacağına əminlik yaradırdı.

Həmin andiçmə mərasimindəki çıxışın mətnini illər sonra tarixçi nəzəri ilə yenidən gözdən keçirdikcə, hər cümləsi üzərində düşündükcə, o kəlmələrlə müasir reallıqlar arasında paralellər apardıqca əmin olursan ki, İlham Əliyev o zaman Azərbaycan xalqı qarşısında sadəcə and içmirmiş, tarixin ən qüdrətli Azərbaycanına gətirib çıxaracaq böyük, çətin və əzab-əziyyətli, amma şərəf və qürur dolu yolun dəqiq strateji xəritəsini təqdim edirmiş.

Prezident deyirdi ki, biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik - bu gün Azərbaycan müasir dünyamızın ən zəngin, qüdrətli dövlətləri sırasındadır və dayanıqlı inkişafı ilə öz mövqeyini getdikcə yüksəldir.

Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi altında gələcəyə, yüksəlişə və inkişafa doğru dahi şəxsiyyət Heydər Əliyevin əsasını qoyduğu yolla inamla irəliləyir və ölkənin hər bir vətəndaşının fəxr edəcəyi, qürur duyacağı bir məkana çevrilir. Ötən illər aşkar şəkildə göstərdi ki, İlham Əliyev öz fəaliyyət dövrünü bu amalın reallaşmasına həsr etmiş, Ulu Öndərimizin müstəqillik və azadlıq ideyalarını dönmədən həyata keçirmiş, Azərbaycanı sosial-iqtisadi inkişaf, demokratik hüquqi dövlət quruculuğu və siyasi sabitlik baxımından dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevirmişdir.

### Çoxəsrlik tariximizin suverenlik prioritetləri

Ermənistanın 2020-ci il sentyabrın 27-də başladığı növbəti hərbi təcavüz cəhdinə cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başlamış, nəticədə 44 gün davam edən Vətən müharibəsi Ermənistan ordusunun darmadağın edilməsi, işğal altında olan torpaqların azad olunması və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə başa çatmışdır.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuzun həyata keçirdiyi "Dəmir yumruq" əməliyyatı bu baxımdan ölkəmizin və regionumuzun müasir tarixində yeni bir dönəmin başlanğıcıdır. Bu əməliyyat yalnız hərbi qələbə deyil, həm də Azərbaycan xalqının milli iradəsinin təntənəsi olaraq milli dövlətçilik salnaməmizə qızıl hərflərlə həkk olunmuş, Ermənistanın işğalçılıq siyasəti və nasizmin ideoloji legitimləşdirilməsi üzərində qurulmuş siyasi kursu iflasa uğratmış, 8 noyabr 2020-ci ildə Şuşanın azad edilməsindən sonra düşmən tərəfi faktiki kapitulyasiya sənədinə imza atmaq məcburiyyətində qalmışdır.

Müharibənin yekunu olaraq 2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş naziri və Rusiya Federasiyasının Prezidenti tərəfindən üçtərəfli Bəyanat imzalanmış, bu sənəd Ermənistanın kapitulyasiya aktı olmaqla yanaşı, Ermənistan-Azərbaycan münaqişəsinə də faktiki olaraq son qoymuşdur.

Bəyanatın şərtlərinə əsasən, Ağdam, Kəlbəcər və Laçın rayonları Azərbaycan tərəfindən əlavə itki verilmədən azad edildi.

Bununla yanaşı, Zəngəzur dəhlizinin yaradılması ideyası regional əməkdaşlıq və kommunikasiya xəritəsinin dəyişməsi baxımından tarixi zərurətə çevrildi. Beləliklə, 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan yalnız ərazi bütövlüyünü bərpa etmədi, həm də Cənubi Qafqazda yeni geosiyasi reallığın əsasını qoydu.

2023-cü il sentyabrın 19-da Azərbaycan Respublikasının Silahlı Qüvvələri və hüquq-mühafizə orqanları üçtərəfli Bəyanatın müddəalarının icrasını təmin etmək, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısını almaq, Ermənistan silahlı qüvvələrinin birləşmələrini tərksilah edərək ərazilərdən çıxarmaq, onların hərbi infrastrukturunu zərərsizləşdirmək, habelə işğaldan azad edilmiş bölgələrə qayıdan dinc əhali, bərpa və quruculuq işlərində iştirak edən mülki işçilər və hərbi qulluqçuların təhlükəsizliyini təmin etmək məqsədilə bölgədə antiterror əməliyyatına başladı.

Əməliyyat cəmi 23 saat davam etsə də, strateji nəticələr verdi: bölgədə qalan Ermənistan silahlı qüvvələri tam tərk-silah edilərək Azərbaycan ərazisindən çıxarıldı, qondarma rejimin qalıqları isə onun ləğv olunduğunu elan etdi. Bu əməliyyatla Azərbaycan Respublikasında separatçı fəaliyyət və "boz zona" anlayışına son qoyuldu, dövlətin suverenliyi tam şəkildə bərpa edildi.

Vətən müharibəsindən sonra Azərbaycan Prezidenti İlham Əliyev regional sabitliyin təmin edilməsi və dayanıqlı sülhün bərqərar olunması məqsədilə Ermənistanla münasibətlərin normallaşdırılması təşəbbüsünü irəli sürdü. Prezidentin təklif etdiyi və qarşılıqlı şəkildə dövlətlərin ərazi bütövlüyü və suverenliyinin tanınmasını ehtiva edən beş əsas prinsip əsasında sülh müqaviləsinin hazırlanması təşəbbüsü münaqişədən sonrakı mərhələdə fundamental siyasi çərçivə kimi qəbul olundu.

### Beynəlxalq proseslərə istiqamət verən dövlət

Azərbaycan bu gün tarixinin ən qüdrətli dövrünü yaşayır. Dünya artıq Azərbaycanı regionun lideri, qlobal layihələr həyata keçirən, islahatlar aparan, əməkdaşlığa və Avropanın enerji təhlükəsizliyinə əhəmiyyətli töhfələr verən etibarlı tərəfdaş kimi qəbul edir. Digər tərəfdən, Azərbaycan bölgədə və beynəlxalq səviyyədə əməkdaşlığa, təhlükəsizliyə mühüm töhfələr verir. Məhz bütün bunlara görə dünya siyasətinin aparıcı qurumları, həmçinin mötəbər beynəlxalq təşkilatlar Azərbaycanın mütərəqqi xarici siyasətini regional təhlükəsizlik və qlobal inkişafa mühüm töhfə kimi qiymətləndirirlər və ölkəmizlə əməkdaşlığa böyük önəm verirlər.

Azərbaycanın mühüm geosiyasi uğurlarından biri dünya birliyində güclü mövqeyə malik olması, beynəlxalq aləmdə söz sahibinə çevrilməsidir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kurs respublikamızı inkişaf yoluna çıxarmaqla yanaşı, regional və beynəlxalq miqyasda nüfuzunu daha da artırıb. Azərbaycan dünyanın sayılıb-seçilən, hörmət olunan, etimad göstərilən dövlətinə çevrilib.

Ölkə Prezidenti İlham Əliyevin Avropa liderlərinin dəvəti ilə ən mötəbər tədbirlərdə iştirak etməsi, yüksək tribunalardan çıxışı, ən yüksək səviyyədə qarşılanması ölkəmizin artan nüfuzunun bariz nümunəsidir. Nəticədə Avropa ölkələri Azərbaycanla əməkdaşlığa yüksək önəm verir, ölkəmizin etibarlı tərəfdaş olduğunu etiraf edirlər.

Vətən müharibəsindəki Zəfərimizin ilk rəsmi təsdiqi - 10 noyabr Bəyanatında Azərbaycan liderinin sülh gündəliyinə daxil etməyə müyəssər olduğu "Zəngəzur dəhlizi" layihəsi Qafqaza dayanaqlı sülh və davamlı inkişaf gətirmək missiyasının son dərəcə əhəmiyyətli parçasıdır.

ABŞ-də imzalanmış Birgə Bəyannamə ilə ən böyük məqsədlərimizdən birinə - "Zəngəzur dəhlizi"nin açılmasına, Azərbaycanın əsas hissəsindən Naxçıvan Muxtar Respublikasına maneəsiz çıxışın təmin edilməsinə nail ola bildi.

8 avqust 2025-ci ildə Vaşinqtonda, Ağ Evdə Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyanla Birgə Bəyannamə imzaladı və Azərbaycanla Ermənistan arasında sülh sazişinin layihəsi paraflandı. Azərbaycanla Ermənistan arasında uzun illərdən sonra əbədi sülhün əldə olunmasına, bölgəmizdə bütün tərəflər üçün qarşılıqlı əməkdaşlıq, dayanıqlı inkişaf mühitinin yaranmasına, bu torpaqlarda yaşayan insanların rifah və xoşbəxtliyinə yol açan belə mühüm addımla Cənubi Qafqazda yeni strateji dövr başlandı.

2020-ci ildə 44 günlük müharibə nəticəsində qazandığımız tarixi Zəfər, 2023-cü ildə həyata keçirilmiş 23 saatlıq antiterror əməliyyatı ilə Azərbaycanın ərazi bütövlüyünün, dövlət suverenliyinin tam təmin olunması, Qələbəmizin bütün dünyada qəbul edilməsi kimi bu yeni reallığın müəllifi - gücü, qətiyyəti xalqımızın sarsılmaz dəstəyindən, Vətənə, xalqa sevgisindən gələn Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdir.

Əlverişli geosiyasi şəraitdə, yeni çağırışlar və fürsətlər dövründə belə bir məqsədin reallaşdırılması, bu ideyanın gerçəyə, bölgəmizin sülh və inkişaf cənnətinə çevrilməsi Cənubi Qafqazın ən güclü Liderinin - Azərbaycan Prezidentinin üzərinə götürdüyü yeni tarixi missiyadır.

### Xalqın inam yeri

XXI əsrin tələblərinə uyğun təhsil sisteminin qurulması, yaradıcı və innovativ cəmiyyət mühitinin, vətəndaşların sağlam həyat tərzinin təşviq olunması ilə Azərbaycan rəqabətli insan kapitalı və müasir innovasiya məkanının yaradılması prioritetinə doğru irəliləyir.

Qarabağda, Şərqi Zəngəzurda dayanıqlı məskunlaşma, doğma yurdlara dönən vətəndaşlarımızın iqtisadi fəaliyyətə reinteqrasiyası ilə işğaldan azad olunmuş ərazilərə Böyük qayıdış addım-addım təmin edilir.

Bütün bunlar İlham Əliyevin liderliyi ilə ərazi bütövlüyü, suverenliyi təmin olunmuş tarixin ən qüdrətli Azərbaycanın planetimizdəki yeni simasını, yeni mövqeyini müəyyənləşdirir və bu siması, mövqeyi ilə müstəqil Azərbaycan dövləti planetimizin mənzərəsində daha ucalarda görünür.

İllər öncə Azərbaycan Respublikasının Prezidenti kimi ölkə vətəndaşları qarşısında and içərkən İlham Əliyevin nitqində ümid dolu bu kəlmələr də səslənmişdir: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir".

*Bunlar artıq sadəcə ümid deyil, Azərbaycan boyda bir reallıqdır və hər keçən gün xoşbəxt gələcəyinə qovuşan, inkişaf edən, güclənən Vətənimizlə bu qürur dolu reallığın əhatə dairəsi də genişlənir.*

***Arzu ABDULLAYEV,***
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədr müavini, tarix üzrə fəlsəfə doktoru, dosent***



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş siyasət, düzgün taktika

**Dövlətlərin və xalqların istər tarixində, istərsə də taleyində lider faktoru hər zaman böyük rol oynamışdır. İstənilən inkişaf etmiş, dünyada sayılıb-seçilən dövlətin tarixinə və uğurlarına nəzər salsaq bunu aydın görmək mümkündür. Müstəqil Azərbaycanın da inkişafı, dünyanın nüfuzlu dövlətlərindən birinə çevrilməsi, ilk növbədə, lider amili ilə bağlıdır. Xalqımızın Ulu Öndəri Heydər Əliyevin əsasını qoyduğu, bu gün isə möhtərəm Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasi kurs və inkişaf strategiyası Azərbaycanı dünyanın sayılıb-seçilən dövlətləri sırasına yüksəltmişdir.**



## Regionda sülhün və təhlükəsizliyin təminatçısı

### Heydər Əliyevin yaratdığı etibarlı dövlətçilik təməli

Bu gün öz tarixinin ən qüdrətli dövləti səviyyəsinə yüksələn, torpaqlarını döyüş yolu ilə azad edən, ərazi bütövlüyünün bərpasına nail olan Azərbaycan dövləti hər birimizin qürur və fəxarət mənbəyidir. Bütün bunlar barədə bəhs edərkən müstəqilliyimizin bərpasının ilk illərində məruz qaldığımız böhranlı vəziyyəti, üzləşdiyimiz siyasi-iqtisadi çətinlikləri, faciələri də xatırlayırıq. Və o zaman təsəvvür belə edə bilməzdik ki, vaxt gələcək Azərbaycan həm Cənubi Qafqaz regionunda, həm də qlobal səviyyədə yüksək ehtiram sahibi olan dövlət kimi tanınacaq.

Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmizin qarşısında çox vacib və təxirəsalınmaz siyasi və sosial-iqtisadi vəzifələr dayanırdı. Bunlardan ən mühümləri əsas milli hədəflər olaraq Ermənistanın respublikamıza qarşı başlatdığı təcavüzkarlığın qarşısını almaq, ərazi bütövlüyümüzü təmin etmək və müstəqil dövlət quruculuğunu həyata keçirmək idi. Çox təəssüf ki, müstəqilliyimizin ilkin dövründə bir-birini əvəz edən hakimiyyətlər, xüsusilə, AXC-Müsavat iqtidarı respublikamızı ağır siyasi və iqtisadi böhrana sürüklədi. Hakimiyyətə top-tüfənglə gələnlərin yürütdüyü səbatsız və xəyanətkar siyasət nəticə etibarilə ərazilərimizi Ermənistanın hərbi hücumları qarşısında müdafiəsiz qoydu. Digər tərəfdən, ölkə daxilində milli birlik, vətəndaş hüququ pozuldu, separatizm baş qaldırdı. 1993-cü ildə Azərbaycan faktiki olaraq vətəndaş müharibəsində idi. Bundan daha faciəlisi dövlətçiliyimizin və müstəqilliyimizin itirilmək təhlükəsi qarşısında qalması idi.

Belə bir ağır vəziyyətdə xalqımızın böyük təkid və istəyi ilə Ulu Öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı nəticəsində ölkəmiz bütün təhlükələrdən xilas oldu. Görkəmli dövlət xadimi, təcrübəli siyasətçi kimi Heydər Əliyev ilk və təxirəsalınmaz addım kimi respublikamızın hərbi təhlükəsizliyini və müdafiəsini təmin etmək yönündə məqsədyönlü fəaliyyət ortaya qoydu. Bütün qanunsuz hərbi birləşmələri ləğv edən Ulu Öndər nizami, vahid komandanlığa əsaslanan Azərbaycan Ordusunu yaratdı. 1993-1994-cü illərdə uğurlu əməliyyatlar həyata keçirilərək torpaqlarımızın bir qisminin işğaldan azad olunması Azərbaycanın cəbhə xəttindəki mövqelərini möhkəmləndirdi, Ermənistanın işğal planlarının davam etdirilməsinə imkan verilmədi.

1994-cü ildə cəbhə xəttində Ermənistanla atəşkəs razılaşmasının əldə olunması qarşıda dayanan milli vəzifələrin həyata keçirilməsi üçün tarixi şərait formalaşdırıldı. Artıq 1994-cü ilin sentyabr ayında tanınmış neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanması Heydər Əliyev siyasi kursuna olan inamın və Azərbaycanın tədricən beynəlxalq mövqelərini gücləndirməsinin təzahürü idi.

Ulu Öndər zəngin siyasi və idarəçilik təcrübəsinə söykənərək mütərəqqi dövlət quruculuğunu uğurla həyata keçirdi. 1995-ci ildə qəbul edilən müstəqil Azərbaycanın ilk Konstitusiyasında xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olduğu, dövlətin demokratik, hüquqi və dünyəvi xarakter daşıdığı kimi əsas prinsiplər öz əksini tapdı. Genişmiqyaslı islahatların aparılması, elm, təhsil, mədəniyyət və ədəbiyyatın inkişafı sahəsində görülən işlər ölkə vətəndaşlarında dövlətçilik təfəkkürünün formalaşmasına mühüm təsir göstərdi. Həmçinin respublikamızın ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı.

Heydər Əliyev 1990-cı illərin ortalarından başlayaraq, bazar iqtisadiyyatı münasibətlərinə keçidlə bağlı strateji vəzifələri müəyyən etdi. Dünyanın inkişaf etmiş dövlətlərinin iqtisadi təcrübələri nəzərə alınaraq, keçirilən islahatlar nəticəsində sərbəst bazar münasibətlərinə əsaslanan və sosialyönümlü iqtisadi sistemin formalaşdırılması, ölkədə mövcud olan təbii iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın təsərrüfat dövriyyəsinə cəlb olunması, milli iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiyası təmin edildi. Əlverişli biznes mühitinin yaradılması ölkəmizə xarici investisiya qoyuluşunu sürətləndirdi. Keçmiş SSRİ məkanında ilk dəfə olaraq Azərbaycanda torpaq əsl sahibinə - kəndliyə qaytarıldı. Ölkə iqtisadiyyatında davamlı və dinamik inkişaf məntiqinə əsaslanan bu islahatlar mahiyyət etibarı ilə inkişafın yeni - Azərbaycan modelini yaratdı.

Müstəqilliyimizin dönməzliyini və əbədiliyini təmin edən Heydər Əliyev müasir Azərbaycanın memarı kimi həm də dövlətçiliyimizin təməl prinsiplərini müəyyən etdi. Məlumdur ki, ideologiyasız dövlətçilik mümkün deyil. Xalq ideologiyaya söykənmədən irəli gedə bilməz. Dünyanın inkişaf etmiş dövlətlərinin keçdiyi tarixi inkişaf yoluna nəzər salsaq onların müəyyən prinsiplərə söykəndiyini görərik. Bu baxımdan, Heydər Əliyev həm də müasir Azərbaycan dövlətinin ideoloji təməl prinsiplərini müəyyənləşdirdi. Müstəqillik, azərbaycançılıq, dövlətçilik, qanunların aliliyi, varislik və təkamül, konstruktiv əməkdaşlıq və dialoq, sosial ədalət və insan amili, multikultural cəmiyyət, demokratik ənənələrin inkişafı kimi prinsiplər əsasında inkişaf edən Azərbaycan dünya birliyində özünə layiqli yer tutdu.

Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, möhkəm iradəsi, məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində 1993-2003-cü illərdə respublikamız hərtərəfli və dinamik inkişaf yoluna qədəm qoydu. O dövrdə Azərbaycanın ölkəmizin keçdiyi inkişaf yoluna, qazanılan nailiyyətlərə nəzər saldıqda görürük ki, respublikamız, sözün əsl mənasında, mühüm zirvələr fəth edib, beynəlxalq münasibətlər sistemində söz və nüfuz sahibinə çevrilib.

### Azərbaycanı tarixinin ən qüdrətli dövləti səviyyəsinə yüksəldən lider

Müasir Azərbaycanın qurucusu, Ümummilli Liderimiz Heydər Əliyevin xalqımız qarşısında ən mühüm xidmətlərindən biri də İlham Əliyevin timsalında müəyyən etdiyi siyasi xətti və strateji inkişaf kursunu qətiyyətlə davam etdirəcək siyasi varisini yetişdirməsi idi. Ulu Öndər görkəmli dövlət xadimi, təcrübəli siyasi strateq kimi özünün təcrübəsinə əsaslanaraq Azərbaycanın məhz İlham Əliyevin rəhbərliyi ilə qarşıda duran bütün problemləri həll edəcəyinə, xalqımızın İlham Əliyevin liderliyi ilə tarixi nailiyyətlər qazanacağına inanırdı. Bu inam Ulu Öndərin 2003-cü ilin oktyabrın 1-də xalqımıza etdiyi müraciətdə də öz əksini tapıb. "Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - deyə Heydər Əliyev müraciətində bildirmişdir.

Azərbaycan ictimaiyyəti həm də cənab İlham Əliyevin buna qədər daşıdığı bütün vəzifələrdə dövlətə və xalqa layiqli şəkildə xidmət etdiyini, ona göstərilən etimadı uğurla doğrultduğunu yaxşı bilirdi. Buna qədər cənab İlham Əliyev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin əvvəlcə vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti kimi Ümummilli Lider Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsində fəal iştirak etmişdi. Möhtərəm İlham Əliyev 1995-ci ildən Milli Məclisin deputatı kimi nümunəvi fəaliyyət ortaya qoymuşdu. Deputat olduğu dövrdə Avropa Şurası Parlament Assambleyasında Azərbaycanın nümayəndə heyətinin rəhbəri olan cənab İlham Əliyev Ermənistanın işğalçı siyasətini qətiyyətlə ifşası istiqamətində təqdirəlayiq fəaliyyət həyata keçirmişdi.

Məhz İlham Əliyevin 1997-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsinin rəhbərliyindən sonra ölkəmizdə Olimpiya hərəkatı vüsət almış, idmançılarımız Yay Olimpiya Oyunlarında ilk qızıl medallarını qazanmışdılar.

2003-cü il avqustun 4-dən isə möhtərəm İlham Əliyev Ulu Öndər Heydər Əliyevin fərmanı ilə Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin olunmuşdu. Baş nazir kimi qısa müddət fəaliyyət göstərməsinə baxmayaraq, həmin dövrdə cənab İlham Əliyev milli maraq və mənafeləri təmin edən bir fəaliyyət nümunəsini yaratmışdır.

Əlbəttə ki, bütün bunlar 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərinin nəticələrində mühüm rol oynadı və cənab İlham Əliyev xalqını etimadını qazanaraq Azərbaycan Prezidenti seçildi. 2003-cü il oktyabrın 31-də keçirilən andiçmə mərasimində etdiyi proqram xarakterli nitqində cənab İlham Əliyev Azərbaycan Prezidenti kimi fəaliyyətinin prioriteti olacaq məsələlərin nələrdən ibarət olacağını bəyan etdi. Dövlətimizin başçısının qarşıya qoyduğu vəzifələrdən biri bütün imkanlardan yararlanaraq Azərbaycanın inkişafının sürətləndirilməsi idi. "Bizdə bütün imkanlar - təbii sərvətlər, insan potensialı və ən önəmlisi, xalqın iradəsi vardır. Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik", - deyə andiçmə mərasimində Prezident İlham Əliyev bildirmişdir.

Ötən 22 ilin bütün iqtisadi və sosial statistik göstəriciləri respublikamızın yüksəlişinin nə qədər dinamik və əzəmətli olduğunu təsdiqləyir. Lakin onu da qeyd etməliyik ki, Prezident İlham Əliyevin hələ 2003-cü ildə elan etdiyi iqtisadi inkişaf prioritetləri 2008-ci ilədək olan dövrü əhatə edirdi və onların hamısı beş ildə uğurla yerinə yetirilmişdi. Bu sırada Heydər Əliyevin əsasını qoyduğu neft strategiyasının uğurla davam etdirilməsi Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istifadəyə verilməsi cənab İlham Əliyevin respublikamıza rəhbərliyinin əsas uğurlu hadisələri olmaqla bərabər, iqtisadi sahədə qarşıya qoyulan vəzifələrin layiqincə həyata keçirilməsini təmin etdi. Regionların sosial-iqtisadi inkişafına dair həyata keçirilən dövlət proqramları sayəsində bölgələrdə inkişaf prosesləri sürətləndi, kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlı konkret proqramlar icra olundu. İşsizliyin və yoxsulluğun səviyyəsi aşağı düşdü. Ölkədə qeyri-neft sektorunun inkişafı üçün güclü zəmin formalaşdı.

22 ilin zirvəsindən baxdıqda isə dövlətimizin uğurları sadəcə heyranlıq doğurur. Bu dövrdə Azərbaycanın keçdiyi inkişaf öz dinamizmi, məzmunu və əhatəliliyi ilə fərqlənir. Çünki bu inkişaf məhdud sfera ilə kifayətlənməyərək cəmiyyətin həyatının bütün sahələrini əhatə edir və tarixinin ən qüdrətli Azərbaycanını dünyaya təqdim edir. Bu illər ərzində Azərbaycanda iqtisadiyyat ilə yanaşı, elm, təhsil, səhiyyə, idman inkişaf edib, respublikamız kosmik kluba daxil olub. Bu dövrdə "Cənub qaz dəhlizi"nin, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi nəticəsində Azərbaycanın regional və qlobal mövqeləri möhkəmlənib, respublikamız Cənubi Qafqazda lider statusunu qazanıb.

Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi ilə görülmüş genişmiqyaslı işlər, sistemli və ardıcıl tədbirlər, dərin islahatlar nəticəsində hazırda Azərbaycan siyasi və makroiqtisadi baxımdan sabit, təhlükəsiz ölkə, regionun siyasi, iqtisadi və mədəni mərkəzi, irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı və fəal iştirakçısı, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş, kosmik klubun üzvü, mühüm tranzit qovşağıdır.

Bu illər ərzində Azərbaycan həm də demokratik inkişafı ilə diqqəti çəkib. Bu gün respublikamızdakı söz və mətbuat azadlığı, siyasi partiyaların seçkili orqanlardakı iştirak səviyyəsi, Milli Məclisdə rəhbər vəzifələrdə müxalifət partiyalarının nümayəndələrinin təmsilçilərinin təmin olunması Azərbaycanın demokratiya yolu ilə inkişafının təcəssümüdür. 11 siyasi partiyanın VII çağırış Milli Məclisdə təmsil olunması bilavasitə ölkədə yaşanan demokratik münasibətlərin təzahürüdür.

Prezident İlham Əliyevin hər zaman humanizm dəyərlərinə üstünlük verməsi də cəmiyyətimizdə yüksək ovqatı təmin etməklə yanaşı, respublikamızın məhz bu cür prinsiplər əsasında inkişafını şərtləndirmişdir. Dövlət başçısı tərəfindən 2003-2025-ci illər ərzində 39 əfv sərəncamı imzalanıb və onlar 7060 nəfərə şamil olunub. Bu dövrdə Azərbaycanda 5 dəfə amnistiya elan olunub. Suverenliyimizin bərpasının, Konstitusiyamızın ali hüquqi qüvvəsinin ölkəmizin bütün ərazilərində bərqərar olunmasının xalqımızın ən böyük tarixi qələbəsi olduğunu nəzərə alaraq, Prezident İlham Əliyev tərəfindən amnistiya elan edilməsi təşəbbüsünün irəli sürülməsi bir daha dövlətimizin başçısının humanizm dəyərlərinə sadiqliyinin göstəricisi kimi ictimaiyyət tərəfindən dərin razılıqla qarşılanır.

### Qalib dövlət, Müzəffər Ali Baş Komandan

Prezident İlham Əliyevin 2003-cü ildə qarşıya qoyduğu başqa bir prioritet milli hədəf torpaqlarımızın işğaldan azad olunması idi. Azərbaycanın öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəyini bildirən Prezident İlham Əliyev sonrakı çıxışlarında da bəyan edirdi ki, ərazilərimizdə ikinci erməni dövlətinin yaradılmasına imkan verilməyəcək. Danışıqlar prosesində Prezident İlham Əliyev hər zaman qətiyyətli mövqe ortaya qoydu, Azərbaycanın ərazi bütövlüyünün müzakirə mövzusu olmasına imkan vermədi. Ancaq Ermənistanın işğalçı xislətinin və ATƏT-in Minsk qrupunun ermənipərəst mövqeyi nəticəsində danışıqlar nəticəsiz qaldı. Əslində isə Minsk qrupu vasitəçilik missiyası adı altında problemin dondurulmasına, işğal faktının unutdurulmasına və Azərbaycan ərazilərinin Ermənistan tərəfindən ilhaq edilməsinə çalışırdı. Minsk qrupu heç vaxt işğalçını öz adı ilə çağırmadı, daim ikili standartlardan çıxış etdi.

Azərbaycan danışıqlar prosesi zamanı şərtlərindən, qətiyyətli mövqeyindən və hücum diplomatiyası xəttindən geri çəkilmədi. Bununla yanaşı, cənab İlham Əliyev daim açıq şəkildə bəyan etdi ki, sülh danışıqları nəticə verməsə, Azərbaycan işğal altındakı ərazilərini döyüş yolu ilə azad edəcəkdir. Buna görə Ulu Öndərin ordu quruculuğu siyasəti cənab İlham Əliyevin Ali Baş Komandanlığı ilə yeni dövrün tələblərinə uyğun davam etdirildi və Azərbaycan modern hərbi quruculuq həyata keçirərək, Silahlı Qüvvələrin döyüş imkanlarını ən müasir standartlar səviyyəsinə yüksəltdi.

Ordu quruculuğuna paralel olaraq Prezident İlham Əliyev mükəmməl hücum diplomatiyası həyata keçirdi. Bu diplomatiya beynəlxalq səviyyədə erməni yalanlarının, Ermənistanın təcavüzkar siyasətinin ifşasına yol açdı, Azərbaycan həqiqətlərini dünyaya çatdırdı, dostlarımızın sayını artırdı. Eyni zamanda bunun nəticəsində Azərbaycan Ermənistan istisna olmaqla bölgə ölkələri ilə ikitərəfli və çoxtərəfli əlaqələrini genişləndirdi. Beynəlxalq təşkilatlarda Ermənistanın təcavüzkar siyasətini pisləyən sənədlər, qətnamələr qəbul edildi. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən Ermənistandan Azərbaycan ərazilərini işğaldan azad etməyi tələb edən 4 qətnamə qəbul olundu. Prezident İlham Əliyevin qətiyyətli xarici siyasət kursu nəticəsində BMT, Qoşulmama Hərəkatı, İslam Konfransı Təşkilatı, Avropa Şurası kimi təşkilatlar tərəfindən Ermənistanın işğal siyasətini pisləyən sənədlər qəbul edildi.

Sözdən və danışıqlardan anlamayan Ermənistanın fitnəkarlıqları nəticəsində 2016-cı ildə baş verən Aprel döyüşlərində ilk dəfə olaraq Azərbaycan hərb meydanında öz gücünü nümayiş etdirdi. Ermənistan bu döyüşlərdə ağır zərbə aldı və Azərbaycan göstərdi ki, problemin döyüş yolu ilə həlli tamamilə mümkündür. Lakin Ermənistan və onun havadarları bundan dərs almadılar və danışıqlar prosesində yenə də destruktiv mövqedən, ikili standartlardan çıxış etdilər. Ermənistanın işğal siyasətini yürütmək istəməsi, Azərbaycanı yeni ərazilərin işğalı ilə təhdid etməsi, Qarabağda həyata keçirdiyi qanunsuz məskunlaşdırma, 2020-ci ilin iyulunda Tovuz rayonu istiqamətində törətdiyi təxribat artıq danışıqlar prosesini dalana dirəmişdi. 2020-ci il sentyabrın 27-də Ermənistanın törətdiyi yeni hərbi təxribat isə hərbi əməliyyatların başlanmasını qaçılmaz etdi. Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusu tərəfindən cəmi 44 gün ərzində torpaqlarımız işğaldan azad edildi, Ermənistan döyüş meydanında diz çökdürülərək kapitulyasiya aktına imza atmağa məcbur olundu.

Bu baxımdan, Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyinin ən möhtəşəm hadisəsi işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpasıdır. Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı, Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi.

2023-cü ilin sentyabr ayında isə Qarabağdakı separatçılar darmadağın edildilər, tarixin səhnəsindən silindilər. Üçtərəfli Bəyanatın tələblərinin yerinə yetirilməsi, Qarabağ iqtisadi rayonunda ermənilərin törətdiyi genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, işğaldan azad edilmiş torpaqlarımıza qayıdan dinc əhalinin, bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilərin və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin edilməsi, Azərbaycanın konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror tədbirlərinə başlanılması və uğurla başa çatdırılması Azərbaycanın növbəti zəfəri oldu. Bununla da Azərbaycan dövləti bütün əraziləri üzərində milli suverenliyini və konstitusiya quruluşunu bərqərar etdi. Bu hadisə Prezident İlham Əliyevin qətiyyəti ilə tariximizə həkk olunan növbəti böyük nailiyyət oldu. Cənab İlham Əliyev faktiki olaraq müstəqilliyimizin bərpasından sonra meydana çıxan əsas milli vəzifənin yerinə yetirilməsini təmin etdi.

Bu zəfərlər regionda yeni reallıqlar yaradıb. Ən əsas reallıqlardan biri, əlbəttə ki, Qarabağ və Şərqi Zəngəzurun bərpası və keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışıdır. 2020-ci ildən işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa işləri bir daha cənab İlham Əliyevin vətənpərvərliyindən və quruculuq əzmindən xəbər verir. Beş il ərzində Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilər üzrə 569 tədbirdə iştirak edib, müxtəlif təyinatlı 177 layihənin təməlini qoyub, 167 obyektin və infrastruktur layihəsinin açılışını edib. "İşğaldan azad edilmiş ərazilərin Ümumi Planı", 8 şəhərin baş planı, 3 şəhərin isə müfəssəl planı təsdiqlənib, Xankəndi, Xocalı, Ağdərə və Xocavənd şəhərlərinin baş planları işlənilmə mərhələsindədir. Azad olunmuş ərazilərdə şəhər, qəsəbə və kəndlər üzrə 15 yaşayış məntəqəsinin ilkin mərhələdə inşası tamamlanmış, əhalinin yaşayışı, iqtisadi fəaliyyətə reinteqrasiyası təmin olunmuşdur. Hazırda 27 yaşayış məntəqəsinin tikintisi, 25 yaşayış məntəqəsinin təmir-bərpası həyata keçirilir. 21 yaşayış məntəqəsinin isə təməli qoyulub. İndiyə qədər Qarabağ və Şərqi Zəngəzura təxminən 21 min nəfər keçmiş məcburi köçkünün qayıdışı təmin edilib. Bütün bunlar həm də onu təsdiq edir ki, Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurun bərpasının müəllifidir.

Torpaqlarımızın işğaldan azad olunmasını, respublikamızın ərazi bütövlüyünü bərpa edən Prezident İlham Əliyev həm də lider qətiyyəti ilə regionda sülhü və təhlükəsizliyi təmin edir. Bu il avqustun 8-də Vaşinqtonda Prezident Donald Trampın şahidliyi ilə Azərbaycanla Ermənistan arasında sülh sazişi layihəsinin paraflanması Prezident İlham Əliyevin həyata keçirdiyi qətiyyətli siyasi kursun və milli maraqları inamla rəhbər tutan diplomatiyamızın qələbəsidir. Beləliklə, Prezident İlham Əliyev regionda sülh və təhlükəsizlik istiqamətində həyata keçirilən siyasətin memarı kimi də tarixə öz imzasını yazır. Sülh sazişi layihəsinin paraflanması, dekabrın 1-də ATƏT tərəfindən Minsk prosesinin və onunla əlaqəli strukturların ləğvinin tam başa çatdırılması göstərir ki, Prezident İlham Əliyevin siyasi qətiyyətinin nəticəsi kimi Azərbaycanla Ermənistan arasında yekun sülh sazişi də imzalanacaq.

### Siyasi müdriklik və qətiyyətli diplomatiya

Bu gün Cənubi Qafqaz dünyanın elə bir coğrafi ünvanıdır ki, burada siyasi qütblərin maraqları kəsişir. Lakin bu siyasi qütblərin mənafelərini uzlaşdırmaq və bu fonda Azərbaycanın maraqlarını təmin etmək üçün siyasi müdriklik və qətiyyətli diplomatiya tələb edir. Regionumuzla bağlı son illərdə baş verən hadisələr, yeni nəqliyyat və enerji dəhlizləri ideyalarının təşəbbüsdən reallığa çevrilməsi, Azərbaycanın Çin və ABŞ kimi dövlətlərlə strateji tərəfdaşlığı Prezident İlham Əliyevin yürütdüyü müstəqil və qətiyyətli siyasi-diplomatiyadan xəbər verir. Azərbaycan həm də regionun lider dövlətidir. Diplomatiyamızın sədaları uzaq Latın Amerikasından, Afrikadan, Cənub-Şərqi Asiyadan gəlir. Dünya Azərbaycanı qalib, nüfuzlu, beynəlxalq əməkdaşlığa və dünyanı narahat edən problemlərin həllinə töhfə verən dövlət kimi tanıyır.

1993-cü ildən respublikamızda Heydər Əliyevin başlatdığı, 2003-cü ildən isə Prezident İlham Əliyevin qətiyyətlə davam etdirdiyi siyasət həm də onu göstərir ki, Azərbaycan öz yolundan dönməyən, gələcəyinə doğru inamla irəliləyən dövlətdir. Heydər Əliyev yolunun layiqli davamçısı kimi Prezident İlham Əliyev dünyanın nüfuzlu və ehtiram göstərilən siyasi liderləri ilə bir cərgədə dayanır. Təkcə son aylarda baş verən bir sıra siyasi hadisələr, o cümlədən Prezident İlham Əliyevin ABŞ və Çinə səfərləri, BMT Baş Assambleyasının 80-ci sessiyasında, "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə Görüşündə, Türk Dövlətləri Təşkilatının 12-ci Zirvə Görüşündə, Yaxın Şərq Sülh Sammitində, MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclasında, Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirakı bunu təsdiq edir.

Ulu Öndər Heydər Əliyev tərəfindən formalaşdırılan inkişaf strategiyasını siyasətinin ana xəttinə çevirən Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan tarixinin ən qüdrətli dövlətinə çevrilib. Bu siyasətin və xalqın sevgisinin nəticəsidir ki, cənab İlham Əliyev 2003-cü ildən sonra keçirilən bütün prezident seçkilərinin qalibi olmuşdur. Qarşıya qoyulan bütün vəzifələrin yerinə yetirilməsi və xalqın sevgisi cənab İlham Əliyevin müxtəlif illərdə keçirilmiş prezident seçkilərində böyük səs çoxluğu ilə qələbə qazanmasına həlledici təsir göstərmişdir.

*Hazırda beş fundamental nəticə - qalib dövlət, beynəlxalq nüfuz, təhsilli cəmiyyət, böyük iqtisadi potensial və yüksələn rifah Azərbaycanın dinamik inkişafını xarakterizə edən əsas keyfiyyət göstəriciləridir. Bu nailiyyətlər ərazi bütövlüyümüzün bərpası nəticəsində qədəm qoyduğumuz yeni mərhələdə Azərbaycanın yeni inkişaf simasının formalaşmasına təsir edən əsas amillər olacaq. Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi ilə qarşıdakı dövrdə xalqımız yeni nailiyyətlərə şahidlik edəcək.*

***Mübariz QURBANLI,***
***Milli Məclisin deputatı,***
***Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü***



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş siyasət, düzgün taktika

## Tarix yazan Prezident

**Zaman göstərir ki, Azərbaycan xalqı qədimlərə söykənən şərəflə yazılmış tarixi ərzində çox müdrik qərarlar qəbul edib. 1993-cü ildə dahi şəxsiyyət Heydər Əliyevi xilaskar lider kimi Azərbaycana çağırıb böyük bəlalardan qurtulan xalq 10 il sonra Ulu Öndərin çağırışını düzgün qiymətləndirib. 2003-cü il oktyabrın 15-də ölkədə keçirilən Prezident seçkilərində etdiyi seçimi ilə cənab İlham Əliyevə böyük etimad mandatı verən xalq indi tarixinin ən qüdrətli Azərbaycanının şöhrəti, qlobal nüfuzu ilə qürur duyur, fəxarət hissi keçirir. Bütün bu möhtəşəm nailiyyətlərin müəllifi məhz Prezident İlham Əliyevdir.**

**1990-cı ilin noyabrında Ulu Öndər Heydər Əliyevin Azərbaycanın müstəqillik rəmzi kimi Naxçıvanda qaldırdığı üçrəngli müqəddəs simvolumuzun 30 ildən sonra Müzəffər Ali Baş Komandan, böyük Zəfərin memarı İlham Əliyev tərəfindən məhz noyabr ayında Şuşada ucaldılması tarixi qələbəmizin böyük nidası oldu.**

### Peşəkar siyasətçi, uğurlu dövlət xadimi və milli maraqların dönməz müdafiəçisi

Əslində, cənab İlham Əliyevin adı Azərbaycan seçicisi üçün həmin vaxt yad deyildi. Ulu Öndər əksər tədbirlərə, səfərlərə məhz cənab İlham Əliyevlə birgə gedirdi. "Xalqın gözü tərəzidir" atalar məsəli burada yerinə düşür. Xalq yaxşı görürdü ki, cənab İlham Əliyev lider kimi yetişməkdədir. Azərbaycan müstəqillik qazandıqdan sonra isə Ulu Öndər Heydər Əliyevin neft strategiyasının uğurla realizəsində əsas pay bu proseslərin memarı kimi məhz, ARDNŞ-nin vitse-prezidenti cənab İlham Əliyevin idi. Azərbaycan cəmiyyəti bunları görür və anlayırdı. Eyni zamanda cənab İlham Əliyevin qanunverici orqanın, Milli Məclisin deputatı, xüsusən AŞPA-dakı nümayəndə heyətimizin rəhbəri, o cümlədən AŞPA-nın vitse-prezidenti kimi uğurlu fəaliyyəti artıq onun peşəkar siyasətçi, uğurlu dövlət xadimi və milli maraqların dönməz müdafiəçisi olduğu haqda heç kimdə şübhə doğurmurdu.

Beləliklə, Azərbaycan 2003-cü ildə tamamilə yeni bir eraya qədəm qoyaraq özünün ən qüdrətli dönəminə doğru inamla irəliləməyə başladı. Ulu Öndərin müəyyənləşdirdiyi yol xəritəsi isə kifayət qədər aydın idi.

Prezident İlham Əliyev iqtidarının əsas diqqətçəkən xüsusiyyətlərindən biri də dayanıqlı inkişafın dövlət siyasətinin mütləq prioritetinə çevrilməsi oldu. Daxili sabitlik, xalq-iqtidar birliyi dövlət başçısına çoxşaxəli islahatları reallaşdırmağa, çoxvektorlu dövlət siyasəti həyata keçirməyə imkan verdi. Nəticədə son 22 ildə bütövlükdə dövlətçilik tariximizdə olmadığı qədər ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisi artdı, qlobal miqyaslı nəqliyyat-kommunikasiya sistemləri quruldu, təhsil, səhiyyə, idman infrastrukturu faktiki olaraq tam yeniləndi.

Prezident İlham Əliyevin siyasi lider kimi əsas xarakterik xüsusiyyətlərindən biri ondan ibarətdir ki, şəxaləndirilmiş fəaliyyəti peşəkarcasına idarə edir və nəticədə inkişaf bütün sahələri əhatələyə bilir. Bu isə konstitusion səviyyədə bəyan olunmuş niyyətlər və dövlətin ali məqsədlərinə doğru inamlı həmlələrin uğurlu hasilinə səbəb olur.

Əlbəttə, lider amilinə baxış milli mental düşüncə və təfəkkür tərzinə görə dəyişir. Bu mənada Qərbin uğurlu siyasi xadimlərinin Şərqdə, Şərqin tarix yazan liderlərinin isə Qərbdə lazımi formada qiymətləndirilməməsinə çoxsaylı tarixi nümunələrdə və hətta müasir dövrdə, qloballaşma şəraitində belə rast gəlirik. Lakin cənab İlham Əliyev Heydər Əliyevdən sonra həm də qlobal miqyasda daha sərt şərtlərdə, ictimai nəzarətin radikallaşdığı, neonasizmin, neokolonizmin gücləndiyi və Şərq-islam dünyasına yenidən yuxarıdan baxmaq cəhdlərinin artdığı bir dövrdə bütün qütblərdə qəbul olunan yeganə Azərbaycanlı siyasi xadimdir.

Tarixdə ilk dəfə məhz cənab İlham Əliyev coğrafi mövqeyimizi Azərbaycan üçün kapitala çevirib. Bu mürəkkəb konfiqurasiyanın formalaşması isə Azərbaycana regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələrdə aparıcı rola sahib olmasını, bütün proseslərdə milli maraqlarımızla hesablaşılmasını təmin edib. Cəmi 30 il əvvələ qədər xəritədə belə yeri bilinməyən Azərbaycan məhz cənab İlham Əliyevin sayəsində artıq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü və müddəti dövründə sədrlik edən, habelə dünyanın ikinci böyük təşkilatı Qoşulmama Hərəkatına rəhbərlik etməkdə olan qlobal lider subyektlərdəndir. Üstəlik, cənab İlham Əliyev bəşəri dəyərləri və beynəlxalq hüququn prinsiplərini rəhbər tutmaqla, Azərbaycanın beynəlxalq siyasətə təsir rıçaqlarını genişləndirməkdədir. Bu prosesdə Prezidentin şaxələndirilmiş enerji siyasəti ayrıca qızıl səhifə kimi qeyd olunmalıdır.

Prezident İlham Əliyev həm daxili, həm də xarici siyasətdəki müdrik və uğurlu addımları ilə Azərbaycanın regional və beynəlxalq arenada mövqeyini gücləndirmişdir. Onun dahi siyasətini anlamaq üçün rəhbərliyindəki Azərbaycanın keçdiyi yolda atdığı mühüm addımlar və strateji qərarlar incələnməlidir.

### Liderlik, islahatlar və strateji addımlar

Ötən 22 illik dövrü təhlil etsək, aydın şəkildə müşahidə edə bilərik ki, Prezident İlham Əliyevin hər bir qərarı, təşəbbüsü və addımı Azərbaycanı Qarabağın və Şərqi Zəngəzurun azadlığına bir addım daha yaxınlaşdırıb. Cənab İlham Əliyev ilk növbədə həyata keçirdiyi məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlərlə ölkəmizi iqtisadi cəhətdən tam müstəqil olan suveren gücə çevirməyə nail olub.

Prezident İlham Əliyevin Azərbaycanın lideri olaraq rəhbərliyi dövrü, ölkənin iqtisadi, siyasi, sosial və beynəlxalq sahələrdə ciddi transformasiyalara uğradığı illər olub. 2003-cü ildən bəri başında olduğu Azərbaycan, cənab İlham Əliyevin viziyonu ilə yeni mərhələyə qədəm qoyub, həm daxili, həm də xarici siyasətdə strateji qərarlarla inkişaf edib.

Sözü imzası qədər keçərli olan, nəyi nə zaman edəcəyini hər kəsdən yaxşı bilən möhtərəm Prezident İlham Əliyev hələ illər öncə vurğulayırdı ki, iqtisadiyyatımız nə qədər güclü olsa, siyasi addımlarımız da o qədər cəsarətli və uğurlu olacaq. İqtisadi müstəqillik siyasi müstəqillik üçün əsas şərtdir. Son illərdə dünya iqtisadiyyatında yaşanan qlobal problemlər, siyasi gərginliklər, hərbi münaqişələr, müharibələr, toqquşmalar bir daha onu deməyə əsas yaratdı ki, istənilən sahədə qalib gəlməyin əsas şərtindən biri iqtisadi müstəqillikdir. İqtisadi güc bütün sahələrdə qalib gəlməyin bazisidir.

İki həftə öncə Milli Məclisdə "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi qəbul olundu. Bu müstəqillik tariximizin ən böyük büdcəsi idi. Belə ki, gələn il üçün dövlət büdcəsinin gəlirləri 38,6 milyard manat və xərcləri 41,7 milyard manat məbləğində proqnozlaşdırılıb.

Əlbəttə ki, bu göstərici son 22 ildə əldə edilmiş iqtisadi uğurların nəticəsidir. 22 il öncə ilə müqayisə aparsaq görərik ki, 2003-cü ildə dövlət büdcəsinin gəlirləri 2 milyard 220,9 milyon manat, valyuta ehtiyatları 1,6 milyard dollar olan ölkənin bu gün 40 milyard manata yüksələn büdcəsi, 82,5 milyard dollar olan valyuta ehtiyatları var. Bu isə möhtəşəm yüksəlişin real təcəssümüdür.

Güclü iqtisadiyyat isə hərbi-müdafiə qüdrətinin rəhnində dayanan amildir. Sirr deyil ki, Azərbaycanın müstəqillik tarixində ordu quruculuğu ən vacib məsələlərdən biri olmuşdur. Bu sahədəki ən mühüm inkişaflar isə 2003-cü ildən sonra, cənab İlham Əliyevin prezidentliyi dövründə baş vermişdir.

Prezident İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğunda atılan addımlar, yalnız ölkənin müdafiə qabiliyyətini artırmaqla kifayətlənmədi, eyni zamanda Azərbaycan Silahlı Qüvvələrini dünya miqyasında müasir texnologiyalarla təchiz etməyi və peşəkar hərbi struktur qurmağı da hədəf aldı.

Prezident İlham Əliyevə Azərbaycanı regionun hərbi-siyasi gücünə çevirərək 30 illik işğal faktoruna cəmi 44 günə son qoyaraq milli missiyanı tamamlamağa, eyni zamanda, Azərbaycan Ordusunu dünyanın ən güclü 50 ordusu sırasında qərarlaşacaq qədər güclənməsinə, 1200 adda hərbi təyinatlı məhsul istehsal edən nəhəng müdafiə sənayesi infrastrukturu yaradılmasına cəmi 17 il lazım oldu.

### 30 illik münaqişəyə son, Suverenlik Günü

Bütün bu uğurlar, ordu quruculuğu 2016-cı ilin Aprel döyüşlərində düşmənə sərt xəbərdarlıq etdi. Amma xarici havadarlarının vassalına çevrilən Ermənistanın yenə öz təxribatlarından əl çəkməməsi sonunda Azərbaycanı BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsini təkbaşına icra etməyə məcbur qoydu.

2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. İlk növbədə bizə məğlub və zəif kimi baxanlar Müzəffər Ali Baş Komandan İlham Əliyev iradəsi qarşısında əyilməyə, "dəmir yumruq" ətrafında birləşmiş xalqımızı dünyada mübariz, döyüşkən və müzəffər xalq kimi qəbullanmağa məcbur oldu. Effektiv siyasət və xalqın dəstəyi ilə tarixi ədalətin bərpa olunması, Azərbaycanın qalib ölkəyə çevrilməsi Prezident İlham Əliyevin siyasətinin şah əsəridir.

Prezident İlham Əliyev Zəfərimizin nəticələrinin qorunması, bu reallığın hər kəs tərəfindən qəbul edilməsi istiqamətində fəaliyyəti ilə də tarix yazdı. Bir vaxtlar "Qarabağ Ermənistandır, nöqtə", - deyən Ermənistan özü Azərbaycanın ərazi bütövlüyünü rəqəmlərdə ifadə etməyə məcbur oldu. Havadarlarına arxalanıb qeyri-qanuni yollarla Qarabağa silah-sursat daşınması prosesini həyata keçirdi, dəfələrlə hərbi təxribatlar törətdi, amma hər dəfə layiqli cavabını alaraq geri çəkildi. "Qisas", "qətiyyətli cavab əməliyyatı" bunu təsdiqləyən reallıqdır.

Ermənistanın sülhdən yayınması, təxribatlar törətməsi Azərbaycanın müəyyən tədbirlərə əl atmasını şərtləndirdi. Hayastan rəhbərliyi və onların havadarları elə düşünürdülər ki, Azərbaycan üçtərəfli Bəyanatla təsbit edilmiş status-kvonu dəyişməyə cürət etməyəcək və əksər ərazilərlə Şuşanın azad edilməsi maksimal hədd olacaq. Onlar bunu belə əsaslandırırdılar ki, beynəlxalq aləm ermənilər yaşayan Azərbaycan ərazisində hər hansı əməliyyat keçirməyə və bu ərazilər üzərində ölkəmizin nəzarətini bərpa etməsinə imkan verməyəcək. Həmin dövrdə əsasən Fransa, ABŞ və Qərbin bəzi ölkələrinin tutduğu mövqe, verilən bəyanatlar belə proqnozlar üçün ciddi əsaslar yaratmışdı. Ermənistanın havadarları 30 illik işğal dövründə olduğu kimi, bu mərhələdə də vəziyyətin qeyri-müəyyən qalmasında maraqlı idilər. Məqsəd Prezident İlham Əliyevi planlarından çəkindirmək və Azərbaycanın öz ərazisi üzərində tam suverenliyini bərpa etməsinə imkan verməmək, 2020-ci ilin nəticələri ilə məhdudlaşmağa məcbur etmək idi.

Heç vaxt başladığı işləri yarımçıq qoymayan və bütün fəaliyyəti boyunca nəyi nə zaman və necə etməyin ən yaxşı nümunələrini göstərən Azərbaycan Prezidentinin suverenlik və ərazi bütövlüyü anlayışı heç bir zaman müharibənin nəticələri ilə məhdudlaşmadı, sonrakı 3 il ərzində həyata keçirilən siyasət və görülən bütün işlər prosesin davamı oldu və 2023-cü il sentyabrın 20-də öz məntiqi sonluğuna çatdı. Bütün təzyiqlərə baxmayaraq, Prezident İlham Əliyev uzaqgörənliklə, praqmatik şəkildə, barışmaz prinsipiallıq və qəti iradə nümayiş etdirərək Xankəndidə Azərbaycanın dövlət bayrağının asılacağı günü yaxınlaşdırdı.

2023-cü il sentyabrın 20-də həyata keçirilən antiterror tədbirləri cəmi 23 saat 51 dəqiqə ərzində revanşist birləşmələrin təslim olmağa məcbur edilməsi, Qarabağdakı cinayətkar rejimin özünü buraxması, oktyabrın 15-də isə Xankəndidə, Xocavənd şəhərində, Xocalıda, Ağdərədə Azərbaycan bayrağının ucaldılması öz tarixi əhəmiyyətinə görə 44 günlük müharibə və 8 Noyabr Zəfər Gününə bərabər növbəti parlaq Qələbə oldu. 2023-cü il sentyabrın 20-də əldə olunan Qələbə siyasi və mənəvi əhəmiyyətinə görə Zəfər Gününə bərabər və onu tamamlayan tarixi hadisə kimi yaddaşlara yazıldı.

Müzəffər Ali Baş Komandan İlham Əliyev müharibədən sonrakı 5 il ərzində tarixi əhəmiyyət kəsb edən bir proses reallaşdırdı və üzərinə götürdüyü tarixi missiyanı başa çatdırdı. Bununla da cənab İlham Əliyev 200 illik erməni xülyasının üzərindən birdəfəlik xətt çəkdi. Azərbaycanın ərazi bütövlüyü tam təmin edildi.

Prezident İlham Əliyevin 2024-cü il sentyabrın 19-da imzaladığı sərəncamla müstəqil dövlətçiliyin yeni inkişaf mərhələsinə qədəm qoymasının əlaməti olaraq hər il sentyabrın 20-si Azərbaycanda Dövlət Suverenliyi Günü kimi qeyd ediləcək. Bu, 2023-cü ildə Qarabağda keçirilən antiterror əməliyyatından sonra Azərbaycanın tam suverenliyinin və ərazi bütövlüyünün bərpa olunmasını simvolizə edir.

### Sülhə doğru, Zəngəzur dəhlizinin açılışı, regionda yeni eranın başlanğıcı

Böyük Qələbənin nəticəsində Müzəffər Ali Baş Komandanın yaratdığı yeni reallıq da Qarabağ və Şərqi Zəngəzurun bərpası və inkişafını nəzərdə tutan Böyük qayıdış strategiyasının tükənməz aktuallığını təmin edir. Bütün işlər Azərbaycanın öz imkanları hesabına həyata keçirilir və dünya bir daha görür ki, cənab İlham Əliyev necə qüdrətli bir dövlət qurub.

Növbəti ildə də əsas hədəflərdən biri işğaldan azad olunmuş ərazilərimizin yenidən qurulması, "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın uğurla icrasıdır. Növbəti ildə büdcə xərclərinin 8,4 faizinə bərabər, yaxud 3,5 milyard manat məbləğində vəsaitin məhz bu istiqamətlərə xərclənəcəyi nəzərdə tutulur.

2020-ci ilin sonundan etibarən işğaldan azad olunmuş ərazilərdə yenidənqurma və quruculuq işlərinə hər il dövlət büdcəsinin imkanları səfərbər edilir. Cari ilin əvvəlinə 17,6 milyard manat vəsait xərclənib. Bu ilin sonuna isə bu xərclərin 22 milyard manata çatması gözlənilir. 2026-cı ilin büdcə layihəsi və sonrakı üç il üzrə xərclər çərçivəsi də, ilk növbədə, bu istiqamət üzrə maliyyə təminatının yaradılmasını nəzərdə tutur.

Avqustun 8-də Vaşinqtonda ABŞ, Azərbaycan və Ermənistan arasında Ağ Evdə keçirilən sülh sammiti tarixi əhəmiyyət daşımaqla, Cənubi Qafqazda davamlı sülhün bərqərar olmasında yeni səhifə açdı. Hər kəsin nəticələrini yüksək qiymətləndirdiyi bu görüş Azərbaycan və Ermənistan arasında sülh mətninin razılaşdırılmasına gətirib çıxartdı. Azərbaycanın milli maraqlarından irəli gələrək hazırladığı sülh gündəliyi Ermənistan tərəfindən qəbul edildi və yekun sülh mətni paraflandı.

"Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsi Cənubi Qafqaza sülh gətirən yeni başlanğıca vəsilə oldu. Təbii ki, 17 maddədən ibarət olan sazişdə bir çox öhdəliklər nəzərdə tutulub ki, Ermənistan tərəfindən bu tapşırıqların yerinə yetirilməsindən sonra sülh sazişi imzalanacaq.

Tarixi Vaşinqton görüşünün yekunlarına dair ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan liderləri tərəfindən imzalanan Birgə Bəyannamə də mühüm əhəmiyyətə malikdir. Bəyannamədə sülhə aparan yolların açarları verilib ki, bunun üçün də əlavə lazımi tədbirlərin görülməsi təmin edilməlidir. Birgə Bəyannamədə regionda və onun qonşuluğunda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqi üçün iki ölkə arasında ölkədaxili, ikitərəfli və beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılmasının əhəmiyyəti bir daha təsdiq edilir. Bu isə Azərbaycanın əsas hissəsi və Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsini özündə ehtiva edir.

Beləliklə, Vaşinqton görüşündə Zəngəzur dəhlizinin (TRIPP) açılması əsas zərurət kimi ortaya qoyulub. Ermənistan tərəfindən dəhlizlə bağlı işlərin həyata keçirilməsi üçün isə Vaşinqton və İrəvan arasında razılaşma əldə olunub. Belə ki, "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun" həyata keçiriləcəyi təsbit olunub ki, bu da Ermənistan ərazisi vasitəsilə Azərbaycanın əsas hissəsi və Naxçıvan arasında maneəsiz gediş-gəlişin təmin edilməsi məqsədilə ABŞ tərəfindən həyata keçiriləcək layihəni nəzərdə tutur. ABŞ investorları layihəyə sərmayə qoyduqları halda prosesin sürətlənəcəyi və yaxın illərdə TRIPP-in reallaşacağının şahidi olacağıq. Bununla da regionda yeni sabitlik, təhlükəsizlik erası başlayacaq.



Ümumiyyətlə, Prezident İlham Əliyevin fəaliyyətinin uğurlarını təmin edən bir neçə mühüm faktor var. Bunlar, Prezidentin şəxsi bacarığı, qabiliyyəti və eyni zamanda ən yaxın silahdaşı, çiyindaşı Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xidmətləri ilə bağlıdır.

Birinci vitse-prezidentin yürütdüyü siyasət Prezident İlham Əliyevin fəaliyyətinə böyük dəstəkdir. Mehriban xanım Əliyevanın fəaliyyəti, Prezident İlham Əliyevin siyasi və diplomatik uğurlarına verdiyi dəstək, həmçinin ölkənin sosial, mədəni və iqtisadi sahələrində həyata keçirdiyi islahatlar, Azərbaycanın inkişafına mühüm təsir göstərib.

Mehriban xanım Əliyeva Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatların təbliğində və bu islahatların həyata keçirilməsində mühüm rol oynayır. Onun Azərbaycanın müstəqilliyi, suverenliyi və sosial inkişafı üçün verdiyi töhfələr, ölkənin dünya miqyasında nüfuzunun artmasına şərait yaradır.

Mehriban xanım Əliyeva yalnız Birinci vitse-prezident olaraq deyil, həm də ailə dəyərlərinə önəm verən bir şəxsiyyət kimi də diqqət çəkir. Azərbaycanın ənənəvi dəyərlərini qorumaq və bu dəyərləri inkişaf etdirmək, onun fəaliyyətinin əsasını təşkil edir. Ailə, Mehriban xanım Əliyevanın siyasi və sosial fəaliyyətində daima mərkəzi mövqedə olmuşdur. Azərbaycan cəmiyyətində ailəvi əlaqələr və qadın hüquqları sahəsində müsbət dəyişikliklərə nail olmaq üçün Mehriban xanım Əliyeva bir çox layihə həyata keçirmişdir.

Mehriban xanım Əliyeva, Heydər Əliyev Fondunun prezidenti olaraq, fond vasitəsilə Azərbaycanın mədəni irsini qorumaq və dünyaya tanıtmaq istiqamətində mühüm addımlar atmışdır. Fond ölkənin mədəniyyətini, tarixini və sənətini qorumaqla yanaşı, həm də Azərbaycanın xarici siyasətinin tanıdılmasında əhəmiyyətli bir platformaya çevrilmişdir.

İşğaldan azad edilmiş torpaqlarımızda mədəni-dini irsimizi xalqa yenidən qaytarmaq missiyasında Prezident İlham Əliyevlə yanaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da xüsusi vurğulanmalıdır. Mehriban xanım Əliyevanın göstərişi ilə 30 ilə yaxın düşmən tapdağında qalan, dağıdılan, məhv edilən, təhqir olunan, murdarlanan dini abidələrimizin, məscidlərimizin yenidən həyata qaytarılıb və bu proses davam etməkdədir. İndiyə qədər minlərlə abidəyə nəfəs verən Heydər Əliyev Fondunun budəfəki layihəsi Qarabağdakı dini irsimizin, məscidlərimizin bərpasına həsr olunub.

### Qlobal təşəbbüslər müəllifi, humanizm nümunəsi

Həyata keçirdiyi müstəqil və qətiyyətli siyasətlə nüfuzu gündən-günə artan, adı dünyanın tanınmış siyasətçiləri arasında çəkilən Prezident İlham Əliyev son 22 ildə Azərbaycanı dünya siyasi arenasında söz sahibinə çevirib.

Məhz qətiyyətli liderin rəhbərliyində Azərbaycan beynəlxalq səhnədə öz mövqeyini gücləndirmək və daha çox qlobal layihələrdə iştirakını təmin etmək istiqamətində mühüm addımlar atır. Daim inkişaf istiqamətində irəliləyən Azərbaycana, onun Prezidenti İlham Əliyevə dünya liderləri tərəfindən göstərilən diqqət getdikcə daha da artır.

Bu gün İlham Əliyev şəxsiyyətinə, liderliyinə geosiyasi, geoiqtisadi miqyasda nəzər yetirsək görərik ki, o, təkcə Azərbaycanın, Qafqazın alternativsiz lideri deyil, ümumiyyətlə, dünya miqyasında tanınan, qlobal liderliyi etiraf olunan böyük şəxsiyyətdir. Elə bir beynəlxalq və mötəbər toplantı yoxdur ki, Azərbaycan Prezidenti həmin tədbirə dəvət edilməsin və orada müasir dövrün çağırışları, mövcud qlobal problemlərin həlli yolları barədə fikirlər səsləndirməsin, təkliflərini irəli sürməsin. Yəni İlham Əliyev təkcə regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq, dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Dövlətimizin başçısının təşəbbüsləri qlobal miqyasda beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir.

İlham Əliyev Azərbaycanın beynəlxalq təşkilatlarda, xüsusən BMT, ATƏT, Qoşulmama Hərəkatı kimi platformalarda fəallığını artırıb. Azərbaycan eyni zamanda Türk Dövlətləri Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatında da əhəmiyyətli fəaliyyətini davam etdirir. Dövlətimizin başçısı bu təşkilatlar çərçivəsində ölkəmizin maraqlarını müdafiə edərək Azərbaycanın beynəlxalq təsirini daha da genişləndirib.

Noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə qəbul edilən tarixi qərar da cənab İlham Əliyevin xarici diplomatiyasının növbəti təntənəsi oldu. Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünün tamhüquqlu iştirakçısı seçilməsi çox böyük uğurdur. Ölkəmizin Mərkəzi Asiya platformasına qoşulması əlbəttə ki, yeni imkanlar və perspektivlər deməkdir.

Azərbaycanın Mərkəzi Asiya platformasına qoşulması yalnız regionda deyil, həm də dünya səviyyəsində əhəmiyyətli bir addım kimi qiymətləndirilir. Bu platforma Azərbaycanın uzunmüddətli strateji məqsədlərinə uyğun olaraq həm iqtisadi, həm də diplomatik əlaqələrin genişlənməsinə töhfə verəcək bir imkan yaradır. Azərbaycanın coğrafi mövqeyi onu Asiya və Avropa arasında mühüm körpü halına gətirir.

2025-ci ilin uğurlarından biri də Azərbaycanın qaz ixrac etdiyi ölkələrin sayının artması olub. İndiyədək qaz ixrac etdiyimiz ölkələrin sayı 12 idi. Bunlar Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, İtaliya, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya və Slovakiyadır. Qısa müddətdə bu sıraya daha iki ölkə - Ukrayna və Suriya da qoşuldu. İndi Azərbaycanın qazla təchiz etdiyi ölkələrin sayı 14-dür. Yaxın gələcəkdə Azərbaycanın hədəfi 20-yə yaxın ölkəyə qaz ixrac etməkdir.

Son 22 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bütün sahələrdə böyük tərəqqiyə nail olub. Ulu Öndər Heydər Əliyevin humanizm ənənələrinə və siyasətinə sadiqlik İlham Əliyevin fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edib. Dövlət başçısı əfvetmə institutunun çevik və işlək mexanizm əsasında fəaliyyətini təmin etmək məqsədilə həyata keçirdiyi islahatlar da bu sahədə böyük irəliləyişə səbəb olub.

İlham Əliyev hər zaman mərhəmət, insanpərvərlik və humanizm məfkurəsindən çıxış edərək bayram və əlamətdar günlərdə əfv sərəncamları imzalayıb. Azərbaycan Prezidentinin son 22 ildə imzaladığı əfv sərəncamları, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunmuş amnistiya aktları minlərlə insanı əhatə edib.

Dekabrın 19-da Milli Məclis Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülmüş "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında qərar qəbul etdi. Əlbəttə ki, bu, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş Konstitusiyanın 30 illiyi, Vətən müharibəsində qazandığımız tarixi Zəfərin 5-ci ildönümü, ölkəmizin suverenliyinin tam bərpa olunması və "Konstitusiya və Suverenlik İli" münasibətilə Prezident İlham Əliyev tərəfindən elan edilən növbəti humanizm təşəbbüsüdür. Bu amnistiya 2023-cü ildə Qarabağda separatizmə birdəfəlik son qoyulmasından, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam təmin edilməsindən sonra irəli sürülmüş ilk təşəbbüsdür. Ümumilikdə, təxminən 20 minə yaxın vətəndaş cənab İlham Əliyevin humanist siyasətindən birbaşa faydalana biləcək.

Ümumiyyətlə, cənab İlham Əliyevin əfv siyasəti yalnız məhbusların azadlığa çıxarılması ilə məhdudlaşmır, həm də Azərbaycan cəmiyyətində milli birliyin gücləndirilməsinə xidmət edir. Hər bir əfv fərmanı, amnistiya aktı xalqın bir-birinə olan inamını artırır, insanların qarşılıqlı hörmətini möhkəmləndirir. Əfv həmçinin cinayətlərlə mübarizə, hüquq pozuntularının qarşısının alınması və insanların cəmiyyətə faydalı fərdlər kimi təkrar sosiallaşmalarını təmin etməyə imkan verir.

*Azərbaycan dövlətinin əfv siyasəti, yalnız hüquqi sistemin müasir inkişafına deyil, həm də ölkənin sosial barışına xidmət edir. Əfvin həyata keçirilməsi ölkədəki siyasi, dini və sosial təbəqələr arasında məhəbbət və güvən mühitinin yaradılmasına kömək edir. Bu, Azərbaycan dövlətinin vətəndaşları ilə arasındakı münasibətlərin sağlam şəkildə inkişaf etməsi və hüquq sisteminin daha da təkmilləşməsi üçün mühüm bir zəmin yaradır.*

*Bütün bu reallıqlara əsaslanaraq deyə bilərik ki, cənab İlham Əliyev xalqın birliyindən güc alaraq yürütdüyü müstəqil, prinsipial siyasətlə Azərbaycanı daha möhtəşəm zəfərlərə aparacaq.*

***Səttar MÖHBALIYEV,***
***Milli Məclisin deputatı***



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş siyasət, düzgün taktika

**3 oktyabr 2019-cu ildə "Valday" Beynəlxalq Diskussiya Klubunun sessiyasında Prezident İlham Əliyev "Qarabağ Azərbaycandır və nida işarəsi" deməsi ilə ölkəmizin haqlı və prinsipial mövqeyini ortaya qoydu.**

**Növbəti ilin sentyabr, oktyabr, noyabr, dekabr aylarında Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev rəsmi "X" səhifəsində işğal altında olan torpaqlarımızın artıq azad olunduğu xəbərini verirdi.**



Üzərindən cəmi üç il keçdikdən sonra - 2023-cü ilin payızında isə beynəlxalq ictimaiyyət və qlobal siyasi aktorlar Azərbaycanı ərazi bütövlüyünü, dövlət suverenliyini və konstitusion quruluşunu tam təmin etməsi münasibətilə təbrik edir, şəxsən Prezident İlham Əliyevin həyata keçirdiyi qətiyyətli siyasət, diplomatik manevrlər, hərbi taktika nəticəsində əldə olunan böyük nailiyyətlərə görə heyrət qarışıq təqdir və rəğbətlərini ifadə edirdilər.

Bu tarixi paralelin özü belə cənab Prezident İlham Əliyevin Azərbaycanı müəyyənləşdirdiyi strateji xətt üzrə inkişaf etdirərək dövlətçilik salnaməmizdə necə nəhəng bir epoxa başlatdığını əyani şəkildə göstərir.

### Yerinə yetirilən and

Dünyada gedən siyasi proseslərin, geostrateji mövqelər uğrunda güc mərkəzləri arasında baş verən intriqaların, münaqişə və müharibələrin, habelə tez-tez müşahidə olunan ikili standartların fonunda da cənab Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın əldə etdiyi uğurlar aydın şəkildə özünü göstərir və nümunəvi xarakter daşıyır. Müstəqilliyini bərpa etdikdən dərhal sonra işğal faktı ilə üz-üzə qalan, ordusu hələ tam formalaşmamış, bir milyondan çox qaçqın və məcburi köçkün problemi ilə qarşılaşan, dərin sosial-iqtisadi çətinliklər yaşayan Azərbaycan dövləti Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf xətti və onun layiqli siyasi davamçısı cənab Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən, məqsədyönlü siyasət nəticəsində misilsiz bir tərəqqi yolu keçmişdir. Bu gün Azərbaycan dünyanın aparıcı siyasi, iqtisadi gücləri ilə bir sırada dayanaraq daha ədalətli dünya nizamının formalaşdırılması prosesində fəal iştirak edir, sülh çağırışları və bu istiqamətdə atdığı ardıcıl, adekvat addımlarla beynəlxalq ictimaiyyət üçün örnək ortaya qoyur.

2003-cü il oktyabrın 31-də Prezident kimi müqəddəs Qurani-Kərimə əl basaraq and içən cənab İlham Əliyev çıxışında belə demişdi: "Azərbaycan gələcəkdə çox zəngin və qüdrətli ölkəyə çevriləcəkdir...

...Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəkdir".

Həmin tarixi məqamda dövlət başçısı dünyanın ən böyük azərbaycanlısı, xalqımızın Ulu Öndəri Heydər Əliyevə müraciətlə bildirmişdi ki, onun əsəri olan müasir Azərbaycan daha da gücləndiriləcək, zənginləşdiriləcək, hərtərəfli inkişaf etdiriləcək və bu şərəfli yol yeni qələbələrə doğru inamla davam etdiriləcək.

Hazırda Azərbaycanın bərqərar olduğu regional lider dövlət statusu, formalaşdırdığı dayanıqlı siyasi-iqtisadi idarəetmə modeli açıq şəkildə göstərir ki, cənab İlham Əliyevin 2003-cü ilin oktyabrında Prezident kimi ilk dəfə and içərkən xalqına və şəxsən Ümummilli Lider Heydər Əliyevə verdiyi bütün vədlər ortaya qoyulan siyasi iradə və effektiv dövlət idarəçiliyi əsasında tam şəkildə gerçəkləşdirilib.

Dövlətçilik tariximizdə taleyüklü mərhələdə - 1993-cü il iyunun 15-də üzərinə böyük məsuliyyət götürərək Azərbaycanı qurtuluş yoluna çıxaran Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi-diplomatik strategiya yolunu uğurla davam etdirən Prezident İlham Əliyevin başlıca fəaliyyət prioritetləri ölkəmizin iqtisadi dayaqlarını möhkəmləndirmək, qlobal səviyyədə nüfuzunun güclənməsini təmin etmək, beynəlxalq tərəfdaşlar qazanmaq və əlbəttə ki, ən əsası torpaqlarımızın işğaldan azad edilməsinə və suverenliyimizin bərpasına nail olmaqdan ibarət idi.

Hakimiyyətə gəldiyi ilk gündən respublikamızda iqtisadi inkişafın təmin edilməsi, sosial dövlət modelinin həyata keçirilməsi və vətəndaşların sosial rifah səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm qərarlar qəbul edən Prezident İlham Əliyev bu məqsədlərə xidmət edən çoxsaylı dövlət proqramlarının və inkişaf layihələrinin icrasına nail oldu. Təsadüfi deyil ki, 2003-2007-ci illər ərzində ölkədə mövcud olan bütün çadır şəhərcikləri ləğv edilərək humanitar problem davamlı həllini tapdı.

Bir sıra dövlətlərlə Azərbaycanın yeni regional əməkdaşlıq və enerji təhlükəsizliyi sahəsində əlaqələrinin qurulmasında təməl rol oynayan Bakı-Tbilisi-Ceyhan (BTC) neft boru kəməri dövlətimizin enerji diplomatiyasının, uğurlu xarici iqtisadi siyasətinin başlanğıcı oldu. Ardınca reallaşdırılan Bakı-Tbilisi-Qars, Bakı-Tbilisi-Ərzurum, "Cənub qaz dəhlizi" və digər strateji layihələr Azərbaycanı qlobal enerji təhlükəsizliyi sahəsində əsas aktora, eyni zamanda beynəlxalq nəqliyyat-logistika qovşağına çevirdi.

# Müdrik rəhbər, Müzəffər Ali Baş Komandan

Artan iqtisadi güc ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsinə və silahlı qüvvələrin modernləşdirilməsi prosesinə birbaşa rəvac verdi. Çünki ərazi bütövlüyü pozulmuş, işğal və təcavüzlə üzləşmiş bir dövlət üçün hərbi güc milli təhlükəsizliyin əsas şərtlərindən biri olmaqla yanaşı, uzun illər nəticəsiz qalan sülh danışıqlarının perspektivsizliyini də ortaya qoyurdu.

Azərbaycanın işğalla üz-üzə qaldığı 1990-cı illərin əvvəllərində BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının ərazimizdən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdi. Lakin bu qətnamələr düz 27 il ərzində yerinə yetirilmədən olduğu kimi qaldı. Eyni zamanda 1992-ci ildə münaqişənin danışıqlar yolu ilə tənzimlənməsi üçün yaradılan ATƏT-in Minsk qrupu bu istiqamətdə 28 il ərzində hansısa müsbət iş görmədi. Həmsədrlər məsələnin olduğu kimi dondurulmasına, Azərbaycanın işğal faktı ilə barışmasına çalışdılar. Ermənistan işğal siyasətinə görə beynəlxalq səviyyədə heç bir sanksiyaya, təzyiqlərə məruz qalmadı. Ancaq Azərbaycan həqiqətlərini dünyaya çatdıran və qətiyyətlə müdafiə edən Prezident İlham Əliyev bütün beynəlxalq tribunalardan elan edirdi ki, ölkəmiz mütləq öz ərazi bütövlüyünü və suverenliyini təmin edəcək. Proseslərin inkişafı isə göstərirdi ki, Ermənistana havadarlıq edən güclər də münaqişənin olduğu kimi qalmasını istəyirlər və buna görə də nə sülhün, nə də müharibənin olmasına razıdırlar.

Yəni süni şəkildə yaradılan şərait Azərbaycanın əleyhinə işləyirdi və belə olduğu təqdirdə rəsmi Bakı Ermənistanın hərbi təxribatlarından sonra doğru bildiyi həll yolunu - müharibə variantını seçməli oldu.

Torpaqlarını ya sülh, ya da müharibə yolu ilə qaytaracağını hər zaman bəyan edən Azərbaycan illər ərzində ordu quruculuğu istiqamətində modern tələblərə uyğun mühüm islahatlar həyata keçirdi. Bu sayədə dünyanın ən güclü orduları sıralamasında layiqli yer tutan Azərbaycan Ordusunun hərbi qüdrətini 2016-cı ilin 4 günlük Aprel döyüşlərində həm Ermənistan, həm də ona havadarlıq edən qüvvələr gördü. Daha danışıqlar adı altında imitasiya ilə məşğul ola, torpaqlarımızı işğal altında saxlaya bilməyəcəyini başa düşən İrəvan son cəhd kimi 27 sentyabr 2020-ci ildə ölkəmizə qarşı növbəti hərbi təxribat aktını törətdi.

Həmin gün Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "İrəli!" əmri ilə döyüşə atılan Azərbaycan Ordusu həm havada, həm də yerdə düşmənə sarsıdıcı zərbələr vurdu və Vətən müharibəsinin ilk günündən ərazilərimizi işğaldan azad etməyə başladı.

27 sentyabr 2020-ci ildə Prezident İlham Əliyev xalqa müraciətində bəyan etdi ki, biz haqq yolundayıq və tarixi ədalət bizim tərəfimizdədir: "Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir. Ermənistanın baş naziri deyəndə "Qarabağ Ermənistandır", bu, yalandır. Mən deyəndə ki, "Qarabağ Azərbaycandır", bu, həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir...

... Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Ermənistanın hərbi təcavüzü nəticəsində 30 il ərzində işğal altında qalmış ərazilərimiz İkinci Qarabağ müharibəsində hərbi-siyasi yolla azad edildi. Azərbaycan Ordusunun apardığı uğurlu əməliyyatlar nəticəsində ümumilikdə 300-dən çox yaşayış məntəqəsi, həmçinin mühüm strateji yüksəkliklər işğaldan qurtarıldı. 8 noyabr 2020-ci ildə Şuşa şəhərinin azad edilməsi ilə Azərbaycan Ermənistanı kapitulyasiya, məğlubiyyət aktına qol çəkməyə məcbur etdi və beləliklə, Vətən müharibəsi ölkəmizin zəfəri ilə başa çatdı.

44 günlük müharibənin gedişində Prezident İlham Əliyev informasiya sahəsində də mübarizə apardı, onlarla xarici KİV-ə müsahibə verərək ölkəmizin həqiqətlərini çatdırdı, bəzi hallarda ona ünvanlanan qərəzli sualları faktlara dayanan sərrast və tutarlı cavabları ilə alt-üst etdi.

10 noyabr 2020-ci ildə Azərbaycan, Ermənistan və Rusiya liderlərinin imzaladıqları üçtərəfli Bəyanata əsasən, Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan, bir itki verilmədən qaytarıldı. Bu, ölkəmizin hərbi zəfərinin diktə etdiyi diplomatik qələbə idi və həmin rayonların müharibə yolu ilə azad edilməsinin böyük itki bahasına başa gələcəyi reallığını göz önünə gətirdikdə də bunun necə həyati əhəmiyyətə malik məsələ olduğu bir daha öz təsdiqini tapır.

### Bütün ərazilərimiz üzərində milli suverenliyimizi təmin edən qətiyyətli siyasət

Azərbaycanın Vətən müharibəsində əldə etdiyi Şuşa zəfəri sonrakı qələbələrin təmin olunmasına yol açdı. 23 aprel 2023-cü ildə Laçın sərhəd-buraxılış məntəqəsinin qurulması ilə bütün sərhədlərimizdə Azərbaycan Respublikasının Dövlət Bayrağı ucaldıldı. Həmin ilin sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində dövlət suverenliyimiz tam təmin edildi, vaxtilə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş Azərbaycan Konstitusiyası bütün ərazilərimizdə hüquqi qüvvəyə mindi.

Bir gündən də az müddətdə davam edən antiterror tədbirləri zamanı erməni separatçıları ağ bayraq qaldırmağa məcbur edildilər və məğlub olduqlarını anlayan kriminal rejim özünü buraxdığını elan etdi.

Bütün bu tarixi hadisələrin "Heydər Əliyev İli"ndə - Ulu Öndərin anadan olmasının 100 illiyini qeyd etdiyimiz ildə baş verməsi də elə amalı Azərbaycanın bu günlərini görmək olan dahi siyasətçi Heydər Əliyevin xatirəsinə ən böyük ehtiram oldu.

Azərbaycana rəhbərliyinin 20-ci ili tamam olan gündə - 15 oktyabr 2023-cü ildə Xankəndi şəhərində dövlət bayrağını ucaldan zaman Prezident İlham Əliyev əldə olunan qələbələrə görə duyduğu qürur hisslərini belə dilə gətirdi: "Əziz həmvətənlər, bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Azərbaycanın müstəqillik tarixində açılan parlaq səhifələrdən biri də Böyük qayıdışla bağlıdır. Vətən müharibəsindən dərhal sonra dövlətimiz Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı tikinti və quruculuq işlərinə başlayıb və büdcəmizin əsas prioritetlərindən biri də elə bu istiqamətdir. İşğaldan azad edilən ərazilərdə "ağıllı şəhər" və "ağıllı kəndlər"in qurulması, bu ərazinin "yaşıl zona" elan edilməsi Qarabağ və Şərqi Zəngəzur iqtisadi regionlarının dünya standartlarına və zamanın tələblərinə adekvat formada qurulduğunu göstərir.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu bu ərazilərdə abidələrin bərpasını müvəffəqiyyətlə həyata keçirir.

Prezident İlham Əliyevin ən yaxın silahdaşı olan birinci xanım Mehriban Əliyeva öz çoxşaxəli fəaliyyəti ilə ölkəmizin hərtərəfli inkişafında müstəsna rol oynayır. Birinci xanımın dövlətimizin rəhbəri İlham Əliyevlə birlikdə Qarabağ və Şərqi Zəngəzura mütəmadi səfərlər etməsi, təməlqoymalarda, açılışlarda iştirak etməsi də göstərir ki, Mehriban xanım işğaldan azad edilən yurdlarımızın dirçəldilməsi istiqamətində də yorulmaz fəaliyyət göstərir. Heydər Əliyev Fondunun bu ərazilərdə tarixi, mədəni, dini irsimizi bərpa edərək yaşatması da elə Mehriban xanım Əliyevanın Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsinə ən böyük töhfəsidir.

Uğurla həyata keçirilən Böyük qayıdış konsepsiyası sayəsində hazırda bu ərazilərə mütəmadi olaraq qayıdış həyata keçirilir və on minlərlə keçmiş məcburi köçkün öz evinə dönüb.

7 fevral 2024-cü ildə suverenliyimizin tam təmin edildiyi tarixi şəraitdə ilk dəfə ölkəmizdə prezident seçkiləri keçirildi. Həmin vaxt növbədənkənar prezident seçkilərində Azərbaycan xalqı ona qələbələr yaşadan cənab İlham Əliyevə yekdilliklə səs verərək onu özünün rəhbəri seçdi. Bununla həm də xalqımız Azərbaycanın parlaq gələcəyinə səs vermiş oldu. Bu, həm də Prezident İlham Əliyevin xalqın dəstəyi və sevgisi ilə qazandığı möhtəşəm qələbə kimi tarixə düşdü.

Azərbaycanın nəhəng miqyaslı qələbələri bölgədə yeni geostrateji situasiya formalaşdırıb. Cənubi Qafqazda de-fakto sülhə nail olunması, əməkdaşlıq və daha geniş coğrafiya üçün tərəqqi vəd edən hazırkı sabitlik mühiti ölkəmizin davamlı səylərinin nəticələridir.

İkinci Qarabağ müharibəsindən dərhal sonra Bakı İrəvana beynəlxalq hüquqa əsaslanan beş təməl prinsip irəli sürüb, sülh müqaviləsi layihəsini təqdim edib. Qarşı tərəfin müxtəlif manipulyasiyalarına, qərəzli güc dairələrinin təxribatlarına rəğmən və məhz Azərbaycanın səyləri ilə iki ölkə arasında məsələlərin dialoq formasında yoluna qoyulması istiqamətində hazırda real addımlar atılır. Bakının təşəbbüsü ilə başladılan danışıqlar prosesi müsbət nəticələr də verib ki, Qazax rayonunun 4 kəndinin azad edilməsi, sərhəddə demarkasiya və delimitasiya işlərinə start verilməsi kimi mühüm işlər də bunun tərkib hissəsidir. Vətəndaş cəmiyyətləri nümayəndələrinin qarşılıqlı səfərləri, Azərbaycanın Ermənistana tranzit yük məhdudiyyətini aradan qaldırması və bu qəbildən olan addımlar da sülh prosesinin tərkib hissələridir.

Cari il 8 avqust tarixində Prezident İlham Əliyevin ABŞ-nin rəhbəri Donald Trampın dəvəti ilə Vaşinqtona həyata keçirilən işgüzar səfəri Amerika-Azərbaycan əlaqələrində tamamilə yeni səhifə açdı.

Bu tarixi səfər çərçivəsində "Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında strateji tərəfdaşlığa dair xartiyanın inkişaf etdirilməsi məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" imzalandı.

Prezident İlham Əliyevin ABŞ-yə işgüzar səfəri zamanı Prezident Donald Trampın "Azadlığı Müdafiə Aktı"na 907 saylı düzəlişin icrasının dayandırılması haqqında sənəd imzalaması, Ağ Evin rəmzi açarını dövlətimizin rəhbərinə təqdim etməsi iki ölkə arasında münasibətlərin qarşılıqlı etimada və dostluğa əsaslandığının əyani isbatı oldu.

Vaşinqton Sammitində həmçinin ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Ermənistan-Azərbaycan arasında Birgə Bəyannamə imzalandı, "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsi paraflandı.

Zəngəzur dəhlizinin (TRIPP) timsalında bölgədə kommunikasiyaların açılması ilə bağlı razılaşmanın əldə edildiyi sammitdə həmçinin Azərbaycan və Ermənistan xarici işlər nazirləri ölkələrimiz arasında münaqişənin nəticələrinin aradan qaldırılması üçün vaxtilə yaradılmış ATƏT-in Minsk prosesi və əlaqədar strukturların bağlanması ilə bağlı birgə müraciəti imzaladılar. Dekabrın 1-də ATƏT rəsmi olaraq Minsk prosesini başa çatdırdı və onunla bağlı strukturları ləğv etdi.

Azərbaycan 2020-ci ildə hərbi gücü sayəsində qazandığı qələbələrlə həm BMT TŞ-nin düz 27 il kağız üzərində qalan qətnamələrini yerinə yetirdi, həm də 28 il boyu mənasız danışıqlarla məşğul olan ATƏT-in keçmiş Minsk qrupunun görməli olduğu işi, Qarabağ münaqişəsini birdəfəlik həll etdi.

Bu anlamda Prezident İlham Əliyevin 25 sentyabrda Nyu Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışında Azərbaycanın əzm və səylə qət etdiyi inkişaf konsepsiyasına və uğur formuluna toxunması təsadüfi xarakter daşımırdı.

Uzun illər boyu ölkəmizin haqq səsini digər nüfuzlu tribunalarla yanaşı, BMT kürsüsündən də çatdıran dövlətimizin rəhbəri İlham Əliyev 25 sentyabrda bu platformada artıq ərazi bütövlüyünü, suverenliyini özü təmin edən güclü dövlətin rəhbəri kimi çıxış edir, ədaləti bərqərar etdiyimizi dünyaya çatdırdı: "Uzun illər ərzində mən bu kürsüdən Azərbaycana qarşı törədilmiş təcavüz, işğal və ədalətsizlik faciələri barədə danışmışam. Bu gün isə qələbəyə və sülhə aparan uzun yolumuzdan, Azərbaycan tarixində yeni dövrdən, Vətən müharibəsi ilə işğala necə son qoyulduğundan, sülhü siyasi vasitələrlə necə təmin etməyimizdən danışacağam".

Sentyabrın 23-də Nyu Yorkda Prezident Donald Trampın və birinci xanım Melaniya Trampın adından BMT Baş Assambleyasının 80-ci sessiyası ilə əlaqədar rəsmi qəbulda ABŞ rəhbərinin dövlətimizin başçısı haqqında yüksək fikirlər səsləndirməsi də Azərbaycanın güclü və qətiyyətli liderinə olan yüksək ehtiramın təzahürü idi: "Mən Sizinlə, həqiqətən, fəxr edirəm. Siz çox gözəl insansınız".

### Qlobal miqyasda nüfuz sahibi

Azərbaycanın regionda sahib olduğu strateji mövqe və artan beynəlxalq nüfuzu Prezident İlham Əliyevin milli maraqlara əsaslanan ardıcıl və sistemli dövlət siyasətinin məntiqi nəticəsidir.

Bu yolda qarşıya çıxan geosiyasi riskləri, regional və qlobal çağırışları uğurla dəf edən Azərbaycan bu gün müəyyənləşdirdiyi strateji prioritetləri qətiyyət və siyasi iradə ilə gerçəkləşdirir. Dövlətimizin yeni strateji çağırışlarla zəngin xarici siyasət kursu beynəlxalq müstəvidə yüksək səviyyədə təqdir olunur.

Azərbaycanın Qoşulmama Hərəkatına (QH) sədrliyi COVID-19 pandemiyası dövrünə təsadüf etmişdi. Həmin mürəkkəb vaxtda ölkəmiz QH sədri qismində qlobal həmrəylik təşəbbüsləri irəli sürmüş və pandemiyadan çıxış yollarının kollektiv əməkdaşlıq əsasında müəyyənləşdirilməsini təklif etmişdi. Həmin vaxt ölkəmizin bu təşəbbüsləri üzv dövlətlər tərəfindən yekdilliklə dəstəklənmişdi.

Ötən ilin noyabrında Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanın müəyyənləşdirdiyi qlobal iqlim gündəliyi əsasında formalaşması və dünyanı narahat edən problemlərlə bağlı effektiv siyasi qərarların qəbul olunması ölkəmizin qlobal idarəetmə proseslərində artan rolunu vurğuladı.

Azərbaycanın ərazilərini öz gücünə bərpa etməsi, suverenliyini tam təmin etməsi hazırda müstəmləkə zülmündən əziyyət çəkən xalqlar üçün ümid yerinə çevrilib. Beynəlxalq platformalarda ölkəmizin XXI əsrdə hələ də həyata keçirilən neokolonial siyasətə qarşı apardığı mübarizə dünyada böyük rezonans doğurub.

Bu gün Azərbaycan türk dünyasının siyasi həmrəyliyinin lokomotivi, aparıcı gücü kimi çıxış edir. Prezident İlham Əliyev əsası Naxçıvanda qoyulan Türk Dövlətləri Təşkilatının (TDT) türkdilli dövlətlərin siyasi, iqtisadi, hərbi və digər sahələrdə əsas güc mənbəyinə çevrilməsinə böyük əhəmiyyət verir. 2024-cü il iyulun 6-da Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının qeyri-rəsmi Zirvə görüşündəki çıxışında da cənab Prezident bu strateji baxışını aydın ifadə etdi: "Türk Dövlətləri Təşkilatı dünya miqyasında güc mərkəzlərinin birinə çevrilməlidir. Biz böyük coğrafi məkanı əhatə edirik, üzv ölkələrdə müsbət demoqrafik dinamika müşahidə olunur, hərbi potensialımız döyüş meydanlarında özünü dəfələrlə göstərmişdir. Zəngin təbii resurslarımız, onların nəqli üçün müasir infrastruktur, Mərkəzi Asiyanı, Qafqazı Aralıq və Qara dəniz limanları ilə birləşdirən nəqliyyat dəhlizləri, zəngin və qədim tariximiz, mədəniyyətimiz bizim böyük sərvətimizdir. Xalqlarımızın ənənəvi dəyərlərə sadiqliyi və eyni etnik köklərə malik olmaları ölkələrimizi sıx birləşdirir. XXI əsr türk dünyasının inkişafı əsri olmalıdır".

Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü və uzaqgörən siyasət təkcə regional deyil, beynəlxalq səviyyədə müsbət proseslərə stimul verir. Çoxsəviyyəli əməkdaşlıq və inteqrasiya istiqamətində fəaliyyət göstərən ölkəmiz aktual qlobal problemlərin həllində fəal iştirak edir və bu sayədə dünya nizamındakı rolunu artırır.

Yerləşdiyi regionda dayanıqlı sülh, rifah və tərəqqi üçün yeni qapılar açan ölkənin lideri olaraq Prezident İlham Əliyevin ABŞ lideri Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak etməsi bu mənada təsadüfi xarakter daşımırdı.

Prezident İlham Əliyevin 13 oktyabr tarixində Misirdə keçirilən Yaxın Şərq Sülh Sammitində iştirak etməsi Azərbaycan rəhbərinin sülh missiyasına verilən yüksək dəyərin və qlobal diplomatiyada söz sahibi olmasının ifadəsi idi.

Respublikamızın təşəbbüsü ilə həyata keçirilən enerji və nəqliyyat layihələri beynəlxalq səviyyəli əhəmiyyət daşıyır. Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan zəngin qaz yataqları hesabına bu gün dünyanın 14 ölkəsinə təbii qaz ixrac edir ki, onlardan 8-i Avropa İttifaqına üzv ölkələrdir. Geostrateji mövqeyə sahib ölkəmiz hazırda investisiya axınları üçün cəlbedici ünvana çevrilib.

Azərbaycanın nəqliyyat habı kimi Şərqlə Qərb arasında körpü rolunu oynaması Orta dəhliz layihəsində fəal iştirakı və Zəngəzur dəhlizi perspektivi ilə daha da güclənir. Bu vacib amillər ölkəmizin Avrasiya məkanında logistika və tranzit mərkəzi statusunu daha da möhkəmləndirir.

Məqsədyönlü və uzaqgörən siyasət, müxtəlif dövlətlərlə balanslaşdırılmış siyasi-diplomatik əlaqələr, beynəlxalq təşəbbüslər, qlobal səylər hazırda Azərbaycanı dünyaya sabitlik, inkişaf ünvanı kimi təqdim edir. Bu isə onu ölkələrin əməkdaşlıq, ikitərəfli əlaqələr yaratmaqda maraqlı olduğu mərkəz halına gətirir.

*Bəli, Prezident İlham Əliyev respublikamıza rəhbərlik etdiyi 22 illik dövr ərzində Azərbaycanı sosial-iqtisadi, hərbi və digər sahələrdə elə bir inkişaf mərhələsinə çatdırıb ki, bu, xalqımıza davamlı qələbələr yaşadır.*

*Qüdrətli Azərbaycanın memarı Prezident İlham Əliyevin müəyyənləşdirdiyi uzunmüddətli strateji xətt bundan sonra da ölkəmizə yeni nailiyyətlər qazandıracaq.*

***Asif ƏSGƏROV,***
***Milli Məclisin deputatı***



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş siyasət, düzgün taktika

**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 1993-cü ildə ikinci dəfə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində əsaslı dönüş yarandı. Zəmanəmizin əbədiyaşar dahisi Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ölkəni ziddiyyətlər burulğanından xilas etdi, Azərbaycanda yeni iqtisadi strategiyanın əsası qoyuldu.**



# Sahibkarların hamisi, özəl sektorun dayağı

Ulu Öndərin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə respublikamız bütün sahələrdə özünün dinamik inkişafı ilə dünya birliyinin diqqət mərkəzində olmuş və bu şərəfli tarixin hər gün yeni, daha parlaq səhifələri yazılır. Bu illər ərzində iqtisadi baxımından Azərbaycan qədər sürətlə inkişaf edən az ölkələr olmuşdur.

Ötən illərdə ölkədə həyata keçirilən sosial-iqtisadi islahatların, infrastruktur layihələrinin səmərəli nəticələr verməsi, hər bir fərdin maraq və mənafelərini özündə əks etdirməsi dövlət başçısı İlham Əliyevin yüksək bilik və intellektə, təcrübə və istedada, geniş dünyagörüşünə, çevik idarəçilik məharətinə, yüksək əzmə, qətiyyətə malik lider olduğunu bir daha nümayiş etdirdi. Ümumilikdə geridə qalan 22 il Azərbaycan dövlətinin yüksəlişi və öz hədəflərinə yetişməsi üçün formalaşdırdığı böyük potensialın bütün əzəməti ilə reallığa çevrildiyi əlamətdar mərhələdir. Müdrik xalqımızın 22 il öncə inanıb taleyini etibar etdiyi İlham Əliyev həyata keçirdiyi qlobal layihələrlə Ümummilli Liderin zəngin dövlətçilik işində müəyyən olunmuş böyük amalları həyat gerçəklərinə çevirən qüdrətli siyasi xadim olduğunu təsdiqləmişdir. Dövlət başçısının yürütdüyü siyasətin məqsədyönlülüyü, ardıcıllığı, obyektiv gerçəkliyə əsaslanması bir sıra strateji sahələrdə əldə olunmuş uğurlar fonunda aydın görünür.

Hazırda Azərbaycan dövlətinin çoxəsrlik şanlı tarixinin ən parlaq intibah dövrünü yaşadığını qürurla söyləyə bilərik. Azərbaycanın müstəqillik dövrünün yarıdan çoxu Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi illərinə təsadüf edir. Bu gün dünya dövlətləri arasında ləyaqətlə ucalaraq sahibləndiyimiz mövqe hər bir azərbaycanlının qürur mənbəyidir.

Prezident İlham Əliyev hər yeni il üçün hökumətin həyata keçirməli olduğu tədbirlərin əhatə dairəsini və vaxtını dəqiq müəyyənləşdirməklə onların icra prosesini şəxsi nəzarətində saxlamış, habelə ölkənin strateji resurslarını milli inkişafa təkan verən qlobal layihələrin reallaşdırılması yönündə səfərbər etmişdir. Ölkə Prezidentinin xalqın mənafeyini daim uca tutmaqla həyata keçirdiyi iqtisadi siyasət strategiyasının uğurları, ilk növbədə makroiqtisadi göstəricilərdə öz əksini tapır.

Ötən dövr də Azərbaycanın iqtisadi inkişafında mühüm dövr kimi dəyərləndirilməlidir. Qazanılan iqtisadi uğurlar, əldə edilən nailiyyətlər hesabına ölkəmiz bütün sahələrdə inkişaf yolunu tutub.

2024-cü il prezident seçkilərində dövlət başçısı qarşıda dayanan vəzifələri, milli prioritetləri elan etdi. Prezident İlham Əliyevin andiçmə mərasimindəki çıxışı respublikamızın gələcəyinə olan konseptual baxış idi. O, çıxışında qeyd etdi ki, "Hər birimiz öz fəaliyyət sferamızda fəal olmalı, əməllərimizlə ölkədə həyata keçirilən siyasi kursa layiqli töhfələr verməliyik".

Uğurların əsası, əlbəttə ki, Azərbaycan iqtisadiyyatıdır.

Cari ilin iqtisadi göstəriciləri də iqtisadiyyatın sürətli inkişaf tempini bir daha təsdiq edir. Dövlət başçısının həyata keçirdiyi uğurlu siyasətin nəticəsidir ki, cari ilin yanvar-noyabr aylarında ölkədə 116 milyard 320,1 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,6 faiz çox ümumi daxili məhsul istehsal edilmiş, əlavə dəyər iqtisadiyyatın qeyri neft-qaz sektorunda 3,2 faiz artmış, əhalinin hər nəfərinə düşən ÜDM 10,4 min manata bərabər olmuşdur. Ümumilikdə 2025-ci ilin 11 ayında sənayenin qeyri-neft-qaz sektorunda məhsul istehsalı 4,8 faiz artmışdır ki, bu da ölkəmizdə sahibkarlığın sürətli inkişafının əyani göstəricisidir. Bu dövrdə ölkə üzrə muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 2024-cü ilin eyni dövrünə nisbətən 9,4 faiz artaraq 1086 manata, əhalinin ümumi gəlirləri isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,1 faiz artaraq 73,7 milyard manata çatmışdır.

Məlum olduğu kimi, 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilib. Bu il Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümüdür. Respublikamızın ali Qanununun müddəaları dövlətimizin müstəqilliyinin əsaslarını və xalqımızın iradəsini əks etdirərək ölkəmizin demokratik və hüquqi dövlət quruculuğu istiqamətində inamla irəliləməsi üçün zəmindir.

Konstitusiyamızda vətəndaşların əsas vəzifələrinə aid edilmiş mühüm müddəalardan biri olan "Azad sahibkarlıq hüququ" onun 59-cü maddəsində əks olunub: "Hər kəs öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər. Dövlət sahibkarlıq sahəsində yalnız dövlət maraqlarının, insan həyatının və sağlamlığının müdafiəsi ilə bağlı tənzimləməni həyata keçirir". Konstitusiyamızda azad sahibkarlığa dair müəyyən edilmiş bu müddəa ölkəmizin iqtisadi inkişafı yolunda möhkəm təməl yaradır. Dövlət proqramlarının, fərman və sərəncamların icrası ölkədə gedən iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin edir.

Azərbaycanın 2030-cu ilədək Milli Prioritetlərində və 2022-2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyasında qarşıya qoyulan nəticələrə və sağlam prinsiplərə əsaslanmaqla gələcəkdə qeyri-neft iqtisadiyyatını daha da inkişaf etdirmək, insan kapitalının inkişafı nəticəsində dünya iqtisadiyyatında ölkənin mövqeyini gücləndirmək, daha yuxarı gəlirli ölkələr qrupuna daxil olmaq hədəflənir.

Biznes mühitinin yaxşılaşdırılması və qeyri-neft sektorunda sahibkarlığın inkişaf etdirilməsi sahəsində görülən tədbirlər nəticəsində ölkəmizdə iqtisadi aktivliyin bərpası sahibkarlıq subyektlərinin, buna uyğun şəkildə yeni iş yerlərinin artımı ilə müşayiət olunur.

İqtisadi artım işgüzar aktivliyin və sahibkarların sayının ildən-ilə artması ilə nəticələnir. İqtisadiyyat Nazirliyinin məlumatına görə, 2019-cu il yanvarın 1-i ilə müqayisədə 2025-ci il noyabrın 1-i tarixinə ölkədə aktiv vergi ödəyicilərinin sayı 2 dəfə artaraq 845 min nəfərdən çox olmuşdur. İndiyədək iqtisadiyyata güzəştli kredit dəstəyi çərçivəsində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən sahibkarlıq subyektlərinin 54,8 min investisiya layihəsinin maliyyələşdirilməsinə 3,4 milyard manat güzəştli kreditlər verilmişdir. Fond tərəfindən 2025-ci ilin on ayı ərzində müvəkkil kredit təşkilatları vasitəsilə 5355 layihənin maliyyələşdirilməsinə 290.4 milyon manat, yəni ötən ilin müvafiq dövrü ilə müqayisədə məbləğ hesabı ilə 54 faiz çox güzəştli kredit verilmişdir ki, maliyyələşdirilmiş layihələr hesabına 4 minə yaxın yeni iş yerinin açılması imkanı yaranmışdır.

Azərbaycanda sahibkarlığın inkişafı regional iqtisadi siyasətin ən mühüm elementlərindən birinə çevrilməkdədir. Regionların yeni siyasi-iqtisadi reallığından söz açarkən ilk növbədə 2004-cü ildən bu günədək ölkədə həyata keçirilən regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurla icrası yada düşür. Ötən illər ərzində şəhər və rayonlarda, kəndlərdə, qəsəbələrdə infrastruktur layihələri uğurla gerçəkləşib, ölkə vətəndaşlarının həyat tərzinin yaxşılaşdırılması məqsədilə ardıcıl tədbirlər görülmüş və hazırda inkişafa hesablanmış belə layihələrin miqyası genişləndirilməkdədir.

Azərbaycanda gedən sürətli iqtisadi inkişaf dünya reytinq təşkilatları tərəfindən yüksək qiymətləndirilir. Belə ki, cari ildə "Moody's Ratings" beynəlxalq reytinq agentliyi Azərbaycan Respublikasının suveren kredit reytinqini "Ba1" səviyyəsindən "Baa3" səviyyəsinə (investisiya səviyyəsi) yüksəldərək reytinq üzrə proqnozu "müsbət" saxlayıb. Aparıcı üç beynəlxalq kredit reytinq agentliyindən biri olan "Moody's Ratings" agentliyinin yaydığı məlumatda qeyd olunur ki, yeni reytinq üzrə müsbət proqnoz ölkədə davam etdirilən islahatların fonunda iqtisadiyyatın və fiskal sahənin neft-qaz sektorundan asılılıq gözləntilərinin azalmasını əks etdirir.

Cari ilin iyul ayında Xankəndi və Şuşa şəhərlərində keçirilmiş III Şuşa Qlobal Media Forumu 52 ölkədən 140 qonağı, 30-a yaxın informasiya agentliyinin və 80 media qurumunun nümayəndələrini bir araya gətirdi. Forum Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun və strateji mövqeyinin əyani göstəricisidir. Dünya mediasının yaxından izlədiyi, böyük diqqətlə yanaşdığı və geniş yayımladığı III Şuşa Qlobal Media Forumu Azərbaycan dövlətinin və Prezident İlham Əliyevin simasında ədalətin təntənəsi, haqqımızın səsidir.

Qarabağın işğaldan azad olunmasından sonra aparılan infrastruktur quruculuğu layihələrindən olan hava limanları nəinki iqtisadi nöqteyi-nəzərdən, həm də geosiyasi və geoiqtisadi baxımdan region ölkələri arasında Azərbaycanın nüfuzunu artırıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan regionda yaranmış yeni reallıqlara uyğun əməkdaşlıq təkliflərinə hər zaman açıq ölkə olduğunu təsdiqləmişdir.

Bu il aprelin 23-də Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri zamanı "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" imzalanmışdır ki, bu bəyanatda iki ölkə arasında ticarət, investisiyalar, "yaşıl enerji" və rəqəmsal iqtisadiyyat sahələrində qarşılıqlı fəaliyyətin gücləndirilməsi məqsədilə investisiya əməkdaşlığı üzrə işçi qrupun yaradılması barədə qərar qəbul olunması nəzərdə tutulmuşdur.

Azərbaycan Sahibkarlar Konfederasiyası ölkə Prezidentinin rəhbərliyi ilə imzalanmış bu bəyanatın müddəalarını əsas götürərək son dövrlərdə sahibkarlığın inkişafı üçün Çin Xalq Respublikasında olan həmkarları ilə birgə bir sıra əhəmiyyətli tədbirlərin görülməsini planlaşdırır.

Cari il noyabrın 15-də Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirak etmək üçün Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistana səfəri zamanı həmin ölkənin Milli İnformasiya Agentliyinə verdiyi müsahibədə bir daha qeyd etdi ki, Azərbaycan və Özbəkistan qarşılıqlı əlaqəni genişləndirmək üçün əhəmiyyətli səylər göstərir, yeni layihələr irəli sürür və birgə təşəbbüslərin həyata keçirilməsinə xüsusi əhəmiyyət verir. Bu gün Azərbaycanda təxminən 120 Özbəkistan investisiyalı kommersiya təşkilatı qeydiyyatdan keçib və iqtisadiyyatın müxtəlif istiqamətlərində fəaliyyət göstərir.

Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlığa dair Hökumətlərarası Komissiyanın iqtisadi əlaqələrin inkişafı və perspektivli işbirliyi istiqamətlərinin müəyyənləşdirilməsi sahəsindəki aktiv fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Artıq mütəmadi olaraq keçirilən Azərbaycan-Özbəkistan Regional Forumu bu istiqamətdə əməkdaşlığın təşviqi üçün səmərəli platformadır.

Ümumiyyətlə, iki ölkə arasında iqtisadi münasibətlərin daha da inkişafı üçün bu günədək etibarlı hüquqi baza yaradan təxminən 200 sənəd imzalanmışdır. Azərbaycan Sahibkarlar Konfederasiyası üzv təşkilatları ilə birlikdə Azərbaycan-Özbəkistan Regional forumlarında yaxından iştirak edərək, qarşılıqlı faydalı əməkdaşlıq şəraitində bir sıra əhəmiyyətli müqavilələrə imza atmışlar.

Özbəkistan Azərbaycanın ərazi bütövlüyünü dəyişməz olaraq dəstəkləmiş, Qarabağın bərpasına verdiyi töhfə - azad edilmiş Füzulidə böyük özbək alimi Mirzə Uluqbəyin adını daşıyan və hazırda təxminən 600 şagirdin təhsil aldığı məktəbin tikintisi iki ölkə arasında olan sarsılmaz qardaşlığın təzahürüdür.

Son illər Azərbaycanda bütün addımlar post-müharibə dövrünün yeni reallıqlarına uyğun atıldı. Vətən müharibəsindəki böyük Zəfərdən sonra Qarabağ və Şərqi Zəngəzurun minalardan təmizlənməsi, yenidənqurma, tikinti-quruculuq işlərinin başlanması qarşıda duran ən prioritet məsələlər idi. Azərbaycan heç kimdən yardım almadan bu missiyanı da uğurla icra etməyə başladı. Belə ki, işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına inteqrasiyası uğurla həyata keçirilir. Bölgənin bərpa-quruculuq işlərinə infrastruktur layihələrindən başlanılıb və bu, təsadüfi deyil. Çünki mükəmməl infrastruktur yaratmadan iqtisadiyyatın bərpası və insanların məskunlaşması mümkün deyil. Odur ki, indiyədək yüz kilometrlərlə avtomobil yolunun çəkilməsi istiqamətində xeyli iş görülüb. Tarixi "Zəfər" yolunun çəkilməsi təkcə infrastruktur layihəsi deyil, şanlı qələbəmizə qoyulan abidədir.

Ölkə Prezidenti və Birinci vitse-prezident mütəmadi olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələrə şəxsən nəzarət edir, müxtəlif yeni obyektlərin təməlini qoyur, hazır olan infrastruktur obyektlərinin açılışını edir. Prezident işğaldan azad olunmuş rayonlara səfəri zamanı öz çıxışlarında iş adamlarına müraciət edərək onları bu ərazilərə sərmayə qoymağa çağırır. Çıxışlarının birində qeyd etdi ki, "Mən çox şadam ki, Azərbaycan sahibkarları böyük həvəslə, ürəklə bu işlərə qoşulurlar".

Azərbaycan Sahibkarlar Konfederasiyası Prezident İlham Əliyevin bu çağırışını dəstəkləyir və ona görə də iqtisadi siyasətimizin istiqamətlərini nəzərə alaraq azad edilmiş torpaqlarda sahibkarlığın inkişafı Böyük qayıdışın həyata keçirilməsinə öz töhfəsini verir.

Azərbaycan sahibkarları əmindirlər ki, birgə səylərimiz nəticəsində tez bir zamanda Qarabağımızı yenidən dirçəldəcək. İnsanların öz doğma yurdlarına dönməsinə nail olunacaq. Bu sahədə dövlətlə özəl sektor arasında dialoqun, əməkdaşlığın olması da xüsusi əhəmiyyət kəsb edir. Beş il ərzində icra olunan layihələrə diqqət yetirdikdə əminliklə deyə bilərik ki, Qarabağ tezliklə Azərbaycanın deyil, dünyanın ən gözəl guşələrindən biri olacaq. Ona görə ki, burada bərpa-quruculuq işləri müasir dünya standartlarına uyğun icra edilir. Məsələn, "ağıllı kənd" və "ağıllı şəhər" layihələri insanların ətraf mühitə ziyan vurmadan yaşamasına hesablanmışdır.

Son illərdə görülən işlər və nəticələr bu gün deməyə əsas verir ki, Azərbaycan dünyaya özünün uğurlu inkişaf modelini təqdim edə bilmiş və qısa zaman kəsiyində ölkəmizdə, sözün əsl mənasında, inqilabi yeniləşmə və tərəqqiyə nail olunmuşdur.

Prezident İlham Əliyevin yeni inkişaf konsepsiyasına uyğun olaraq həyata keçirilən siyasət ölkədə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirdi. Dövlət başçısının söylədiyi kimi, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir.

Təsadüfi deyil ki, dövlət və özəl sektor arasında səmərəli tərəfdaşlığın keyfiyyətcə növbəti mərhələyə yüksəldilməsi və risklərin, məsuliyyətin dövlət və özəl sektor arasında optimal paylaşdırılması müasir dünyanın ən mühüm çağırışlarından biridir. Bu, dayanıqlı inkişaf üçün mühüm alətlərdən hesab olunur və əsas məqsədi müvafiq investisiya mühitinin təkmilləşdirilməsi yolu ilə bu sahədə beynəlxalq investisiyaların ölkəmizə axınının stimullaşdırılmasından ibarətdir.

Bu hədəflərə nail olunmasında isə özəl sektorun üzərinə böyük məsuliyyət və öhdəliklər düşür. Azərbaycan Sahibkarlar Konfederasiyası bu missiyanı uğurla icra etməkdə biznesə dəstək verməyə hazırdır. Bu gün hər bir sahibkar anlayır ki, Azərbaycanın tərəqqisi və gələcək inkişafı üçün həyata keçirilən genişmiqyaslı tədbirlər davam etdirilməli və onlar bir sahibkar olaraq bu işdə yaxından yardımçı olmalıdırlar. Bütün müharibə dövründə ölkə başçısının ətrafında sıx birləşərək "dəmir yumruğ"un bir parçası olmağı bacarmış Azərbaycan sahibkarları Qarabağın yenidən firavanlığına qovuşması, işğaldan azad olunmuş torpaqların iqtisadi cəhətdən dirçəlməsi naminə səylərini daha da gücləndirirlər.

Azərbaycan sahibkarları Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sahibkarlığın inkişafına verdiyi töhfəni yüksək dəyərləndirirlər. Belə ki, son illərdə ölkədə qadın sahibkarların sayı əhəmiyyətli dərəcədə artmışdır ki, bu işdə Mehriban xanımın rolu danılmazdır. Ölkədə qadınların əmək bazarında kişilərlə bərabərhüquqlu iştirakına imkan yaradılması onların idarəetmə, biznes və hakimiyyət strukturlarında daha geniş təmsil olunması ilə nəticələnir.

Hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın hərtərəfli inkişafında yeni mərhələ yaşanır. Dövlət proqramlarının, fərman və sərəncamların icrası ölkədə gedən iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin edir, tərəqqi prosesində özəl sektorun payını və rolunu artırmaqla sahibkarlığın inkişafına güclü təkan verir.

Konfederasiya tərəfindən mütəmadi olaraq "yaşıl iqtisadiyyat"a keçid zamanı iş yerlərinin ədalətli şəkildə bölüşdürülməsi, "yaşıl bacarıq"ların inkişaf etdirilməsi, bu sahədə işəgötürənlərin məsuliyyəti mövzularında müzakirələr aparılaraq, gələcəkdə görüləcək işlərlə bağlı təkliflər hazırlanmışdır.

Post-neft iqtisadiyyatının qurulması, idxaldan asılılığın azaldılması, ölkənin ixrac potensialının yüksəldilməsi üçün rəqabətqabiliyyətli mal və məhsulların istehsal olunması məqsədilə hökumət sahibkarlar üçün böyük imkanlar yaradıb. Ölkədə qeyri-neft sektorunun, xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində mühüm işlər görülür. Əldə edilmiş uğurların davamlılığının təmin olunması sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsini, sahibkarlara, xüsusilə də kiçik və orta sahibkarlara göstərilən texniki, maliyyə, hüquqi, metodiki və digər xidmətlərin əhatə dairəsinin genişləndirilməsini, keyfiyyət səviyyəsinin daha da artırılmasını zəruri edir, bu sahədə institusional yanaşmanı şərtləndirir. Bununla bağlı, Azərbaycan Sahibkarlar Konfederasiyası İqtisadiyyat Nazirliyi və onun tabeliyində olan qurumlarla əməkdaşlıq edərək, son illər bir sıra yerli və beynəlxalq tədbirlərin təşkilində yaxından iştirak etmişdir. Həmin tədbirlərdə yerli və xarici şirkətlərin nümayəndələri iştirak etmişlər ki, bu da özəl sektorda sağlam qüvvələrin birləşməsinə əsaslı zəmin yaradır.

Konfederasiya İqtisadiyyat Nazirliyi ilə birlikdə sahibkarlara göstərilən xidmətlərin əhatə dairəsini genişləndirməklə günün tələblərinə cavab verən mövzular üzrə treninqlər, seminarlar, konfranslar keçirir və sahibkarların hüquqlarının qorunması istiqamətində mütəmadi olaraq iş apararaq, bu sahədə öz qüvvə və imkanlarını səfərbər etmişdir.

Azərbaycan Sahibkarlar Konfederasiyası Azərbaycan hökuməti və Azərbaycan Həmkarlar Konfederasiyası ilə birlikdə sosial dialoqun bərabərhüquqlu subyektləri kimi kollektiv müqavilə və sazişlərin bağlanması, onlara əlavə və dəyişikliklərin edilməsi və icrasının təmini, bir sıra əmək və sosial iqtisadi məsələlərin həlli istiqamətində birgə iş aparır.

Nazirlər Kabineti, Həmkarlar İttifaqları Konfederasiyası və Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında 2023-2025-ci illər üçün sosial əmək münasibətləri üzrə razılaşdırılmış mövqelərini və birgə fəaliyyətlərini müəyyən edən Baş Kollektiv Saziş imzalanmışdır. 2026-2028-ci illər üzrə Baş Kollektiv Sazişin imzalanması da nəzərdə tutulur. Konfederasiya Baş Kollektiv Sazişin tərəfdaşı kimi sosial dialoq məsələlərinə önəm verir, yalnız sahibkarlara dəstək verməklə kifayətlənmir, müvafiq dövlət qurumları, həmkarlar ittifaqları ilə əməkdaşlıq çərçivəsində ölkədə əmək münasibətlərinin tənzimlənməsində fəal iştirak edir.

Azərbaycan Sahibkarlar Konfederasiyası bir çox ölkələrin sahibkarlıq təşkilatları, xarici ölkələrin Azərbaycandakı və Azərbaycanın xaricdəki səfirlikləri, Dünya Bankı, Avropa İttifaqının komissiya və təşkilatları, eləcə də digər beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlıq edərək yerli iş adamlarına Azərbaycanda və ölkə hüdudlarından kənarda tərəfdaşlar tapmaqda və investisiya imkanlarını araşdırmaqda köməklik göstərir. Bu istiqamətdə Konfederasiyanın İtaliya, Çin, Türkiyə, Özbəkistandakı tərəfdaşları ilə birlikdə fəaliyyəti xüsusilə seçilir. Türkiyənin ən nüfuzlu sənayeçilərinin birləşdiyi İstanbul Sənaye Palatası ilə birlikdə Bakıda keçirilən B2B görüşlər ilin ən böyük tədbirlərindən biri olmaqla Azərbaycanda sənayenin inkişafı baxımından investisiya imkanlarına yeni bir baxış sərgiləmişdir.

Azərbaycan Respublikasının İqtisadi Şurasının Sahibkarlıq fəaliyyətinə mane və çətinliklərin aradan qaldırılması, habelə Biznes mühitinin yaxşılaşdırılması üzrə İşçi Qrupunun üzvü kimi Azərbaycan Sahibkarlar Konfederasiyası səmərəli fəaliyyət göstərir, ölkədə sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması məqsədilə müxtəlif sektorlar üzrə təkliflər paketinin hazırlanmasında yaxından iştirak edir. Həmçinin müvafiq dövlət strukturları ilə birlikdə yaradılmış ikitərəfli Əməkdaşlıq Şuralarında sahibkarlığa aid məsələlərin çevik həll yollarının tapılması üçün faydalı dialoq platformasını həyata keçirir. Dövlət Vergi Xidməti, Dövlət Gömrük Komitəsi, Antiinhisar və İstehlak Bazarlarına Nəzarət Dövlət Agentliyi ilə baş tutan görüşlər dövlət-özəl dialoqunun ən yaxşı nümunələrindəndir.

Qeyd etmək istərdik ki, üzümüzə gələn 2026-cı ildə də Konfederasiya tərəfindən bir sıra vacib tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur.

Bütün dünyada iqtisadi inkişafın zəifləməsinə baxmayaraq, Azərbaycan rəhbərliyi 2026-cı il üçün iqtisadi inkişaf hədəflərini açıqlamış və gələcəkdə ölkə iqtisadiyyatını inkişaf etdirməklə, Qarabağ və Şərqi Zəngəzur torpaqlarını yenidən dirçəltmək kimi məqsədlərin dayandığını bildirmişdir. Azərbaycan sahibkarları işğaldan azad olunmuş torpaqların iqtisadi cəhətdən dirçəlməsi naminə səylərini daha da gücləndirirlər. Bu məqsədlə Azərbaycan Sahibkarlar Konfederasiyası da öz növbəsində üzv olduğu beynəlxalq təşkilatlar, xaricdə yaşayan azərbaycanlı iş adamları, eləcə də milli sahibkarlarımızın potensial imkanlarından istifadə etmək məqsədilə mütəmadi olaraq iş aparır.

Son illərin reallıqları təsdiqləyir ki, Prezident İlham Əliyev Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində Azərbaycan dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi qarşıya qoyan və bütün gücünü bu istiqamətdə səfərbər edən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi Liderdir.

*Bir ölkənin Prezidenti, bir xalqın lideri olmaq böyük şərəfdir. Lakin xalqın sevimlisi olmaq, onun hörmət və ehtiramını qazanmaq daha böyük bəxtəvərlikdir. İlham Əliyev xoşbəxt insandır ki, Azərbaycanın yeni, şanlı tarixinin müəllifi, xalqımızın bitib-tükənmək bilməyən qürur və iftixarıdır.*

***Məmməd MUSAYEV,***
***Azərbaycan Respublikası Sahibkarlar (işəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti***



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş siyasət, düzgün taktika



# Dəyəri bilikdən önə çıxaran təhsil: İlham Əliyev modeli

**Dəyərlər hər bir xalqın mədəniyyətinin, tarixi yaddaşının və milli kimliyinin əsas dayağıdır. Təhsil isə bu dəyərlərin cəmiyyətə ötürülməsi, qorunması və inkişaf etdirilməsi üçün mühüm sosial institutdur. Müasir qlobal dəyişikliklər, rəqəmsallaşma, informasiya məkanının genişlənməsi, texnologiyaların həyatın bütün sahələrinə nüfuz etməsi dəyərlərin transformasiyasını sürətləndirir və bu proses ali təhsil sistemindən yeni adaptasiya mexanizmləri tələb edir. Azərbaycan kimi həm qədim mədəniyyətə malik, həm də sürətli modernləşmə həyata keçirən dövlətlər üçün dəyərlərin təhsildə rolu daha da əhəmiyyətlənir.**

Təhsil tarix boyu cəmiyyətin mədəni yaddaşını saxlayan və gələcək nəsillərə ötürən ən mühüm institutlardan biri olmuşdur. Başqa sözlə, təhsil - yalnız bilik deyil, dəyər daşıyıcısıdır. Təhsil cəmiyyətin dəyərlər sisteminin formalaşmasında sosial funksiya (fərdin cəmiyyətə sosial inteqrasiyasını təmin edir), mədəni funksiya (milli-mədəni dəyərlərin ötürülməsi və qorunmasını reallaşdırır), həm də etik-fəlsəfi funksiya (insanın mənəvi dünyasının formalaşmasına təsir edir) kimi üç əsas funksiyanı yerinə yetirir. Bu, xüsusilə ali təhsil üçün aktualdır.

Həm də qeyd edilməlidir ki, təhsil yalnız bilik ötürmə vasitəsi deyil. O, eyni zamanda cəmiyyətin sosiallaşması, mədəniyyətin qorunması, etik-mənəvi normaların, vətənpərvərlik və milli kimliyin formalaşması üçün mühüm mexanizmdir. Xüsusən ali təhsildə dərin elmi biliklə yanaşı, cəmiyyətin gələcək intellektual və vətənpərvər mütəxəssisləri formalaşır. Başqa sözlə, universitet həm də şəxsiyyətin, dünyagörüşünün, dəyərlərin yetişdirildiyi məkandır.

Dəyərlərin təhsilə inteqrasiyası cəmiyyətdə sosial həmrəyliyi və milli-mənəvi dayanıqlılığı təmin edir və bütün təhsil prosesini - kurikulumdan tutmuş müəllim-tələbə münasibətlərinə, akademik etikadan tutmuş mədəni-sosial mühitə qədər əhatə edir.

### Heydər Əliyev və təhsildə dəyərlərin önəmi

Ulu Öndər Heydər Əliyev təhsili millətin gələcəyinin təminatçısı hesab etmiş və müasir Azərbaycan dövlətinin inkişaf strategiyasını qurarkən ali təhsili yalnız kadr hazırlığı sahəsi kimi deyil, həm də milli-mənəvi dayanıqlığın strateji sütunu kimi müəyyənləşdirmişdir.

Onun üçün təhsil həm də milli kimliyin əsas dayağı idi. Heydər Əliyev savadlı, vətənpərvər və milli ruhlu gənclərin yetişdirilməsinin vacibliyini önə çəkirdi, universitetləri yalnız təhsil müəssisəsi elm-mədəniyyətin mərkəzi kimi də görürdü.

O, hər zaman qeyd edirdi ki, hər xalqın öz adət-ənənəsi, milli-mənəvi və dini dəyərləri var və azərbaycanlılar bunlarla fəxr edirlər.

Hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Milli-mənəvi dəyərlər və azərbaycançılıq - bu sözləri hər bir Azərbaycan vətəndaşı üçün doğma, əziz və müqəddəs hesab edən Ulu Öndər həm də milli ruhun, milli şüurun simvolu olaraq, tarixi yaddaşın fundamental prinsiplər əsasında formalaşması kimi dəyərləndirir. Keçmişin bütün buxovlarından azad olduqdan sonra Azərbaycanda əlindən zorla alınmış milli-mənəvi dəyərlərin, milli özünüdərkin formalaşmasına yeni zəmin yarandı. Azərbaycan xalqının həmin dəyərlər uğrunda canından belə keçməyə hazır olmasını Ümummilli Lider Heydər Əliyev xalqımızın milli dəyərlərə sadiqliyinin nümunəsi hesab etmişdir. Müasirliyin əhəmiyyətini azaltmayan Heydər Əliyev ümumbəşəri dəyərlərlə milli-mənəvi dəyərlərin vəhdətini azərbaycanlıların milli ideologiyasının bu günü və gələcəyi kimi görürdü.

Ulu Öndər Heydər Əliyevin təhsil siyasəti Azərbaycan cəmiyyətində yuxarıda qeyd edilmiş dəyərlərin qorunması və inkişaf etdirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Onun təhsillə bağlı fikirlərində bir neçə mühüm xətt xüsusilə seçilir:

1. Təhsil milli kimliyin əsas qoruyucusudur.

2. Ali təhsil milli kadrların formalaşması və dövlətin inkişafı üçün strateji sahədir.

3. Universitet mühiti milli-mənəvi dəyərlərin mərkəzidir.

4. Təhsilin keyfiyyəti dövlətin gələcəyini müəyyən edir.

Bir sözlə, Heydər Əliyevin qənaətinə görə, "təhsil millətin gələcəyidir" və hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməli, Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıdır.

### Prezident İlham Əliyev: modernləşmə və milli dəyərlərin sintezi

Hal-hazırda İlham Əliyevin təhsil siyasətində də Heydər Əliyevin təhsil strategiyası davam etdirilir, ali təhsilin modernləşdirilməsi, beynəlxalq inteqrasiya və eyni zamanda milli-mənəvi dəyərlərin qorunması daim diqqətdə saxlanılır.

Ölkəmizdə təhsil islahatları, beynəlmiləlləşmə siyasəti, universitet mühiti, innovasiya və elm sahəsində görülən işlər Azərbaycan ali təhsil sisteminin həm qlobal, həm də milli dəyərlərə söykənən modern modelini formalaşdırmaqdadır. Prezident İlham Əliyevin BDU-nun 100 illik yubileyindəki çıxışı təhsildə dəyərlər məcəlləsi kimi xarakterizə edilə bilər: "Azərbaycan gəncləri vətənpərvərdir, Vətəni sevəndirlər, Vətənə bağlıdırlar. Müəllimlər tələbələrə nəinki biliklər verməlidirlər, onları tərbiyə də etməlidirlər. Ümumiyyətlə, Azərbaycanda tərbiyə işi yeni müstəviyə qalxmalıdır, biz ideoloji işə yenidən baxmalıyıq, burada zəifliklər, boşluqlar var. Bizi istəməyən qüvvələr, o cümlədən erməni lobbi qurumları tərəfindən maliyyələşən qurumlar bu boşluqlardan istifadə edirlər, xüsusilə bu gün ki, azad internet mövcuddur.

Gənclər vətənpərvər olmalıdırlar. Bu, yoxdursa, ölkəmizin gələcəyi olmayacaq. Bu olmasa, nə vaxtsa yenə də kiminsə təsiri altına düşüb yenə də müstəqillik arzuları ilə yaşayacağıq.

Ona görə gənclərdə vətənpərvərlik çox güclü olmalıdır. Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir - bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq. Elə olmalıdır ki, Azərbaycanın dövlət müstəqilliyi güclənsin".

Azərbaycan Gəncləri Gününə həsr olunmuş 1 fevral 2019-cu il tarixdə respublika toplantısında çıxışında da İlham Əliyev dəyərləri bir daha önə çəkmişdi: "Əsrlər boyu bizim xalqımız başqa dövlətlərin, imperiyaların tərkibində yaşamışdır. Ancaq biz milli mənsubiyyətimizi, adət-ənənələrimizi qorumuşuq. Nəyə görə?! Ona görə ki, biz həmişə öz dəyərlərimizə bağlı olmuşuq və bugünkü gənclər daim bu məsələyə çox böyük diqqət yetirsinlər. Azərbaycan dəyərləri bizim üçün ən başlıca dəyərlərdir. Bizi bir xalq kimi, millət kimi qoruyan, əsrlər boyu assimilyasiyadan qoruyan məhz bizim dəyərlərimiz, ana dilimiz, mədəniyyətimiz, ədəbiyyatımız, incəsənətimiz olubdur. Azərbaycan gəncləri mütləq milli ruhda tərbiyə almalıdırlar ki, gələcəkdə dövlət maraqlarını, xalqımızın milli maraqlarını layiqincə qoruya bilsinlər. Hesab edirəm ki, bu iki əsas amil hər bir gənc üçün çox vacibdir".

27 iyul 2020-də Prezident İlham Əliyev Emin Əmrullayevi təhsil naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul etdiyi zaman çıxışında təhsildə dəyərlərə xüsusi diqqət ayıraraq qeyd etmişdi ki, "Mən çox şadam ki, Azərbaycan cəmiyyəti əsrlər boyu ailə dəyərlərini qoruyub saxlaya bilib. Ailədə verilən tərbiyə xalqımızın gələcəyini də təmin edəcəkdir. Ancaq bununla paralel olaraq, bizim həm orta, həm də ali məktəblərdə tərbiyə işinə yüksək, böyük diqqət verilməlidir. Bizim gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə olunmalı, Vətənə bağlı olmalıdırlar, Vətəni sevməlidirlər. Xüsusilə bu gün hər bir vətənpərvər Azərbaycan vətəndaşı öz Vətəni ilə fəxr edə bilər. Azərbaycan bu gün istənilən sahədə böyük uğurlar əldə edib".

Gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi xüsusi əhəmiyyət daşıyır. Çünki sirr deyil ki, bəzi xarici dairələr gənclərimizin beyinlərini zəhərləmək, onlara xalqımıza yad olan dəyərləri aşılamaq istəyirlər. Buna qətiyyən yol verməmək olmaz. Azərbaycan gənci Azərbaycan dəyərləri, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdır, Vətənə bağlı olmalıdır, Azərbaycan dəyərlərini hər şeydən üstün tutmalıdır, öz tarixini, ədəbiyyatını, ana dilini mükəmməl bilməlidir, fəxr etməlidir ki, Azərbaycan vətəndaşıdır. Ona görə bu məsələyə çox böyük diqqət yetirilməlidir. Müasir, vətənpərvər və mənəvi cəhətdən sağlam yeni nəsil ölkəmizin gələcəyini müəyyən edəcək. Ölkəmizin müstəqilliyi, firavanlığı onlardan asılı olacaq. Onlar milli maraqları bizim qədər, heç nəyə baxmadan müdafiə etməlidirlər. Heç bir təzyiqə, hədə-qorxuya, əsassız ittihamlara baxmayaraq, Vətən məhəbbəti və milli dəyərlər onlar üçün hər şeydən üstün olmalıdır. Amma buna nail olmaq üçün onlar milli ruhda tərbiyə almalıdırlar.

Prezident İlham Əliyev müasir dövrün çağırışlarını nəzərə alaraq təhsilin modernləşdirilməsi, rəqəmsal transformasiya, beynəlmiləlləşmə, innovasiya siyasətini formalaşdırmışdır. Bu siyasətin mərkəzində aşağıdakı dəyərlər dayanır:

* milli maraqlar və dövlətçilik ideyası;
* elmi-texnoloji inkişaf;
* tolerantlıq, multikulturalizm, humanizm;
* gənclərin mütərəqqi düşüncə tərzinin formalaşması.

Başqa sözlə, təhsilin qarşısında duran əsas vəzifə müasir Azərbaycan gəncini həm milli dəyərlərə bağlı, həm də qlobal rəqabətə hazır bir şəxsiyyət kimi formalaşdırmaqdır.

### Mehriban Əliyeva: dəyərlərin qoruyucusu

Ailə dəyərlərini, milli-mənəvi dəyərləri və mədəniyyəti Azərbaycan xalqını qoruyan amillər kimi səciyyələndirən Mehriban xanım Əliyeva mərhəməti, xeyirxahlığı, dürüstlüyü müasir cəmiyyətin dayağı kimi qiymətləndirir, Azərbaycanın milli mədəni irsinin qorunmasına diqqətlə yanaşmağı tövsiyə edir.

Mehriban xanım Əliyevanın prezidenti olduğu Heydər Əliyev Fondu yarandığı ilk gündən qarşısına çox mühüm vəzifələr qoymuşdur. Sosial problemlərin həlli, cəmiyyətimizin ən zəif təbəqələrinə yardımla yanaşı, tarixi, mədəni, mənəvi irsimizin qorunub saxlanılması, ona dərin hörmətlə yanaşma fondun ən vacib məqsədlərindən biridir.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təhsil, mədəniyyət və humanitar sahələrdə fəaliyyəti dəyərlərin qorunması baxımından da xüsusi əhəmiyyət daşıyır:

* milli-mədəni irsimiz beynəlxalq səviyyədə tanıdılır;
* mədəniyyət və təhsil layihələri genişləndirilir;
* humanizm və sosial məsuliyyət ideyalarını təşviq edir;
* gənclər arasında tolerantlıq və mədəni irsin dəyəri haqqında geniş maarifləndirmə həyata keçirilir.

Təhsildə dəyərlərin rolunun artırılması ilə bağlı tövsiyələrin sistemli şəkildə reallaşdırılması işinə Mikayıl Cabbarovun təhsil naziri olduğu dövrdə başlanmışdır. O qeyd edirdi ki, təhsilin dəyərinin qaldırılması, cəmiyyətdə təhsilə həm bilik, həm də dəyər və keyfiyyət baxımından düzgün münasibətin qurulması əsas məsələdir. Ali təhsil sistemində dəyərlərin əhəmiyyəti təhsilin sosial statusunun yüksəldilməsi, tədrisdə keyfiyyət və dürüstlük mədəniyyətinin gücləndirilməsi, tələbə və müəllimin mədəni-intellektual inkişafı üçün şəraitin genişləndirilməsi kimi vurğulanırdı.

Beləliklə, ali təhsildə dəyərlərin həm struktur, həm mühit, həm də idarəetmə səviyyəsində inteqrasiya olunmasının əhəmiyyəti aydın görünür və ali təhsil yalnız bilik verən müəssisə deyil, milli kimliyin, mədəniyyətin, vətənpərvərliyin, etik-mənəvi dəyərlərin qorunub inkişaf etdirildiyi strateji platformadır.

Aparıcı xarici universitetlərin təcrübəsi də göstərir ki, dəyərlər təhsilin ayrı-ayrı elementi deyil - ali təhsil sisteminin struktur komponentidir. Belə universitetlərdə təhsil alan tələbələr təkcə "peşəkar bilik" deyil, həm də "əxlaqi və sosial məsuliyyət" sahibi kimi formalaşırlar. Bu da ali təhsilin dünyagörüşü, etik baxış, mədəni anlayış kimi funksiyalarını gücləndirir. Qeyd etmək yerinə düşər ki, belə universitetlər mövcuddur və Cənubi Koreya, Yaponiya və Sinqapur universitetləri ənənəvi dəyərlərlə yüksək texnologiyanın birləşdirilməsi nəticəsində xüsusilə böyük uğur qazanıblar.

Dəyərlərin ali təhsilə inteqrasiyası zəruridir və bunun əsas istiqamətləri kimi kurrikuluma inteqrasiyanı (fənlərin məzmununda etik, sosial məsuliyyət, milli və qlobal dəyərlərin əks olunması); universitet mühitinin mədəni-etik standartlarını; tələbələrin liderlik, vətənpərvərlik və vətəndaş məsuliyyəti kompetensiyalarının inkişafını; akademik etika və akademik dürüstlük mədəniyyətini əsas götürmək vacibdir. Beləliklə, ali təhsil dəyərləri həm bilik, həm davranış, həm şəxsiyyət formalaşması səviyyələrində ötürür.

### Rəqəmsallaşma və təhsildə milli dəyərlərə yeni çağırışlar

Süni intellekt və rəqəmsallaşma ali təhsildə effektivliyi artırsa da, bu proseslər etik, sosial və mədəni suallar doğurur. Tədqiqatlar göstərir ki, süni intellektin təhsil sistemlərinə tətbiqi zamanı "mənəvi dəyərlər", "ədalət", "təhsil məqsədləri" kimi məsələlər ön plana çıxır - yəni texnologiyadan istifadə təhsil prosesində yalnız effektivlik üçün deyil, dəyərlərin qorunması, fərdin inkişafı, etik-insanpərvərlik baxımından da nəzərdən keçirilməlidir.

Rəqəmsal tədris, onlayn mühit, beynəlxalq kurslar, müxtəlif mədəniyyətlərin qarışması kimi amillər milli-mənəvi dəyərlər, milli kimlik, dil, mədəniyyət kimi aspektlər üçün yeni çağırışlar yaradır. Bu halda universitetlər kurikulum, pedaqogika, metodologiya, akademik mühit və sosial fəaliyyətlərlə milli və etik dəyərlərin qorunması üçün xüsusi yanaşma hazırlamalıdır. Bu baxımdan cari ilin 15 İyununda - Milli Qurtuluş Günündə Yeni Azərbaycan Partiyasının Şuşada keçirdiyi beynəlxalq konfransda rəqəmsallaşma və süni intellektin milli dəyərlərə yaratdığı çağırışların ayrıca panel səviyyəsində Azərbaycanda ilk dəfə geniş müzakirə edilməsi xüsusilə təqdirəlayiqdir.

Dəyərlər təhsilini kurikulumun ayrılmaz hissəsinə çevirmək; etik, mədəni, milli identlik, vətənpərvərlik mövzularını mühazirə, seminar, debat və tələbə-ictimai layihələrinə daxil etmək; onlayn təhsil və texnologiyanın etik çərçivələrini müəyyənləşdirmək kimi yanaşma həm modernləşmə, həm də dəyərlərin qorunması zərurətinə uyğun gəlir.

Rəqəmsallaşma və süni intellekt ali təhsildə dəyərlərin zəifləməsi; plagiat və akademik pozuntuların artması; milli kimlik üzərində informasiya təzyiqi; sosial təcrid və fərdiləşmə; kütləvi informasiya manipulyasiyası kimi risklər yaradır. Bütün bunlarla yanaşı, rəqəmsallaşma və süni intellekt təhsildə misilsiz imkanlar da yaradır.

Belə ki, texnologiyalar fərdiləşdirilmiş təhsil, daha geniş informasiya əlçatanlığı, mədəniyyətin rəqəmsal qorunması və sair yollarla dəyərlərin daha yaxşı tədrisinə şərait yaradır.

### Dəyərlərin təhsilə inteqrasiyasında mədəniyyətin rolu

Təhsil mədəniyyətin, dilin, tariximizin, ədəbiyyatımızın, milli kimliyimizin qorunması və inkişafı üçün əsas mexanizmdir. Universitetlərdə mədəni və milli dəyərlərin tədris materialına, mədəniyyət fənlərinə, milli tarixə, ədəbiyyata, dilə və mədəniyyətlərarası dialoqa yer verilməsi öz milli kimliklərini unutmadan gələcək nəsillərin yetişməsinə imkan yaradır. Bu proses həm fərdi (tələbənin şəxsiyyəti, mənəvi dünyası), həm də cəmiyyət səviyyəsində (milli davamlılıq, mədəni varlıq, sosial həmrəylik) əhəmiyyətə malikdir.

Mədəniyyət ali təhsil üçün əlavə sahə deyil - təhsilin mərkəzində duran konseptdir. Universitet mədəniyyəti milli kimliyin qorunması, dil və ədəbiyyatın təşviqi, mədəniyyətlərarası dialoq, tolerantlıq və multikulturalizm, yaradıcı düşüncənin inkişafı kimi vacib funksiyaları yerinə yetirir.

### UNEC-də dəyərlərin ali təhsilə inteqrasiyası

UNEC-də həyata keçirilən beynəlmiləlləşmə, müasir proqramlar, beynəlxalq təhsil standartlarına inteqrasiya, tədris və elmi fəaliyyətin modernləşdirilməsi, müəllim heyətinin peşəkarlığının artırılması, müasir texnologiyaların tətbiqi təkcə kəmiyyət deyil, keyfiyyət və dəyər baxımından da atılan addımlardır.

Dəyərlərin təhsilə inteqrasiyası sahəsində UNEC fəaliyyətini dörd əsas istiqamətdə həyata keçirir:

1. Akademik mühitdə dəyərlər: akademik dürüstlük mədəniyyətinin təşviqi, müəllim-tələbə münasibətlərinin etik kodeks əsasında qurulması, proqramlarda milli-mənəvi dəyərlərə dair komponentlərin genişləndirilməsi, şəffaflıq və hesabatlılıq. Hələ 14 sentyabr 2018-ci ildə UNEC Elmi Şurası "UNEC dəyərləri"ni təsdiq etmiş və həmin dəyərlərə aşağıdakılar daxil edilmişdir:

- Akademik azadlıq: tədqiqat, tədris və sosial xidmət fəaliyyətində elmi prinsiplərə sadiqlik;
- Akademik etika: bütün fəaliyyətində akademik etikanı qorumaq və müəlliflik hüquqlarına hörmətlə yanaşmaq;
- Layiqlilik: akademik və inzibati vəzifələri həyata keçirmək üçün hər kəsə bərabər imkanlar yaratmaq;
- Keyfiyyətlilik: bütün fəaliyyətində yüksək keyfiyyət prinsipinə sadiq qalmaq.
- Fərqliliklərə hörmət: bütün maraqlı tərəflərin fərqli fikirlərinə hörmətlə yanaşmaq;
- Cəmiyyət mənafeyini düşünmək: bütün fəaliyyətini ilk növbədə cəmiyyət mənafeyini düşünərək həyata keçirmək və s.

Eləcə də 14 sentyabr 2020-ci ildə UNEC əməkdaşlarının və təhsilalanlarının Etik Davranış Kodeksi qəbul olunmuşdur. Bu kodeks UNEC əməkdaşlarının əməl etməli olduğu etik dəyərləri və prinsipləri özündə birləşdirir. Kodeksin məqsədi UNEC əməkdaşlarının üzləşdikləri etik problemlərin həllində və həmkarları, tələbələri, universitetin rəhbər işçiləri, universitetdən kənarda olan fərdlər və təşkilatlarla münasibətlərində və milli və beynəlxalq ictimaiyyətlə əlaqələrində tətbiq edəcəkləri prinsipləri müəyyənləşdirməkdir. UNEC əməkdaşları dürüstlük və məsuliyyətlilik prinsipinə əsaslanaraq etik davranış standartlarına uyğun hərəkət etmək öhdəliyi daşıyırlar.

Kodeks həqiqət axtarışında olmanın və mükəmməl olanı əldə etmək üçün çalışmanın; etik prinsip və ideallların reallaşdırılması baxımından elmi tədqiqat, öyrənmə, öyrətmə, biliyin bölüşülməsi, fikir bildirmə, ünsiyyəti özündə ehtiva edən akademik azadlığın qorunmasının, hamı üçün bərabər fürsət və imkanlar yaradılmasının zəruriliyini vurğulayır.

UNEC təhsilalanları universitetdə qeydiyyatdan keçdiyi andan etibarən qeyd edilən etik dəyər və prinsipləri bütün fəaliyyətlərində rəhbər tutacaqlarına söz verirlər.

UNEC-də 20-dən çox xarici ölkədən 1000-dən çox tələbə təhsil alır. Bu, tələbələr arasında mədəni müxtəlifliyə hörmət, tolerantlıq, qlobal dünyagörüş, mədəniyyətlərarası kommunikasiyanın inkişafı kimi dəyərlərin formalaşdırılması əsas vəzifələrdən biridir.

UNEC inklüziv təhsilə böyük önəm verir və xüsusi qayğıya ehtiyacı olan tələbələrə zəruri şərait yaradılır. Bu məqsədlə 29 iyun 2015-ci ildən fəaliyyət göstərən UNEC İnklüziv Təhsil Mərkəzi ən son yanaşmaları təbliğ edir.

Azərbaycan Dövlət İqtisad Universiteti əlilliyi olan tələbələrin inkişaf resursları və imkanları, eləcə də onların təhsil prosesinə inteqrasiyasının təmin edilməsi ilə bağlı hüquqlarını tanıyır və əlilliyi olan tələbələr üçün maneələrin aradan qaldırılmasını və onların universitetin xidmətlərindən, proqramlarından və digər imkanlarından istifadə etməsi üçün lazımi şəraitin yaradılmasını hədəfləyir. Eləcə də "UNEC İnklüziv təhsilə dəstək" tələbə təşkilatı əlilliyi olan tələbələrə xüsusi dəstəyi ilə seçilir və onların cəmiyyətdə inteqrasiyası üçün həmrəylik nümayiş etdirir.

2022-ci ildən UNEC Psixoloji Xidmət Mərkəzi işə başlamışdır. Bu xidmət UNEC-də təhsilalanların akademik nailiyyətlərinin artırılması, universitetdə təhlükəsiz və sağlam mühitin yaradılması, əməkdaş və təhsilalanların mənəvi-psixoloji sağlamlığını dəstəkləmək məqsədilə fəaliyyət göstərir. Mərkəz təhsilalanlara və əməkdaşlara ödənişsiz, məxfilik və könüllülük əsasında ilkin müayinə və diaqnoza uyğun sonrakı məsləhət (dəstək) prosesini həyata keçirir.

UNEC-in elm mərkəzləri, tələbə təşkilatları, mədəniyyət klubları milli kimlik, Azərbaycan mədəniyyəti, mədəni diplomatiya və dəyərlər mövzularında layihələr həyata keçirir. Bu baxımdan "Cross Cultural Club" və "UNEC Türk Dünyası Gənclər Təşkilatı" kimi tələbə təşkilatlarının rolunu qeyd etmək yerinə düşər.

*Beləliklə, təhsil cəmiyyətin dəyərlər sisteminin formalaşması üçün ən mühüm platformadır. Azərbaycan modeli bu sahədə həm milli-mədəni irsi, həm də innovativ, qlobal dəyərləri özündə birləşdirən balanslı yanaşma təqdim edir. Heydər Əliyev siyasətinin əsasını təşkil edən təhsil-mədəniyyət-milli dəyərlər strategiyası bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf etdirilir. UNEC bu strategiyanın uğurlu icrasını təmin etmək üçün əzmlə çalışır. Çünki qeyd edildiyi kimi, dəyərlərin təhsilə inteqrasiyası gələcəyin daha təhsilli, daha məsuliyyətli, daha mədəni, daha innovativ, daha vətənpərvər gənclərinin yetişdirilməsinə xidmət edir. UNEC bu istiqamətdə yorulmaz fəaliyyətini davam etdirəcək.*

**Ədalət MURADOV,**
**UNEC-in rektoru,**
**professor**



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş siyasət, düzgün taktika

# Yüksəliş və zəfər memarı

**Başa çatmaqda olan 2025-ci il də Azərbaycanın tarixində növbəti uğurlu mərhələ kimi yadda qalacaq. Ötən dövrün siyasi mənzərəsi və sosial-iqtisadi reallıqları göstərir ki, qarşıya qoyulmuş bütün vəzifələr il ərzində uğurla icra olunub, respublikamız özünün milli məqsəd və prioritet hədəflərinə doğru inamla irəliləyib. Bu il Prezident İlham Əliyev Azərbaycanın həm regional, həm də beynəlxalq səviyyədə mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirib. Ölkəmiz Çin və ABŞ kimi dünyanın siyasi-iqtisadi nəhəngləri, eləcə də Avropa İttifaqının üzvləri ilə strateji tərəfdaşlıq münasibətlərini daha da dərinləşdirib.**

### Liderlik formulu

2025-ci il Azərbaycanın Qarabağ Zəfərinin beynəlxalq səviyyədə qəbul edilməsi baxımından əlamətdar il oldu. Bu ilin avqustunda Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh sazişi layihəsinin mətninin paraflanması Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində regionda yaranmış yeni reallıqların qlobal miqyasda tam qəbul edilməsinin təzahürüdür. Bütün bunlar həm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik və qətiyyətli siyasətinin təntənəsi, həm də dövlətimizin başçısının ölkəmizdə elan etdiyi "Konstitusiya və Suverenlik İli"nə böyük töhfəsidir.

2025-ci ilin nailiyyətləri həm də belə bir həqiqəti bir daha təsdiq edir ki, Ulu Öndər Heydər Əliyevin ölməz ideyaları, müəyyən etdiyi strateji yol layiqincə davam və inkişaf etdirilir. Heydər Əliyevin ideyaları isə Azərbaycanın inkişafının, yüksəlişinin əsas təməl prinsipləridir və gələcəyə gedən yolunun mayakıdır. Ümummilli Lider Heydər Əliyevin fəaliyyətinin hər bir mərhələsi liderlərin dövlətlərin və xalqların tarixindəki rolu barədə söylənən bütün fikirlərin təsdiqidir desək, yanılmarıq. Tarix sübut edir ki, məhz güclü liderləri sayəsində dövlətlər daha da güclənir, inkişaf edir. Güclü və uğurlu liderlər milli ideyanın formalaşmasında və möhkəmlənməsində mühüm rol oynayırlar. Onlar cəmiyyətin dəyərlərini, milli maraqlarını və strateji məqsədlərini aydın şəkildə ifadə edərək xalqı, milləti ümumi ideya ətrafında birləşdirirlər. Bu birlik isə dövlətin güclənməsinə, milli həmrəyliyin artmasına və beynəlxalq arenada nüfuzunun yüksəlməsinə şərait yaradır. Bu baxımdan Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər bir mərhələsi güclü, müqayisəsiz liderliyin praktik və real nəticələrinin nümunələridir.

Bu gün isə Prezident İlham Əliyev Heydər Əliyev siyasi yolunun ən layiqli davamçısı kimi özünün fəaliyyəti ilə güclü liderliyin ən mükəmməl formulunu yaradır. Prezident İlham Əliyevin dünya çapında yorulmaz fəaliyyətindən danışanda, ölkəmizə rəhbərlik etdiyi dövrün siyasi-iqtisadi mənzərəsinə qısa ekskurs edəndə həm də Ulu Öndər Heydər Əliyevin nə qədər müdrik şəxsiyyət olduğunu bir daha anlayırıq. Hələ 2003-cü ildə prezident seçkilərindən əvvəl xalqa müraciətində Ulu Öndər demişdi: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bəli, ötən 22 ildən artıq dövrün göstəriciləri, reallıqları və həqiqətləri Ulu Öndər Heydər Əliyevin cənab İlham Əliyevə özü qədər inanmaqda, Ona böyük etimad göstərməkdə nə qədər haqlı və uzaqgörən olduğunu, eyni zamanda nə qədər müdrik şəxsiyyət və güclü siyasi strateq, nəhəng lider olduğunu göstərir.

### İnkişafın banisi

2003-cü ilin oktyabr ayının 15-də keçirilən prezident seçkiləri Azərbaycan tarixinin mühüm siyasi hadisələrindən birinə çevrildi. Ulu Öndərin müstəqil dövlətimiz qarşısındakı tarixi xidmətlərini hər zaman yüksək qiymətləndirən və Azərbaycanın etibarlı gələcəyinin məhz hakimiyyətin siyasi kursu ilə bağlı olduğunu qəbul edən qədirbilən xalqımız bu seçkidə də böyük Heydər Əliyev yoluna əbədi sadiq olduğunu bir daha nümayiş etdirdi.

2003-cü il oktyabrın 31-də keçirilən andiçmə mərasimində isə ilk dəfə Azərbaycan Prezidenti kimi and içən cənab İlham Əliyev özünün fəaliyyət proqramını, qarşıda dayanan ümummilli hədəfləri açıqlayaraq demişdi: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

İlham Əliyevin andiçmə mərasimindəki çıxışı sadəcə prezident seçkilərinin protokolundan irəli gələn bir məsələ deyildi. Prezidentin həmin vaxt söylədiyi fikirlər qarşıya qoyulan vəzifələrin, tarixin ən güclü Azərbaycanı üçün gediləcək yolun mükəmməl yol xəritəsi idi. Bu çıxış respublikamızın qalib dövlətə çevrilməsi yolunda onun daha da inkişafının, yüksəlişinin özülünü təşkil edən əsas tezislərin ictimaiyyətə açıqlanması idi.

Ötən 22 ilin siyasi və iqtisadi mənzərəsi Prezident İlham Əliyevin verdiyi bütün vədlərin həyata vəsiqə aldığını bütün miqyası və əzəməti ilə təsdiq edir. Böyük qürurla qeyd etməliyik ki, İlham Əliyevin müəllifliyi ilə ötən 22 ildə Azərbaycanın müasir dövlətçiliyinin möhtəşəm, şərəfli və qürurverici tarixi yazılıb. Müqayisəli təhlil etsək, həm iqtisadi, həm də dövlətin nüfuzunu müəyyən edən göstəricilərin bu illərdə nə qədər dəyişdiyini görərik. İlham Əliyevin 2003-cü ildə respublikamıza rəhbərliyi zamanı müəyyən etdiyi prioritet vəzifələrdən biri ölkəmizdə bərqərar olmuş sabitlik fonunda iqtisadi inkişafın sürətləndirilməsi idi. Cəmi bir neçə statistik göstəriciyə nəzər salmaqla bu inkişafın əzəmətli nəticəsini görmək mümkündür. 2003-cü ildə Azərbaycanın dövlət büdcəsinin gəlir və xərcləri təxminən 1,2 milyard manat civarında olmuşdur. Bu gün, yəni 2025-ci ildə Azərbaycanın dövlət büdcəsinin xərcləri artıq 41 milyard manatı ötüb. 2003-cü ildə ölkəmizdə ümumi daxili məhsul istehsalı 7 milyard dollar səviyyəsində idisə, təkcə 2025-ci ilin birinci yarısında ölkəmizdə 72 milyard manatlıqdan artıq ümumi daxili məhsul istehsal edilib və bu rəqəmin ilin sonuna 129 milyard manatı ötəcəyi gözlənilir. 22 il əvvəl Azərbaycanın strateji valyuta ehtiyatları 1,6 milyard ABŞ dolları həcmində idi. Bu gün isə strateji valyuta ehtiyatlarımız 83,5 milyard ABŞ dollarına çatıb. Bütün bu göstəricilər Prezident İlham Əliyevin liderliyi ilə müstəqil Azərabycanın getdiyi inkişaf yolunu əks etdirən rəqəmlərdir. Bu illər ərzində Heydər Əliyevin əsasını qoyduğu enerji siyasətinin qətiyyətlə davam etdirilməsi, Bakı-Tbilisi-Ceyhan neft kəməri, "Cənub qaz dəhlizi" kimi nəhəng enerji infrastukturlarının yaradılması Azərbaycanın iqtisadi inkişafına böyük təkan verməklə yanaşı, dövlətimizi regionda və qlobal səviyyədə söz sahibinə çevirib. Təsadüfi deyil ki, bu gün həm regionda, həm də Avropa səviyyəsində aparılan enerji müzakirələrində Azərbaycan söz sahibi olan dövlət kimi çıxış edir və bütün bunlar Prezident İlham Əliyevin Azərbaycana qazandırdığı yüksək qlobal nüfuzdan xəbər verir.

Dövlətimizin başçısının yürütdüyü qətiyyətli, müstəqil və balanslaşdırılmış xarici siyasətinin nəticəsi olaraq Azərbaycan bu gün dünyanın bütün siyasi və iqtisadi qütbləri ilə səmimi strateji tərəfdaşlıq münasibətlərinə malikdir. İlham Əliyevin özü isə dünyanın ən nüfuzlu siyasi liderləri sırasında yer alıb. Təkcə son bir neçə ayda Prezident İlham Əliyevin etdiyi xarici səfərlərə və iştirak etdiyi beynəlxalq tədbirlərin statusuna nəzər salsaq bunu görə bilərik. İlham Əliyevin bu ilin avqustunda ABŞ və Çinə səfərləri, BMT Baş Assambleyasının 80-ci sessiyasında, "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə Görüşündə, Misirdə keçirilən Yaxın Şərq Sülh Sammitində iştirakı Azərbaycanın güclü qlobal mövqeləri ilə bərabər, dövlətimizin başçısının bütün siyasi platformalarda böyük ehtiramla qarşılanan böyük siyasi lider olduğunu açıq nümayiş etdirir.

### Müzəffər komandan

Prezident İlham Əliyevin fəaliyyətini xarakterizə edən ən mühüm göstəricilərdən biri verdiyi bütün vədləri qətiyyətlə, dönmədən yerinə yetirməsidir. Yadımızdadır ki, dövlətimizin başçısı ölkəmizdə çadır şəhərciklərinin ləğvi ilə bağlı verdiyi vədi vaxtından bir il tez - 2007-ci ildə yerinə yetirdi. Hələ o zaman Azərbaycan ictimaiyyəti əmin idi ki, torpaqlarımız mütləq işğaldan azad olunacaq və məcburi köçkünlər üçün doğma Qarabağda yeni evlər inşa ediləcək. Çünki hələ bundan bir neçə il əvvəl 2003-cü ildə keçirilən andiçmə mərasimində cənab İlham Əliyev demişdi: "Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Beləliklə, İlham Əliyevin Azərbaycana rəhbərliyinin ilk günündən torpaqlarımızın işğaldan azad olunmasını prioritet vəzifə kimi müəyyən etməsi, bu istiqamətdə Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kursu uğurla davam etdirməsi, bütün çıxışlarında ərazilərimizdə ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəyini qətiyyətlə bildirməsi başqa cür düşünməyə əsas vermirdi. Və bütün bunlar xalqımızın iradəsinin, inamının əsasında dayanan göstəricilər, əsas amillər idi.

2020-ci il sentyabrın 27-də başlayan və cəmi 44 günə torpaqlarımızın 30 illik işğaldan azad edilməsi ilə nəticələnən Vətən müharibəsi xalqımızın bu inamının həyata vəsiqə alması ilə nəticələndi. Düşmənin diz çökdürülməsi ilə başa çatan bu tarixi savaş Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin milli maraqlarımızı təmin edən qətiyyətli daxili və xarici siyasətinin və milli ordumuzun yüksək döyüş qabiliyyətinin ən möhtəşəm təntənəsinə çevrildi. Bu zəfər sadəcə müasir müstəqillik dövrünün deyil, bütün dövlətçilik tariximizin qızıl qanla, şərəflə yazılan səhifəsi, şanlı hadisəsidir.

2023-cü ildə Qarabağda həyata keçirilən antiterror tədbirləri nəticəsində ərazilərimizdəki erməni separatizminə və dünya erməniliyinin illərdir apardığı böhtan, şər kampaniyasına nidalı son qoyulması isə Müzəffər Ali Baş Komandanın qətiyyətinin, əsl sərkərdə kimi döyüşlərdə göstərdiyi şücaətinin növbəti təcəssümü oldu. Bununla da bütün ərazilərimizdə Azərbaycanın milli suverenliyi və Konstitusiyamızın hüquqi qüvvəsi təmin edildi. Ölməz şəhidlərimizin, qazilərimizin qanı, canı bahasına, milli ordumuzun gücü, qüdrəti ilə əldə edilmiş bu Zəfərlə Ali Baş Komandan bütün dünyaya həm də bir daha göstərdi ki, milli maraqlarımız, Ulu Öndər Heydər Əliyevin də dəfələrlə ifadə etdiyi kimi, heç vaxt müzakirə mövzusu ola bilməz.



Bu ilin avqustunda Vaşinqtonda Sülh Sazişi layihəsinin paraflanması, Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə nəqliyyat əlaqəsini təmin edəcək Zəngəzur dəhlizinin (TRIPP) açılması istiqamətində razılaşmanın əldə olunması və ondan sonrakı mərhələdə bu istiqamətdə məqsədəyönəlik fəaliyyətin davam etdirilməsi isə göstərir ki, Zəfərimizin memarı olan İlham Əliyev həm də regionda sülhü, təhlükəsizliyi və əməkdaşlığı təmin edir.

### Silahdaşlıq missiyası

Ərazi bütövlüyümüzü tam bərpa edən Prezident İlham Əliyev bu gün lider qətiyyəti ilə işğaldan azad olunmuş torpaqlarımızı dirçəldir, onlara yeni həyat bəxş edir. O torpaqlara hər dəfə səfər etdikcə, ötən 5 ildə Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və quruculuq işlərini gördükcə, düşünürəm ki, cənab Prezidentin işləri həqiqətən əzəmətlidir. Bu prosesdə Prezident İlham Əliyevə ən böyük dəstəyi isə Birinci-vitse prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva verir. Mehriban xanım Əliyevanın təşəbbüsləri ilə Heydər Əliyev Fondu Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən layihələrlə bu ərazilərin bərpa və quruculuğuna böyük töhfələr verir desək, azdır, Mehriban xanım Əliyeva, sözün əsl mənasında, azad Qarabağda və Zəngəzurda yeni bir tarix yazır.

Ümumiyyətlə, Mehriban xanım Əliyevanın siyasi və ictimai fəaliyyət sahəsi çoxməzmunlu və əhatəlidir. Lakin daşıdığı bütün vəzifələrdə Mehriban xanımın bir amalı var: dövlətə və xalqa layiqli xidmət etmək. Mehriban xanım Əliyevanın həm respublikamızın Birinci vitse-prezidenti, həm Heydər Əliyev Fondunun prezidenti kimi, həm də 2005-2017-ci illərdəki deputatlıq fəaliyyəti dövrünü təhlil edəndə görürük ki, Onun gördüyü bütün işlərin təməlində respublikamızın yüksəlişinə xidmət missiyası, humanizm prinsipləri dayanıb. Mehriban xanımın daşıdığı bütün vəzifələrin ümumi cəhətləri insanların yanında olmaq, onlar üçün qurmaq, yaratmaq, ehtiyacı olanlara təmənnəsiz yaxşılıq, xeyirxahliq etmək, Azərbaycan həqiqətlərini olduğu kimi dünyaya çatdırmaq kimi ülvi məqsədlərdir. Bütün bunlar xanım Mehriban Əliyevanın yüksək vətənpərvərlik dəyərlərinin, böyük Heydər Əliyev yolunun milli ideya daşıyıcısı olduğunu göstərir. Eyni zamanda bütün bunlar Mehriban xanım Əliyevanın malik olduğu milli genetik kodların, mənsub olduğu şəcərənin, xalqımızın tanınmış, ziyalı nəslinin layiqli, sevimli nümayəndəsi olduğunun təcəssümüdür.

Ümumilikdə isə Mehriban xanım Əliyevanın görkəmli siyasi xadim kimi indiyədək daşıdığı bütün vəzifələrdə həyata keçirdiyi uğurlu fəaliyyəti, qazandığı yüksək nüfuzu, xalqımızın ona olan sonsuz sevgisi, saf məhəbbəti ilə silahdaşı Prezident İlham Əliyevin daxili və xarici siyasətinin daha böyük nailiyyətlər qazanmasına böyük töhfələr verir. Azərbaycanın ötən 22 ildəki inkişaf reallıqları həm də bu həqiqətin təzahürüdür.

*Azərbaycan Prezidenti İlham Əliyevin müdrik rəhbərliyi nəticəsində respublikamızın keçdiyi inkişaf yolu bütün göstəricilər baxımından 22 ilin reallıqlarından çox böyükdür. Böyük Heydər Əliyev ideyaları, Prezident İlham Əliyev siyasəti həm də Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirib, ərazi bütövlüyümüzü təmin edib, ölkəmizə nüfuz gətirib. Bu siyasət bundan sonra da Azərbaycan tarixini ən əlamətdar uğurlarla şərəfləndirəcək.*

***Bəxtiyar ƏSGƏROV,***
***Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri***



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş siyasət, düzgün taktika

# Qətiyyətdən Qələbəyə

**"Qələbəyə hamı sahib çıxır, amma məğlubiyyət həmişə yetim olur". ABŞ-nin 35-ci prezidenti Con Kennedinin Kubaya uğursuz desant çıxarılması ilə bağlı söylədiyi nitqdən sonra geniş yayılan, amma, əslində, qədim Roma tarixçisi Tasitə aid olan bu fikir təkcə siyasi məntiqlə deyil, insan təbiətinin psixoloji həqiqəti ilə bağlıdır.**



Bu, bəşər psixologiyasının dəyişməz qanunudur: uğur bölünür, məsuliyyət isə təklənir. Zaman dəyişir, dövrlər bir-birini əvəz edir, texnologiyalar təzələnir, amma bu instinkt eyni qalır.

2020-ci il Azərbaycan tarixinə məhz bu həqiqəti təsdiqləyən bir dönəm kimi daxil oldu. Qələbənin arxasında bir xalq dayanırdı, lakin həmin qələbəyə aparan yolun qərarını və məsuliyyətini Prezident İlham Əliyev tək daşıyırdı. Bu mübarizə Azərbaycan xalqının zəfəri ilə bitəndən sonra da davam etdi.

2020-ci ilin payızı İlham Əliyevin liderlik modelini tarix səhnəsinə çıxardı. Dünyanın böyük gücləri, beynəlxalq təzyiqlər, diplomatik çağırışlar qarşısında o, bütün riskləri öz üzərinə götürdü. Bu, rasional qərar olmaqla yanaşı, tarixi instinkt idi. O bilirdi ki, bu fürsət bir daha gəlməyə bilər. Və o uzaqgörən qərar Azərbaycanın tarixini dəyişdi. Çünki nəyi nə vaxt etməli olduğunu o yaxşı bilir!

2020-ci ilin Vətən müharibəsi təkcə hərbi əməliyyatlar toplusu deyildi. Bu, bir xalqın psixoloji dönüş nöqtəsi idi. O dövrdə dünyanın ən nüfuzlu dövlətləri Azərbaycanın hər addımını izləyir, müxtəlif təzyiqlərlə prosesə müdaxilə etməyə çalışırdılar. Lakin İlham Əliyev riskin məğzini anlayan lider idi. O bilirdi ki, bəzən tarix lideri sınağa çəkir və bu sınaqda tərəddüd məğlubiyyətə bərabərdir. Bu risk onun üçün təkcə siyasi məsələ deyildi - bu, milli yaddaşın dirçəlişi idi. O, diplomatik təzyiqlərin, saxta humanizm çağırışlarının içindən keçərək qərarlarını dəyişmədi. Hərbi əməliyyatların gedişində dünya mətbuatı onun qarşısında cəmlənəndə İlham Əliyev yalnız suallara cavab vermirdi, ona təzyiq göstərənlərə də misilsiz ustad dərsi keçirdi. Sual verən jurnalistlər sadəcə bir dövlət başçısı ilə deyil, tarix yazan bir şəxsiyyətlə üz-üzə olduqlarını hiss edirdilər. Həmin vaxt İlham Əliyevin hər bir cavabında analitik düşüncə, siyasi uzaqgörənlik, təmkin və intellektual güc vardı. O, təkcə hərbi güclə yox, həm də arqumentlərlə qalib gəlirdi. Jurnalist sual verirdi, o, faktla, hüquqi əsasla cavablandırırdı. Bu, təkcə siyasət deyil, həm də düşüncə üstünlüyü idi.

Zəfərimizdən sonra çoxları bu qələbəni "paylaşmaq" istədi. Qələbəyə hamı sahiblənmək istəyir - bu, insan təbiətidir. Amma o günlərdə bu qələbəyə gətirən missiyanın ağırısını, məsuliyyətini, hər addımının yükünü daşıyan tək İlham Əliyev idi! O, təkcə ordunun Ali Baş Komandanı deyildi xalqın inamının, səbrinin, ümidinin komandanı idi.

Məhz onun qətiyyətli və bütün riskləri nəzərə alaraq addım atmasından sonra vaxtilə ona müxtəlif yollarla, fərqli üsullarla təsir göstərməyə çalışan dünya liderlərinin gözü önündə beynəlxalq güc mərkəzlərinin hesablaşdığı, amma eyni zamanda təəccüb və heyranlıqla izlədiyi lider obrazı formalaşdı. Çünki o, balansı ustalıqla qoruya bilirdi: qərarları həm cəsarətli, həm ölçülü; ritorikası həm milli, həm universal; baxış bucağı həm strateji, həm də insani idi.

O, hadisələri idarə etmir, onları qabaqlayır; gedişatın içində deyil, fövqündə dayanır.

İlham Əliyevin liderlik xarizmasında bir xalqın min illik mədəniyyətinin əksi toplanıb: Qobustanın daş yazılarından tutmuş Şuşanın bərpa olunan küçələrinə qədər.

Ali Baş Komandanın rəhbərliyi ilə Qarabağın azad olunması sadəcə coğrafi deyil, mənəvi sərhədlərin də, tarixi ədalətsizliyin bərpası idi.

Zəfər yalnız silahla qazanılmır, həm də inam, iradə, ağılla əldə olunur. Prezident İlham Əliyevin qələbə konsepsiyası məhz bu üç amilə söykənirdi. O bilirdi ki, müharibə təkcə silahların deyil, beyinlərin və uzun illərin stereotiplərinin toqquşmasıdır.

İlham Əliyev həm də neçə illik məğlubiyyət stereotiplərini sındırmağı bacardı. Onun rəhbərliyi ilə müharibə dövründə hər bir addım həm hərbi, həm diplomatik, həm də informasiya müstəvisində hesablanmışdı.

Ali Baş Komandan bir tərəfdən cəbhədə əməliyyatlara şəxsən nəzarət və idarə edir, digər tərəfdən dünyanın liderləri ilə danışıqlar aparır, üçüncü tərəfdən isə beynəlxalq ictimaiyyətin fikrini dəyişirdi. Bu, çoxqatlı və sistemli liderliyin ən parlaq nümunəsidir.

Vətən müharibəsindən sonra beynəlxalq münasibətlər sistemində də yeni reallıq yarandı. Əvvəllər Azərbaycanın ucaltdığı haqq səsini "eşitməyən", bunu "kiçik regional məsələ" kimi görən dövlətlər artıq bu ölkə ilə hesablaşmalı oldular.

İlham Əliyev artıq sadəcə regionun lideri deyil, yeni dünya düzənində söz sahibi olan nəhəng siyasətçidir. Onunla görüşmək, əməkdaşlıq etmək, eyni masa arxasına oturmaq indi beynəlxalq strateji dəyər sayılır. Bu da onu göstərir ki, Azərbaycan lideri vasitəsilə öz qələbəsini təkcə torpaq üzərində yox, siyasi məkanda da qazandı.

Qələbədən sonra dünya liderlərinin, beynəlxalq təşkilatların, regional güclərin onunla münasibətlərini dəyişməsi təsadüfi deyil bu, qalibin qarşısında yaranan təbii hörmətdir.

44 gün ərzində İlham Əliyevin hər çıxışı xalqın ruhuna bir istiqamət kimi hopurdu. "Biz haqq yolundayıq, biz qalib gələcəyik" - bu, sadəcə bir bəyanat deyildi; bu, milli ruhun ritmini tənzimləyən psixoloji kod idi. Hər kəlməsində ölçü, hər fikrində strateji məqsəd, hər duruşunda inam vardı.

İlham Əliyevin liderlik xarizması daxili tükənməz enerjidən qaynaqlanır. O, güvən hissi yaradır, bu güvən təkcə xalqda deyil, beynəlxalq münasibətlərdə də psixoloji sabitlik effekti doğurur.

Müharibənin gedişində İlham Əliyev təkcə Ali Baş Komandan deyil, həm də milli ruhun rejissoru idi. Cəbhə ilə xalq arasında görünməz bir psixoloji körpü yaradırdı. Onun hər cümləsi həm taktiki siqnal, həm də strateji mesaj idi.

Zəfərdən sonrakı hər çıxışı ilə İlham Əliyev qələbəyə əxlaqi ölçü qazandırdı. O, dövlət idarəçiliyinə bir mühəndis dəqiqliyi ilə, xalqın taleyinə isə mənəvi borc hissi ilə yanaşır. Bu, ağıl, duyğu, intellekt, dünyagörüşü və xarizmanın elə bir tarazlığıdır ki, dünyada nadir liderdə rast gəlinər.

Zəfərdən sonra İlham Əliyevin beynəlxalq imici yeni mərhələyə qədəm qoydu. Əvvəllər regionda balanslı siyasətçi kimi tanınan lider indi qalib dövlət başçısı, müstəqil siyasi məktəbin müəllifi kimi qəbul edilir. Azərbaycan artıq təkcə enerji resursları ilə deyil, siyasi ağlı və nəticə modeli ilə tanınır. Bu modelin mərkəzində İlham Əliyevin təfəkkür sistemi dayanır - prinsipiallıq, milli marağa sədaqət və diplomatik çeviklik. O, qalib olmasına baxmayaraq, qlobal diplomatiyanın diktə üslubunu deyil, qarşılıqlı hörmət dilini seçdi. Dünya nizamının dəyişkənliyində o, milli sabitlik modeli yaratdı.

Bu gün onun adı yalnız bir dövlətin rəhbərini deyil, bir epoxanı təmsil edir. O, xalqın qorxuya çevrilmiş inamsızlığını "mümkündür" inamına çevirdi.

Bu, hərbi-siyasi zəfərlə yanaşı, həm də psixoloji qələbə idi.

Liderlik onun üçün ambisiya deyil, xidmət formasıdır. Dövlətçilik onun xarakterinin anatomiyasına hopub.

İlham Əliyev təkcə torpaqları azad edən komandan deyil, həm də bir milləti məğlubiyyət psixologiyasından qurtaran liderdir.

Bu gün Azərbaycanın özünü qalib xalq kimi hiss etməsi duyğusunun müəllifi İlham Əliyevdir.

Onun liderliyi nə Qərb tipli texnokratik praqmatizmdir, nə də Şərq tipli emosional romantizm. Bu liderlik - Azərbaycan tipli modernizmdir: milli dəyərlərlə beynəlxalq baxışın birləşdiyi unikal bir modeldir.

Bu məqamda Ulu Öndər Heydər Əliyevi dərin minnətdarlıq hissi ilə yad etmək yerinə düşər. 2005-cı ildə Moskvada məşhur "Görkəmli adamların həyatı" ("JZL") seriyasında nəşr edilən "Heydər Əliyev" kitabımdakı "Son borc, son xidmət" fəslindən bəzi fikirləri xatırlatmaq istərdim.

İlham Əliyevi yüksək intellektual, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyət kimi səciyyələndirən Ulu Öndər Heydər Əliyev xalqa xitabən inamla bildirmişdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bu sözlər zamanın sınağından keçdi. Bu gün həmin inamın doğrulduğu, uzaqgörənliyin reallığa çevrildiyi bir dövrdə yaşayırıq. İlham Əliyevin uğurlarında, Azərbaycanın bugünkü gücündə, qələbənin parıltısında Heydər Əliyevin uzaqgörən zəkasının izi var. Bu, dövlətçilik məktəbinin iki mərhələsi, düşüncənin və iradənin təbii varisliyidir. Heydər Əliyevə ürəkdən minnətdarıq - çünki o, həm bu dövləti yaratdı, həm də onun gələcəyini etibarlı əllərə əmanət etdi. İlham Əliyev isə həmin etimadı şərəflə doğruldaraq Azərbaycanın müasir tarixini möhtəşəm Zəfərlə tamamladı.

Hazırkı güclü, müstəqil, qalib Azərbaycan - Heydər Əliyevin uzaqgörənliyinin və İlham Əliyevin liderliyinin birgə əsəridir.

Heydər Əliyevin yaratdığı dövlətçilik konsepsiyası İlham Əliyevin idarəçilik fəlsəfəsində yeni reallıq və dinamika qazandı. Bu, sadəcə siyasi ardıcıllıq deyil, ideyanın zaman içində yetkinləşməsi, dövlətçilik düşüncəsinin nəsillər arasında keçididir.

Uzun illər əvvəl bayaq adını çəkdiyim "JZL" seriyasında - 2007-ci ildə həm də "Bioqrafiya davam edir: İlham Əliyev" kitabım da nəşr edilmişdi. Üzərindən 20 ilə yaxın tarix keçib. "Bioqrafiya davam edir" ifadəsi bu mənada yalnız bir ad deyil - bir dövlətin tarix fəlsəfəsidir. Çünki bu bioqrafiya bir şəxsin yox, bütöv bir xalqın iradəsinin, qələbəsinin və yenilənən milli kimliyinin hekayəsidir.

Heydər Əliyev dövlətin başlanğıcını yazdı, İlham Əliyev isə o başlanğıcı qalibiyyətlə yekunlaşdırdı və yeni mərhələyə daşıdı.

Onun dövrü müstəqilliyin qorunmasının və möhkəmlənməsinin dönəmidir; dövlətin qalibiyyət fəlsəfəsinə çevrilməsinin mərhələsidir.

Mən hazırda həmin kitabın düzəlişlər və əlavələr edilmiş yenilənmiş nəşri üzərində işləyirəm. Həmin kitabda Prezident İlham Əliyevin illər ərzində həyata keçirdiyi cahanşümul işlər yazıçı təxəyyülü və salnaməçi sədaqəti ilə birləşərək öz əksini tapacaq.

***Hüseynbala MİRƏLƏMOV,***
***yazıçı-publisist***

# Prezident İlham Əliyevin logistika siyasəti Azərbaycanı dünyanın mühüm tranzit ölkəsinə çevirib

Azərbaycanın dünyanın mühüm logistika mərkəzinə çevrilməsi üçün Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət uğurla davam edir. Ölkəmizdə istər Orta dəhliz, istərsə də "Şimal-Cənub" marşrutu üzrə müxtəlif layihələr icra edilir, bu layihələrə yeni tərəfdaşlar cəlb olunur. Azərbaycan təkcə coğrafi mövqeyi ilə deyil, həm də bu marşrutların səmərəliliyinin artırılması istiqamətində fəal iş aparan ölkə kimi fərqlənir.

Orta dəhlizin inkişafında icra edilən bir çox layihənin təşəbbüsçüsü də Azərbaycandır. Ölkəmiz təkcə öz ərazisində deyil, qonşu Gürcüstanın dəmir yolu infrastrukturunun inkişafında da fəal rol oynayır. Xatırlatmaq kifayət edər: ADY 2023-2024-cü illərdə dəmir yolu xəttinin Gürcüstandan keçən hissəsinin modernləşdirilməsində yardımçı olmuşdur.

Məlum olduğu kimi, Orta dəhlizin səmərəliliyində Çindən Avropaya və əks istiqamətə daşınan yüklər mühüm rol oynayır. Bu səbəbdən ölkəmizin Çinlə əməkdaşlığının genişləndirilməsi və dərinləşdirilməsi xüsusi önəm daşıyır. Məlumdur ki, Avrasiyanın nəqliyyat əlaqəsinin gücləndirilməsinə və dayanıqlı logistika zəncirlərinin inkişafı məqsədilə Çinlə Azərbaycan arasında Anlaşma Memorandumu imzalanıb. Məqsəd beynəlxalq dəhlizlər üzərindən yükdaşımalar üçün münbit şəraitin yaradılması yolu ilə regional iqtisadi inteqrasiyanın inkişafına dəstək verilməsi, idarəetmə proseslərinin optimallaşdırılması və daşıma səmərəliliyinin artırılması, müştərilərə daha yüksəksəviyyəli xidmət təqdim edilməsidir. Memorandum müasir və rəqəmsal texnologiyaların tətbiqinin zəruriliyi, Orta dəhliz üzrə multimodal daşımaların inkişafının strateji əhəmiyyəti və bu marşrutun Çin və Azərbaycandakı logistik terminallarla bağlantısı, Çinin "China Railway Container Transport Corp. Ltd." (CRCT) şirkətinin Azərbaycan, Qazaxıstan və Gürcüstan dəmir yolu qurumları arasında Orta dəhlizin inkişafı üzrə yaradılmış "Middle Corridor Multimodal Ltd." birgə müəssisəsinə qoşulmasının zəruriliyi və "Bir kəmər, bir yol" təşəbbüsünün reallaşdırılması kontekstində dəmiryol sahəsində əməkdaşlığın dərinləşdirilməsi kimi mühüm istiqamətləri özündə ehtiva edir.

Anlaşma Memorandumunun əsas hədəflərindən biri də Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin gücləndirilməsinə nail olmaqdır. Qurumlar Türkiyəyə, ardınca Avropaya çıxış imkanı verən Bakı-Tbilisi-Qars marşrutu üzrə nəqliyyat əlaqəsinin inkişaf etdirilməsi barədə razılığa gəliblər. Bu xətt vasitəsilə Çin istehsal mərkəzlərinin Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən Avropa bazarlarına çıxışı daha da sürətlənəcək. Tərəflər dəmir yolu və liman imkanlarının birgə inkişafı, Xəzər dənizi üzərindən konteyner daşımalarının genişləndirilməsi, gündəlik blok-qatarların sayının artırılması istiqamətində əməkdaşlığın dərinləşdirilməsi barədə də razılığa gəliblər. Bütün bunlar onu göstərir ki, Bakı-Tbilisi-Qars marşrutu Şərqlə Qərbi birləşdirən, yüksək ötürmə qabiliyyətli strateji nəqliyyat arteriyasına çevrilir. Onu da xatırladaq ki, Prezident İlham Əliyevin göstərişi ilə 2023-2024-cü illərdə ADY tərəfindən Orta dəhlizin vacib seqmenti olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin Gürcüstan hissəsində modernləşdirmə işləri aparılıb. Bu, ölkəmizin tranzit potensialının artırılması, bütövlükdə Orta dəhlizin rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində mühüm addım sayılır.

Məlum səbəblərdən Orta dəhlizə qlobal səviyyədə diqqət artıb. O üzdən dəhlizin inkişafına, yeni qollarının yaranmasına bir çox dövlətlərin maraq göstərməsi təbii haldır. Səbəb də odur ki, dünya ticarətində və təchizat zəncirində baş verən qırılmalar kompensasiya edilsin.

4 ilə yaxın davam edən Rusiya-Ukrayna müharibəsi çoxsaylı fəsadlarla bərabər, Çin-Rusiya-Avropa marşrutunun qapanmasına da səbəb olub. Savaşın sülhlə bitməsi barədə deyilənlər isə hələlik ümiddən o yana keçmir. Digər tərəfdən, dünyanın ən əhəmiyyətli Qırmızı dəniz-Süveyş kanalı marşrutunda husilərin hücumları nəticəsində ciddi fasilələr yaranıb. Əsas səbəblərdən bir başqası isə yüklərin və gəmilərin transmilli sığorta şirkətləri tərəfindən sığortalanmamasıdır. Belə bir şəraitdə Asiya ilə Avropa arasında ən etibarlı və təhlükəsiz marşrut olaraq təbii ki, Orta dəhliz qalır.

Bu marşrutla daşınan yüklərin həcminin artırılması üçün rəqəmsallaşma, vahid tarif kimi mütərəqqi üsullardan istifadə edilir. Hədəfi dəhliz üzərindən daha çox yükün daşınmasına nail olmaq olan bu işdə yükgöndərən və tranzit ölkələr də maraqlıdır. Belə yeniliklərdən biri də Çinlə Bakı arasında yeni "dəmir yolu-dəniz-dəmir yolu" marşrutunun istifadəyə verilməsidir.

Bəs bu marşrut dəhlizin daha səmərəli olmasına hansı töhfə verəcək? Məsələ ondadır ki, Çinlə Azərbaycan arasında yük daşımalarını səmərəli edən yeni marşrutun istifadəyə verilməsi Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun, yəni Orta dəhlizin dayanıqlı inkişafını və Bakı Limanının strateji nəqliyyat qovşağı kimi rolunu bir daha ön plana çıxarır.

Hazırda beynəlxalq səviyyədə gedən ciddi geosiyasi proseslərin başlıca hədəfi yeni dünya düzəninin qurulmasıdır. Azərbaycan da istisna olmamaqla hər bir dövlət bu prosesdə yerini müəyyənləşdirmək istəyir.

Prezident İlham Əliyevin avqustun 8-də ABŞ lideri Donald Trampla keçirdiyi görüş, Azərbaycanla Ermənistan arasında aparılan danışıqlar, iki ölkənin xarici işlər nazirlərinin "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsini paraflaması ölkəmizin hansı blokda yer aldığını dünyaya nümayiş etdirdi.

Azərbaycan torpaqları işğal altında olduğu dövrdə keçmiş "Dağlıq Qarabağ" problemini sülh və beynəlxalq hüquq çərçivəsində həll etməyə çox vaxt və səy göstərdi. 30 illik danışıqlar heç bir nəticə verməyəndə isə hər kəsə bəlli oldu ki, ATƏT-in Minsk qrupu vaxt uzatmaqla işğal faktını bizə qəbul etdirmək istəyir. Belə olan halda Azərbaycan Prezidenti İlham Əliyev BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, torpaqlarımızın hərbi yolla azad edilməsi barədə qərar verdi. 44 günlük müharibədə tarixi Zəfərlə və 2023-cü ilin sentyabrında antiterror əməliyyatı ilə Azərbaycan öz ərazisində suverenliyini tam bərpa etdi.

Adətən, müharibə bitdikdən sonra sülh təklifi ilə məğlub ölkə müraciət edir. Lakin bunun əvəzinə Ermənistan tərəfindən müxtəlif revanşist bəyanatlar səsləndirildi. Azərbaycan bu dəfə də bütün dünyaya bəyan etdi ki, Ermənistana sülh təklifi göndərib. Ötən 5 ildə ölkəmiz bütün siyasi-diplomatik, həmçinin müxtəlif platformalardan istifadə edərək məsələnin həllinə çalışdı. Buna baxmayaraq, sülh danışıqlarında real irəli getmək mümkün olmurdu. Buna mane olan qondarma səbəblərdən biri də Zəngəzur dəhlizi məsələsi idi.

Zəngəzur dəhlizinin fəaliyyətə başlaması Azərbaycan üçün hazırda prioritet istiqamətlərdən biridir. Bu layihə Ermənistan da daxil olmaqla bütün region ölkələrinin maraqlarına cavab verir. Dəhlizin işə düşməsi Azərbaycan və Ermənistan arasında birbaşa dəmir yolu əlaqəsi yaradılmasına imkan verəcək, eyni zamanda Naxçıvandakı Culfa qovşağı vasitəsilə Azərbaycan, Ermənistan və İran arasında sovetlər birliyi dövründə fəaliyyət göstərmiş nəqliyyat əlaqələri bərpa ediləcək. Bununla yanaşı, ABŞ və Avropa İttifaqı Orta dəhlizi Rusiyadan keçən ənənəvi marşrutlara alternativ olaraq nəzərdən keçirir və bu marşrutun inkişafını strateji prioritet kimi dəyərləndirir. Çin isə Ukrayna münaqişəsi fonunda Zəngəzur dəhlizinə TBNM-də geosiyasi riskləri azaldan, daha sabit və dayanıqlı əlavə tranzit marşrutu kimi maraq göstərir.

Artıq Ermənistanda anlayırlar ki, Rusiya ilə İranın siyasi və iqtisadi təzyiqlərindən qurtarmağın yeganə yolu Azərbaycan və Türkiyə ilə əməkdaşlıq edərək Zəngəzur dəhlizinin (TRIPP) açılmasına razılıq verməkdir. Bu gün Ermənistan bazarlarında satılan məhsulların çoxu Türkiyə mənşəlidir. İki ölkə arasında birbaşa ticarət münasibətləri olmadığı üçün həmin mallar əvvəl Gürcüstana, sonra da Ermənistana gətirilir. Bu isə məhsullara iki dəfə gömrük rüsumu ödənilməsi deməkdir. Bunu anlayan Ermənistan Azərbaycanla Zəngəzur dəhlizinin açılması barədə ABŞ-də razılığa gəldilər. Bu razılıq avqustun 8-də dünyanın "birnömrəli ofisi"ndə ABŞ Prezidenti D.Trampın şahidliyi ilə əldə olundu. Prezident İlham Əliyev bununla bağlı mətbuata verdiyi bəyanatda demişdir: "Bu, həqiqətən, tarixi gündür - biz Qafqazda sülhü bərqərar edirik və bu fürsət təkcə bizim regionla məhdudlaşmayacaq. Prezident Trampın düzgün qeyd etdiyi kimi, "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" yeni bağlantı əlaqələri yaradacaq, sədləri aradan qaldıracaq və sərmayələr, firavanlıq, sabitlik sayəsində çoxsaylı ölkələr üçün bağlantı imkanları yaradacaq. Azərbaycan və Ermənistan Sovet İttifaqının süqutu nəticəsində eyni vaxtda müstəqillik əldə edib. Ancaq artıq o vaxt biz müharibə şəraitində idik. Biz müharibələrə, işğal dövrünə və qan tökülməsinə uzun illər sərf etdik. Bu gün tarixi gündür, çünki biz sülhü bərqərar edirik. Prezident Tramp Qafqaza sülh gətirir və biz buna görə ona minnətdarıq. Əminəm ki, Ermənistan ilə Azərbaycan sülhün əldə olunması üçün özlərində cəsarət və məsuliyyət tapacaq, xalqlarımız da barışacaqlar. Biz qarşıdurma və qan tökülməsi səhifəsini çevirəcəyik, uşaqlarımız üçün işıqlı və təhlükəsiz gələcək təmin edəcəyik. Mən çox şadam ki, biz bu gün yeni, gözəl tarix yazırıq".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## *Düşünülmüş siyasət, düzgün taktika*

**Noyabrın 8-də Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbənin 5-ci ildönümünə həsr olunmuş hərbi parad keçirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan, Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif paradda iştirak etdilər.**

Paradda nümayiş olunan yeni silah sistemləri, hərbi texnika, aviasiya və bir də qalib Azərbaycan Silahlı Qüvvələrinin hər bir üzvünün simasındakı məğrurluq və məmnunluq ölkəmizin təhlükəsizliyinin etibarlı əllərdə olduğunu göstərirdi.

Bəs biz bu möhtəşəmliyi necə əldə etmişik?

Xalqımıza yaxşı məlumdur ki, Ali Baş Komandan İlham Əliyev 3 oktyabr 2019-cu ildə Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxış edərkən N.Paşinyanın irrasional, qeyri-adekvat hərəkətlərinə və səsləndirdiyi məsuliyyətsiz bəyanata tutarlı cavab vermişdir: "... Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. ...Bəyanat sözbəsöz belədir: "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə". Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

"Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" şüarı altında Ali Baş Komandan İlham Əliyev sülh yolu ilə torpaqlarımızı qaytarmaq üçün bütün tədbirləri görmüşdü. Lakin Ermənistanın rəhbərləri doğma Qarabağ torpağımızın işğalını davam etdirmək üçün müharibə yolunu seçdilər və layiq olduqları cavabı aldılar.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 2020-ci il sentyabr ayının 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində, 5 il sonra - 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatında Azərbaycan Ordusu misli görünməmiş şücaət göstərərək Qarabağ və Şərqi Zəngəzuru erməni işğalından azad etdi. Bununla ölkəmizin bütün ərazisində suverenliyimiz tam bərpa olundu. Üstəlik, Prezident, Ali Baş Komandan İlham Əliyev son 200 ildə tarixi torpaqlarını ardıcıl şəkildə itirməyə məhkum edilmiş Azərbaycan xalqının milli mənliyini, mənəvi ruhunu və siyasi gücünü özünə qaytardı.

İndi başlıca vəzifə erməni daşnakları tərəfindən viran qoyulmuş doğma Qarabağ və Şərqi Zəngəzur torpaqlarını bərpa edərək soydaşlarımızı yurdlarına qaytarmaqdır. Bu günləri 30 il məcburi köçkün həyatı ata-analarımız, bacı-qardaşlarımız böyük səbirsizliklə gözləyirdilər. Dövlət başçısı bu ülvi arzunu həyata keçirmək üçün 2022-ci il 22 iyul tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nı təsdiqlədi. Bu sənəddə nəzərdə tutulan genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır. Ardınca Prezident 2021-ci il 3 may tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sənədi təsdiqlədi. Bu sərəncamla təsdiq edilmiş Tədbirlər Planı çərçivəsində Azərbaycanın işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl texnologiya"ların və enerji səmərəliliyi tələblərinin tətbiqi üzrə dövlət və özəl təşkilatlar tərəfindən müvafiq tədbirlərin görülməsi nəzərdə tutulurdu. Həmin tədbirlər elektrik enerjisi və qaz təchizatı məqsədilə nəql və paylayıcı şəbəkələrin qurulmasını, Naxçıvandan keçməklə Azərbaycan-Türkiyə-Avropa Enerji Dəhlizinin yaradılmasını, bərpaolunan enerji mənbələrinin potensialının ölçülməsini, Xudafərin və Qız Qalası su-elektrik stansiyalarının, habelə Cəbrayıl rayonunda günəş, Laçın-Kəlbəcər rayonlarında külək-elektrik stansiyalarının tikintisini, "yaşıl texnologiya"ların tətbiqi istiqamətində damüstü günəş enerji sistemlərinin quraşdırılmasını, küçə və yolların işıqlandırılmasında enerji səmərəli "yaşıl texnologiya"ların tətbiqini, nəqliyyat vasitələri üçün elektrikdoldurma məntəqələrinin quraşdırılmasını və s. əhatə edir.

Bu proqramın həyata keçirilməsi tikinti sektorunun qarşısında böyük vəzifələr qoyur. Nəzərə alsaq ki, tikinti sektorunda fəaliyyət göstərən təşkilatların 85 faizi özəl şirkət və səhmdar cəmiyyətlərdir, proqramla onların uğurlu fəaliyyətini tənzimləmək dövlət qurumlarından tələb olunur. İnşaat sektorunda fəaliyyət göstərən tikinti-quraşdırma idarələri və onun maddi-texniki bazasını təşkil edən müəssisələrin kollektivləri də öz növbələrində poqramda nəzərdə tutulan vəzifələrin həyata keçirilməsi üçün əllərindən gələni əsirgəmirlər. Onlar yaxşı bilirlər ki, bu möhtəşəm quruculuq işlərinin həyata keçirilməsi işğaldan azad olunmuş ərazilərin - doğma diyarımızın çiçəklənməsinə, əhalinin maddi rifahının yüksəlməsinə gətirib çıxarır. Prezident İlham Əliyevin sözü ilə desək: "Bu ərazilər cənnətə çevriləcəkdir".

Yeri gəlmişkən qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə aparılan tikinti-quraşdırma işlərinin bir mərkəzdən idarə və nəzarət edilməsi üçün Prezident İlham Əliyev 24 noyabr 2020-ci ildə Prezident Administrasiyasının rəhbəri Samir Nuriyevin başçılığı ilə Əlaqələndirmə Qərargahının yaradılması haqqında sərəncam imzalamışdır. Həmin tarixdən Qarabağ və Şərqi Zəngəzurda aparılan işlər haqqında məlumatları bir qayda olaraq Əlaqələndirmə Qərargahının iclaslarında dinlənilir və müvafiq qərarlar qəbul olunur.



# Hər bir azərbaycanlının Prezidentindən dünyanın liderləri sırasına

Məlumdur ki, Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə bütün quruculuq işlərində yaxından iştirak edir. O da bəllidir ki, bütün şəhərlər və kəndlərin layihələri, baş planların hazırlanmasında dövlət başçısının təklifləri və göstərişləri nəzərə alınmışdır. Şuşa şəhərində, Ağdamda, Zəngilanda, Laçında, Füzulidə, Xocalıda və s. şəhər və kəndlərimizdə istifadəyə verilən sosial xidmət və digər obyektlərin tikintisi Prezidentin müəllifliyi və göstərişləri nəticəsində həyata keçirilmişdir. "Ağıllı" yaşayış məntəqələri ideyasının müəllifi də Prezident İlham Əliyevdir.

İşğaldan azad olunduqdan sonra qısa zamanda bərpa edilən Laçında çox mühüm sosial-infrastruktur layihələri həyata keçirilir. Bu layihələrdən biri də Laçın kanat yoludur. Bu yolun da təməli mayın 27-də Prezident İlham Əliyev tərəfindən qoyulmuşdur. Kanat yolu şəhərin bulvar ərazisində yerləşəcək və iki hissədən ibarət olacaq. Hündürlüyü 300, uzunluğu 1720 metr olacaq 17 kabinəli kanat yolu saatda 800 sərnişinə xidmət edə biləcək. Bu, Qarabağ və Şərqi Zəngəzurda Prezidentin növbəti dəfə təməlini qoyduğu kiçik bir layihədir. 2021-ci il oktyabrın 4-də Müzəffər Ali Baş Komandan İlham Əliyev Cəbrayıl rayonu ictimaiyyətinin nümayəndələri ilə görüşündə isə demişdir: "Biz bütün gücləri səfərbər etmişik və edəcəyik ki, qısa müddət ərzində Cəbrayılı və bütün başqa rayonlarımızı yenidən quraq, bərpa edək".

Ümumiyyətlə, prezidentlik fəaliyyəti dövründə İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün sahələrdə qazandığı uğurlar hər birimizin gözü qarşısında baş verib və baş verməkdə də davam edir. Bu onu sübut edir ki, 2003-cü ildə xalqımız doğru və müdrik qərar verib. Cənab İlham Əliyevin o zaman seçki marafonunda söylədiyi "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" sözləri ötən illər ərzində dəfələrlə özünün əməli təsdiqini tapıb. Bunun isə təməli var. Heydər Əliyev kursunun davamçısı Prezident İlham Əliyev demişdir: "Bizim bütün uğurlarımızın təməlində Heydər Əliyev siyasəti dayanır və bu gün hamımızın borcudur ki, bu siyasəti daha da gücləndirək, onu yeni formalarla zənginləşdirək və Azərbaycan xalqının xoşbəxt gələcəyini əbədi, dönməz edək. Heydər Əliyev siyasəti yaşayır".

30 il öncə Azərbaycan başqa bir ölkə idi. Biz müstəqillik yolunda ilk addımlarımızı atırdıq və bu, çətinliklər, çağırışlar və gözlənilməz hadisələrlə dolu olan bir dövr idi. Əfsuslar olsun ki, Azərbaycanda yaranmış siyasi, ictimai, iqtisadi vəziyyət, 1991-ci ilin oktyabrında müstəqilliyimizin bərpası qonşu Ermənistanın təcavüzü və torpaqlarımızın 20 faizinin işğalı ilə nəticələndi. Üstəlik, 1969-1982-ci illər ərzində respublikada Heydər Əliyevin rəhbərliyi altında yaradılmış yüksək elmi-texniki, iqtisadi və insan potensialı məhv edildi.

Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkə iqtisadiyyatında milli inkişaf tempi hər gün aşağı düşür və ümumi daxili məhsulun (ÜDM) kəskin azalması baş verirdi. Vaxtilə keçmiş ittifaqda aparıcı sənaye respublikası kimi tanınan Azərbaycanın sənaye sektoru yeni müstəqil dövlətlər sırasında ən ağır durumu ilə fərqlənirdi. Ölkə üzrə istehsal sahələrinin böyük bir hissəsi sıradan çıxmış, digərlərinin isə xammal qıtlığı və satış bazarları problemi ilə üzləşmiş, iqtisadiyyat həddindən artıq geriləmiş, işsizlik səviyyəsi artmışdı. Ölkədə qiymət indeksinə və bazara nəzarət tamamilə itmişdi və maliyyə sistemi, demək olar ki, sıradan çıxmışdı.

Ulu Öndərin hakimiyyətə gəlişi ilə öz həqiqi dövlət müstəqilliyinə qovuşmağa başlayan Azərbaycanın inkişaf strategiyası müəyyən edildi. Bu strateji konsepsiya hazırlanarkən ölkəmizin potensial imkanları, milli mənafeləri, qlobal iqtisadi meyillər, geosiyasi reallıqlar və bu qəbildən olan digər vacib amillər nəzərə alındı. Heydər Əliyev həmin illər keçid dövrü ilə əlaqədar islahatlar həyata keçirilməsinin olduqca çətin və mürəkkəb olduğunu yaxşı bilirdi: "Azərbaycan istiqlaliyyət əldə etdiyi vaxtdan bəri öz həyatını, dövlətini, iqtisadiyyatını, öz milli mənafelərini əsas tutaraq demokratiya prinsipləri əsasında qurur. Bu da bütün iqtisadi sistemin ciddi şəkildə yenidən qurulmasını qarşıya bir şərt kimi qoyur. Bununla əlaqədar olaraq Azərbaycan azad iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri əsasında yenidənqurma strategiyasını elan etmişdir və bu yolla gedir. Təbiidir ki, 70 il ərzində başqa sosial-iqtisadi sistem şəraitində yaşamış olan respublika üçün bu yol son dərəcə çətin və mürəkkəbdir. Lakin bununla yanaşı, bu iqtisadiyyatdakı çətinlikləri aradan qaldırmaq, sosial-iqtisadi böhrandan çıxmaq və Azərbaycanı dünya iqtisadi sisteminə qoşmaqdan ötrü iqtisadiyyatın inkişafını beynəlxalq standartlara müvafiq surətdə təmin etmək üçün yeganə yoldur".

Heydər Əliyevin gərgin və əvəzolunmaz fəaliyyəti nəticəsində qısa vaxtda ölkəmizdə siyasi sabitlik bərqərar oldu, atəşkəs əldə edildi, irimiqyaslı iqtisadi islahatlara başlanıldı. Lakin bu möhtəşəm başlanğıcı davam etdirmək üçün zaman lazım idi. Bunu nəzərə alan Heydər Əliyevi Azərbaycanın gələcək inkişafı düşündürməyə bilməzdi. Ulu Öndər 2003-cü il 1 oktyabr tarixində xalqa müraciətində demişdir:

"Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

15 oktyabr 2003-cü ildə böyük səsçoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev isə andiçmə mərasimində demişdir: "Mən öz fəaliyyətimdə Heydər Əliyevin qoyduğu yolu davam etdirərək onun ideyalarını həyata keçirəcəyəm... Hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam... Neftdən gələn gəliri insan kapitalına çevirəcəyəm".

Çox çəkmədi. Ulu Öndərin əsasını qoyduğu üç mühüm beynəlxalq layihə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildi. 2006-cı ildə Azərbaycan xalqının tarixində böyük hadisə baş vermişdir. "Əsrin müqaviləsi" çərçivəsində Xəzər dənizinin Azərbaycan sektorunda hasil olunacaq xam neftin dünya bazarına çıxışını təmin etmək üçün Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri istismara verildi. Bu boru kəmərinin köməyi ilə Xəzərin "qara qızıl"ı Aralıq dənizinin sahillərinə çatdı və dünya bazarlarına çıxarıldı. Sonrakı dövrlərdə mühüm qaz layihələri - Bakı-Tbilisi-Ərzurum qaz kəməri, eləcə də Avropanın enerji təhlükəsizliyinin təminatında başlıca rol oynamaq qabiliyyətinə malik "Cənub qaz dəhlizi" kimi nəhəng layihələr həyata keçirildi. 2007-ci il iyulun 3-də "Şahdəniz" qaz-kondensat yatağından hasil edilən təbii qaz Bakı-Tbilisi-Ərzurum marşrutu üzrə Cənubi Qafqaz qaz boru kəməri ilə Türkiyənin qaz kəmərləri sisteminə daxil oldu. Bununla da Azərbaycan öz neft strategiyasının əsas mərhələsini həyata keçirdi.

Bu gün artıq Azərbaycan regionun aparıcı iqtisadi gücüdür. Ölkəmizin təşəbbüskarı olduğu və tərəfdaşları ilə birgə həyata keçirdiyi qlobal layihələr təkcə Azərbaycanın deyil, qonşu regionların da inkişafına mühüm töhfələr verir.

Prezident İlham Əliyevin şəxsi səyləri nəticəsində Xəzər dənizinin Azərbaycan sektorunda nəhəng Azəri-Çıraq-Günəşli neft yataqları blokunun 2050-ci ilə qədər işlənilməsində yeni dövr başlayıb. 2017-ci il sentyabrın 14-də Bakıda - Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişin imzalanması mərasimi keçirilmiş və Azərbaycanın payı 11,6 faizdən 25 faizə yüksəlmişdir. Azərbaycanın gələcək inkişafı, maliyyə imkanlarının genişləndirilməsi üçün bu müqavilənin çox böyük əhəmiyyəti var. 2020-ci il dekabrın 31-də "Cənub qaz dəhlizi"nin son seqmenti olan Trans-Adriatik boru kəmərinin istismara verilməsi isə Azərbaycan qazının tarixdə ilk dəfə olaraq Avropaya ixracına yol açmışdır.

Amma bunlar da hələ hamısı deyil. 2020-ci il dekabrın 15-də Naxçıvanın enerji müstəqilliyini təmin edəcək İğdır-Naxçıvan qaz kəmərinin tikintisi haqqında Ankarada razılaşma imzalanmış, 2023-cü il sentyabrın 25-də isə qaz kəmərinin təməlqoyma mərasimi keçirilmişdir. 2025-ci il martın 5-də Ankarada Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə İğdır-Naxçıvan qaz kəmərinin açılış mərasimi olmuşdur. İğdır-Naxçıvan qaz boru kəməri layihəsi Naxçıvanın qaz təchizatını şaxələndirməklə yanaşı, həm Naxçıvan, həm də İğdır əhalisinin rifahına xidmət edəcək. Layihənin daha bir özəlliyi ondan ibarətdir ki, bu gün kəmərin maksimum ötürmə gücü 730 milyon kubmetrdirsə, gələcəkdə layihənin genişləndirilməsi imkanları da var.

2025-ci il 16 noyabr, Özbəkistanın paytaxtı Daşkənd. Mərkəzi Asiya Dövlət Başçılarının burada keçirilən 7-ci Məşvərət Görüşünə Prezident İlham Əliyev də dəvət olunmuşdur. Dövlətimizin başçısı həmin tədbirdəki çıxışında demişdir: "Azərbaycan Mərkəzi Asiya ölkələri ilə müttəfiqlik və strateji tərəfdaşlıq, o cümlədən birgə investisiya fondlarının yaradılması haqqında müqavilə və bəyannamələr imzalayıb. Mütəmadi olaraq keçirilən mədəniyyət günləri, sərgilər, konsertlər xalqlarımızı daha da yaxınlaşdırır, bizim yaxınlığımızı, dostluğumuza verdiyimiz dəyəri nümayiş etdirir. Azərbaycan Cənubi Qafqazda yerləşsə də, bu gün fəal qarşılıqlı fəaliyyət sayəsində Mərkəzi Asiya və Azərbaycan artıq qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artan vahid geosiyasi və geoiqtisadi regiondur. Biz müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edir, bir-birimizin təşəbbüslərini dəstəkləyir, qlobal və regional problemlərin həllində ümumi yanaşmalar işləyib hazırlayırıq. Ölkəmiz öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi üzrə genişmiqyaslı işlərə başlayıb. Biz bu məsələdə Mərkəzi Asiya ölkələrinin Azərbaycana göstərdiyi qardaş dəstəyini yüksək qiymətləndiririk".

Azərbaycanda sosial və mədəni proqramların həllinə xüsusi diqqət göstərilir. İldən-ilə mənzil, mədəni-məişət obyektlərinin tikintisinə, ümumtəhsil məktəblərinə və səhiyyə obyektlərinə sərmayə qoyuluşu artırılır. Prezident İlham Əliyevin diqqət və qayğısı, eyni zamanda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü və dəstəyi ilə ölkə üzrə təhsil, səhiyyə, mədəniyyət və idman obyektlərinin tikintisi və yenidən qurulması sahəsində irimiqyaslı layihələr həyata keçirilir. Qısa vaxtda paytaxtda və regionlarda 3630 məktəb, 760-dək səhiyyə müəssisəsi tikilib və ya əsaslı təmir olunmuşdur. Bütün regionlarda - şəhərlərdə, kəndlərdə yeni yollar salınmış, dəmir yolları çəkilmiş və ya əsaslı təmir olunmuş, müasir tipli yeni hava limanları inşa edilmişdir.

Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Energetika Nazirliyinin məlumatına əsasən, ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 QVt-dır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 QVt, o cümlədən külək enerjisi üzrə 3000, günəş enerjisi üzrə 23000, bioenerji potensialı 380, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir. Azərbaycanın ümumi elektrik enerjisi istehsalı gücü isə 8320,8 MVt, o cümlədən iri su-elektrik stansiyaları daxil olmaqla bərpaolunan enerji mənbələri üzrə elektrik stansiyalarının gücü 1687,8 MVt-dir ki, bu da ümumi gücün 20,3 faizini təşkil edir.

2024-cü il noyabrın 12-də COP29 çərçivəsində Cəbrayıl rayonunda 240 MVt gücündə Şəfəq Günəş-Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilib. Bu stansiya işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən ilk sənaye miqyaslı günəş enerjisi və ən böyük birbaşa xarici investisiya layihəsidir.

Prezident İlham Əliyev demişdir: "Bizim bütün uğurlarımızın təməlində Heydər Əliyev siyasəti dayanır və bu gün hamımızın borcudur ki, bu siyasəti daha da gücləndirək, onu yeni formalarla zənginləşdirək və Azərbaycan xalqının xoşbəxt gələcəyini əbədi, dönməz edək".

Həqiqətən, Heydər Əliyev müstəqil Azərbaycanın xilaskarı, qurucusu və memarıdır. Ulu Öndərin davamçısı Prezident, Ali Baş Komandan İlham Əliyev isə müasir Azərbaycanın Zəfər tarixini yazaraq qalib Azərbaycan xalqının və dövlətinin, eləcə də dünya azərbaycanlılarının liderinə çevrilmişdir. Bu gün 34 ildən artıq müstəqil Azərbaycanın maneələrlə dolu yolları keçərək siyasi, sosial-iqtisadi inkişafı, güclü ordusu, çoxmillətli xalqların əmin-amanlıq şəraitində yaşaması, əsrlər boyu mövcud olmayan millət və dövlət həmrəyliyi, Azərbaycanın milli kimliyi İlham Əliyevin rəhbərliyi ilə əldə edilmişdir. Odur ki, İlham Əliyev müzəffər lider, Qarabağ fatehi, siyasi sabitlik, inkişaf, daxili sabitlik və müasirlik simvolu kimi hər bir Azərbaycan vətəndaşının şüurunda və yaddaşında daim yaşayacaq. İlham Əliyev dünyada ən məşhur elm ocaqlarından sayılan beynəlxalq miqyasda nüfuza malik olan Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu uğurla başa vurmuş, müasir diplomatiyanın incəliklərini bilən peşəkar siyasətçi, beynəlxalq müstəvidə strateji məsələlərin həllində dərin incəlikləri bilən, müstəsna istedada malik diplomat, 5 dildə sərbəst danışmağı bacaran, böyük idarəçilik qabiliyyətinə malik müdrik şəxsiyyət, qətiyyətli, məsuliyyətli, tələbkar, çevik, qarşısında duran problemlərin həllində maksimalist, dövlətə, xalqa, torpağa sonsuz bağlı olan, milli-mənəvi və əxlaqi dəyərlərimizi, dilimizi qoruyan dövlət başçısıdır. İlham Əliyev siyasətin iqtisadiyyatını, iqtisadiyyatın siyasətini dərindən bilən, mükəmməl iqtisadi nəzəriyyə və siyasi düşüncəyə sahib Prezidentdir. İlham Əliyev Azərbaycan xalqının əsrlərlə yığılmış misilsiz qayğılarını öz üzərinə götürmüş, Qarabağın və Şərqi Zəngəzurun xilaskarı və qurucusu olan Müzəffər Ali Baş Komandan. Ən nəhayət, İlham Əliyev unudulmaz Heydər Əliyevin əvəzedilməz davamçısı, ideyalarının daşıyıcısıdır.

***Eldar NURİYEV,***
***Azərbaycan İnşaat və Memarlıq ETİ-nin şöbə müdiri, iqtisadiyyat üzrə fəlsəfə doktoru***

# 2026-cı ilin dövlət büdcəsi Azərbaycanın inkişafına, rifahına və təhlükəsizliyinə xidmət edəcək

## Dövlət suverenliyimizin iqtisadi əsaslarının möhkəmləndirilməsi yeni büdcə zərfinin prioritet hədəfidir

### Fiskal dayanıqlığa hədəflənən proaktiv büdcə zərfi

Büdcə dayanıqlığına fokuslanma yeni büdcə zərfinin həm hədəfi, həm prinsipi, həm də başlıca xüsusiyyətidir. Bu o deməkdir ki, dövlət xərcləri uzunmüddətli gəlir bazası ilə uyğunlaşsın, gəlirlər konyuktur amillərdən asılı olmasın, büdcə kəsiri idarəolunan səviyyədə saxlanılsın, dövlət borcu əlavə öhdəliklər yaradaraq büdcənin yükünü artırmasın. Başqa sözlə desək, dayanıqlı büdcə mahiyyətcə dayanıqlı gəlirlərə əsaslanan büdcədir.

Makroiqtisadi sabitliyi qorumaq, o cümlədən antiinflyasiya siyasətini dəstəkləmək, maliyyə sabitliyinə xələl gətirməmək büdcə zərfinin missiyası olmaqla bərabər həm də fundamental özəlliyidir. Nəzərdə tutulan makro-fiskal çərçivədə büdcə siyasəti ilə pul siyasətinin uzlaşdırılması inflyasiyanı cilovlamağa imkan verəcəkdir.

Təqdim edilmiş büdcə zərfi xüsusiyyətinə görə proaktiv və ölçülü, başqa sözlə, önləyici və tədbirli fiskal siyasət mesajı verir. İqtisadi artım meyilləri xərcləmələrin konservativ artımı ilə müşayiət edilirsə, deməli, hökumət qabaqlayıcı və məsuliyyətli büdcə siyasəti həyata keçirir. Bu gələcəkdə müəyyən "ehtiyatlar" formalaşdırmaqla büdcə üçün manevr imkanları da yaradır.

### 2026-cı ilin dövlət büdcəsi: kəmiyyət dəyişikliklərindən - keyfiyyət dəyişikliklərinə

Büdcə zərfinin başlıca xüsusiyyətlərindən biri kəmiyyət dəyişikliklərindən keyfiyyət dəyişikliklərinə keçilməsi, başqa sözlə, keyfiyyət parametrlərinin və meyarlarının əsas götürülməsidir. Bu o deməkdir ki, büdcə zərfi sadəcə artım faizləri ilə deyil, dayanıqlıq və fiskal risklərdən sığortalanma qabiliyyəti ilə dəyərləndirilir.

Növbəti ilin dövlət büdcəsinin mühüm xüsusiyyətlərindən biri iqtisadiyyatımızda və sənayedə müşahidə edilən struktur dəyişikliklərinin dövlət gəlirlərində əks olunması və büdcəyə ciddi keyfiyyət məzmunu verməsidir.

Belə ki, 2026-cı il üzrə proqnozlaşdırılan dövlət büdcəsi gəlirlərinin 43 faizi və ya 16,4 mlrd. manatı neft, 57 faizi və ya 22,2 mlrd. manatı isə qeyri-neft iqtisadiyyatının payına düşür.

2025-ci ilin proqnozu ilə müqayisədə neft-qaz gəlirləri 1,9 mlrd. manat və ya 10,2 faiz azaldığı halda, qeyri-neft-qaz iqtisadiyyatının gəlirləri 2,1 mlrd. manat və ya 10,6 faiz çox nəzərdə tutulur.

Bu tendensiyanın nəticəsi olaraq, cari xərclərin qeyri-neft gəlirləri hesabına örtülməsi 2025-ci il üçün 81 faiz proqnozlaşdırıldığı halda 2026-cı ildə onun 88 faizə, 2029-cu ildə 100 faizə çatdırılması nəzərdə tutulur. Etibarlı büdcə dayanıqlığı üçün bu nisbəti arifmetik deyil, məhz real əsaslarla, eyni zamanda fiskal dayanıqlıqla fiskal yük arasında optimal tarazlığı gözləməklə təmin edilməlidir.

Gəlirlər üzrə başqa bir keyfiyyət parametri ötən ilin məlumatlarına əsasən, qeyri-neft qaz vergi daxilolmalarında özəl bölmənin payının 76 faizi keçməsidir. Bu yeniləşən milli iqtisadiyyatın və büdcənin həm struktur, həm də institusional göstəricisidir.

*(Əvvəli qəzetin 23 dekabr tarixli sayında)*

### Dövlət Neft Fondunun büdcəyə transfertinin azaldılması keyfiyyət və dayanıqlıq göstəricisi kimi

Gələn ilin büdcə zərfini fərqləndirən daha bir mühüm cəhət Dövlət Neft Fondundan transfertin cari illə müqayisədə 1646 mln. manat və ya 11,4 faiz azaldılaraq 12,8 mlrd. manat nəzərdə tutulmasıdır. Belə bir yanaşma bir tərəfdən fondun 70 milyard dolları keçən aktivlərinin qorunmasına, digər tərəfdən də dövlət büdcəsinin neft gəlirlərindən asılılığının daha da azalmasına şərait yaradır. Belə ki, transfertin dövlət büdcəsi gəlirlərindəki payı 2020-ci ildəki 49 faizdən, 2025-ci ilin sonuna 38 faizə, 2026-cı ildə 33 faizə enəcəkdir.



Orta müddətdəki dövrdə hər iki göstəricinin - həm fonddan büdcəyə transfertin məbləğinin, həm də büdcə gəlirlərində transfertin payının azaldılması planlaşdırılır. Bu, hökumət tərəfindən qarşıdakı 3 il ərzində büdcə qaydasına uyğun olaraq, icmal büdcənin qeyri-neft baza kəsirinin aşağı həddə saxlanılması hədəfi ilə bağlıdır.

Müsbət haldır ki, Dövlət Neft Fondunun hətta transfertləri nəzərə alınmasa belə, büdcə gəlirlərimiz artım dinamikasına malikdir. Belə ki, transfertsiz büdcə gəlirləri 2023-cü ildə 23,5 mlrd. manat təşkil etdiyi halda, cari ilin sonuna 24,7 mlrd. manat, 2026-cı ildə isə 25,8 mlrd. manat gözlənilir. Rəqəmlərdən göründüyü kimi, 2026-cı ildə büdcə gəlirlərinin 0,7 faiz artımı fonunda transfertsiz gəlirlərimiz 4,5 faiz artacaqdır.

### Büdcənin konservativ artımı onun zəif bəndidir, yoxsa güclü tərəfidir?

Dövlətin gəlir və xərclərinin konservativ artımı növbəti ildə nəzərdə tutulan büdcə siyasətinin mahiyyətindən və fəlsəfəsindən irəli gəlir. Bu məsələnin üzərində xüsusi olaraq dayanmaq istərdim. Belə ki, ictimai müzakirələrin gedişində aşağı artım tempini büdcə zərfinin zəif bəndi kimi təqdim edənlər də oldu, az qala maliyyə böhranı kimi xarakterizə edənlər də. Bu fikirlər mövcud reallıqları doğru-düzgün əks etdirmir və dövlətin iqtisadi siyasətini təhrif edir.

2026-cı ildə gəlirlərin 253 milyon manat, xərclərin isə 296 milyon manat olmaqla 0,7 faizlik mühafizəkar artımı dövlət büdcəsinin zəif deyil, biz hesab edirik ki, məhz güclü tərəfidir. Neft Fondundan büdcəyə transfert azalmasaydı, həm gəlir, həm də xərclər 5 faizə kimi arta bilərdi. Lakin bu cür artımlar dayanıqlı büdcə prinsipi ilə uzlaşmır, orta və uzunmüddətli dövrdə ciddi fiskal risklər yarada bilər.

Ümumiyyətlə, iqtisadi siyasəti, o cümlədən büdcə zərfini dəyərləndirərkən onun parametrlərinə qısamüddətli rakursda deyil, orta və uzunmüddətli perspektivdə baxmalıyıq. Belə ki, bəzi göstəricilər qısamüddətli dövrdə zəif bənd təəssüratı yaratsa da, perspektiv dövrdə o güclü bənd kimi çıxış edir.

Dünyanın heç bir ölkəsində büdcənin aşağı rəqəmli artımı patologiya kimi qəbul edilmir. Çünki büdcənin qiymətləndirmə meyarı onun artım dinamikası deyil, dayanıqlı olması, maliyyə resurslarının ünvanlı bölgüsü və səmərəli istifadəsidir.

Büdcənin dinamikası iqtisadı artımla, inflyasiya səviyyəsi ilə uzlaşdırılmalıdır. İqtisadi artım tempini və inflyasiyanın səviyyəsini qabaqlayan xərc artımları birmənalı olaraq makroiqtisadi sabitliyi pozur. Xərclərin daha az artımı maliyyə-büdcə problemini deyil, hökumət tərəfindən xərclərin optimallaşdırılması və maliyyə intizamının gücləndirilməsi təşəbbüslərini göstərir.

Bir çox ölkənin təcrübəsinə əsasən qeyd edə bilərik ki, daha çox xərcləmək heç də həmişə inkişaf və rifah gətirmir. Əksinə, nə qədər təzadlı görünsə də, bir çox hallarda makroiqtisadi və sosial baxımdan fəsadlar doğura bilir.

### Vergi təşviqləri ilə dəstəklənən dövlət büdcəsi

Büdcə zərfi ilə bağlı səslənən fikirlərdən biri bundan ibarətdir ki, guya hökumət vergiləri artırmaqla büdcə gəlirlərini təmin etmək niyyətindədir. Bu fikirlər də reallığı əks etdirmir. Büdcə daxilolmaları vergi yükünü artırmaq hesabına təmin edilsəydi, nə üçün cəmi 0,7 faiz artırdı? Məqsəd vergi yükünü artırmaqdırsa da, nə üçün dövlət tərəfindən növbəti ildə büdcə gəlirlərinin 17 faizi həddində, yəni 6,6 milyard manatlıq vergi-gömrük güzəşt və azadolmaları tətbiq edilir?

2026-cı ilin büdcə zərfi çərçivəsində Vergi Məcəlləsinə dəyişikliklər edilmişdir. Bu dəyişikliklər biznes və vətəndaşlar üçün nə vergi yükünü artırır, nə "qeyri-stabillik yaradır", nə də "biznesin planlaşdırılmasını çətinləşdirir". Əksinə, yeni sahələr üzrə təşviqlərin verilməsini, vergi yığımı bazasının genişləndirilməsini, kölgə iqtisadiyyatı ilə mübarizə tədbirlərinin gücləndirilməsini, daxili bazarın qorunmasını, idxaldan asılılığın azaldılmasını, vergi inzibatçılığının təkmilləşdirilməsini nəzərdə tutur.

Vergi Məcəlləsinə dəyişikliklər, ilk növbədə, qeyri-neft özəl sektorda əməkhaqqı gəlirləri üzrə fiskal yükün tənzimlənməsi ilə bağlıdır.

2019-cu ildən qeyri-neft sektorunun özəl bölməsində muzdla işləyən şəxslərin aylıq gəlirlərinə vergi və sosial sığorta haqları üzrə güzəşt mexanizmi tətbiq edilir. Aparılmış islahatın məqsədi sahibkarlar və işəgötürənlər üçün əlverişli vergi-investisiya mühitinin yaradılması, işçi sayının və əməkhaqqının əhəmiyyətli leqallaşması olmuşdur.

İslahatlar nəticəsində qeyri-neft və qaz sektorunun özəl bölməsi üzrə əmək müqavilələrinin sayında 2 dəfəyədək, əməkhaqqı fondunda 2 dəfədən çox artımlar əldə edilmişdir.

2026-cı ildə güzəşt dövrü başa çatır və gəlir vergisi 2500 manatadək gəlirlər üzrə 14 faiz, 2500 manatdan artıq gəlirlər üzrə isə 25 faiz tətbiq olunmalıdır. Ancaq Vergi Məcəlləsinə təklif olunan dəyişikliklər 2019-cu ildən əvvəlki vergi dərəcələrinin olduğu kimi yenidən bərpasını deyil, yeni güzəştli rejimin tətbiqini nəzərdə tutur. Belə ki, 2500 manatadək gəliri olan şəxslər üzrə gəlir vergisi 14 faiz əvəzinə 2026-cı ildə 3 faiz, 2027-ci ildə 5 faiz, 2028-ci ildən isə 7 faiz dərəcə ilə tətbiq ediləcək. Bu addım sahibkarlara və işçilərə yeni vergi qaydalarına rahat uyğunlaşmağa kömək edəcək.

Həmçinin işğaldan azad edilmiş ərazilər üzrə müəyyən edilmiş vergitutma rejiminin eynilə Naxçıvan Muxtar Respublikasına da şamil edilməsi nəzərdə tutulur. Belə ki, 2026-cı il yanvarın 1-dən etibarən 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən azadetmə tətbiq ediləcək. Bu dəyişikliyin məqsədi muxtar respublikada iqtisadi fəallığın artırılması, investisiyaların cəlbi, məşğulluq səviyyəsinin və rifahın yüksəldilməsidir.

Dəyişikliyə əsasən, həm də muxtar respublikada sığortaedənlər tərəfindən işçilərə görə ödənilən məcburi dövlət sosial sığorta haqlarının subsidiyalaşdırılması təklif edilir.

Vergi Məcəlləsinə edilən dəyişikliklər həmçinin nağdsız əməliyyatların təşviq edilməsini, qanunsuz sahibkarlıqla mübarizəni, kənd təsərrüfatına dəstəyin artırılmasını, balıqçılığın inkişafını, fərdi sahibkarların sosial sığorta yükünün optimallaşdırılmasını, yerli avtomobil istehsalına dəstəyin genişləndirilməsini, dövlət-özəl tərəfdaşlığı layihələrinin stimullaşdırılmasını, media fəaliyyətinə dəstəyin davam etdirilməsini, aksizli malların siyahısının genişləndirilməsini, bir sıra mallara tətbiq edilən aksiz dərəcələrinin mərhələli artırılmasını və sairəni əhatə edir.

### Proqnoz göstəricilərdən real xəzinəyə

Nəzərə almalıyıq ki, büdcə zərfi mühüm strateji sənəd olmaqla yanaşı, mahiyyətcə, dövlətin gəlir və xərcləri üzrə qanunla təsdiq edilən proqnoz rəqəmlərdir. Bu proqnoz göstəricilərin real xəzinəyə - dövlət xərcləmələrinə çevrilməsi vergi daxilolmaları hesabına büdcə gəlirlərinin formalaşdırılmasından asılıdır. Bunun üçün milli iqtisadiyyatımızın gəlir yaratmaq qabiliyyəti gücləndirilməli, iqtisadi imkanlarımız səfərbər olunmalı, sahibkarlıq potensialı tam hərəkətə gətirilməlidir.

Özəl sektorun ÜDM-də 81 faiz, tikintidə 89, məşğulluqda 79, xidmət sektorunda 72 faiz paya malik olması Azərbaycanda sahibkarlığın inkişafına dövlət dəstəyinin nəticəsidir. Bu göstəricilər eyni zamanda sahibkarların iqtisadi quruculuq prosesində fəal iştirakını təsdiq edir. Ölkəmizin bugünkü inkişaf mərhələsində artıq özəl şirkətlər, hətta hərbi sənaye quruculuğuna cəlb edilir. Bu həm də dövlətimizin özəl sektora etibarı və etimadıdır. Sahibkarlıq potensialından nə qədər səmərəli istifadə edilərsə, onun iqtisadi artıma və rifaha da bir o qədər ciddi töhfəsi olacaqdır.

Büdcə konsolidasiyasının iqtisadi artım tempini qısamüddətli dövrdə zəiflədə biləcəyini nəzərə alaraq, stimullaşdırıcı tədbirlərin dairəsini genişləndirməliyik. Nəzərə alınmalıdır ki, makroiqtisadi stabilliyin bir sütunu büdcə dayanıqlığı və maliyyə sabitliyidirsə də, digər sütunu davamlı iqtisadi artımdır. Bu baxımdan, fiskal, monetar, sənaye-investisiya, başqa sözlə, artım siyasətlərinin bir-biri ilə uzlaşdırılaraq vahid iqtisadi siyasətdə optimal bir şəkildə birləşdirilməsini vacib hesab edirik.

Büdcə xərclərinin optimallaşdırılması çərçivəsində səmərəsiz xərclərin müəyyən edilməsi üçün konkret qiymətləndirmə meyarları tətbiq edilə bilər.

Büdcə zərfi mahiyyətcə maliyyə təhlükəsizliyi tədbirlərindən ibarətdir. Dövrün reallıqlarını və çağırışlarını nəzərə almaqla sosial, iqtisadi, maliyyə, enerji, ərzaq, su təhlükəsizliyi sahəsində tədbirləri əhatə edən Vahid İqtisadi Təhlükəsizlik Konsepsiyasının işlənib hazırlanmasını təklif edirik.

Həmçinin büdcə reqlamentinin təkmilləşdirilməsini, qeyri-neft gəlirlərinin və cari xərclərin hesablanması metodologiyasına, icmal büdcənin struktur komponentlərinə yenidən baxılmasını da vacib hesab edirik.

### Azərbaycan Cənubi Qafqazda möhkəmlənən regional güc kimi

Prezident İlham Əliyev qeyd etmişdir ki, "Azərbaycanın həm Cənubi Qafqazda möhkəmlənməsi, həm daha böyük coğrafiyada önəmli ölkəyə çevrilməsi prosesi bundan sonra da uğurla gedəcək".

Heç şübhəsiz, Azərbaycan regionda dünən də güclü idi, bu gün də güclüdür və müəyyən edilmiş hədəfə doğru irəliləyərək sabah daha da güclü olacaq, daha böyük coğrafiyada, o cümlədən böyük türk dünyasında regional güc mərkəzi olaraq rolu daha da artacaqdır.

Cənubi Qafqaz üzrə regional iqtisadiyyatın yarıdan çoxu Azərbaycanın payına düşür. Təkcə qeyri-neft sektorunun həcmi region üzrə iki qonşu ölkənin ayrı-ayrılıqda ÜDM-dən xeyli çoxdur. Dövlət büdcəmizin qeyri-neft gəlirləri də hər iki ölkənin büdcə gəlirlərini üstələyir.

Sülh gündəliyinin de-fakto reallaşdırılmasından sonra yeni bir tarixi mərhələyə qədəm qoyuruq. Dövlətimiz döyüş meydanında qətiyyətlə və ləyaqətlə döyüşdüyü kimi, əməkdaşlıq müstəvisində də dostluğu və tərəfdaşlığı səmimiyyətlə və ləyaqətlə edir.

Azərbaycan söz sahibi olan regional güc kimi qonşularının da iqtisadi inkişafında maraqlıdır. Biz iqtisadi problemlərimizi bildiyimiz qədər, iqtisadiyyatımızın gücünü və qüdrətini, inkişaf potensialını və imkanlarını, istifadə edilməmiş resurslarını və perspektivlərini də çox yaxşı bilirik.

Azərbaycan Cənubi Qafqazda iqtisadi arxitekturanı müəyyənləşdirən lider dövlətdir. Ölkəmiz qarşılıqlı faydalı əməkdaşlığın formalaşmasına töhfə verməyə hazırdır. Lakin, nəzərə alınmalıdır ki, regionun dayanıqlı iqtisadi inkişafı, iqtisadi inteqrasiya perspektivləri yalnız və yalnız sülh gündəliyinə əməl etməkdən keçir.

### Dövlətimizin gücü təkcə onun büdcəsi ilə deyil, həm də artan beynəlxalq nüfuzu ilə müəyyənləşir

Bu gün dövlətimizin gücü təkcə onun büdcəsi, valyuta ehtiyatları ilə müəyyən olunmur. Bu güc hər şeydən əvvəl Azərbaycanın beynəlxalq nüfuzu, öz lideri ətrafında birləşmiş müdrik xalqın dəstəyi, ölkənin əmin-amanlığı, təhlükəsizliyi və sabitliyi ilə, ən başlıcası isə Prezident İlham Əliyevin strateji idarəçilik məharəti ilə ölçülür.

Xatırlatmaq istərdim ki, ölkəmizdə ÜDM-in və büdcə gəlirlərinin 30-35 faiz artım nümayiş etdirdiyi illər olub. Lakin həqiqət bundan ibarətdir ki, indi iqtisadi artımın 2,9 faiz, büdcə artımının 0,7 faiz təşkil etdiyi bugünkü Azərbaycan həmin illərdən dəfələrlə həm güclüdür, qüdrətlidir, həm də daha artıq dərəcədə nüfuzludur. Prezident İlham Əliyevin təbirincə desək, Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb.

Milli iqtisadiyyatımız orta və uzunmüddətli dövrdə ciddi inkişaf perspektivlərinə malikdir. Dövlət investisiyalarının yönəldiyi sahələrin yaxın gələcəkdə tam dövriyyəyə cəlb olunması, iqtisadi fəallığı artırmaqla yanaşı, yeni əlavə dəyər yaradacaqdır.

Qarşıdakı dövr sahibkarlıq potensialının tam reallaşdırılması, özəl sərmayələrin, o cümlədən xarici investisiyaların milli iqtisadiyyatımıza daha geniş cəlb edilməsi ilə səciyyələnəcəkdir. Bu isə həm dayanıqlı büdcənin, həm də davamlı iqtisadi artımın əsas şərtlərindən biridir.

Biz torpaqlarımızı azad etdik, indi isə iqtisadi və siyasi müstəvidə suverenliyimizi möhkəmləndiririk. Yeni mərhələdə də Prezident İlham Əliyevin rəhbərliyi ilə milli maraqlarımıza söykənən prinsipial dövlət siyasətinin həyata keçirilməsini davam etdiririk. Əminik ki, 2026-cı ilin dövlət büdcəsi qarşıdakı dövrdə çox mühüm, taleyüklü strateji vəzifələrin icrası, xüsusilə də dövlət suverenliyimizin möhkəmlənməsi üçün etibarlı maliyyə əsasları yaradacaqdır.

Eyni zamanda əsas hədəfi dayanıqlılıq, səmərəlilik və keyfiyyət dəyişiklikləri olan dövlət büdcəmiz sosial rifah, iqtisadi inkişaf, təhlükəsizlik büdcəsi kimi səmərəli icra olunacaq və növbəti ildə öz missiyasını uğurla başa vuracaqdır.

***Azər ƏMİRASLANOV,***
***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri***

# Azərbaycan-Monteneqro iqtisadi əməkdaşlığı nə vəd edir

## İmkanlar çox, perspektivlər genişdir

Azərbaycan beynəlxalq iqtisadi əməkdaşlığa böyük önəm verən ölkələrdəndir. Bu əməkdaşlıq Balkan regionu dövlətlərini də əhatə edir. Həmin ölkələrdən biri də Monteneqrodur. Azərbaycan ilə Monteneqro arasında mövcud olan iqtisadi əlaqələr qarşılıqlı maraqlara əsaslanır və illər keçdikcə inkişaf etməkdədir.



İki ölkə arasında iqtisadi münasibətlər əsasən ticarət, enerji, turizm və investisiya sahələrində özünü göstərir. Azərbaycan öz enerji resursları və iqtisadi potensialı ilə Monteneqro üçün maraqlı tərəfdaş hesab olunur. Monteneqro isə coğrafi mövqeyi və turizm imkanları baxımından Azərbaycanla əməkdaşlıq imkanlarına malikdir. Azərbaycan-Monteneqro münasibətlərinin inkişafında qarşılıqlı rəsmi səfərlər və yüksəksəviyyəli görüşlər mühüm rol oynayıb. Xüsusilə dövlət başçıları səviyyəsində həyata keçirilən səfərlər iki ölkə arasında siyasi dialoqun möhkəmlənməsinə və iqtisadi əməkdaşlığın genişlənməsinə şərait yaradıb.

Prezident İlham Əliyevin 2013-cü ildə Monteneqroya rəsmi səfəri ikitərəfli münasibətlərin yeni mərhələyə qədəm qoymasında əhəmiyyətli hadisə kimi yadda qalıb. Həmin səfər zamanı iqtisadi əməkdaşlıq, investisiya imkanları və müxtəlif sahələrdə qarşılıqlı əlaqələrin inkişafı müzakirə edilmişdi. Monteneqro Prezidenti Yakov Milatoviçin 2024-cü ilin noyabrında COP29 çərçivəsində Azərbaycana səfəri də iki ölkə arasında əlaqələrin davamlı xarakter daşıdığının göstəricisidir. Bu səfər çərçivəsində enerji, iqlim dəyişikliyi və iqtisadi əməkdaşlıq məsələləri diqqət mərkəzində olmuş, tərəflər arasında əməkdaşlığın genişləndirilməsi imkanları vurğulanmışdır.

Qeyd edək ki, Azərbaycan və Monteneqro parlamentləri arasında da əməkdaşlıq uzunmüddətli və məhsuldardır. Parlamentlərdə fəaliyyət göstərən dostluq qrupları qarşılıqlı təmasları gücləndirir, qanunvericilik sahəsində təcrübə mübadiləsinə şərait yaradırlar. Həmçinin qanunverici orqanlar arasında qarşılıqlı səfərlər və görüşlər siyasi dialoqun inkişafına, etimadın möhkəmlənməsinə və ikitərəfli münasibətlərin daha çox genişlənməsinə imkan verir. Bu baxımdan, 2024-cü ilin aprelində Milli Məclisin Sədri Sahibə Qafarovanın Monteneqroya rəsmi səfəri xüsusi əhəmiyyət kəsb edir. Həmin səfərin məntiqi davamı olaraq bu günlər Sahibə Qafarova Monteneqro Baş nazirinin müavini, xarici işlər naziri Ervin İbrahimoviçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə qeyd etdiyimiz qarşılıqlı səfərlərdən bəhs olunub və bunun iki ölkə arasındakı dostluq münasibətlərinin inkişafına mühüm töhfə verdiyi diqqətə çatdırılıb. Bundan başqa, ölkələr arasında iqtisadiyyat, turizm, investisiya və digər sahələrdə əməkdaşlıq məsələləri nəzərdən keçirilib.

Onu da əlavə edək ki, Azərbaycan ilə Monteneqro arasında ticarət dövriyyəsi hələlik böyük həcmdə olmasa da, artım potensialına malikdir. İki ölkənin ticarət əlaqələri əsasən idxal və ixrac əməliyyatları, eləcə də biznes subyektləri arasında əməkdaşlıq vasitəsilə həyata keçirilir. Qarşılıqlı iqtisadi maraqlar ticarət münasibətlərinin genişləndirilməsi üçün imkanlar yaradır. Bu sahədə hüquqi baza və ikitərəfli razılaşmalar ticarət əlaqələrinin inkişafına müsbət təsir göstərir.

Enerji sahəsi Azərbaycan-Monteneqro iqtisadi əlaqələrinin perspektivli istiqamətlərindən biridir. Azərbaycan enerji resursları və bu sahədə əldə etdiyi təcrübə ilə Avropa və Balkan regionu ölkələri üçün etibarlı tərəfdaş kimi çıxış edir. Monteneqro isə enerji təhlükəsizliyi və alternativ enerji mənbələrinin inkişafı baxımından Azərbaycanla əməkdaşlıqda maraqlıdır.

Turizm sahəsində də iki ölkə arasında əməkdaşlıq imkanları mövcuddur. Monteneqronun Adriatik dənizi sahilində yerləşməsi və təbii gözəllikləri, Azərbaycanın isə zəngin mədəni irsi və turizm infrastrukturu qarşılıqlı turist axınının artmasına şərait yarada bilər. Bu sahədə əməkdaşlıq xalqlar arasında mədəni əlaqələrin möhkəmlənməsinə xidmət edir.

Ervin İbrahimoviç səfər çərçivəsində Azərbaycanın maliyyə naziri, Azərbaycan və Monteneqro Hökumətləri arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın həmsədri Sahil Babayevlə də görüşərək, iki ölkə arasında maliyyə sahəsində əməkdaşlıq imkanlarını müzakirə edib. Tərəflər ticarət əlaqələrinin genişləndirilməsi, investisiya layihələrinin maliyyələşdirilməsi, vergi və maliyyə tənzimləmələri, eləcə də bank və maliyyə sektorunda əməkdaşlıq imkanlarını müzakirə edib, iki ölkənin maliyyə sistemləri arasında təcrübə mübadiləsinin artırılması, investisiya təhlükəsizliyi və uzunmüddətli iqtisadi layihələrin dəstəklənməsi məsələlərinə diqqət yetiriblər. Bu danışıqlar qarşılıqlı iqtisadi maraqların gücləndirilməsinə və maliyyə sahəsində əməkdaşlığın bir qədər də dərinləşməsinə xidmət edir.

Qeyd edildiyi kimi, enerji və turizm əməkdaşlıq üçün geniş perspektivli sahələrdir. Bu fonda investisiya sahələrində hüquqi baza və ikitərəfli razılaşmalar iqtisadi əlaqələrin genişlənməsinə müsbət təsir göstərir. Ona görə də bu perspektivlər çərçivəsində tərəflər gələcəkdə əməkdaşlığın konkret layihələr vasitəsilə genişləndirilməsinə hazırdırlar. Bu mənada 2026-cı ilin mart ayında keçiriləcək Birgə Komissiyanın növbəti iclasında ticarətin şaxələndirilməsi, qeyri-neft sektoruna investisiyalar, "yaşıl enerji", turizm, infrastruktur, kiçik və orta sahibkarlıq sahələrində əməkdaşlıq məsələləri geniş şəkildə müzakirə olunacaq.

Hələliksə qarşıda bir il var. O zamana kimi Azərbaycanla Monteneqro arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsi, investisiya layihələrinin reallaşdırılması istiqamətində addımların atılması gözlənilir. Proses iki ölkə arasındakı iqtisadi dialoqun dərinləşməsinə və qarşılıqlı maraqların güclənməsinə şərait yaradacaq.

Azərbaycan və Monteneqro arasında iqtisadi və parlamentlərarası əməkdaşlıq davamlı şəkildə irəliləyir. Qarşılıqlı səfərlər, görüşlər və ikitərəfli razılaşmalar iki ölkə arasında etimadın və dostluğun möhkəmlənməsinə xidmət edir. Ticarət, enerji, turizm, investisiya və digər sahələrdə əməkdaşlıq imkanlarının genişləndirilməsi gələcəkdə faydalı layihələrin həyata keçirilməsinə şərait yaradacaq.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Binəqədi Rayon Prokurorluğunun yeni inzibati binası istifadəyə verilib




Dekabrın 23-də Binəqədi Rayon Prokurorluğunun yeni inzibati binasının açılış mərasimi keçirilib.

Tədbirdə Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev və digər rəsmi şəxslər iştirak ediblər.

Əvvəlcə mərasim iştirakçıları binanın foyesində yerləşən Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq dünya şöhrətli siyasi xadimin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Məlumat verilib ki, istifadəyə verilən yeni inzibati bina prokurorluq əməkdaşlarının peşəkar fəaliyyətinin daha səmərəli təşkili, iş proseslərinin effektivliyinin artırılması və vətəndaşlara göstərilən hüquqi xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə müasir standartlara tam cavab verən infrastrukturla təmin olunub.

Binada əməkdaşların rahat və funksional iş şəraiti üçün bütün zəruri texniki avadanlıqlarla təchiz olunmuş xidməti otaqlar, vətəndaşların qəbulu üçün xüsusi hissə, konfrans və iclas zalları yaradılıb.

Eyni zamanda bina enerji səmərəliliyi və təhlükəsizlik baxımından da ən son tələblərə uyğun layihələndirilib.

Əlavə olaraq qeyd olunub ki, yeni binada "Elektron Prokurorluq" informasiya sistemi də tam şəkildə tətbiq olunub. Bu sistem vasitəsilə sənəd dövriyyəsi rəqəmsal müstəvidə həyata keçirilir, işin çevikliyi və şəffaflığı artırılır.

İnzibati bina ilə tanışlıqdan sonra yeni binanın akt zalında iclas keçirilib.

Açılış nitqində baş prokuror Kamran Əliyev bildirib ki, müasir və çevik prokurorluq sisteminin formalaşdırılması Azərbaycanın hüquqi dövlət quruculuğunun əsas prioritetlərindən biridir. Bu istiqamətdə atılan ardıcıl və məqsədyönlü addımlar Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə əsası qoyulan dövlətçilik strategiyasının mühüm tərkib hissəsini təşkil edib. Məhz həmin yol hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək, hüquq-mühafizə orqanlarının, o cümlədən prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi, insan resurslarının inkişafı və fəaliyyətin şəffaflığının təmin olunması sahəsində mühüm nailiyyətlər əldə olunub.

Baş prokuror yeni inzibati binanın açılışı münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə prokurorluq əməkdaşları adından dərin təşəkkürünü bildirərək vurğulayıb ki, ölkə başçısının rəhbərliyi, daim göstərdiyi diqqət və qayğı nəticəsində prokurorluq orqanlarının fəaliyyətinin müasir dövrün tələblərinə uyğun təşkili, maddi-texniki bazanın gücləndirilməsi, o cümlədən əməkdaşlar üçün yaradılan hərtərəfli iş şəraiti peşəkarlığın, iş potensialı və səmərəliliyin artırılmasına, habelə vətəndaş məmnunluğunun təmin olunmasında mühüm irəliləyişlərə səbəb olacaq.

Baş prokuror çıxışında həmçinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunmasının ölkədə müasir infrastrukturun formalaşdırılması, şəhər mühitinin keyfiyyətinin yüksəldilməsi və dövlət qurumlarının fəaliyyətində funksionallıqla estetik tələblərin vəhdətinin təmin olunması baxımından mühüm əhəmiyyət daşıdığını qeyd edib. Kamran Əliyev vurğulayıb ki, Binəqədi Rayon Prokurorluğunun yeni inzibati binası da bu strateji yanaşmanın bariz nümunəsi olmaqla, müasir memarlıq həlləri, funksional planlaşdırma və vətəndaşyönümlü xidmət prinsiplərini özündə birləşdirir. O bildirib ki, bu cür layihələr hüquq-mühafizə orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması ilə yanaşı, şəhərsalma siyasətinin tələblərinə uyğun davamlı və müasir iş mühitinin yaradılmasına xidmət edir.

Baş prokuror yeni inzibati binanın istifadəyə verilməsi münasibətilə prokurorluq əməkdaşlarını təbrik edərək, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Çıxışında onu da bildirib ki, yaradılan müasir iş şəraiti prokurorluq əməkdaşlarından daha böyük məsuliyyət, yüksək peşəkarlıq və qanunçuluğa sadiqlik tələb edir.

Kamran Əliyev prokurorluq əməkdaşlarını daim öz üzərində çalışmağa, bilik və bacarıqlarını təkmilləşdirməyə, eləcə də fəaliyyətlərini dövlətçiliyə sədaqət, dürüstlük və obyektivlik prinsipləri əsasında qurmağa çağırıb.

Bundan başqa, tədbir iştirakçıları yeni inzibati binanın yanında yerləşən parkda ağaclar əkiblər.

Tədbirin sonunda xatirə şəkli çəkdirilib.

# Ermənistan vətəndaşlarının məhkəməsi təqsirləndirilən şəxslərin son söz çıxışları ilə davam etdirilib

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası dekabrın 23-də davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Sədrlik edən Z.Ağayev bildirib ki, məhkəmə iclası təqsirləndirilən şəxslərin son söz çıxışları ilə davam etdirilir.

Məhkəmə iclasında təqsirləndirilən şəxs Levon Mnatsakanyan son söz çıxışını davam etdirib.

O, 2016-cı ilin Aprel döyüşləri, muzdlular və s. barədə ittiham tərəfinin və zərərçəkmiş şəxslərin bildirdikləri ilə bağlı özünün əks fikirlərini səsləndirib.

L.Mnatsakanyan Aprel döyüşlərinin planlaşdırılmasında ittiham edildiyini, lakin bunun belə olmadığını söyləyib. O, Aprel döyüşlərində hər şeyin qondarma rejimin "müdafiə rayonlarında" və "diviziyalarda" baş verdiyini və döyüşləri onların özləri tərəfindən idarə olunduğunu iddia edib.

Təqsirləndirilən şəxs Aprel döyüşləri zamanı mülki obyektlərin zərər çəkməsi barədə danışarkən mülki obyektlərin qəsdən vurulmadığını, hərbi obyektləri hədəf aldıqlarını iddia edib.

O, "müdafiə ordusu"nun (Ermənistan silahlı qüvvələrinin ən böyük birləşməsi - red.) silahları Ermənistan silahlı qüvvələrindən aldığını söyləyib.

Vaxtilə artilleriya briqadasının komandiri olmuş L.Mnatsakanyan artilleriya zərbələri nəticəsində meşələrə zərər vurulmasında və abidələrin dağıdılmasında ittiham olunması barədə də danışıb. Təqsirləndirilən şəxs bu ittihamı da qəbul etməyib və bildirib ki, abidəyə zərəri digər silahlar da vura bilərdi. O, həmin silahları sadalayıb: "Artilleriyadan başqa bu silahlardan da istifadə olunurdu: tanklar, piyadaların döyüş maşınları, minaatanlar, əl qumbaraları və sair".

Təqsirləndirilən şəxs Tunel və Başlıbel hadisələrində (Tunel və Başlıbel qətliamları - red.) iştirak etmədiyini, yaralanması ilə əlaqədar həmin vaxt müalicə aldığını, fizioterapiya kursu keçdiyini söyləyib və əlavə edib: "O zaman mərkəzi müdafiə rayonunun artilleriyası hələ yeni formalaşırdı".

Məhkəmə prosesi dekabrın 25-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


AZƏRBAYCAN
President İlham Əliyev 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan olunması ilə bağlı paylaşım edib
Humanizm prinsiplərinə sadiqlik
İlham Əliyev sosial dövlət modeli hamrəyliyi daha da gücləndirir

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Bakı Şəhər İcra Hakimiyyəti və "Regional İnkişaf" İctimai Birliyi arasında əməkdaşlığın 5 illiyi qeyd olunub

Bakı Şəhər İcra Hakimiyyəti ilə "Regional İnkişaf" İctimai Birliyi arasında imzalanmış əməkdaşlıq memorandumunun 5 illiyi münasibətilə dekabrın 22-də Bakı Şəhər İcra Hakimiyyətində tədbir keçirilib.



Tədbirdə Bakı Şəhər İcra Hakimiyyəti və "Regional İnkişaf" İctimai Birliyinin nümayəndələri, eləcə də əməkdaşlıq çərçivəsində həyata keçirilən fəaliyyətlərdə fəal olan könüllülər iştirak ediblər. Beş il ərzində görülən işlərin yekunlarına həsr olunmuş tədbirdə birgə fəaliyyətin nəticələri və gələcək perspektivlər müzakirə edilib.

Çıxışlarda qeyd olunub ki, Prezident İlham Əliyevin çoxşaxəli siyasəti nəticəsində ölkəmiz bütün istiqamətlər üzrə sürətlə inkişaf edir və bu inkişaf qurumlararası birgə uğurlu əməkdaşlıqda da özünü göstərir. Tədbir iştirakçıları cənab Prezidenti fürsətdən istifadə edib doğum günü münasibətilə təbrik edərək əldə olunan şanlı qələbələrə və uğurlara görə dərin minnətdarlıqlarını ifadə ediblər.

Tədbirdə həmçinin "Regional İnkişaf" İctimai Birliyinin könüllülərinin fəal iştirakının paytaxtda ictimai nəzarətin gücləndirilməsində və şəhər mühitinin daha səmərəli qorunmasında mühüm rol oynadığı vurğulanıb.

Daha sonra "Regional İnkişaf" İctimai Birliyinin 10 illik fəaliyyəti və 5 il ərzində Bakı Şəhər İcra Hakimiyyəti ilə birgə görülən işlərin yekunlarına dair videoçarx nümayiş olunub.

Tədbirin sonunda əməkdaşlıq dövründə xüsusi fəallığı ilə seçilən Bakı Şəhər İcra Hakimiyyəti və "Regional İnkişaf" İctimai Birliyinin əməkdaşlarına təşəkkürnamələr təqdim olunub.

Qeyd edək ki, Bakı Şəhər İcra Hakimiyyəti ilə "Regional İnkişaf" İctimai Birliyi arasında qurulmuş bu əməkdaşlıq modeli paytaxtın daha abad, təhlükəsiz və yaşıl şəhərə çevrilməsinə xidmət edir və gələcəkdə də birgə fəaliyyətin davam etdirilməsi nəzərdə tutulur.

Əməkdaşlıq memorandumu çərçivəsində ötən 5 il ərzində paytaxtda ictimai nəzarətin gücləndirilməsi, şəhər mühitinin qorunması, abadlıq və təmizlik sahəsində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilib. Birgə fəaliyyət nəticəsində şəhərin müxtəlif ərazilərində monitorinqlər aparılıb, mövcud problemlər müəyyən olunaraq onların aradan qaldırılması üçün aidiyyəti qurumlarla koordinasiyalı işlər görülüb.

Birgə monitorinqlər əsasən küçə və prospektlərdə, yaşayış massivlərində, eləcə də park və yaşıllıq ərazilərində həyata keçirilib. Monitorinqlər nəticəsində şəhər infrastrukturunun yaxşılaşdırılması, səkilərin və yolların bərpası, park və yaşıllıq sahələrinin qorunması ilə bağlı konkret təkliflər hazırlanıb və icrası təmin olunub.

Yaşıllıqların mühafizəsi və bərpası istiqamətində görülən işlər çərçivəsində qurumuş və zədələnmiş ağaclar müəyyən edilərək onların əvəzinə yeni ağacların əkilməsi həyata keçirilib. "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri ilə birgə keçirilən aksiyalar zamanı 100 mindən çox ağac əkilib və onlara aqrotexniki qulluq göstərilib.

***"Azərbaycan"***

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən 10 noyabr 2024-cü ildə Balamedov Muraz İlham oğlunun adına verilmiş 160810 nömrəli veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Bakı Şəhər Prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi Ceyhun Hümbətova həyat yoldaşı

**AYNUR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin kollektivi agentliyin əməkdaşı İlqar Əsgərova həyat yoldaşı

**AYTƏKİN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Hakimlər İttifaqının üzvləri Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin hakimi

**AYNUR RZAYEVANIN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Mesut Adalıya oğlu

**NEJDET ADALININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Reyhan Səfərovaya əzizi

**NOVRUZ CABBAROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının maliyyə nazirinin müavini Azər Bayramova əzizi, professor

**FİKRƏT İSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4121
Sifariş 2602

Qiyməti 60 qəpik